BMT-nin
Təhsil, Elm və
Mədəniyyət Təşkilatı

UNESCO üzrə
Azərbaycan Respublikasının
Milli Komissiyası

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# AZƏRBAYCAN –YUNESKO: İNSAN HÜQUQLARINA ƏSASLANAN TƏRƏFDAŞLIQ

- 15059 -

Azərbaycan ... likası Prezidentinin

PREZİDE... ...BXANASI

**Bakı – 2014**

**Azərbaycan – YUNESKO:**
**İnsan Hüquqlarına Əsaslanan Tərəfdaşlıq**

**Redaksiya heyətinin sədri:**

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**
**professor Elmira Süleymanova**

**Həmsədr:**
**YUNESKO üzrə Azərbaycan Respublikasının**
**Milli Komissiyasının Birinci Katibi Günay Əfəndiyeva**

**Tərtib edən:**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının**
**Hüquqi maarifləndirmə sektorunun müdiri Rəşid Rumzadə**

**Redaksiya heyətinin üzvləri: Aydın Səfixanlı, Zaur Əliyev, Səbinə Qəhrəmanova, Mahir Məmmədov, Mustafa Şabanov, Leyla Hacıyeva, Faiq Ağayev, Zaur Vəliməmmədli, Elmin Cəfərov.**

*Vəsaitdə BMT-nin ixtisaslaşmış qurumu, dünyada elm, təhsil, mədəniyyət və insan hüquqlarının inkişafı istiqamətində əməkdaşlığın ən böyük hökumətlərarası forumu olan YUNESKO-nun fəaliyyətinə və prioritet istiqamətləri üzrə Ombudsmanla əməkdaşlığına dair mövzular öz əksini tapmışdır.*

*Seçilmiş mövzular üzrə hazırlanmış vəsait geniş oxucu auditoriyası, diplomatlar, beynəlxalq hüquq sahəsində çalışan, bu istiqamətdə ixtisaslaşan şəxslər üçün nəzərdə tutulmuşdur.*

**ISBN: 978-9952-8229-9-8**

© *YUNESKO, 2014*
©*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), 2014*

*"Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz".*

**Azərbaycan Xalqının Ümummilli Lideri**
**Heydər Əliyev**

*"Azərbaycan öz xarici siyasətini xalqımızın milli maraqlarına uyğun şəkildə həyata keçirir və bu xarici siyasət uğurludur. Bizim bütün qonşularla çox səmərəli, qarşılıqlı surətdə faydalı əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda Azərbaycanın nüfuzu və rolu artır".*

**Azərbaycan Respublikası Prezidenti**
**İlham Əliyev**

*"YUNESKO dünya mədəniyyəti, təhsili və elminin inkişafına, habelə müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasındakı dialoqa böyük töhfə vermişdir. Sülh, dözümlülük, mədəni irs kimi universal dəyərlər YUNESKO-nun fəaliyyətinin əsasını təşkil edir. Yoxsulluğun azaldılması, hamı üçün təhsil və dünyadakı bütün millətlərin inkişafı həmin fəaliyyətin ayrılmaz hissəsidir".*

**Heydər Əliyev Fondunun Prezidenti,**
**YUNESKO-nun Xoşməramlı Səfiri**
**Mehriban Əliyeva**

*"Mən Azərbaycanın YUNESKO-nun idealları qarşısında və ölkə rəhbərliyinin ümumi məqsədlərimizin irəliləməsində aktiv öhdəliyindən dərindən təsirlənmişəm... Azərbaycanın YUNESKO-ya üzv olması ilə ölkə cəmiyyətinə və beynəlxalq ictimaiyyətə mütəmadi olaraq fayda verməkdədir. Bu üzvlük minillik Azərbaycan mədəniyyətinin bütün dünyada genişləndirilməsinə kömək etdi".*

**YUNESKO-nun Baş Direktoru**
**İrina Bokova**

*"Çox şadam ki, təşkilatımızın fəaliyyət göstərdiyi bütün sahələrdə - elm, mədəniyyət və təhsil sahəsində YUNESKO ilə Azərbaycan arasında əməkdaşlıq genişlənməkdədir. Bu işə verdiyi töhfəsinə görə mən YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm. Onun səfir təyin olunduğu vaxtdan etibarən YUNESKO-Azərbaycan əməkdaşlığı yüksələn xətlə artmışdır və bir çox sahələri əhatə etmişdir"*

**YUNESKO-nun sabiq Baş Direktoru**
**Koişiro Matsuura**

*"Azərbaycan çox mədəniyyətli və tolerant ölkə kimi dünya üçün nümunədir".*

**YUNESKO-nun sabiq Baş Direktoru**
**Federiko Saraqosa Mayor**



# ÖN SÖZ

Qloballaşan dünyada informasiya mübadiləsi, beynəlxalq əməkdaşlıq cəmiyyətin ən qiymətli resursuna çevrilmişdir. Bu gün insan hüquqlarının milli sədləri aşaraq beynəlxalq aləmdə özünə yer tutması, dünya birliyində sülhün, inkişafın, humanizmin, bərabərliyin bərqərar olunmasına mühüm töhfə verir.

Azərbaycan xalqının əvəzsiz tarixi nailiyyəti 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyinin yenidən qazanılması oldu. Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi, xalqın firavanlığı və ölkənin davamlı inkişafına xidmət edən siyasi kursun həyata keçirilməsi ictimai-siyasi sabitlik, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində real addımların atılması ilə nəticələndi. Bununla, həm də Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakının yeni mərhələsi başlandı və ölkəmiz bu sistemdə özünəməxsus mövqe nümayiş etdirən müstəqil tərəfə çevrildi.

Eləcə də ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin YUNESKO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu

müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Fərəhli haldır ki, Ulu öndərin insan hüquq və azadlıqlarının qorunması, beynəlxalq əməkdaşlıq sahəsində müəyyən etdiyi müdrik və uzaqgörən siyasi xətt bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu baxımdan, dünya birliyinin tam hüquqlu üzvünə çevrilmiş ölkəmizin dünyanın hüquqi - siyasi atmosferinin müəyyənləşdirilməsində aparıcı rol oynayan bir sıra beynəlxalq təşkilatlara üzvlük məsələsinə xüsusi diqqət yetirilmiş, bu məqsədlə, beynəlxalq təşkilatlarla strateji əməkdaşlıq əlaqələri qurulmuşdur. İslam Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlər Təşkilatı və onun ixtisaslaşmış qurumları, o cümlədən digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq həmin dövrdə zəruri məsələ kimi gündəmə gəlmiş, respublikamız öz maraqlarını qorumaq, ölkə həqiqətlərini dünyaya çatdırmaq, demokratikləşmə prosesini sürətləndirmək məqsədilə bu təşkilatlara üzvlüyü qarşıda duran məqsədlərdən olmuşdur.

Azərbaycan Respublikası bütün dünyada təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq üzrə ən nüfuzlu universal dövlətlərarası qurum olan BMT-nin Elm, Təhsil və Mədəniyyət məsələləri üzrə Təşkilatının (YUNESKO) üzvüdür və ölkəmizi bu nüfuzlu təşkilatla səmərəli əməkdaşlıq əlaqələri birləşdirir.

YUNESKO öz səlahiyyətləri çərçivəsində ideya və nailiyyətlərin mübadilə mərkəzi, güzəşt zəminində dialoqun və baxışların yaxınlaşması, dövlətlər arasında qarşılıqlı-faydalı əməkdaşlıq meydanı, bəşəriyyət üçün yeni qlobal problemlərin həllinin novatorluq mənbəyi funksiyasını yerinə yetirir.

Respublikamızla YUNESKO arasındakı münasibətlərin inkişafında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın da xidmətləri əvəzsizdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı ilə YUNESKO, o cümlədən YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və bu qurumun Moskva Bürosu arasında insan hüquqları sahəsində davamlı və inkişaf edən səmərəli əməkdaşlıq əlaqələri qurulmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə Bakıda keçirilmiş Ombudsmanların on iki beynəlxalq konfransının doqquzuna YUNESKO dəstək vermişdir. Müxtəlif mövzularda, ən başlıcası isə prioritet istiqamətlər üzrə təşkil olunmuş həmin konfranslara verilmiş dəstək insan hüquqları baxımından böyük önəm kəsb etmişdir.

Ümidvaram ki, oxucuların diqqətinə təqdim olunan, YUNESKO-nun fəaliyyət istiqamətləri, bu beynəlxalq təşkilatın Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə əməkdaşlıqda əsas insan hüquqlarına dair formalaşdırdığı təcrübəni əks etdirən seçilmiş mövzular üzrə hazırlanmış vəsait geniş oxucu auditoriyası, o cümlədən diplomatlar, beynəlxalq hüquq sahəsində ixtisaslaşan və təhsil alan mütəxəssislər, vətəndaş cəmiyyəti üzvləri, müəllim və tələbələr, könüllülər üçün faydalı olacaqdır.

**professor Elmira Süleymanova**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

## AZƏRBAYCAN - YUNESKO MÖHKƏM TƏRƏFDAŞLIQ

Azərbaycan Respublikası regionun iqtisadi, siyasi, hərbi gücünə görə lider dövləti kimi beynəlxalq təşkilatların aktiv iştirakçısı olmaqla beynəlxalq aləmdə özünəməxsus yer tutur. YUNESKO ilə əməkdaşlıq Azərbaycan Respublikasının müasir xarici siyasətində əsas istiqamətlərdən birini təşkil edir. Ölkəmiz 20 ildən artıqdır ki, YUNESKO-nun üzvü kimi təşkilatla onun bütün prioritet sahələri üzrə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq hər keçən gün daha da dərinləşir, inkişaf edir və beynəlxalq aləmdə çoxtərəfli əməkdaşlıqlara imkan yaradır. Bu səmərəli əməkdaşlığın arxasında Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilən böyük inkişaf konsepsiyası dayanmaqdadır.

Biz eyni zamanda, bu il YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasının 20 illik yubileyini qeyd edirik. 20 il ərzində əldə olunan nailiyyətlər, ölkəmiz üçün açılan yeni imkanlar, qazanılan dostluq əlaqələri Azərbaycan Respublikasının bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü inkişaf strategiyasından xəbər verir. Bu zaman zərfində Azərbaycan YUNESKO-nun Komitələrinə üzv olmuş, beynəlxalq konvensiyalarına qoşulmuş, təşkilat tərəfindən qəbul edilən proqram və layihələrdə iştirak edərək üzv ölkələrin YUNESKO üzrə milli komissiyaları ilə təşkilatın prioritet istiqamətləri üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlığını genişləndirmişdir.

20 il ərzində Azərbaycanın YUNESKO-da qazandığı uğurlar sırasında 2 maddi mədəni irs nümunəsinin YUNESKO-nun Ümumdünya Mədəni İrs Siyahısına, 5 qeyri-maddi mədəni irs nümunəsinin Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, 1 qeyri-maddi mədəni irs nümunəsinin – Çovqan oyunun Təcili qorunmaya ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına salınmasını, ölkəmizdə çoxsaylı YUNESKO Komitələrinin fəaliyyət



göstərməsini, Dünya Yaddaşı Proqramı, İştirak Proqramı, Yubileylər Proqramı kimi müxtəlif proqramlarda iştirakını və digər nailiyyətləri göstərmək olar. Şübhəsiz ki, bu fəaliyyət gələcək illərdə daha da genişlənəcək, Ermənistan tərəfindən işğal altında saxlanılan Qarabağ və ətraf rayonlarımızın azad edilməsilə Qarabağ atları ilə oynanılan Çovqan oyunumuz, həmçinin çoxsaylı mədəni irs nümunələrimiz YUNESKO-nun Ümumdünya Mədəni İrs və Qeyri-maddi Mədəni İrs Siyahılarında əsl yerlərini tutacaqlar.

Qeyd etmək lazımdır ki, YUNESKO-Azərbaycan münasibətlərinin inkişafında Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban Əliyevanın xidmətləri böyükdür. Onun Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələrinin mühafizəsində, mədəniyyət, elm, təhsil və digər sahələrdə fəaliyyəti, təşkilatdakı şəxsi nüfuzu, YUNESKO-nun humanist ideyalarına bağlılığı bu əməkdaşlığın əsasını təşkil edir.

Azərbaycan - YUNESKO əməkdaşlığına sadəcə beynəlxalq əməkdaşlıq kimi baxmaq düzgün olmazdı. Çünki YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ölkə daxilində müxtəlif dövlət qurum və institutları, AMEA, təhsil və mədəniyyət ocaqları, QHT-lər və digər qurumlarla da sıx əməkdaşlıq edir. Bu qurumlar arasında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. Belə ki, bu əməkdaşlıq o qədər geniş və hərtərəfli olmuşdur ki, əlinizdə tutduğunuz bu kitab bunun həm gözəl bəhrəsi, həm də əyani sübutudur. Bu iki qurumu insan hüquqları sahəsində səmərəli əməkdaşlıq və vahid məqsədə nail olma istəyi birləşdirir.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə birlikdə təşkil etdiyi çoxsaylı beynəlxalq konfranslar bu əməkdaşlığın əsas istiqamətlərindən birini təşkil edir. Müxtəlif mövzuların müzakirəsinə həsr edilmiş konfransların insan hüquqları sahəsində təcrübələrin bölüşüldüyü ənənəvi bir platformaya çevrildiyini əminliklə söyləyə bilərik.

Beləliklə, illər ərzində bu əməkdaşlığın nəticəsi kimi toplanan

materialların geniş oxucu auditoriyasına təqdim edilməsi zərurəti yaranmış oldu. Düşünürük ki, bu kitabı vərəqləyən hörmətli oxucularımız burada bir çox lazımlı məlumat tapmaqla yanaşı, Azərbaycan-YUNESKO əlaqələrini əks etdirən materiallar, Ermənistan tərəfindən Dağlıq Qarabağ və ətraf rayonlarımızın işğalı nəticəsində dünya mədəniyyətinə və insan hüquqlarına vurulan zərbənin nəticələri, həmçinin insan hüquqları sahəsində geniş əməkdaşlığın bütün mərhələlərinin göstərildiyi səhifələrlə tanış olacaqlar.

Bu formatda ilk dəfə işıq üzü görən belə bir kitab, inanırıq ki, həm Azərbaycan - YUNESKO, həm də YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) arasındakı əməkdaşlığı öyrənən, tədqiq edən insanlar, beynəlxalq münasibətlər və beynəlxalq hüquq sahəsində çalışanlar və nəhayət, tariximiz üçün yaxşı bir mənbə olacaqdır.

Bu kitabın hər kəsə faydalı və maraqlı olması diləyilə...

**Günay Əfəndiyeva**
*YUNESKO üzrə Azərbaycan Respublikasının*
*Milli Komissiyasının Birinci Katibi*



# I FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ BMT ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIQ İSTİQAMƏTLƏRİ

## § 1. AZƏRBAYCAN - BMT ƏLAQƏLƏRİ

XIX əsrdən başlayaraq cəmiyyət həyatının bir çox tərəflərinin beynəlmiləlçiliyə cəhd göstərməsinə can atması beynəlxalq əməkdaşlığın yeni formasının yaradılmasının zəruriliyini qarşıya qoydu.

Elmi-texniki tərəqqi ona gətirib çıxarmışdı ki, inteqrasiya sistemi bütün ölkələrin iqtisadiyyatına daxil olur və xalqlar bir-birilə hərtərəfli əlaqəyə çağırış edirdilər. Müstəqil dövlət şəklində inkişaf etmək həvəsi və bunun digər müstəqil dövlətlərlə əməkdaşlıq etmədən mümkün olmaması beynəlxalq qarşılıqlı əlaqələr zərurətini yaratdı ki, bu da ilk beynəlxalq hökumətlərarası təşkilatların meydana gəlməsi ilə müşayiət olundu.

İkinci dünya müharibəsi başa çatandan sonra isə qələbə şüaları altında 1945-ci ildə ABŞ-ın San-Fransisko şəhərində dünyada böyük bir beynəlxalq təşkilat – Birləşmiş Millətlər Təşkilatı (BMT) yarandı.

BMT-nin yaranmasında başlıca mərhələ isə gələcək təşkilatın əsas prinsipləri və fəaliyyət mexanizmi haqqında razılıq əldə edilən Dumbarton-Oks (1944-cü il) Konfransı oldu. 1945-ci ilin fevralında isə Yaltada (Krımda) Sovet İttifaqının, Britaniyanın və Amerikanın dövlət başçıları tərəfindən Dumbarton-Oksda keçirilən Konfransın təklifləri, sənədlər paketi müzakirə edilərək bir sıra bəndlər əlavə edildi və 1945-ci ilin aprelində ABŞ-da Millətlər Təşkilatının Konfransını çağırmaq haqqında qərar qəbul edildi.

1945-ci ilin 25 aprelindən müzakirə edilən və 26 iyunda San-Fransiskoda keçirilən, 56 ölkənin nümayəndələrinin toplaşdığı konfransda 19 fəsil və 3 bölmədən ibarət Nizamnamə imzalanaraq qəbul olundu və BMT günü kimi tarixə düşmuş 24 oktyabrda qüvvəyə mindi[1].

BMT-nin Nizamnaməsi ancaq beynəlxalq təşkilatların həyat fəaliyyətini tənzimləmək, eyni zamanda bütün dövlətlər üçün bərabər kollektiv təhlükəsizliyi formalaşdıran bünövrə olmaqla bütün dövlətlər üçün məcburi hesab edilən əsas sənəddir. Nizamnamə dövlətin hərbi, siyasi, iqtisadi, ekoloji, humanitar və digər sənədlərdə müxtəlif əxlaqi kodekslərini təqdim edir.

*BMT-nin əsas məqsədləri:*

1. Münaqişələrin sülh yolu ilə tənzimlənməsi və kollektiv tədbirlər qəbul etməklə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması;

2. Xalqların öz müqəddəratını təyinetmə və bərabərlik prinsipinə hörmət etmək əsasında ölkələr arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi;

3. Beynəlxalq humanitar, mədəni, sosial, iqtisadi xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək, bütün insanlara heç bir fərq qoymadan azadlıq, insan hüquqlarına hörmət və onun genişləndirilməsi;

*4. Müxtəlif ölkələrin razılaşması üzrə; bu məqsədlərə çatmağa yönəldilmiş mərkəzi orqanın funksiyalarının yerinə yetirilməsi.*

*BMT-nin prinsipləri isə aşağıdakılardır:*

1. Bütün üzvlərin bərabərliyi;

2. Nizamnamə üzrə qəbul edilən öhdəliyi vicdanla yerinə yetirmək;

3. Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi;

4. Beynəlxalq münasibətlərdə bir ölkənin digər ölkəyə güc tətbiq etməsindən imtina etmək;

5. Bu prinsipləri qəbul etməklə bütün hərəkətlərdə Təşkilatın bütün üzvlərinə köməklik göstərmək;

---

1. Birləşmiş Millətlər Təşkilatının rəsmi veb səhifəsi. *http: www.un.org en aboutun*



6. Beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək;

7. Dövlətlərin daxili işlərinə qarışmamaq;

8. İnsanların əsas hüquq və azadlıqlarına hörmət etmək;

9. Xalqların öz müqəddəratını təyinetməsi;

10. Əməkdaşlıq və tərksilah.

BMT Nizamnaməsinin müqəddiməsində qətiyyətlə beynəlxalq hüquq normalarından və müqavilələrdən irəli gələn, gələcək nəsli insan şəxsiyyətinə, ləyaqətinə toxunan, insan hüquqlarını bir daha qoruyub saxlamaq, kişi və qadınların, böyük və kiçik xalqların hüquq bərabərliyini təmin etmək, götürülən öhdəçiliyə hörmət etmək, ədalətliliyi gözləmək, sosial tərəqqiyə yardımçı olmaq və bu məqsədlə dözümlü olmaq, rəhmli qonşular kimi bir-biri ilə sülh şəraitində yaşamaq, beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün bütün qüvvələri birləşdirmək, qəbul edilmiş prinsipləri və metodları təmin etmək, hərbi gücü ümumi maraq baxımından tətbiq etmək və dövlətlərin iqtisadi və sosial tərəqqisinə dəstək verməyi bəyan edilir.

Bəşər sivilizasiyasının yeni bir inkişaf dövründə, XX əsrin sonlarında müstəqil dövlətçilik yoluna yenidən qədəm qoymuş Azərbaycan xalqı da azad, demokratik, hüquqi cəmiyyət quruculuğu yolu ilə irəliləyərək bütün dövlətlər və xalqlar ilə sülh, dostluq və əməkdaşlıq şəraitində yaşamaq, dünya birliyi ilə sıx inteqrasiya xətti tutduğunu bəyan etdi və hazırda da bu yola sadiqdir.

Bu əməkdaşlığın əsasını qoymuş, BMT tribunasından iri dövlət başçıları arasında dəfələrlə çıxış etmiş Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin sözləri ilə desək: *"Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz".*

Bu baxımdan, ölkəmizin BMT ilə əməkdaşlığı öz müstəqilliyinə təkrar qovuşması ilə bərqərar oldu. Belə ki, 18 oktyabr 1991-ci ildə Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasından on bir gün sonra, oktyabrın 29-da BMT-nin Baş Məclisinə və dünya dövlətlərinə müraciət edərək, təşkilata üzvlük istəyini ifadə

etdi. Beləliklə, BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respulikasının BMT-yə üzv qəbul olunması barədə qətnamə qəbul edildi.

Həmin dövrdə müharibə dəhşətlərini yaşayan xalqımızın haqq səsinin dünyaya çatdırılması və obyektiv ictimai rəyin formalaşdırılması, eləcə də dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə 1992-ci il martın 6-da Nyu-Yorkda BMT yanında Azərbaycanın Daimi Nümayəndəliyi, həmin ilin noyabr ayında isə BMT-nin Azərbaycanda Daimi Nümayəndəliyi fəaliyyətə başladı.

Azərbaycanın BMT-yə üzv qəbul olunması müstəqillik qazanmış ölkəmizin tarixində mühüm hadisələrdən birinə çevrildi. Dünyanın ən nüfuzlu təşkilatı olan BMT çərçivəsində çoxtərəfli əməkdaşlıq Azərbaycana nisbətən qısa müddətdə beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirməyə, istər üzv dövlətlər, istərsə də təşkilatın özü ilə sıx əlaqələr yaratmağa imkan verdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında real vəziyyət və nizamasalma prosesində Azərbaycan Respublikasının sülhsevər mövqeyi, daxili və xarici siyasəti barədə dünya birliyinə geniş və hərtərəfli məlumat verilməsini özünün başlıca vəzifəsi hesab edən Azərbaycan hökuməti ölkəmizin BMT-yə üzvlüyünün ilk günlərindən onun əsas strukturlarında bu istiqamətdə fəal iş aparmağa başladı.

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü BMT Təhlükəsizlik Şurasının diqqət mərkəzinə gətirilməklə, 4 qətnamədə *(1993-cü il 30 aprel tarixli 822 nömrəli, 29 iyul tarixli 853 nömrəli, 14 oktyabr tarixli 874 nömrəli, 11 noyabr tarixli 884 nömrəli)*, Təhlükəsizlik Şurası Sədrinin 7 bəyanatında Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü, Dağlıq Qarabağ regionunun Azərbaycana mənsubluğu təsdiq edilmiş, ərazilərin ələ keçirilməsi üçün güc tətbiqinin yolverilməzliyi qeyd edilmiş, Azərbaycanın işğal edilmiş bütün rayonlarından işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi qoyulmuş, qaçqınların və məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtması üçün şərait yaradılmasının zəruriliyi göstərildi.



Lakin münaqişənin davam etməsi Azərbaycanda humanitar vəziyyətin gərginləşməsinə, bir milyondan artıq insanın evlərindən didərgin düşməsinə səbəb oldu ki, BMT Baş Assambleyası da belə bir vəziyyətdən narahatlıq keçirərək 1993-cü ildə keçirilən 85-ci plenar iclasında "Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" Qətnamə qəbul etdi.

1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra BMT ilə əməkdaşlıq əlaqələri daha da genişləndi. Belə ki, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda və çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi. Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə ulu öndər 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək, bu universal beynəlxalq təşkilatın tribunasından Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı.

Azərbaycanın BMT ilə əməkdaşlığının dərinləşməsində BMT-nin Baş Katibi B.Butros Qalinin 1994-cü ilin oktyabrında Bakıya səfərinin mühüm rolu oldu. Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatı, Ermənistanın təcavüzünün ağır nəticələri ilə yaxından tanış olan B.Butros Qali mövcud problemlərin həllində Azərbaycana dəstək vermək üçün BMT-nin müxtəlif təsisatlarının öz səylərini artıracağını bəyan etdi.

BMT ilə əlaqələrinin intensiv inkişafına xüsusi əhəmiyyət verən Azərbaycan bu təşkilatın müxtəlif beynəlxalq toplantılarında müntəzəm olaraq iştirak edir, irəli sürdüyü ideya və təkliflərə fəal münasibət bildirirdi. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırış etmişdir.

2000-ci ilin sentyabr ayında BMT-nin Minilliyin sammitində çıxış edən Prezident Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında bu beynəlxalq təşkilatın mühüm rol oynadığını qeyd etmiş, regional münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bildirmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır.

Ümumiyyətlə, Azərbaycan BMT-yə üzv olduğu gündən bu təşkilatla sıx əməkdaşlıq etmiş, dünya dövlətləri ilə qarşılıqlı münasibətlərə, bu təşkilatın daha səmərəli fəaliyyətinə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına öz töhfəsini vermişdir.

Azərbaycan BMT-nin bir çox qurumları ilə sıx və fəal əməkdaşlıq edir. Onların sırasında Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin İnkişaf Proqramı (UNDP), BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı (UNOHCHR), BMT-nin Qaçqınların hüquqları üzrə Ali Komissarlığı (UNHCR), BMT-nin Uşaq Fondu (UNICEF), Ümumdünya Səhiyyə Təşkilatı (WHO), BMT-nin Əhali Fondu (UNFPA), Sənaye İnkişaf Təşkilatı (UNIDO), BMT-nin Qadınlar Fondu (UN-WOMAN), BMT-nin Ərzaq Proqramı (WFO), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Əmək Təşkilatı (ILO) və digərlərini, o cümlədən BMT-nin müqavilə mexanizmləri ilə əməkdaşlığı göstərmək olar[2].

Azərbaycanla BMT-nin Uşaq Fondu (YUNİSEF) arasında olan əməkdaşlıq məcburi köçkün, qaçqın uşaq və yeniyetmələr arasında vəziyyətin yaxşılaşdırılması məqsədilə bərqərar olmuşdur. Azərbaycan YUNİSEF-in İcra Heyətinin 1995-1997, 1998-2000-ci illər ərzində üzvü olmuşdur.

Azərbaycan BMT-nin xüsusi qurum və orqanları ilə fəal əməkdaşlıq edir. Qadınların statusu haqqında Komissiyanın (2000-2002) və onun «Hərbi münaqişələr nəticəsində girov götürülmüş qa-

2. Birləşmiş Millətlər Təşkilatının rəsmi veb səhifəsi: www.un.org/en/aboutun/structure/



15059

dın və uşaqların azad edilməsi haqqında» qəbul etdiyi qətnaməsinin dəstəkçisi olmuşdur.

Erməni aqressiyası nəticəsində Azərbaycanda 1 milyon qaçqın və məcburi köçkünlər öz torpaqlarından didərgin düşmüşlər. 1993-cü ildən bəri Azərbaycan dövləti BMT-nin Qaçqınların işi üzrə Ali Komissarı (UNHCR) ilə birgə qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üzrə fəaliyyəti davam etdirir.

2000-2002-ci illər ərzində və BMT-nin Davamlı İnkişaf üzrə Komissiyasının 2002-2004-cü, 2003-2005-ci illər üçün isə BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvü seçilmişdir.

2003-cü ilin sentyabrında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev öz çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə, BMT TŞ-nin şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini vurğulamış və bununla bağlı təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirmişdir. Azərbaycanın hökumət başçısının fikrincə, BMT Təhlükəsizlik Şurasında «həm bugünkü, həm də yarıməsirlik reallıqlar öz əksini tapmalıdır».

Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də, Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etmişdir. Belə ki, Azərbaycan beynəlxalq aləmdə BMT-nin rolunun artırılması və mövcud problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında yenidən gündəliyə gətirdi.[3] Sessiyada çıxış edən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını

3. Ilham Əliyev, *Azərbaycanın strategıyası*, Dirçəliş-XXI əsr, 2004, № 82-83 s. 3-7



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ümdə məsələ kimi irəli sürmüşdür. Eyni zamanda, Azərbaycanın dövlət başçısı bildirmişdir ki, «Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verilməlidir».

Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclaslarında «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» adlı qətnamələr qəbul edilmişdir.

Həmin sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, həmin ərazilərdə yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Bununla yanaşı, qətnamələrdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyünə hörmət ifadə olunmuş, eləcə də öz torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ bir daha təsdiqlənmişdir.

Beləliklə, Azərbaycan Respublikasının BMT üzv qəbul olunması ilə yaranan qarşılıqlı əlaqələr daha da genişlənərək, çoxşaxəli əməkdaşlığa çevrilmiş və Azərbaycanın müstəqil dövlət kimi inkişafında, beynəlxalq aləmdə müvafiq yer tutmasında mühüm rol oynamışdır. Eyni zamanda. Azərbaycan da bu nüfuzlu beynəlxalq təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə, beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini vermişdir.

Azərbaycan üç illik müddətə İnsan Hüquqları Şurasına qəbul olunmaqla öz üzərinə bir sıra öhdəliklər götürmüşdür ki, bu öhdəliklərdən biri də Universal Dövri İcmal (UDİ) mexanizmi ilə bağlıdır. Buna uyğun olaraq dövlətlər dövri olaraq İnsan Hüquqları Şurasına hesabat təqdim etməlidirlər. Dövlətlərin hesabatları ilə yanaşı Milli İnsan Hüquqları Təsisatları da paralel hesabatlar təqdim edə bilərlər ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı da belə paralel hesabatlar təqdim etməklə müsbət təcrübə formalaşdırmışdır. Belə ki, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində təsisatın gördüyü işlər barədə 2008 və 2012-ci illər üçün Paralel Hesabatlar hazırlanaraq BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına göndərilmişdir. Eyni zamanda Müvəkkil fəaliyyəti dövründə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, regional və ölkə üzrə nümayəndəliyi ilə əməkdaşlıqda çoxsaylı tədbirlər və görüşlər keçirmişdir.



BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun 4-cü sessiyasında Azərbaycan Respublikasında insan hüquq və əsas azadlıqlarının vəziyyəti üzrə keçirilmiş baxış zamanı irəli sürülmüş tövsiyələrdə göstərilən məsələlər Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramında öz əksini tapmışdır.

Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanmışdır. Ölkənin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən başlamış və 2013-cü ilin sonunda başa çatmışdır.

BMT-nin Baş Məclisi tərəfindən bəyan edilmiş «İnsan hüquqları sahəsində maarifləndirmə» və «İnsan hüquqları sahəsində təhsil», BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İnsan hüquqlarının tədrisi üzrə Dünya Proqramına, YUNESKO-nun «Davamlı İnkişaf naminə təhsil» onilliklərinə uyğun insan hüquqları üzrə tədris vəsaitlərinin hazırlanması, ixtisas və ali təhsil müəssisələrində insan hüquqlarının tədrisinin genişləndirilməsi, ümumtəhsil məktəblərində uşaq hüquqlarının pilləli tədrisinin inkişaf etdirilməsi, məktəblilər və tələbələr üçün insan hüquqlarına dair olimpiadalar, müsabiqələr, sərgilər və digər tədbirlərin keçirilməsi istiqamətdə də geniş

əməkdaşlıq əlaqələri qurulmuşdur.

Azərbaycan beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf və demokratikləşdirmə prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Azərbaycan BMT-nin XXI əsrdə olacaq təhdid və problemlərə qarşı mübarizə apara bilməsi üçün BMT çərçivəsində islahatların aparılması ideyasını dəstəkləyir. Bu fikir ölkə prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 65-ci sessiyasındakı çıxışında öz təsdiqini tapmışdır:[4] *"Azərbaycan hesab edir ki, Birləşmiş Millətlər Təşkilatı dünyanın hər bir yerində bir çox qlobal məsələlərdə, eləcə də hər bir üzv dövlətin istəklərinin nəzərə alınması və narahatlıqların aradan qaldırılmasında daha güclü və bacarıqlı olmalıdır. Müharibə və işğalın ağır nəticələrindən əziyyət çəkən bir ölkə kimi Azərbaycan qəti şəkildə inanır ki, dövlətlər arasında yaxşı qonşuluq, dostluq münasibətləri və əməkdaşlığa aid beynəlxalq səviyyədə qəbul olunmuş beynəlxalq hüququn norma və prinsiplərinə düzgün qaydada riayət edilməsi, eləcə də dövlətlərin üzərilərinə götürdükləri öhdəliklərin xoş iradə ilə yerinə yetirilməsi beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında çox böyük əhəmiyyətə malikdir".*

## §2. BMT-nin İXTİSASLAŞMIŞ QURUMU: YUNESKO

BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyada təhsil, elm, mədəniyyət, informasiya və kommunikasiya sahəsindəki əməkdaşlıq üzrə ən böyük hökumətlərarası forumdur. Təşkilatın Nizamnaməsi 16 noyabr 1945-ci ildə Londonda imzalanmış, 4 noyabr 1946-cı ildə 20 üzv dövlətlə YUNESKO öz rəsmi fəaliyyətinə başlamışdır.

YUNESKO-nun Nizamnaməsinin 1-ci maddəsində deyilir: *"Təşkilat irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində elan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoyur"*

4. **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 65-ci sessiyasında çıxışından.** Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı: *www. president.az/articles/762?locale=az*



Hal-hazırda 195 dövlət YUNESKO-nun üzvüdür. Eyni zamanda, təşkilatın 9 assosiativ üzvü vardır. O, BMT və onun ixtisaslaşmış qurumları ilə sıx əlaqədədir. Həmçinin aparıcı dövlətlərarası təşkilatlarla, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), İSESKO və digər təşkilatlarla əlaqələrə malikdir. YUNESKO 600-dən çox beynəlxalq və qeyri-hökumət təşkilatları ilə fəal əməkdaşlıq edir.

*YUNESKO-nun iş strukturu:* YUNESKO üç əsas işçi orqandan ibarətdir: Baş Konfrans, İcraiyyə Şurası və Katiblik.

*Baş Konfrans* YUNESKO-nun ali orqanıdır. Konfransın iclasları iki ildən bir keçirilir və iclaslarda müxbir və həqiqi üzvlər, habelə üzv olmayan dövlətlərdən, hökumətlərarası və qeyri-hökumət təşkilatlarından, fondlardan müşahidəçilər iştirak edir. Əhalisinin sayından və ya büdcəyə verdiyi vəsaitin həcmindən asılı olmayaraq, hər üzv dövlət bir səsə malikdir. Baş Konfrans təşkilatın fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir.

YUNESKO-nun növbəti iki il üçün proqramlarının və büdcəsinin müəyyən olunması da Baş Konfransın səlahiyyətidir. O, həmçinin hər 4 ildən bir İcraiyyə Şurasının üzvlərini seçir və Baş Direktoru təyin edir. Baş Konfransda ərəb, çin, ingilis, fransız, rus və ispan dilləri istifadə olunur.

*İcraiyyə Şurası* müəyyən mənada YUNESKO-ya tam rəhbərliyi təmin edən orqandır. O, Baş Konfransın işini təşkil edir və onun qərarlarının düzgün icra olunmasına nəzarət edir. Şuranın funksiya və vəzifələri əsasən Nizamnamə, eləcə də, Baş Konfransın qayda və direktivləri ilə müəyyən olunur. Baş Konfrans hər 2 ildən bir Şuraya konkret işlər tapşırır. Digər funksiyalar isə YUNESKO ilə BMT, ixtisaslaşmış qurumlar və hökumətlərarası təşkilatlar arasında imza-

lanmış razılaşmalardan irəli gəlir.

Şuranın üzvləri Baş Konfrans tərəfindən, əsasən, təmsil etdikləri mədəniyyətlərin müxtəlifliyi və mənsub olduqları coğrafi məkan əsasında seçilir. İcraiyyə Şuranın iclasları ildə iki dəfə keçirilir.

*Katiblik* mənzil-qərargahı Parisdə yerləşən və daimi fəaliyyət göstərən orqandır. Katiblik Baş Konfrans tərəfindən dörd il (əvvəllər hər altı il) üçün seçilir və Baş Direktorun rəhbərliyi altında YUNESKO-nun təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrinə cavabdehdir.[5]

Yuxarıda qeyd olunduğu kimi, Baş direktorların seçilməsi (hər dörd ildən bir) YUNESKO-nun Baş Konfransının səlahiyyətinə aiddir. Fəaliyyətinin ilk illərindən YUNESKO-ya rəhbərlik etmiş Baş direktorlar aşağıdakılardır:

- Julian Huxley (1946 - 1948, Böyük Britaniya);
- Jaima Torres Bodes (1948 - 1952, Meksika);
- John Taylor (1952 - 1953, Amerika Birləşmiş Ştatları);
- Luther Evans (1953 - 1958, Amerika Birləşmiş Ştatları);
- Vittorino Veronese (1958 - 1961, İtaliya);
- René Maheu (1962 - 1974, Fransa)[6];
- Amadou Mahtar M'Bow (1974 - 1987, Senegal);
- Federico Mayor (1987 - 1999, İspaniya);
- Koichiro Matsuura (1999 – 2009, Yaponiya);

YUNESKO-nun Baş Direktoru vəzifəsini 2009-cu ilin 15 noyabr tarixindən İrina Bokova (Bolqarıstan) icra edir (növbəti dəfə 2013-cü ilin noyabr ayında yenidən bu vəzifəyə seçilmişdir).

Bundan əlavə, YUNESKO Parisdəki qərargahından başqa özünün dünyanın müxtəlif ölkələrindəki regional büroları, institutları və mərkəzləri ilə geniş şəbəkəyə malikdir. Azərbaycan Respublikası YUNESKO-nun Moskva Bürosu ilə əhatə olunur.[7]

5. YUNESKO-nun rəsmı veb səhifəsi: www.unesco.org/new/en/unesco/about-us/who-we-are/secretariat/
6. René Maheu 1959, 1961 - 1962-ci illərdə Baş direktor vəzifəsini müvəqqəti əvəz etmişdir.
7. YUNESKO-nun rəsmi veb səhifəsi: www unesco.org/new/en/unesco/about-us/who-we-are/director-general/



*YUNESKO-nun missiyasının* əsasını etik başlanğıc təşkil edir. Belə ki, bu ixtisaslaşmış qurum öz missiyasını həyata keçirərkən ədaləti, hüququn aliliyi prinsipini və insan hüquqlarına hörməti təmin etmək naminə xalqların səmərəli əməkdaşlığının inkişafını əsas götürərək, sülh ideyasının, ümumbəşəri dəyərlərin möhkəmləndirilməsinə əhəmiyyət verir. Onun çağdaş fəaliyyətinin bir-birindən asılı olan prinsipial istiqamətləri məhz belə etik missiya ilə aşılanmışdır: sülh, beynəlxalq qarşılıqlı anlaşma, insan hüquqlarına və əsas azadlıqlara hörmət; insan və cəmiyyətin qarşılıqlı münasibətləri nəzərə alınmaqla, həmrəy ümumdünya inkişafı və milli inkişaf; insanın təbiətlə yeni əxlaqi münasibətləri zəminində ətraf mühitin qorunması. Belə qlobal kurs YUNESKO üçün müəyyən edilmiş təhsili, təbiət elmlərini, dəqiq elmləri və texnikanı, sosial və humanitar elmləri, mədəniyyət və incəsənəti, informasiya və kommunikasiyanı, müəlliflik hüququnu və onunla əlaqəli hüquqları, kitabxana, muzey və nəşriyyat işini, bu məsələlərə dair statistikanı əhatə edən konkret səlahiyyət sahələrində praktik işlə həyata keçirilir. Normativ fəaliyyət bu sahələrdə işin mühüm formalarından biridir.

YUNESKO öz səlahiyyətləri çərçivəsində ideya və nailiyyətlərin mübadilə mərkəzi, güzəşt zəminində dialoqun və baxışların yaxınlaşması, dövlətlər arasında qarşılıqlı-faydalı əməkdaşlıq meydanı, bəşəriyyət üçün yeni qlobal problemlərin həllinin novatorluq mənbəyi vəzifəsini yerinə yetirir. O, bütün bunlarla milli, regional miqyasda və dünya miqyasında intellektual ehtiyatların daha tam səfərbər olunmasına imkan yaradır.

*YUNESKO-nun səlahiyyət və vəzifələri:* YUNESKO-nun əhatə etdiyi istiqamətlərə baxdığımız zaman bu nüfuzlu qurumun təhsil, elm, mədəniyyət, kommunikasiya, eləcə də müasir dövrdə gedən qloballaşma proseslərinin tələblərinə uyğun olaraq, gender bərabərliyi, gənclər, ətraf mühit, HİV/AİDS və digər sahələrdəki fəaliyyətinin son dərəcə geniş və çeşidli olduğunu görə bilərik.

BMT sistemində onun üçün müəyyən edilmiş hökumətlərarası ixtisaslaşdırılmış idarələr çərçivəsində beynəlxalq əməkdaşlığın

həyata keçirildiyi fəaliyyət sahələrinə nəzər salınsa, bunun təsadüfi olmadığı aydınlaşar. Burada savadsızlığın ləğv edilməsindən başlayaraq, ali məktəblərdə hər bir ölkəyə çox gərəkli olan yüksək ixtisaslı milli kadrların hazırlanmasına qədər bütün təhsil formalarının YUNESKO-nun səlahiyyəti dairəsində olduğunu görmək mümkündür. Kainatın dərk edilməsinin sərhədlərini genişləndirən və elmi-texniki tərəqqini və insanların həyatının əsası olan iqtisadiyyatı irəli aparan təbiət elmlərinin, fundamental tədqiqat və proqramların geniş spektrinə daxil olan sahələri, həmçinin, ictimai və humanitar elmlərin, xalqların humanist sosial-siyasi inkişaf ideyalarının, şəxsiyyətin formalaşmasının və insan hüquqlarının müdafiəsinin müxtəlif istiqamətləri də buradadır.

İnsanların mənəvi həyat xəzinəsi olan mədəniyyətlərin, ümumbəşəri sivilizasiya dəyərlərinin dirçəlişi və çoxaldılması, nəhayət, dünya xalqlarının həyat təcrübəsinin və dəyərlərinin rəngarəngliyi, mediadan istifadə olunması, onların inkişaf etdirilməsi yolu ilə cəmiyyətin sərvətinə çevrilən yeni biliklər, ideyalar, təcrübə və uğurlar barədə informasiya mənbələri də buraya daxildir.

Bir sözlə, YUNESKO çərçivəsində onun Nizamnaməsində ifadə olunmuş yüksək humanist ideyaları əks etdirən beynəlxalq əməkdaşlığın həyata keçirildiyi intellektual fəaliyyətin bütün sahələri əhatə olunmuşdur.

Bu əməkdaşlığın başlıca vəzifələri müasir dünya problemlərinin öyrənilməsinə bundan sonra da yardım etmək və bu elmi təməl üzərində beynəlxalq birliyin qlobal xarakterli problemlərinin aradan qaldırılmasında səylərinin birləşdirilməsinə, bütün xalqların mənafeyi naminə elmi-texniki potensialın genişləndirilməsi əsasında inkişafın və tərəqqinin təmin olunmasına, insanların ictimai və beynəlxalq həyatda daha geniş və bərabərhüquqlu iştirakına tələbatın dərk olunması üçün şəraitin yaradılmasına, xalqlar arasında qarşılıqlı anlaşmanın bərqərar edilməsi, onların hüquqlarına və insan hüquqlarına hörmət olunması, bütün xalqların gələcəyinin ümumiliyinin və sülh işini hər vasitə ilə möhkəmləndirməyin zəruriliyinin dərk edilməsi üçün əlverişli mühitin yaradılmasına yardım göstərməkdən



ibarətdir.

YUNESKO bu vəzifələri həll etmək üçün öz Nizamnaməsi ilə beynəlxalq miqyasda hərtərəfli humanitar və intellektual əməkdaşlıq yolu ilə daim üsullar axtarmağa, həmçinin bu əməkdaşlığa regional və milli səviyyələrdə töhfə verilməsini həvəsləndirməyə yönəlmişdir.

İnsan fəaliyyətinin çox mühüm sahələrində irəliləyişin təməli olan bilik və təcrübənin möhkəm potensialı yaradılmışdır. Təşkilat bu potensialı xüsusilə, istər ölkələrin üzləşdikləri ümumi problemlər qarşısında beynəlxalq ünsiyyətin və qarşılıqlı əlaqələrin ahəngdarlaşdırılmasının, istərsə də dövlətdaxili həyatın ən zəruri tələbatlarının və proseslərinin mürəkkəb məsələlərinin həllinə artan tələblər şəraitində özünün mühüm intellektual missiyasının yerinə yetirilməsinə istiqamətləndirmişdir.

*YUNESKO-ya məxsus əsas konkret fəaliyyət formaları:* hökumət və ya yüksək səlahiyyətli ekspertlər səviyyəsində nümayəndəli forumların - konfransların, simpoziumların və müşavirələrin keçirilməsi, araşdırılan məsələlər üzrə ən yeni nailiyyətlərin toplandığı əsaslı beynəlxalq elmi tədqiqatların təşkili; nəşriyyat və populyarlaşdırma fəaliyyəti, ölkələrə və regionlara intellektual və humanitar xarakterli operativ elmi-texniki yardım göstərilməsi ilə bir sırada durur.

Təşkilatın səlahiyyət sahələrini əhatə edən müxtəlif hüquqi səviyyəli beynəlxalq-hüquqi normativ aktların işlənib hazırlanması onun konkret işinin əsas formalarının ümumi sırasında duraraq, insan zəkası və etikası sahəsində fəaliyyətinin məqsəd və vəzifələri ilə, dövlətlərin daxili tələbatları, dövlətlərarası əlaqələr və beynəlxalq birlik həyatının tendensiyaları ilə üzvi surətdə birləşmişdir.

## §3. YUNESKO-nun NORMATİV FƏALİYYƏTİ VƏ NİZAMLANAN MƏSƏLƏLƏR

*YUNESKO-nun normativ fəaliyyəti* hüquqi planda təşkilatın Nizamnaməsinin müddəalarına, həmçinin Baş Konfransın beynəlxalq nizamlama aktlarının işlənib hazırlanmasının, baxılmasının və qəbul edilməsinin üsullarına, eləcə də, onların yerinə yetirilməsinə dair prosedur qaydaları barəsində qəbul etdiyi qərarlara əsaslanır.[8]

Bundan əlavə, konvensiya və tövsiyələrin yerinə yetirilməsinə aid məsələlərə Nizamnamədə dövlətlərin YUNESKO-nun sərəncamına vermələri nəzərdə tutulan məruzələrə dair Baş Konfransın bir sıra qətnamələri var. Onlar haqqında ümumiləşdirilmiş informasiya Baş Konfransın hər sonrakı sessiyasının materiallarında yekunlaşdırılmışdır.

Burada qeyd olunan bütün sənədlərin müddəalarında YUNESKO-nun normativ fəaliyyəti barədə konkret olaraq aşağıdakılar nəzərdə tutulur:

Təşkilat, ilk növbədə, YUNESKO-nun Nizamnamə vəzifəsindən - "ədalətə, qanunçuluğa və insan hüquqlarına hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım etmək" - çıxış edərək, əsas fəaliyyət istiqamətləri və formaları sırasında "bu məqsədlə beynəlxalq sazişlər bağlamağı tövsiyə edir".

Beynəlxalq aktların işlənib hazırlanması və qəbul edilməsi prosesi üç kateqoriyaya bölünür:

- YUNESKO-nun Baş Konfransının qəbul etdiyi konvensiya və tövsiyələr;
- Baş Konfransın qəbul etdiyi digər sənədlər (konvensiya və tövsiyələrdən savayı) bəyannamələr, nizamnamələr, əsasnamələr və statutlar, qətnamələr, qaydalar, prosedurlar və s.;
- Dövlətlərin YUNESKO-nun təklikdə və ya digər beynəlxalq

8. **YUNESKO-nun Beynəlxalq Normativ Aktları**, Azərbaycan Nəşriyyatı, Bakı 1998, səh.10.



təşkilatlarla birgə çağırdığı konfransların qəbul etdiyi sənədlər. Bunlara müvafiq olaraq YUNESKO-nun işləyib hazırladığı beynəlxalq aktların hüquqi səviyyəsi müəyyən edilir;

- Dövlətlərin müəyyən sahədə müvafiq nizamlama müəyyən edilməsi barədə razılıqlarını və öhdəliklərini ifadə edən və YUNESKO-nun Baş Konfransı qəbul etdikdən sonra dövlətlərin ratifikasiya etməli olduqları konvensiyalar;
- Dövlətlərə tövsiyələr, bir tərəfdən hər bir ayrıca ölkəni həyata keçirilmələri üçün könüllü olaraq, qanunvericilik və ya qeyri xarakterli müvafiq tədbirlər görməyə yönəldən konsepsiya, prinsip və normaların xülasə edildiyi aktlardır;
- Bununla gələcəkdə onların əsasında daha yüksək hüquqi səviyyədə beynəlxalq konvensiyada məcburi norma və qaydaların bərqərar olunmasının mümkünlük meyarları da təsbit edilir.

Konvensiyanın qəbul edilməsi haqqında qərarı Baş Konfrans qəbul edir. Bunun üçün üzv-dövlətlərin üçdə ikisinin səs çoxluğu tələb olunur (xatırlanan hökumətlərarası konfransların müzakirə etdikləri konvensiyalar, təbii ki, onların öz reqlamentləri əsasında qəbul edilir). Tövsiyələr barəsində onların Baş Konfransda adi səs çoxluğu ilə qəbul edilməsi haqqında müddəa qüvvədədir.

Təşəbbüs təkliflərinin irəli sürülməsi, beynəlxalq nizamlamanın müəyyən edilməsinin məqsədəuyğunluğuna və onun hüquqi və texniki aspektlərinə dair ilkin tədqiqat aparılması qaydası müəyyən olunur. İşlənilən aktların layihələrinin hazırlanması proseduru, dövlətlərlə məsləhətləşmə qaydası, təkliflərin, qeydlərin və düzəlişlərin irəli sürülməsi, aktların müzakirəsi və qəbul edilməsi bütün dövlətlərin tam hüquqlu iştirakını təsbit edir.

Baş Konfrans konvensiya və ya tövsiyəni qəbul edəndən sonra dövlətlərin üzərinə bütün hallarda bir ildən gec olmayaraq, həmin aktları onların müddəalarını həyata keçirmək üçün lazımi qanunvericilik tədbirləri, yaxud qeyri normativ tədbirlər görmək hüququ verilmiş səlahiyyətli milli orqanların müzakirəsinə təqdim etmək vəzifəsi qoyulur. Eyni zamanda, dövlətlər istər konvensiyaların ratifikasiya və ya qəbul edilməsi, istərsə də tövsiyələrin yerinə yetirilməsi

məsələlərinin həllində suverendirlər.

Nizamnaməyə əsasən, dövlətlər konvensiya və tövsiyələri yerinə yetirmələri barədə müvafiq qaydada və müddətdə məruzələr təqdim etməlidirlər. Həm də, müvafiq akt qəbul olunduqdan sonra Baş Konfransın təyin etdiyi müddət ərzində göndərilən ilk "xüsusi məruzələr"də həmin aktın səlahiyyətli orqanlara (onları konkret göstərməklə) təqdim edilməsi, gördükləri tədbirlər və onların xarakteri haqqında informasiya olmalıdır. Verilən informasiya dolğun olmadıqda Baş Konfrans üzv-dövlətlərə tələb olunan əlavə məlumatlar barəsində sorğu ilə müraciət edə bilər. Bu da konvensiya və tövsiyələrin müəyyən etdikləri normaların tətbiqinə nəzarət işində və beynəlxalq birliyin həm normativ fəaliyyətinin səmərəliliyini, həm də bu sahədə gələcək üçün təxmini planlarını müəyyənləşdirməsində məruzələrin rolunu vurğulayır.

Bu cür aktla YUNESKO öz Nizamnaməsinin məqsəd və vəzifələrinə uyğun olaraq bu və ya digər məsələyə dair prinsiplərinin və baxışlarının ifadəsini elan edir. Bəyannamə onda ixtisar edilmiş prinsiplər vasitəsilə mənəvi təsir gücünə malikdir və dünya birliyinin beynəlxalq ünsiyyətdə, dövlət fəaliyyətində, mədəni və ictimai həyatda həmin prinsiplərə riayət etmək çağırışını ifadə edir.

Təhsil sahəsində qəbul edilmiş aktlarda, ayrı-seçkilik əleyhinə siyasət və praktikanın; sülh, beynəlxalq qarşılıqlı anlaşma, insan hüquqlarına hörmət ruhunda tərbiyənin əsasları qeyd edilir. Texniki təhsili və peşə təhsilini, fasiləsiz təhsil sisteminin tərkib hissəsi kimi, yaşlıların təhsilini inkişaf etdirmək məqsədilə müddəalar müəyyən olunmuşdur; müəllimlərin peşə və sosial müdafiəsi prinsiplərinə dair tövsiyələr verilmiş, bədən tərbiyəsi və idman məsələləri üzrə konsepsiyalar elan edilmişdir. Dünyanın bütün regionları həmin regionlarda tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin müəyyən ekvivalentliyinin bərqərar edilməsi üçün prinsipial əsasların tanınması haqqında sazişə gəlmişlər.

Təbii elmlər və sosial elmlər sahəsində qəbul edilən beynəlxalq aktlarda isə elmi-tədqiqat işçilərinin statusuna, təbiəti mühafizə tədbirlərinin bəzi məsələlərinə, habelə, beynəlxalq əhəmiyyətli so-



sial aspektlər nəzərə alınmaqla, urbanizasiya sahəsində konkurslar keçirilməsi yer alır.

Mədəniyyət və kommunikasiya sahəsində mövzu dairəsi xüsusilə genişdir. Buraya ilk növbədə, qlobal xarakterli aktlar - ümumdünya mədəni və təbii irsinin mühafizəsi və silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında aktlar; beynəlxalq mədəni əməkdaşlıq prinsiplərini, xalq kütlələrinin mədəni həyata töhfə verilməsində rolunu, yaradıcı işçilərin vəziyyətini müəyyənləşdirən ən mühüm məsələlərə dair aktlar; tarixi ansamblların (onların cəmiyyətin müasir həyatında əzəli rolu nəzərə alınmaqla) qorunub saxlanması və mühafizəsi, daşınar mədəni dəyərlərin, hərəkət edən təsvirlərin problemlərinə dair nizamlama; təhsil, elm və mədəniyyət xarakterli materialların mübadiləsi (həmçinin, onların yayılması), mədəni dəyərlərin beynəlxalq mübadiləsi qaydaları və onların qanunsuz olaraq ölkəyə gətirilməsinin, çıxarılmasının və mülkiyyət hüququnun başqasına verilməsinin qarşısını almağa dair tədbirlər; kütləvi informasiya vasitələrinə - istər onların sülh və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsi, istərsə də peyklər vasitəsilə verilişlərin mədəni mübadilə məqsədilə istifadə edilməsi baxımından - aid əsas prinsiplər haqqında sənədlər; muzeylərin hamı üçün açıq olması, arxeoloji qazıntıların aparılması, hər hansı bir iş yerinə yetirilərkən mədəni dəyərlərin qorunub saxlanması məsələlərinə dair meyarların ehtiva olunduğu tövsiyələr daxildir.

Kitab və rəsmi sənəd nəşrləri ilə beynəlxalq mübadilə məsələlərinin, müəlliflik hüququ və ona yaxın olan bəzi hüquqların qorunması, təhsil, elm, mədəniyyət və informasiyanın bir sıra sahələrində statistikanın standartlaşdırılmasının həyata keçirilməsi məsələlərinin tənzimləndiyi digər sahələrə aid aktlar da var.

Adı çəkilən beynəlxalq aktlardan savayı, təşkilatın onun Nizamnaməsi əsasında rəhbər və icraedici xarakterli müvafiq strukturların iş qaydasını, digər beynəlxalq təşkilatlarla və üzv-dövlətlərin YUNESKO üzrə milli komissiyaları ilə və s. əlaqələri tənzimləyən qüvvədə olan çoxsaylı normativ sənədləri (prosedur qaydaları, komitələrin nizamnamələri, əsasnamələr, statutlar, direktivlər və s.) var.

# II FƏSİL

## AZƏRBAYCAN – YUNESKO: İNSTİTUSİONAL TƏRƏFDAŞLIQ

### §1 AZƏRBAYCAN – YUNESKO ƏLAQƏLƏRİ

Azərbaycan hələ XX əsrin 60-cı illərindən Sovet İttifaqının tərkibində olarkən YUNESKO-nun fəaliyyətində aktiv iştirak etmişdir. YUNESKO tərəfindən 1967-ci ildə "Qafqaz xalqlarının ədəbiyyatı" seriyasından fransız dilində M.F.Axundovun komediyaları, "Dünya xalqlarının musiqisi" seriyasından Azərbaycan muğamlarından ibarət iki val və iki audio-kasset buraxılmışdır. YUNESKO-nun Parisdəki mənzil qərargahında "Azərbaycan xalçaları" (1981), "Azərbaycan əlyazmaları" (1985), Londonda isə YUNESKO-nun himayəsi altında "Bakının memarlığı" (1985) sərgiləri keçirilmişdir. 1984-cü ilin noyabr ayında YUNESKO-nun mənzil qərargahında Azərbaycan Dövlət Rəqs ansamblının çıxışı olmuşdur.

YUNESKO Sovet İttifaqı zamanı Bakıda iki beynəlxalq tədbirin – "Dil və şəhər" (1981) və "Şərq xalça sənəti" (1983) konfranslarının keçirilməsi üçün Azərbaycana maliyyə yardımı göstərmişdir. 1983-cü ildə Azərbaycan hökuməti xalçaçı-rəssam Lətif Kərimovun toxuduğu, üzərində Memar Əcəmi Naxçıvaninin təsviri olan xalçanı Bakıya səfər etmiş YUNESKO-nun Baş Direktoru Amadu Mahtar M'Bou vasitəsilə təşkilata hədiyyə etmişdir.

Sovet İttifaqı dövründə Azərbaycanın YUNESKO ilə əlaqələrinin qurulmasında və inkişaf etdirilməsində ulu öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdur. O, YUNESKO-nun Azərbaycan mədəniyyəti ilə bağlı təşkil etdiyi tədbirlərdə yaxından iştirak etmişdir. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1983-cü ildə Bakıda təşkil edilmiş "Şərq xalça sənəti" I Beynəlxalq Simpoziumu zamanı o vaxt Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olan Heydər Əliyev YUNESKO-



nun Baş Direktorunun xüsusi məsləhətçisi Federiko Mayorla görüşmüş və bu dostluq əlaqələri Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizin YUNESKO ilə münasibətlərinə öz müsbət təsirini göstərmiş və beləliklə, Azərbaycanın təşkilatdakı uğurlarının təməli qoyulmuşdur.[9]

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 3 iyun 1992-ci il tarixində YUNESKO-ya üzv qəbul edilmişdir. Azərbaycanın YUNESKO ilə münasibətlərinin inkişafında vacib məqamlardan biri kimi 1993-cü ilin dekabr ayında ulu öndər Heydər Əliyevin Fransa Respublikasına rəsmi səfəri mühüm əhəmiyyət kəsb edir. Belə ki, səfər çərçivəsində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev YUNESKO-nun Baş Direktoru Federiko Mayorla görüşmüşdür. Görüş çərçivəsində Azərbaycan-YUNESKO əlaqələrinin genişləndirilməsi istiqamətində müzakirələr aparılmış, bu məqsədlə, Azərbaycanda YUNESKO üzrə Milli Komissiyanın yaradılması məsələsi gündəmə gəlmişdir. Azərbaycan Respublikası Prezidenti, ulu öndər Heydər Əliyevin 21 fevral 1994-cü il Sərəncamına əsasən, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılmış, respublikanın müvafiq nazirliklərindən, ziyalı və ictimaiyyətin digər nümayəndələrindən ibarət Milli Komissiyanın tərkibi və Daimi Katibliyi formalaşdırılmış, xarici işlər naziri Komissiyanın Sədri təyin olmuşdur.

Azərbaycan-YUNESKO əlaqələrinin inkişafında ən yaddaqalan və vacib məqamlardan biri 1996-cı ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik, 2000-ci ildə isə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileylərinin Azərbaycanda geniş şəkildə keçirilməsi ilə yanaşı, Parisdə YUNESKO-nun baş qərargahında da təntənə ilə qeyd edilməsi olmuşdur.

Bu tədbirlər çərçivəsində Heydər Əliyevin şəxsi nüfuzuna görə 1996-cı ildə YUNESKO-nun Baş Direktoru Federiko Mayor, 2000-ci ildə YUNESKO-nun Baş Direktoru Koiçiro Matsuura

9. Federiko Mayor 1987-1999-cu illərdə YUNESKO Baş Direktoru vəzifəsini icra etmişdir.

Azərbaycana səfər etmiş və Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşmüşlər. Görüşlərdə Azərbaycan-YUNESKO əlaqələrinin genişləndirilməsi istiqamətində mövcud imkanlar dəyərləndirilmiş, ikitərəfli əməkdaşlığın YUNESKO-nun bütün prioritet istiqamətlər üzrə davam etdirilməsi, təşkilatın qəbul etdiyi proqramlarda iştirak məsələləri, həmçinin bir sıra beynəlxalq hüquqi sənədlərə Azərbaycanın tərəf çıxması barədə fikir mübadiləsi aparılmış, genişlənən əlaqələrin bundan sonra da davam etdiriləcəyinə əminlik vurğulanmışdır. Eyni zamanda, F.Mayorun Azərbaycana səfəri çərçivəsində 18 noyabr 1996-cı ildə Azərbaycan-YUNESKO arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Memorandumda Azərbaycana təhsil, mədəniyyət və digər sahələrdə yardımların göstərilməsi nəzərdə tutulurdu. Həmçinin sənəddə Azərbaycanın mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdı.

3 sentyabr 1997-ci ildə ölkə başçısı Heydər Əliyev YUNESKO-nun Baş Direktoru Federiko Mayora məktub ünvanlamışdır. O, məktubda sülh hüququ haqqında YUNESKO Bəyannaməsinin qəbul edilməsi təklifini təqdir etdiyini və Azərbaycan Respublikasının demokratik, hüquqi və dünyəvi dövlət olaraq yenə də öz siyasətini yalnız sülhün bərqərar olmasına doğru istiqamətləndirəcəyini vurğulamışdır.

Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, incəsənətinə, elminə göstərdiyi yüksək diqqət və qayğını ehtiva edən siyasəti hazırda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Respublikamızın bütün sahələrində gedən inkişaf və quruculuq YUNESKO-nun əhatə etdiyi prioritet sahələrə uyğundur. Artıq Azərbaycan bu sahədə böyük beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə və mədəniyyətlərin qovuşduğu körpü rolunu oynamaqdadır. Belə ki, YUNESKO-nun dəstəyi ilə Azərbaycanda humanitar sahədə keçirilən beynəlxalq tədbirlər sırasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları və Bakı Beynəlxalq Humanitar Forumlarının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. YUNESKO Azərbaycanda təşkil edilən Forumlara dəstək verməklə yanaşı, tədbirlərdə böyük nümayəndə heyəti ilə təmsil olunmuşdur.



BMT-nin Sivilizasiyalar Alyansı, YUNESKO, Avropa Şurası, AŞ-nin Şimal-Cənub Mərkəzi və İSESKO-nun dəstəyi ilə təşkil edilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu 2008-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında mədəniyyətlərarası dialoqun inkişafının nəzərdə tutulduğu "Bakı Prosesi"nin davamı çərçivəsində respublikamızda həyata keçirilən tədbirlər sırasındadır. 2013-cü ildə sayca ikincisi təşkil edilən Forum çərçivəsində YUNESKO-nun Baş Direktoru İrina Bokova Azərbaycana səfər etmişdir. Forumun açılışında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, YUNESKO-nun Baş Direktoru İrina Bokova, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz əl-Naser, İSESKO-nun Baş Direktoru Əbdüləziz Osman ət-Tüveycri və digər rəsmi şəxslər çıxış edərək ksenofobiyanın aradan qaldırılması, etnik qarşıdurmanın, ayrı-seçkiliyin tam ləğv edilməsi üçün mədəniyyətlərarası dialoqun, mədəni müxtəlifliyin təmin olunmasının xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etmişlər.

Forumda çıxış edən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev qeyd etmişdir ki, "... Mən ümid edirəm ki, Mədəniyyətlərarası Dialoq Forumu ənənəvi xarakter alacaqdır. Bundan sonrakı illərdə də Azərbaycanda belə tədbirlər keçiriləcək və mən tam əminəm ki, hər bir belə tədbir böyük məna daşıyır. Sadəcə olaraq, görüşüb fikir mübadiləsi aparmaq kifayətdir ki, artıq müsbət bir impuls verilsin. Nəzərə alsaq ki, bugünkü tədbirin çox dəqiq və konkret nəticələri olacaq, mən buna əminəm, əlbəttə ki, bu, xalqları daha da birləşdirəcək və insanlar arasında dostluq, mehriban qonşuluq əlaqələrini daha da gücləndirəcəkdir."

2011-ci ildən etibarən hər il ənənəvi olaraq təşkil olunan Beynəlxalq Humanitar Bakı Forumu bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədi ilə hər il tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafa-

tı qaliblərini və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya gətirən tədbirdir.

Azərbaycan-YUNESKO münasibətlərinin inkişaf etdirilməsi sahəsində Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın gördüyü işlər xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Mehriban Əliyeva Azərbaycanın zəngin mədəniyyətinin qorunması, öyrənilməsi və tədqiqində xidmətlərinə görə YUNESKO tərəfindən 2004-cü ilin sentyabr ayında YUNESKO-nun şifahi və musiqi ənənələri sahəsində Xoşməramlı Səfiri adına layiq görülmüşdür. O, 1995-ci ildən etibarən Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xəttilə Azərbaycan mədəniyyətinin dünyaya tanıdılması istiqamətində uğurla fəaliyyət göstərmişdir. Hazırda Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu missiyanı daha da genişləndirərək elm, təhsil, mədəniyyət və digər sahələrin inkişafına köməklik göstərir, eyni zamanda beynəlxalq miqyasda davamlı inkişafa dəstək olaraq sülh quruculuğu istiqamətində xidmətlərini davam etdirir. Ölkəmizdə maddi və qeyri-maddi mədəni irsin qorunub saxlanılması, Azərbaycanda və xarici ölkələrdə tarixi, dini, mədəni abidələrin bərpası, məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları və s. elmi, mədəni və sosial mərkəzlərin açılması sahəsində Heydər Əliyev Fondunun əməyi böyükdür. Dünya mədəniyyətinə qaygı və diqqətinə, həmçinin Azərbaycan mədəni irsinin yaşadılması sahəsindəki töhfələrinə görə Mehriban Əliyeva 2010-cu ildə YUNESKO-nun Baş Direktoru İrina Bokova tərəfindən Qızıl Motsart medalı ilə təltif edilmişdir.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası YUNESKO-nun bütün prioritet istiqamətləri üzrə təşkilatla sıx əməkdaşlıq etməklə, həm yerli dövlət qurumları və institutları, həm də digər dövlətlərin YUNESKO üzrə milli komissiyaları ilə birlikdə çoxsaylı layihələr həyata keçirməkdədir.

Bu illər ərzində Azərbaycanın iki maddi mədəni irs nümunəsi - İçəri Şəhər, Qız Qalası ilə Şirvanşahlar Saray Kompleksi və Qobustan Qaya Sənəti Mədəni Landşaftı YUNESKO-nun Ümumdünya İrs Siyahısına, beş qeyri-maddi mədəni irs nümunəsi - Azərbaycan



Muğamı, Aşıq sənəti, Novruz, Xalçaçılıq sənəti, eləcə də, Tar və onun ifaçılıq sənəti Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına, Azərbaycan Respublikasında Çovqan Ənənəvi Qarabağ Atüstü Oyunu YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

Həmçinin Azərbaycan YUNESKO-nun bir sıra beynəlxalq tədbirlərinə də ev sahibliyi etməkdədir. Onlar arasında YUNESKO-nun Beynəlxalq Bioetika Komitəsinin 18-ci Sessiyası (2011), YUNESKO-nun Bədən Tərbiyəsi və İdman üzrə Hökumətlərarası Komitəsinin Fövqəladə Sessiyası (2013), YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 8-ci Sessiyası (2013) və digər tədbirləri göstərmək olar.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradıldığı vaxtdan indiyədək ölkəmiz təşkilatın bir sıra alt komitələrinə üzv olmuşdur. Eyni zamanda, Azərbaycanda YUNESKO-nun Muzeylərin Beynəlxalq Şurası *(ICOM - International Council of Museums)*; Sosial Dəyişikliklərin İdarə edilməsi *(MOST - The Management of Social Transformations Programme)*; Beynəlxalq Hidroloji *(IHP - International Hydrological Programme)*; İnsan və Biosfer *(MAB - Man and the Biosphere Programme)*; Beynəlxalq Bioetika *(IBC - International Bioethics Committee)* və İnformasiya hamı üçün *(Information for all)* proqramları üzrə Milli Komitələr fəaliyyət göstərməkdədir.

YUNESKO ilə davam edən əməkdaşlıq çərçivəsində Azərbaycan təşkilatın bir çox Konvensiyalarına qoşulmuşdur. Onlar arasında Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında 14 may 1954-cü il Konvensiyası (1993), ona dair Birinci Protokol (1993) və İkinci Protokol (2000); Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında 16 noyabr 1972-ci il Konvensiyası (1993); Avropa regionu dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında 21 dekabr 1979-cu il Konvensiyası (1994); Asiya və Sakit Okean dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında 16 dekabr 1983-cü il Regio-

nal Konvensiyası (1995); Müəlliflik hüququ haqqında 6 sentyabr 1952-ci il Ümumdünya Konvensiyası (1997); Avropa regionunda ali təhsil ixtisaslarının tanınması haqqında Konvensiya (1998); Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında 14 noyabr 1970-ci il Konvensiyası (1997); Başlıca olaraq su quşlarının məskəni kimi beynəlxalq əhəmiyyətə malik subataqlıq yerləri haqqında 2 fevral 1971-ci il Konvensiyası (2001); Fonoqram istehsalçılarının mənafelərinin onların fonoqramlarının qanunsuz istehsalında mühafizəsi haqqında 29 oktyabr 1971-ci il Konvensiyası (2001); Beynəlxalq xüsusi hüququ unifikasiya institutunun (YUNİDRUA) oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni dəyərlər haqqında 1995-ci il Konvensiyası (2003); Qeyri-maddi mədəni irsin qorunması haqqında 17 oktyabr 2003-cü il tarixli Konvensiyası (2006); İdmanda dopinqə qarşı mübarizə haqqında 19 oktyabr 2005-ci il tarixli Beynəlxalq Konvensiya (2007); Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında 20 oktyabr 2005-ci il Konvensiyası (2010) yer almaqdadır.

Azərbaycan 2011-ci ildə YUNESKO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə üzv seçilmişdir.[10] 21 dekabr 2012-ci il tarixində Parisdə YUNESKO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitənin 7-ci Sessiyasında Azərbaycanın təşəbbüsü ilə işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında qərar qəbul edilmişdir. Qərarda işğalçı ölkələr tərəfindən işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında hesabatın verilməsi öhdəliyi və bu ərazilərə texniki missiyaların göndərilməsi imkanları əks olunmuşdur. 18-19 dekabr 2013-cü il tarixində Parisdə keçirilən YUNESKO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitənin 8-ci Sessiyasında

10. "Beynəlxalq sülh, əməkdaşlıq, şəffaflıq və çoxşaxəlilik prinsiplərinə sadiq qalan Azərbaycan 2011-ci ildə sülhə, təhlükəsizliyə və sabitliyə qarşı təhdid və risklərlə mübarizədə beynəlxalq səylərə fəal şəkildə cəlb olunmuşdur". Azərbaycan Qəzeti, 24 yanvar 2012, səh.6.



qəbul edilmiş digər sənəddə "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası və onun iki protokolunda işğal edilmiş ərazilərə aid müddəaların hüquqi təhlili, onların həyata keçirilməsi mexanizmləri, monitorinq məqsədilə YUNESKO tərəfindən texniki missiyalarının göndərilməsi, YUNESKO-nun Baş Direktoru tərəfindən BMT-nin Təhlükəsizlik Şurası və Baş Məclisində qəbul olunacaq qətnamələrdə işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması məsələsinin diqqətə çatdırılması və s. öz əksini tapmışdır.

Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, Xocalı soyqırımının tədqiqi, qaçqın və məcburi köçkünlərimizin hüquqlarının qorunması və digər problemlərin kompleks şəkildə elmi əsaslarla dərindən tədqiq olunmasını əhatə edən layihələrə dəstək verilməsi YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının fəaliyyətində prioritet mövzulardan birini təşkil edir. 2013-cü ildə YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə "2-ci Şuşa Qrantı" müsabiqəsi təşkil edilərək Dağlıq Qarabağ və işğal edilmiş ərazilərlə bağlı 10 layihə qalib elan edilmişdir.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası təhsil sahəsində müxtəlif layihələr həyata keçirməkdə və proqramlar icra etməkdədir. Onlar arasında YUNESKO-nun "Assosiativ Məktəblər Layihəsi"nin, "Davamlı İnkişaf Naminə Təhsil Onilliyi", "Hamı üçün Təhsil" və s. proqramların adını çəkmək olar.

Hazırda ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində "İnsan hüquqları, demokratiya və sülh kafedrası" fəaliyyət göstərməkdədir. Azərbaycanın digər ali təhsil ocaqlarında yeni YUNESKO kafedralarının yaradılması və onların gələcəkdə UNITWIN şəbəkəsinə qoşulması ilə bağlı müvafiq işlər görülməkdədir.

Azərbaycan YUNESKO ilə təhsil sahəsində əməkdaşlıq çərçivəsində Assosiativ Məktəblər Şəbəkəsində iştirak etməkdədir. Respublikanın 18 məktəbi bu şəbəkəyə qoşulmuşdur. 2011-ci ildə

təşkilatın Assosiativ Məktəblər Şəbəkəsinə qoşulmuş məktəblər YUNESKO-nun "İnsan hüquqları uşaqların gözü ilə" layihəsinin həyata keçirilməsinə cəlb olunmuşdur. Layihənin məqsədi demokratiya, sülh, təcridçilik, bərabərlik, zorakılıq, müharibə kimi qavramalarının düzgün anlaşılması istiqamətində şagirdlərə məlumat vermək, eyni zamanda şagirdlərin təfəkküründə bu qavramaların nə dərəcədə düzgün formalaşmasını təhlil etməklə təhsildə bu sahədə prioritetlərin müəyyən edilməsidir.

Azərbaycan - YUNESKO əlaqələrinin inkişafında insan hüquqları mühüm istiqamətlərdən birini təşkil etməkdədir. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ilə birlikdə bir çox layihələrə imza atmışdır. Bu əməkdaşlıq çərçivəsində Ombudsmanların Bakı Beynəlxalq Konfransları məhz YUNESKO-nun himayəsi altında təşkil edilmişdir. Cəmiyyətin müxtəlif sferalarını əhatə edən çoxsaylı problemlərin müzakirəsinə həsr edilən konfranslar insan hüquqları sahəsində fəaliyyət göstərən tədqiqatçılar üçün də zəngin mənbəyə çevrilmişdir. Qeyd etmək lazımdır ki, konfrans materialları hər il kitab halında işıq üzü görməkdədir.

Elm sahəsinin YUNESKO-nun prioritet sahələrindən biri kimi YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası tərəfindən xüsusi diqqət mərkəzində saxlanılır. Milli Komissiya Azərbaycandan müxtəlif sahələrə dair layihələrin YUNESKO-nun İştirak Proqramı çərçivəsində həyata keçirilməsini təmin etməkdədir. Eyni zamanda, Milli Komissiya Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müvafiq strukturları, o cümlədən, Konfliktologiya və İnsan Hüquqları İnstitutu, Fəlsəfə və Hüquq İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Coğrafiya İnstitutu, Əlyazmalar İnstitutu və digərləri ilə birlikdə elmi konfrans, seminar və tədbirlər həyata keçirməkdədir.

27-29 may 2014-cü il tarixində YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Gənclər və İdman Nazirliyi, Milli Elmlər Akademiyası, Avropanın Gənc Tədqiqatçılar Şurası və Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin



dəstəyi ilə "Dünya elmində yeni çağırışlar: gənc alimlərin birgə yanaşmaları" mövzusunda Dünya Gənc Alimlərinin Bakı Beynəlxalq Forumu keçirilmişdir. Konfransın məqsədi texniki, sosial, humanitar sahələr üzrə novator baxışları, ideyaları olan gənc alimləri bir araya gətirməklə təcrübə mübadiləsi və yeni ideyalar yolu ilə elmi tərəfdaşlıqları möhkəmləndirmək və vahid platform yaratmaq olmuşdur.

Milli Komissiyanın YUNESKO-nun Dünya Yaddaşı Proqramı çərçivəsində fəaliyyəti Azərbaycanda yaradılmış elmi irsin dünyada tanıdılması və qorunması məqsədi daşıyır. 2005-ci ildə Azərbaycandan Orta əsrlərə aid tibbi və əczaçılıq əlyazmaları YUNESKO-nun Dünya Yaddaşı Proqramına daxil edilmişdir.

Mədəniyyət və humanitar sahələrdə Milli Komissiyanın fəaliyyəti müxtəlif səpkili layihə, seminar və beynəlxalq tədbirlərlə yadda qalmaqdadır. Onlardan biri kimi hər il ölkəmizdən YUNESKO-nun Yubileylər Proqramı çərçivəsində tanınmış şəxsiyyətlərin və əhəmiyyətli hadisələrin qeyd edilməsini göstərmək olar. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası təsis edildiyi vaxtdan günümüzə qədər Azərbaycana aid onlarca yubiley tədbiri beynəlxalq səviyyədə qeyd edilmişdir. Onlar arasında böyük şair və mütəfəkkir Məhəmməd Füzulinin anadan olmasının 500 illik (1996); türk dünyasının ortaq ədəbi abidəsi Kitabi Dədə Qorqud Dastanının 1300 illik (2000); böyük alim N.Tusinin anadan olmasının 800 illik (2001); şərqşünas alim Mirzə Kazımbəyin 200 illik (2002); görkəmli alim akademik Yusif Məmmədəliyevin 100 illik (2005); məşhur rəssam, xalça ustası Lətif Kərimovun 100 illik (2006); dahi bəstəkar Ü.Hacıbəylinin "Leyli və Məcnun" Operasının ilk tamaşasının 100 illik (2008); görkəmli yazıçı Mir Cəlal Paşayevin 100 illik (2008); böyük rəssam Səttar Bəhlulzadənin 100 illik (2009); tanınmış alim, akademik Musa Əliyevin 100 illik (2009); Orta Əsrlərin məşhur şairəsi və alimi M.Gəncəvinin yaradıcılığının 900 illik (2013); dahi bəstəkar Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının 100 illik (2013); filosof alim S.Y.Bakuvinin vəfatının 550 illik (2013) və s. yubiley tədbirlərinin adını çəkmək olar. Eyni zaman-

da, 2014-cü ildə orta əsrlərin tanınmış alimi və mütəfəkkiri Əhməd Əl-Bərdəçinin vəfatının 1100 illik, böyük yazıçı və dramaturq İlyas Əfəndiyevin 100 illik yubileyi, İran və Türkiyə ilə birgə Əbdülqədir Marağayinin "Ma-qasid əl-Əlhan" əsərinin 600 illik yubileylərinin YUNESKO səviyyəsində qeyd edilməsi nəzərdə tutulmuşdur.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası YUNESKO-nun bütün əsas prioritet istiqamətləri üzrə müxtəlif nazirlik və dövlət qurumları, o cümlədən, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi, Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc), Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və digərləri ilə sıx əməkdaşlıq etməklə müxtəlif səpkili layihə, seminar, treninq və digər tədbirlər təşkil etməkdədir.

Əməkdaşlıq sadəcə ölkə daxilindəki qurumlarla deyil, həmçinin digər ölkələrin YUNESKO üzrə milli komissiyaları ilə birlikdə həyata keçirilməkdədir. Bu layihələrdən biri Azərbaycan və Türkiyənin YUNESKO üzrə Milli Komissiyalarının Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıqda həyata keçirdiyi "Türkiyə-Azərbaycan ənənəvi əl sənətləri layihəsi" olmuşdur. Layihə hər iki ölkədə tarixən mövcud olan əl sənətlərinin öyrənilməsi, yaşadılması və oxşar xüsusiyyətlərinin ortaya çıxarılmasını ehtiva edir.

Hazırda YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası təşkilatın Dünya Yaddaşı, Yubileylər, İştirak və s. proqramlarında aktiv iştirak etməklə yanaşı, Azərbaycanın zəngin mədəni irsinin YUNESKO-nun Ümumdünya İrs Siyahısı və Qey-



ri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi, ölkəmizin ali təhsil ocaqlarında yeni YUNESKO kafedralarının açılması, təşkilatın komitələri ilə müvafiq işin aparılması, digər ölkələrin YUNESKO üzrə Milli Komissiyaları ilə əməkdaşlığın genişləndirilməsi, çoxtərəfli layihələrin həyata keçirilməsi və s. sahələrdə fəaliyyətini uğurla davam etdirməkdədir.

Azərbaycan Respublikası öz xarici siyasətində YUNESKO-nun qəbul etdiyi norma və prinsiplərə yer verərək, müxtəlif mədəniyyətlərin dinc şəkildə birlikdə yaşaması, dini tolerantlıq, başlıca insan hüquqlarının müdafiəsi, təhsil və yaradıcılıq hüquqlarının qorunması, iqtisadi və sosial sferalarda davamlı inkişafın təmin edilməsi və s. rəhbər tutmaqdadır. Bu, imkan verir ki, gələcəkdə də Azərbaycan-YUNESKO əlaqələri təşkilatın əhatə etdiyi bütün prioritet sahələr üzrə yüksələn xətlə inkişaf edərək yeni nailiyyətlər və uğurlar qazanılsın.

## §2. YUNESKO, YUNESKO ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ KOMİSSİYASI VƏ ONUN İNSAN HÜQUQLARI SAHƏSİNDƏ FƏALİYYƏTİ

YUNESKO BMT-nin ixtisaslaşmış alt təşkilatı olaraq yarandığı 1946-cı ildən günümüzə qədər həm əhatə etdiyi sahələrin daha da genişlənməsi, həm də müasir dünyada gedən proseslərin həllində yaxından iştirak etməklə qloballaşan dünyamızın ayrılmaz tərkib hissəsinə çevrilməkdədir. Bu baxımdan, təşkilatın əhatə etdiyi sahələr arasında insan hüquqları və insan hüquqlarının müdafiəsi prioritet hesab edilən istiqamətlər arasındadır.

Hazırda Azərbaycanın dünya birliyinə sıx inteqrasiya olunmasında BMT, Avropa Şurası, ATƏT, İKT, NATO və s. kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. BMT Nizamnaməsinə, ATƏT, və Avropa Şurası prinsiplərinə, dünya dövlətləri tərəfindən qəbul edilmiş digər beynəlxalq hüquq nor-

malarına əsaslanan Azərbaycan Respublikası dünyanın beynəlxalq nüfuzlu təşkilatları ilə fəal və geniş miqyaslı əməkdaşlıq edir. Bu əməkdaşlıq siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və s. sahələri əhatə edərək çoxşaxəli xarakter daşıyır və beynəlxalq aləmdə aparıcı dövlətlərlə, o cümlədən milli insan hüquqları təsisatları ilə qarşılıqlı əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verir.

İnsan hüquq və azadlıqlarına hamılıqla hörmətin təmin edilməsi, xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin qorunmasına yardım göstərilməsi bu qurumun ən mühüm vəzifələrindəndir.

YUNESKO digər üzv dövlətlərlə yanaşı, Azərbaycana da dünya səviyyəli mütəxəssislərin, elmi və pedaqoji kadrların hazırlanması, qlobal elmi layihələrdə iştirak etmək imkanları qazandırır.

Bu nüfuzlu beynəlxalq qurum ölkəmizdə insan hüquqlarının, o cümlədən mədəni hüquqların və təhsil hüquqlarının təmin olunması, Azərbaycan mədəniyyətinin, elm və təhsilinin inkişafı istiqamətində böyük səylər göstərir.

YUNESKO insan hüquqları haqqında mövcud beynəlxalq hüquqi sənədlərə, xüsusilə də 1948-ci il İnsan hüquqları haqqında Ümumi Bəyannaməyə, 1966-cı il *İqtisadi, sosial və mədəni hüquqlar* haqqında Beynəlxalq Pakta, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta istinad edərək insan hüquqları sahəsində fəaliyyətini təşkil edir.[11]

Bəşər cəmiyyəti tərəfindən həqiqi universal dəyərlər kimi dərk edilən bütün qeyri-maddi xarakterli dəyərlər içərisində insan hüquq və azadlıqları ən mühüm yeri tutur. Müasir cəmiyyətimizin fundamental dəyərləri kimi insan hüquq və əsas azadlıqları XXI əsrin beynəlxalq münasibətlər sistemində də mühüm əhəmiyyət kəsb etməkdədir. İnsan hüquqlarına hörmət prinsipi beynəlxalq hüququn 10 əsas prinsipi arasındadır.

İnsan hüquq və azadlıqlarına şəxsin, cəmiyyətin digər fərdləri

11. Günay Əfəndiyeva, "YUNESKO təcrübəsində milli azlıqların və miqrantların problemləri", **Ombudsmanların IX Bakı Beynəlxalq Konfransının Materialları,** 16 iyun 2011, səh.185



ilə qarşılıqlı münasibətlərinə dair fəlsəfi və dünyagörüşünə dayanan təsəvvürlər sistemi kimi yanaşmaq lazımdır. İnsan hüquqları həm də dünyaya baxış, daha doğrusu humanizm prinsiplərinə əsaslanan dərketmə və dünyagörüşü sistemi olaraq da səciyyələndirilir.

Müasir elmi yanaşmada isə insan hüquqları humanitar biliklərin kompleks sistemi kimi çıxış edir və özündə bir çox elm sahələrinin xüsusiyyətlərini birləşdirir.

YUNESKO-nun Nizamnaməsində qeyd olunur ki, insan hüquq və əsas azadlıqlarına, qanun və ədalətə ümumi hörmət yaratmaq məqsədilə millətlər arasında əməkdaşlığa təhsil, elm və mədəniyyət vasitəsilə kömək edərək dünyada sülh və təhlükəsizliyə xidmət etmək təşkilatın birinci vəzifəsidir. Bu məqsədlə, YUNESKO-da bir çox proqramlar qəbul edilmiş və layihələr həyata keçirilməkdədir. Bundan başqa, təşkilat insan hüquqlarının normativ hüquqi bazasının yaradılması sahəsində də aktiv iştirak etməkdədir. Bu istiqamətdə İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Hələ 1947-ci ildə dünyanın filosof, alim və qabaqcıl siyasi xadimlərinin iştirakı ilə insan hüquqlarının nəzəri əsaslarının yaradılması istiqamətində YUNESKO tərəfindən komitə yaradılmış, bir il sonra 10 dekabr 1948-ci ildə isə İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə qəbul edilmişdir. Sonradan bir çox dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası tərtib edilərkən insan hüquq və azadlıqları ilə əlaqəli maddələrdə bu sənəddən istifadə edilmişdir. Sənəddə təhsil hüququ (maddə 26), mədəni həyatda iştirak hüququ (27-ci maddə), informasiyanı axtarma, qəbul etmə və onun bir hissəsi olmanın daxil olduğu sərbəst fikrini ifadə etmə hüququ (maddə 19), elmi inkişafın nəticələrindən bəhrələnmə hüququ (maddə 27) kimi başlıca hüquqlar müəyyən edilmişdir. Bu hüquqlar digər hüquqların həyata keçirilməsini nəzərdə tuta bilər ki, bunlara fikir, vicdan və din azadlığı hüququ (18-ci maddə), elmi, ədəbi və ya bədii əməyin nəticəsi olan maddi və mədəni maraqların müdafiəsi hüququ (27-ci maddə) və təhsil, elm, mədəniyyət və informasiya ilə bağlı fəaliyyət məqsədilə toplaşma və assosiasiya azadlığı hüququ

(20-ci maddə) daxildir. Azərbaycan Respublikası YUNESKO-nun üzvü kimi təşkilat tərəfindən qəbul olunan bir çox hüquqi sənədə tərəf çıxmış və təşkilat tərəfindən həyata keçirilən bir çox proqram və layihələrdə aktiv iştirak etməkdədir.

YUNESKO İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin qəbulundan 60 ildən artıq keçən vaxt ərzində onun icrası istiqamətində geniş fəaliyyət göstərmişdir. Geniş spektrli tədqiqat və nəşr proqramları ilə yanaşı, təşkilatın müəyyən etdiyi standartların tətbiq edilməsi üzrə tədbirlər təxminən 60 konvensiya, bəyannamə və tövsiyə xarakterli hüquqi sənədlərdə öz əksini tapmışdır. Bu mexanizmlər əksəriyyəti YUNESKO-nun səlahiyyət sferasına daxil olan insan hüquqları ilə bağlıdır. Bu, eyni zamanda həmin hüquqların həyata keçirilməsinə nəzarəti və tədrisini də əhatə edir.

Qeyd etmək lazımdır ki, insan hüquq və azadlıqlarının qorunması, ilk öncə, onun tədrisindən başlamalıdır. Azərbaycanda insan hüquqları sahəsində YUNESKO Kafedrasının açılması ilə əldə olunan yeni keyfiyyətlər təhsil və insan hüquqlarının bir-biri ilə sıx bağlılığını göstərməkdədir. Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnsan hüquqları, demokratiya və sülh problemləri üzrə YUNESKO Kafedrası insan hüquqlarının tədrisi sahəsində fəaliyyət göstərməkdədir.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası insan hüquqlarının vacib elementlərindən olan müəllif hüquqları sahəsində Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi ilə sıx əməkdaşlıq etəkdədir. Hər il 23 aprel tarixi YUNESKO tərəfindən qəbul edilən Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi ilə birlikdə qeyd olunur.

2013-cü ildə YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının AMEA-nın İnsan Hüquqları İnstitutu ilə həyata keçirdiyi birgə layihə çərçivəsində "Bioetika və İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" kitabı Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmişdir. Həmçinin AMEA-nın İnsan Hü-



quqları İnstitutu tərəfindən hazırlanan "Armenian terrorism against France" adlı qısa faktlar toplusu və digər nəşrlər təşkilat vasitəsilə beynəlxalq ictimaiyyətə çatdırılmışdır.

Eyni zamanda, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası Azərbaycanda insan hüquqları sahəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə sıx əməkdaşlıq etməkdədir. Milli Komissiya Ombudsmanın təşkilatla insan hüquqları sahəsində əməkdaşlığını təmin edir, beynəlxalq aləmdə qəbul edilmiş qərar və layihələrin Azərbaycanda tətbiq olunmasında yaxından iştirak edir, eyni zamanda, ölkədə bu sahədə əldə edilmiş nailiyyətləri YUNESKO vasitəsilə dünya ictimaiyyətinə çatdırır.

18 iyun tarixi ölkə başçısı İlham Əliyevin müvafiq Sərəncamı ilə 2007-ci ildən etibarən hər il Milli İnsan Hüquqları Günü kimi qeyd olunmaqdadır. YUNESKO hər il mütəmadi olaraq insan hüquqları sahəsində Azərbaycan Ombudsmanı təsisatı ilə birlikdə insan hüquq və azadlıqlarına hörmətin təmin olunması, bu sahədə zəruri maarifləndirmə işinin təşkili və s. istiqamətlərdə tədbirlər təşkil etməkdədir.

Qeyd etmək lazımdır ki, hər il insan hüquqlarının fərqli aspektlərinin müzakirə edildiyi konfranslar beynəlxalq səciyyə daşıyır. 2004-2010-cu illərdə YUNESKO dəstəyi ilə təşkil edilmiş tədbirlərdə demokratikləşmənin inkişafında insan hüquqları üzrə maarifləndirmənin rolu; Ombudsmanların imkanlarının inkişaf etdirilməsi; qloballaşan dünyada insan hüquqları; bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşdırmasının hüquqi və etik aspektləri; insan hüquqları və ətraf mühit: iqlim dəyişikliklərinin hüquqi və etik aspektləri, eləcə də digər mövzular geniş müzakirə edilmişdir.

Məlum olduğu kimi, milli azlıqların və miqrantların problemləri insan hüquqları sahəsində YUNESKO-nun xüsusi diqqət göstərdiyi məsələlər arasındadır. YUNESKO 1948-ci tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1966-cı ildə qəbul olunmuş İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Milli və ya etnik, dini

və dil azlığına mənsub olan şəxslərin hüquqları haqqında 1992-ci ildə qəbul olunmuş BMT Bəyannaməsi və digər beynəlxalq sənədlərdə müəyyən olunmuş hüquqların həyata keçirilməsi istiqamətində Sosial Dəyişikliyin İdarə Edilməsi (MOST), Beynəlxalq Miqrasiya kimi çoxsaylı proqram və konvensiyalar qəbul etmişdir. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və YUNESKO Moskva Bürosunun dəstəyi ilə 2011-ci ildə Azərbaycan Ombudsman təsisatı ilə birlikdə təşkil etdiyi "Milli azlıqların və miqrantların mədəni hüquqları: hüquqi aspektlər və implementasiya" mövzusunda Bakı Beynəlxalq Konfransı da bu məsələlərin müzakirəsinə işıq tutmuşdur. Eyni zamanda, konfransda Azərbaycanda milli azlıqlar və miqranlarla bağlı hüquqların təmin edilməsi, bu sahədə həyata keçirilən dövlət siyasətinin müxtəlif məqamları müzakirə edilmiş və əldə olunmuş nailiyyətlərdən danışılmışdır.

Azərbaycanın YUNESKO-ya üzv olmasının 20 illiyi və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin 10 illiyi münasibətilə 2012-ci ildə YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyilə Ombudsman Aparatı ilə birgə "Fövqəladə hallarda insan hüquqlarının müdafiəsi: problemlər və imkanlar" mövzusunda Ombudsmanların X Bakı Beynəlxalq Konfransı təşkil edilmişdir. Konfransda son zamanların ən aktual problemlərindən biri – fövqəladə hallarda, xüsusilə təbii fəlakətlər, terrorizm kimi dağıdıcı təsirlər qarşısında insan hüquqları sahəsində Ombudsman təsisatlarının, beynəlxalq təşkilatların və o cümlədən YUNESKO-nun gördüyü işlərdən bəhs edilmiş və daha mütəşəkkil əməkdaşlığın vacibliyi qeyd edilmişdir. Sosial, iqtisadi, və mədəni geriləməni, eyni zamanda, kütləvi qırğın və dağıntıları özündə ehtiva edən müharibələr fövqəladə hal kimi dəyərləndirilməlidir. Dağlıq Qarabağ və ətraf ərazilərin Ermənistan tərəfindən işğal edilməsilə 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə salınaraq insan hüquqlarının kobud şəkildə pozulması Konfrans iştirakçıları tərəfindən vurğulanmış və bunun bölgədə öz-özlüyündə gərgin fövqəladə vəziyyət yaratdığı qeyd edilmişdir. Sadəcə insan hüquqlarının pozulması deyil, o cümlədən, digər əlaqədar hüquqların, o cümlədən mədəni, yaradıcılıq, əqli və intellektual mülkiyyət hüquqlarının pozulmasına səbəb olan müharibə və onun törətdiyi fəsadlar bölgədə mövcud olan tarixi mədəni irsin dağıdılması ilə fövqəladə vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Konfransda bu və ya digər hallarda vəziyyətdən çıxmağın mümkün üsulları müzakirə edilmişdir.



YUNESKO-nun geniş maraq dairəsində, şübhəsiz, davamlı inkişaf məsələləri böyük əhəmiyyət kəsb edir. Davamlı İnkişaf strategiyalarına YUNESKO-nun demək olar, bütün proqramlarında rast gəlmək mümkündür. Çünki davamlı inkişaf məfhumu ayrı-ayrı komponentlərin kompleks şəkildə inkişafına əsaslanan bir paradiqmadır. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Azərbaycan Ombudsman təsisatı ilə (2013) birlikdə təşkil etdiyi konfranslar bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

2014-cü ildə 18 iyun – Azərbaycan Respublikasında "İnsan Hüquqları Günü"-nə həsr olunacaq "Qadın hüquqlarının təmin edilməsində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların XII Bakı Beynəlxalq Konfransında cəmiyyətdə gender bərabərliyinin təmin edilməsi, qadına qarşı fiziki və mənəvi zorakılığın qarşısının alınması, mövcud qanunvericilikdə qadın hüquqlarının qorunması məsələlərinin əks olunması, dünya təcrübəsində qadın hüquqlarının təmin edilməsi mexanizmləri, həmçinin bu istiqamətdə fəaliyyət göstərən yerli və beynəlxalq institutların mütəxəssislərinin təcrübə mübadiləsi nəzərdə tutulmuşdur.

Bu fəaliyyət YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və Azərbaycan Ombudsmanının yüksək əməkdaşlığının uğurlu bir töhfəsi hesab edilməlidir. İnsan hüquqları sahəsində görülmüş işlərə kompleks yanaşma bu istiqamətdə ortaya çıxan hər hansı boşluq və ya çatışmazlıqların əyani şəkildə müəyyən edilərək onların aradan qaldırılması və ümumiyyətlə, insan hüquqları sahəsində fəaliyyətin daha da təkmilləşdirilməsinə imkan verir.

Bu gün Azərbaycanda insan hüquq və əsas azadlıqlarının təmin olunması mexanizmlərinə nəzər salsaq, dövlət tərəfindən

qəbul olunmuş çoxsaylı strategiya, dövlət və fəaliyyət proqramları bu mexanizmlərin artıq hərtərəfli hüquqi bazasını formalaşdırdığını görərik. İstər insan hüquqları, istərsə də əhalinin sosial rifahının yüksəldilməsi və dövlətin iqtisadi qüdrətinin artırılmasını əhatə edən kompleks proqramlardan ibarət sahəsinin prioritet əhəmiyyət daşıdığını bir daha sübut edir.

Bütün bunlar deməyə əsas verir ki, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Azərbaycan Ombudsman təsisatı ilə birlikdə növbəti illərdə də təşkil edəcəyi tədbir və konfranslarda Azərbaycanda insan hüquqlarının tədqiqi, tədrisi və eyni zamanda müdafiəsi sahəsində mühüm nəticələr əldə olunacaq və bu əməkdaşlığın gətirəcəyi uğur və nailiyyətlər YUNESKO ideallarının həyata keçirilməsinə mühüm töhfələr verəcəkdir.

## §3. AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN) VƏ YUNESKO: QARŞILIQLI ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİ

2012-ci ildə ölkəmiz BMT-yə, həmçinin YUNESKO-ya üzv olmasının 20 illiyini əlamətdar hadisə kimi qeyd etmişdir. Respublikamızı fəaliyyəti xalqların təhsil, elm və mədəniyyətinin inkişafına, sülh və təhlükəsizliyinin qorunmasına yardım göstərilməsinə yönəlmiş bu nüfuzlu qurumla səmərəli əməkdaşlıq əlaqələri birləşdirir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) beynəlxalq əlaqələr sahəsindəki fəaliyyətini «Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununa və ölkənin digər qanunvericilik aktlarına müvafiq olaraq qurur və həyata keçirir.

Müvəkkil öz fəaliyyətinin ilk addımlarından beynəlxalq əlaqələrin inkişafına xüsusi diqqət yetirir. Müvəkkilin əməkdaşlıq qurduğu beynəlxalq qurumlar arasında YUNESKO xüsusi yer tutmaqdadır.



Azərbaycan Ombudsman təsisatı ilə YUNESKO, o cümlədən YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, həmçinin bu qurumun Moskva Bürosu arasında insan hüquqları sahəsində səmərəli əməkdaşlıq əlaqələri qurulmuşdur. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ölkəmizdə təhsil, elm, mədəniyyət və insan hüquqlarının inkişafı sahəsində mühüm işlər həyata keçirir, konfranslar, müxtəlif səpkili sərgilər, görkəmli mədəniyyət xadimlərinin yubiley tədbirlərini təşkil edir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə Bakıda keçirilmiş ombudsmanların on iki beynəlxalq konfransının doqquzuna bu qurum dəstək vermişdir. Müxtəlif mövzularda, ən başlıcası isə razılaşdırılmış prioritet istiqamətlər üzrə təşkil olunmuş həmin konfranslara verilmiş dəstək insan hüquqları baxımından böyük önəm kəsb etmişdir.

Bunlardan, BMT-nin insan hüquqları sahəsində maarifləndirmə onilliyi (1995-2004) münasibətilə "Demokratikləşmənin inkişafında vətəndaş cəmiyyəti ilə birgə insan hüquqları üzrə maarifləndirmənin rolu", ölkəmizin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmasının beşinci ildönümünə həsr olunmuş "İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində ombudsmanların imkanlarının inkişaf etdirilməsi", BMT-nin İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasının 60 illiyinə və Milli İnsan Hüquqları gününə həsr edilmiş "Qloballaşan dünyada insan hüquqları", Avropa Şurasının 60 illiyi münasibətilə "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşmasının hüquqi və etik aspektləri", ölkə Prezidenti İlham Əliyevin tövsiyəsi ilə respublikamızda qeyd olunan "Ekologiya ili" münasibətilə "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişikliyinin hüquqi və etik aspektləri", "Milli azlıqların və miqrantların mədəni hüquqları: hüquqi aspektlər və implementasiya", Azərbaycan Ombudsmanının fəaliyyətinin 10 illiyi və ölkəmizin YUNESKO-ya üzv olmasının 20 illiyinə həsr edilmiş "Fövqəladə hallarda insan hüquqlarının müdafiəsi: problemlər və imkanlar", BMT-nin Ümumdünya

İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 65 illiyinə həsr olunmuş "Davamlı inkişaf strategiyalarının yeni mexanizmlərinin insan hüquqlarının təbliğində və müdafiəsindəki rolu və təsiri" mövzusunda Ombudsmanların Bakı Beynəlxalq Konfranslarını qeyd etmək olar.

Konfranslar Ombudsman təsisatının beynəlxalq qurumlarla, o cümlədən YUNESKO kimi nüfuzlu təşkilatla əmkdaşlığın dərinləşməsinə, onun prioritetlərinin, həmçinin beynəlxalq təcrübənin öyrənilərək ölkədə tətbiqinə mühüm töhfələr vermişdir.

Bu konfranslara ümumən 60-dan çox ölkənin ombudsmanları, milli insan hüquqları təsisatlarının nümayəndələri, beynəlxalq ekspertlər qatılmışlar.

Qeyd etmək yerinə düşərdi ki, fəaliyyət dövrü ərzində Azərbaycan Ombudsmanı və əməkdaşları müxtəlif ölkələrdə insan hüquqları üzrə keçirilmiş 360-dan çox beynəlxalq konfransda iştirak etmişlər.

Bu konfranslar içərisində YUNESKO-nun dəstəyi ilə keçirilmiş tədbirlər də yer almaqdadır.

Azərbaycan Ombudsmanının Rusiya Fedrasiyasının paytaxtında YUNESKO-nun Moskva Bürosunun təşkilatçılığı ilə keçirilmiş subregional beynəlxalq tədbirlərdə ekspert qismində iştirakı bu tədbirlərdən biri olmaqla yanaşı, qarşılıqlı əməkdaşlığa mühüm töhfə vermişdir.

2008-ci ilin mayında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili YUNESKO-nun dəvəti ilə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda bu nüfuzlu beynəlxalq qurumun Mərkəzi və Şərqi Avropa ölkələri üzrə insan hüquqları kafedralarının rəhbərləri üçün keçirilən konfransda ekspert qismində iştirak etmişdir. Tədbirdə insan hüquqlarının, o cümlədən YUNESKO-nun səlahiyyətlərinə aid hüquqların – təhsil hüquqları, mədəni hüquqlar, fikir azadlığı və digər hüquqların təmin olunması məsələləri müzakirə olunmuşdur.

Konfransda BMT-nin İnsan Hüquqları üzrə Ümumi Bəyannaməsinin qəbul edilməsinin 60 illiyi münasibətilə "YUNESKO-



nun prioritetləri kontekstində insan hüquqlarının müdafiəsində yeni yanaşmalar və mexanizmlər" mövzusunda səmərəli müzakirələr aparılmış, məruzələr dinlənilmişdir.

Konfransın yekun sənədində beynəlxalq ictimaiyyət tərəfindən insan hüquqlarına qlobal, ədalətli və bərabər əsaslarla münasibət göstərilməsinin, tədqiqatlar və siyasi qərarların qəbul edilməsi üzrə əlaqələrin möhkəmləndirilməsinin vacibliyi, bu istiqamətdə qabaqcıl təcrübənin, həmçinin məhkəmələr və məhkəmədənkənar orqanlar tərəfindən hüquq-müdafiə fəaliyyətinin, insan hüquqları sahəsində milli və beynəlxalq siyasətin təkmilləşdirilməsinin, habelə demokratik dəyərlər və insan hüquqları haqqında biliklərin genişləndirilməsinin zəruriliyi öz əksini tapmışdır. Tədqiqat şəbəkəsinin yaradılması üzrə səylərin davam etdirilməsi qərara alınmışdır.

2009-cu ilin aprelində Moskvada Rusiya Dövlət Humanitar Universitetində YUNESKO-nun Moskva Bürosu və BMT İnsan Hüquqları üzrə Ali Komissarının Rusiya Federasiyasındakı (RF) İdarəsinin birgə təşkilatçılığı ilə təşkil olunmuş ikinci subregional görüşə YUNESKO-nun Mərkəzi və Şərqi Avropa ölkələri (RF, Ukrayna, Belarus, Moldova, Azərbaycan, Slovakiya) üzrə insan hüquqları kafedralarının rəhbərləri və bu sahədə beynəlxalq ekspertlər, ombudsmanlar, nüfuzlu beynəlxalq qurumların, dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, tanınmış hüquq mütəxəssisləri qatılmışlar.

Bu tədbir BMT tərəfindən elan edilmiş 2009-cu il - Beynəlxalq insan hüquqları tədrisi ili çərçivəsində keçirilmişdir. Subregional görüşdə insan hüquq və azadlıqlarının, o cümlədən YUNESKO-nun səlahiyyətlərinə aid olan təhsil hüququ və mədəni hüquqların, habelə ümumən insan hüquqları üzrə təhsilin, hüquqi maarifləndirmə və tədrisin reallaşdırılmasının, gender bərabərliyinin aktual məsələləri, ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılması problemləri müzakirə olunmuşdur.

Tədbirdə bu sahədə qabaqcıl təcrübənin, habelə demokratik dəyərlər və insan hüquqları haqqında biliklərin genişləndirilməsi, insan hüquqlarının həyata keçirilməsi ilə bağlı qarşıya çıxan

çətinliklərin öyrənilməsi, fəaliyyətin təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanması, YUNESKO-nun insan hüquqları kafedraları və filiallarının, milli insan hüquqları institutlarının, müvafiq beynəlxalq və milli QHT-lərin qarşılıqlı əlaqəsini təmin etmək məqsədilə Subregional Tədqiqat Şəbəkəsinin yaradılması və gələcək inkişafı məsələləri də müzakirə olunmuşdur.

Bu səpkidə daha bir tədbir, Azərbaycan Ombudsmanının da ekspert qismində iştirak etdiyi, Rusiya Federasiyası (RF) Dağıstan Respublikasının Dərbənd şəhərində "Qafqaz qadınlarının siyasi fəallığı" mövzusunda regional konfrans olmuşdur.

YUNESKO-nun təşkil etdiyi bu beynəlxalq tədbirə Dağıstan Respublikasının İnsan Hüquqları üzrə sabiq Müvəkkili Svetlana Əlisultanova, Dərbənd şəhərinin meri Feliks Qaziəhmədov, YUNESKO-nun Moskva Bürosunun sosial elmlər üzrə proqram mütəxəssisi Alla Ampar, bu nüfuzlu beynəlxalq qurumun xoşməramlı səfiri Vera Zvonaryova, həmçinin Qafqaz ölkələrinin nümayəndələri və digər şəxslər qatılmışlar.

Konfransda Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 60-cı ildönümü ilə bağlı BMT Baş Katibinin dünya ictimaiyyətinə müraciətinə, tövsiyə olunmuş "Ləyaqət və ədalət–azadlıqdan məhrum olunmuş şəxslər üçün" devizinə uyğun olaraq, qadınların, o cümlədən məhkum qadınların hüquqlarının müdafiəsinə və təmin olunmasına daim diqqət yetirilməsinin əhəmiyyəti, qadınların siyasi həyatda və idarəetmədə, həm də qərar qəbuletmə məsələlərində iştirakı ilə bağlı əldə olunmuş uğurları və çətinliklər müzakirə olunmuşdur.

Minilliyin İnkişaf Məqsədlərinə, BMT-nin insan hüquqları və sülh siyasətinə uyğun olaraq, qadınlara səylərini birləşdirməyə, fəallığa, təşəbbüskarlığı artıraraq çətinlikləri aradan qaldırmağa çağırışlar edilmişdir.

1-2 dekabr 2008-ci il tarixdə Misir Ərəb Respublikasının (MƏR) paytaxtı Qahirə şəhərində YUNESKO və Misirin İnsan Hüquqları Şurası tərəfindən BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin 60 illiyinə həsr olunmuş "Cəmiyyətin



dəyişməsində milli insan hüquqları institutları və qeyri-hökumət təşkilatlarının rolu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə 60 il sonra: ritorika və reallıq" devizi ilə təşkil olunan konfransda Azərbaycan Ombudsmanı da iştirak etmişdir.

Konfransın işinə İnsan Hüquqları Şurasının prezidenti, BMT-nin sabiq Baş katibi Butros Butros Qali, YUNESKO-nun idarə heyətinin prezidenti O.B.Jozef Yay, Ərəb Ölkələri Liqasının Baş Katibi A.Moussa, Afrika Parlamentinin prezidenti xanım Gertrude Mongella, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının müavini xanım Kyunq-Vha Kanq və digər ali dərəcəli qonaqlar, müxtəlif ölkələrin dövlət və ictimai xadimləri, insan hüquqları sahəsində nüfuzlu beynəlxalq ekspertlər, milli insan hüquqları təsisatlarının təmsilçiləri, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri qatılmışlar.

Konfransda MDB ölkələrindən yalnız Azərbaycanın nümayəndəsi iştirak etmişdir. İki gün davam edən beynəlxalq tədbirdə adı çəkilən Bəyannamənin tətbiqi nəticəsində əldə olunmuş nailiyyətlər, həmçinin irqçilik, fundamentalizm, hərbi münaqişələr, yoxsulluq və insan hüquqları, qadınlar və insan hüquqları, digər aktual məsələlər müzakirə olunmuşdur.

Azərbaycan Ombudsmanı təcavüzkar Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində ölkəmizin ərazisinin beşdə bir hissəsinin işğal olunması, yarısını qadınlar təşkil edən bir milyon qaçqın və məcburi köçkünün vəziyyəti, çadır şəhərciklərində dünyaya gəlmiş yüz mindən çox körpənin taleyi və kütləvi şəkildə insan hüquqlarının tapdanması haqqında ətraflı məlumat vermiş, iştirakçıları insan hüquqlarının bu cür kobud pozulması hallarına biganə qalmamağa çağırmışdır.

2008-ci ilin iyununda Yaponiyanın Xirosima şəhərində Uşaqlar üçün Qlobal Dini Şəbəkə (UQDŞ) tərəfindən keçirilmiş üçüncü beynəlxalq Forumda ölkəmizi Azərbaycan Ombudsmanı və Müvəkkilin uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin (AUGSŞ) üzvləri təmsil

etmişlər.

30-dan çox ölkədən 300 iştirakçının - dini liderlər, beynəlxalq ekspertlər, iş adamları, mətbuat nümayəndələri, uşaq və yeniyetmələr, eyni zamanda YUNİSEF, YUNESKO və BMT-nin yüksək vəzifəli rəsmilərinin dəstəyi ilə keçirilən Forum Ariqato Fondu və onun çərçivəsində yaradılmış Uşaqlar üçün Qlobal Dini Şəbəkə tərəfindən təşkil edilmişdi.

Beynəlxalq tədbirin keçirilməsində əsas məqsəd bütün dünyada uşaqların hüquqlarını və onların rifahını müdafiə etmək barədə BMT-nin öhdəliklərinin həyata keçirilməsini gerçəkləşdirməkdən ibarət olmuşdur.

Konfransda əsasən uşaqların təlim-tərbiyəsi, hüquqlarının müdafiəsi barədə müzakirələr aparılmışdır. Görkəmli mütəfəkkir Cəlaləddin Ruminin "Mən uşaqsız dünyadan qorxuram" sözləri konfransın devizinə çevrilmişdir.

Forum zamanı üç əsas mövzuda müzakirələr aparılmışdır: yoxsulluq, zorakılıq və ətraf mühit. Müvafiq olaraq üç qrupa bölünən uşaqlar böyüklərlə birgə masa arxasına əyləşib hər üç mövzuda öz fikirlərini bildirmiş və təkliflər irəli sürmüşlər.

Yeganə qlobal dinlərarası şəbəkə olan Uşaqlar naminə Qlobal Dini Şəbəkə ilə yerli, milli, regional və qlobal səviyyələrdə, BMT-nin YUNİSEF və YUNESKO kimi təşkilatları, QHT-lər, media, hökumət və biznes icması ilə tərəfdaşlıq edilir, hər dörd ildən bir beynəlxalq forumda iştirak olunur.

Yaponiyada Kanaqava Beynəlxalq Fondu tərəfindən iki ildən bir keçirilən bu beynəlxalq incəsənət sərgisi də dünyanın müxtəlif ölkələrinin uşaq və gənclərini özündə birləşdirir. Sərgidə təmsil olunaraq qalib gəlmiş uşaqların rəsmləri Kanaqava Prefekturasının orta və ali təhsil müəssisələrində, uşaq yaradıcılıq mərkəzlərində, muzey və qalereyalarda nümayiş etdirilir, qlobal təhsilin təşviqi kimi maarifləndirici məqsədlərlə istifadə olunur, minlərlə insan mükafata layiq görülmüş bu rəsm işləri ilə tanış olmaq imkanı əldə edir.

2012-ci ildə keçirilən XVI Kanaqava Dünya Uşaqlarının Bədii Sərgi və Müsabiqəsində 220 saylı orta məktəbin şagirdi Ceyhun



Əhmədzadə "Qarabağla və Qarabağsız" rəsm əsəri ilə qalib gələrək xüsusi mükafata layiq görülmüşdür. Həmçinin Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzinin üzvlərindən 9 yaşlı Fərəc Fərəczadə müsabiqədə "Sağlam ətraf mühit naminə çalışaq" adlı rəsm əsəri ilə qalib olmuşdur.

2013-cü ildə isə Ucar rayon 4 saylı orta məktəbin 5-ci sinif şagirdi Zümrüd Kərimli "Radiasiyaya yox deyək" adlı rəsm əsəri ilə xüsusi mükafata, Bakı şəhər D`Art Studio yaradıcılıq mərkəzində təhsil alan 13 yaşlı Valeriya Aleynikova "Günəşli Qız" adlı rəsm əsəri ilə XVII Kanaqava Dünya Uşaqlarının Bədii Sərgisində iştirak edərək sertifikata layiq görülmüşdür.

Qeyd edilməlidir ki, hələ 2002-ci ildə BMT Baş Assambleyasının Uşaqlar üzrə Xüsusi Sessiyasına həsr olunmuş "Sehrli dünya: gələcəklə bağlı ümid və arzularımız" mövzusunda sərgidə Azərbaycan Ombudsmanının təşkilatçılığı ilə respublikamızın müxtəlif rayonlarından toplanmış, məcburi köçkün, əlil və valideyn himayəsindən məhrum uşaqların çəkdikləri 444 rəsm işi nümayiş etdirilmişdir.

7-10 mart 2012-ci il tarixlərində Brüsseldə YUNESKO-nun dəstəyi ilə keçirilmiş Krans Montana Forumunun Afrika və Cənub Əməkdaşlığına həsr edilmiş 6-cı illik toplantısı keçirilmişdir. Dünyanın müxtəlif ölkələrinin nümayəndələrini bir araya toplayan bu beynəlxalq tədbirdə Ərəb-Afrika ölkələri ilə əməkdaşlığın problemləri, bu əməkdaşlığın beynəlxalq arenada rolu, ümumi inkişafın yeni istiqamətləri, mövcud vəziyyət barədə əhəmiyyətli dialoqun qurulması, onun inkişaf etdirilməsi üçün lazımi iqtisadi, sosial və siyasi vasitələrdən istifadə olunması, demokratiyanın təbliği, bu istiqamətdə dünya ictimaiyyətinin, habelə Avropanın yeni rolu kimi məsələlər müzakirə edilmişdir.

Forumun Beynəlxalq Qadınlar gününə təsadüf edən iş günündə İSESCO-nun və müxtəlif ölkələrin xüsusi dəvət olunmuş birinci xanımlarının birgə dəstəyi ilə təşkil edilmiş görüşün müvafiq bölümündə Azərbaycan Ombudsmanı "Qadınların liderliyi və onların Azərbaycanda davamlı inkişaf prosesində iştirakı" mövzusunda

çıxış etmişdir.

Ombudsman qloballaşan dünyada qadınların rolundan danışmış, xüsusilə də onların davamlı inkişaf prosesində iştirakı üçün mühüm əhəmiyyət kəsb edən gender bərabərliyi məsələsinə toxunmuşdur.

Azərbaycanda qadın liderliyinin inkişafı, qadınların ölkənin ictimai, siyasi, iqtisadi həyatında iştirakı barədə ətraflı məlumat verilmişdir.

Betti A.Reardonun "Sülh mədəniyyəti təhsili-gender perspektivindən" adlı kitabının YUNESKO-nun dəstəyi, Ombudsmanın təşəbbüsü ilə Azərbaycan və rus dillərinə tərcümə edilərək çap olunması, tədris vəsaiti kimi nəzərdə tutulmuş həmin kitabın nəşri, bu əməkdaşlığın tərkib hissəsi kimi əhəmiyyətli rol oynayır, qadınların sülh prosesində rolunun dərk olunması, onlar tərəfindən təşəbbüslərin irəli sürülməsində mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizin YUNESKO-ya üzv qəbul edilməsinin iyirmi illik yubileyi münasibətilə paytaxt Bakıda və respublikamızın müxtəlif bölgələrində silsilə tədbirlər keçirilmişdir. "Azərbaycan və YUNESKO – 20 il: davamlı inkişaf naminə təhsil" mövzusunda təşkil edilmiş konfrans bu qəbildən olmuşdur. Tədbir AMEA-nın Konfliktologiya və İnsan Hüquqları İnstitutu, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və YUNESKO-nun Bioetika kafedrasının Azərbaycan Bürosu tərəfindən keçirilmişdir.

Hər bir xalqın mədəniyyətinin bütün dünya mədəni irsinin tərkib hissəsi olduğu və tarixi abidələrin YUNESKO-nun inkişaf strategiyalarına uyğun qorunub saxlanılması milli və qlobal yanaşma tələb etdiyindən, Azərbaycan Ombudsmanının fəaliyyəti çərçivəsində onların müdafiəsi sahəsində işlər davam etdirilir.

Bu baxımdan, Azərbaycanın tarixi və mədəni sərvətlərinin erməni millətçiləri tərəfindən dağıdılması və mənimsənilməsi, insanların mədəni hüquqlarının pozulmasının hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə tamamilə zidd olması barədə Ombudsmanın verdiyi bəyanat YUNESKO-nun sabiq Baş direktoru Koiçiro Matsuuraya ünvanlanmışdır.



Bəyanatda göstərilir: Xalqın milli sərvəti olan tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətlərin tənzimlənməsi hər bir dövlətin, o cümlədən beynəlxalq təşkilatların diqqət mərkəzində olan məsələlərdəndir.

Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin qorunması, bununla da insanların mədəni hüquqlarının təmini təkcə ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzim edilir.

16 dekabr 1966-cı il tarixli «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyası, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli YUNESKO-nun «Ümumdünya mədəni və təbii irsin qorunması haqqında» Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq, bir sıra beynəlxalq müqavilələrə, o cümlədən adları çəkilən konvensiyalara qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşdırmışdır.

Təəssüf ki, Ermənistanın Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı 7 rayonun zəbt edilməsi, bir milyondan çox insanın qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmır. Azərbaycan xalqına qarşı Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmış terror və soyqırımı siyasəti Azərbaycan tarixinə mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurmuşdur.

Ermənistan Respublikası adı çəkilən beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq bütün dünyanın gözü qarşısında Azərbaycanın mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir. Belə ki, Azərbaycan Respublikasının işğal edilmiş ərazisində ölkə və dünya əhəmiyyətli yüz mindən artıq mədəniyyət nümunəsi dağıdılmış və qəsb edilmiş, 500-ə ya-

xın tarixi və 100-dən çox arxeoloji abidənin, 22 muzeyin əksəriyyəti tamamilə və ya qismən dağıdılmışdır.

Erməni millətçiləri maddi mədəniyyət abidələri ilə yanaşı, Azərbaycan xalqının folklorunu, musiqisini, ədəbiyyatını və digər mənəvi sərvətlərini ardıcıl və sistemli şəkildə mənimsəməklə, əslində işğalçılıq müharibəsini mədəni sərvətlər müstəvisində genişləndirirlər.

Erməni millətçiləri Azərbaycanın tarixən mədəniyyət beşiyi olan Şuşa şəhərinin ətrafında yerləşən, bürünc dövrünə aid 200 məzarda arxeoloji qazıntılar aparmaqla beynəlxalq hüquq normalarına saymazyana münasibət göstərdiklərini bir daha nümayiş etdirirlər. Belə ki, işğal olunmuş ərazilərdə arxeoloji qazıntıların aparılması beynəlxalq hüquqla qadağan edilmişdir.

Qeyd olunmalıdır ki, Ombudsman təsisatının fəaliyyətə başladığı vaxtdan Müvəkkil 41 bəyanat vermişdir, o cümlədən 20 Yanvar faciəsinin, Xocalı soyqırımının, Şuşa, Laçın və Kəlbəcərin işğalının ildönümləri, 31 Mart-Azərbaycanlıların Soyqırımı günü, 9 yaşlı Fariz Bədəlovun erməni hərbçiləri tərəfindən qətlə yetirilməsi ilə bağlı, habelə 21 Sentyabr-Beynəlxalq Sülh Günü münasibətilə Bəyanatları müxtəlif nüfuzlu beynəlxalq qurumlara ünvanlanmışdır. Həmin bəyanatlar BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin ölkəmizdəki səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilmişdir.

Ombudsmanın yaratdığı, hazırda Müvəkkilin uşaq hüquqları üzrə resurs mərkəzi kimi səmərəli fəaliyyət göstərən Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin üzvləri müharibə şəraitində yaşayan, xüsusilə də cəbhənin təmas xəttində məskunlaşan azərbaycanlı uşaq və gənclər adından erməni hərbçiləri tərəfindən 9 yaşlı azərbaycanlı uşağın - Fariz Bədəlovun qətlə yetirilməsi ilə bağlı BMT Baş Katibinin Uşaqlar və Hərbi münaqişələr üzrə xüsusi nümayəndəsi Radhika Kumarasvamiyə müraciət etmişlər. Müraciətdə deyilir: "Ata-analarımızın, bacı-qardaşlarımızın başlarına gətirilən, gözümüzü açan zamandan gördüyümüz müharibə müsibətlərini dünyaya və Sizə çatdırmaq məqsədilə "Biz sülh elçisiyik! Bizə qoşulun!" devizi ilə ölkəmizin müxtəlif guşələrində yaşayan və təhsil alan 310.000-dən artıq məktəblinin, o cümlədən qaçqın və məcburi köçkün uşağın imzaları toplanaraq hələ 2009-cu ildə Sizə göndərilmiş və ölkəmizə səfəriniz xahiş olunmuşdu. Lakin uzun müddət keçməsinə baxmayaraq yenə də Sizi səbirsizliklə gözləyirik.

Azərbaycan Ombudsmanının fəaliyyəti dövründə BMT-nin ixtisaslaşmış qurumları, YUNESKO ilə insan hüquqları sahəsində səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, Ombudsmanların Bakı Beynəlxalq konfransları keçirilmiş, birgə səylər əsasında insan hüquqlarının, o cümlədən mədəni hüquqların, təhsil hüquqlarının təmin edilməsində çoxsaylı təşəbbüslər göstərilmişdir. Bu təşəbbüslər Azərbaycan respublikasında qəbul edilmiş strateji sənədlərdə yer almaqla yanaşı uğurlu fəaliyyət istiqamətləri kimi təsdiqlənmişdir.

## §4. AZƏRBAYCAN RESPUBLİKASINDA YUNESKO PRİORİTETLƏRİNƏ ƏSASLANAN İNSAN HÜQUQLARINA DAİR STRATEJİ SƏNƏDLƏR

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırılmasında YUNESKO təcrübəsinin, həmçinin sənədlərin də tətbiqi mühüm əhəmiyyət kəsb etmiş və ölkəmizdə təsdiqlənmiş strateji sənədlər içərisində yer almışdır.

Azərbaycan Respublikasının müstəqillik tarixində insan hüquq və azadlıqlarının daha səmərəli təmini sahəsində 3 strateji sənəd qəbul olunmuşdur.

Ümumilikdə isə, Milli Fəaliyyət Planlarının konsepsiyası və demokratik inkişafda əhəmiyyəti hələ 1993-cü ildə Vyanada keçirilmiş

İnsan Hüquqları üzrə Dünya Konfransının yekun tövsiyələrində öz əksini tapmışdır. Həmin konfransda hər bir dövlətə insan hüquqlarının müdafiəsi və təşviq olunmasını daha da təkmilləşdirə biləcək addımları müəyyənləşdirən Fəaliyyət Planının hazırlanmasının məqsədəuyğunluğunu nəzərdən keçirmək tövsiyə olunmuşdur.

İnsan hüquqlarının və azadlıqlarının təmin olunması istiqamətində qəbul edilmiş normativ sənədlər sırasında Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin 22 fevral 1998-ci il tarixində imzaladığı «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərmanı və 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş ilk «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı»nı qeyd etmək lazımdır.

Belə ki, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində qəbul edilmiş ilk strateji sənəddə bu istiqamətdə mühüm tədbirlərin həyata keçirilməsi, o cümlədən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə səlahiyyətli müvəkkili təsisatının yaradılması, ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər nəzərdə tutulmuş, daha sonralar həmin aktlarda təsbit olunmuş məsələlərin həlli istiqamətində mühüm islahatlar həyata keçirilmişdir.

*Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı.*

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən islahatların məntiqi davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında İnsan Hüquqlarının



Müdafiəsi üzrə Milli Fəaliyyət Planı (MFP) təsdiq edilmişdir.

Ombudsmanın da təklifləri nəzərə alınmaqla qəbul olunmuş Plan insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, qlobal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Sənədin həyata keçirilməsinin əlaqələndirilməsi funksiyasını daşıyan İşçi Qrupu Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin rəhbərliyi ilə fəaliyyət göstərmişdir.

Planda təsbit olunmuş müddəaların daha səmərəli həyata keçirilməsinə, bu sahədəki fəaliyyətin əlaqələndirilməsinə dəstək vermək məqsədilə İşçi Qrupunun nəzdində MFP-nın strukturuna müvafiq olaraq 5 alt qrupları yaradılmış, qrupların işinə planın icrasına məsul dövlət qurumlarının nümayəndələri ilə yanaşı, insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları da cəlb olunmuşlar.

Milli Fəaliyyət Planının bəndlərində beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində də tədbirlərin həyata keçirilməsi də yer almış, YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə qadınlar, uşaqlar, gənclər, əlillər, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, narkomaniya və HİV/AİDS-ə yoluxmuş insanlar üçün hüquqi maarifləndirmə sahəsində vəsaitlərin, təlimçilərin hazırlanması nəzərdə tutulmuşdur ki, ötən müddət ərzində bu müddəalar praktik icra olunmuşdur.

Sənədin icra vəziyyəti mütəmadi qaydada təhlil edilmiş, onun icrası və nəticələrinin müzakirəsi üçün cəmiyyətin bütün təbəqələrinin nümayəndələrinin iştirakı ilə ölkəmizin bütün rayon və şəhərlərində ictimai dinləmələr keçirilmişdir.

İctimai dinləmələrdə Planın mahiyyəti, qarşıya qoyulmuş vəzifələr, bu vəzifələrin həyata keçirilməsi istiqamətində əməkdaşlıq perspektivləri müzakirə olunmuş, iştirakçıların çıxışlarına geniş yer verilmiş, təkliflər dinlənilərək ümumiləşdirilmiş, interaktiv müzakirələr aparılmışdır. Ötən müddət ərzində hər il sənədin icrası-

na məsul olan dövlət qurumları tərəfindən planın icrası istiqamətində müvafiq işlər görülmüş, bununla bağlı məlumatlar Müvəkkilə təqdim edilmiş və daha sonra ümumiləşdirilərək Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

Planın icrası sahəsində tərtib olunmuş məlumatlar, bununla bağlı yaradılmış xüsusi internet səhifəsində (mfp.ombudsman.gov.az) yerləşdirilmiş, həmçinin, kitab şəklində nəşr olunaraq məsul dövlət qurumlarına göndərilmiş və ictimaiyyətə təqdim olunmuşdur.

Hər il həyata keçirilən ictimai dinləmələrin sonunda Bakı şəhərində Yekun konfrans keçirilmiş, ictimai dinləmələrin nəticələri təhlil edilmiş, qaldırılan problemlər və onların həlli istiqamətində irəli sürülən təkliflər müzakirə edilərək ümumiləşdirilmiş və müvafiq dövlət qurumlarına ünvanlanmışdır.

Planın təbliği və icrası istiqamətində görülmüş işlərin dəyərləndirilməsi, bu sahədə ictimaiyyətin daha geniş məlumatlandırılması məqsədilə keçirilmiş bu tədbirlərdə sənədin icrasına məsul dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri, millət vəkilləri, xarici ölkələrin respublikamızdakı səfirliklərinin, beynəlxalq və qeyri hökumət təşkilatlarının nümayəndələri iştirak etmiş, həyata keçirilmiş tədbirlərin nəticələri və gələcək fəaliyyət perspektivləri müzakirə olunmuşdur.

Tədbirlərin nəticəsi geniş ictimaiyyət tərəfindən müsbət qarşılanmış, gələcək fəaliyyət və birgə əməkdaşlıq üçün mühüm zəmin yaratmışdır.

*Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı.*

İnsan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə müasir dövrün prioritetlərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir.

6 fəsil və 75 bəndi əhatə edən Milli Fəaliyyət Proqramı normativ-hüquqi bazanın təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, tədris, elmi-analitik və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlıq və Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi istiqamətlərini əhatə edir.



Milli Fəaliyyət Proqramı ölkədə insan hüquq və azadlıqlarının təmin olunmasında yeni mərhələ açmışdır. Sənəddə qarşıya qoyulmuş vəzifələri ümumi xarakterli habelə, konkret hüquqlar və sahələr üzrə qruplaşdırmaq olar.

Ümumi xarakterli vəzifələr sırasında Azərbaycan Respublikası qanunları layihələrinin hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və qanunvericiliyin beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi kimi vəzifələri qeyd etmək olar ki, bunlar mütəmadi olaraq icra olunmaqdadır.

Milli Fəaliyyət Proqramının təhlili göstərir ki, burada insan hüquqlarının müdafiəsi istiqamətində daha geniş və məqsədyönlü tədbirlər nəzərdə tutulmuş, Milli Fəaliyyət Planından fərqli olaraq Proqramın icrasına daha çox dövlət qurumları cəlb olunmuşdur. Belə ki, Milli Fəaliyyət Planının icrasında 31 dövlət qurumu iştirak etdiyi halda, Milli Fəaliyyət Proqramının icrasına 43 dövlət qurumunun, o cümlədən, Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyətləri cəlb olunması bu sənədin icra mexanizminin effektivliyinə yönəlmişdir.

Proqramda vətəndaş və siyasi, iqtisadi, sosial və mədəni hüquqların, o cümlədən, fikir, söz və ifadə azadlığının, mülkiyyət və müraciət etmək hüququnun, uşaqların, qadınların ahılların, məhkumların və əhalinin digər qruplarının daha səmərəli təmin olunmasına yönəlmiş vəzifələr nəzərdə tutulmuşdur.

Milli Fəaliyyət Proqramı"nın (MFP) 4.3-cü bəndi, yəni BMT-nin Baş Məclisi tərəfindən bəyan edilmiş "İnsan hüquqları sahəsində

maarifləndirmə" və "İnsan hüquqları sahəsində təhsil", BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İnsan hüquqlarının tədrisi üzrə Dünya Proqramına, YUNESKO-nun "Davamlı İnkişaf naminə təhsil" onilliklərinə uyğun olaraq insan hüquqları sahəsində tədris proqramları və tədris vəsaitləri hazırlanmasını özündə ehtiva edir ki, bu istiqamətdə geniş fəaliyyət həyata keçirilməkdədir.

Sənədin müxtəlif bəndlərində beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində də tədbirlərin həyata keçirilməsi də yer almışdır. Bu baxımdan Proqramın 4.8-ci bəndində YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları (qadınlar, uşaqlar, gənclər, əlillər, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, narkomaniya və HİV/AİDS-ə yoluxmuş insanlar üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanması, 4.9-cu bənddə isə insan hüquqları sahəsində təhsilin səmərəliliyinin artırılması, bu sahədə işin əlaqələndirilməsi məqsədilə ixtisaslaşmış insan hüquqları mərkəzlərinin (insan hüquqları məktəbi, insan hüquqları evi və s.) və ya şəbəkələrinin yaradılması nəzərdə tutulmuşdur.

Milli Fəaliyyət Proqramında insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıqla bağlı mühüm vəzifələr nəzərdə tutulmuşdur ki, bunlarında sırasında BMT-nin ixtisaslaşmış qurumları, beynəlxalq regional təşkilatlar, o cümlədən, Avropa Şurası, Avropa İttifaqı, ATƏT-lə birgə layihələrin hazırlanması və həyata keçirilməsi, 2012-2013-cü illər üçün Avropa Şurası ilə birgə Fəaliyyət Planının həyata keçirilməsi, BMT-nin "Minilliyin inkişaf məqsədləri"nin təbliği və həyata keçirilməsi üçün BMT-nin İnsan Hüquqları Şurası ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi kimi vəzifələri qeyd etmək olar.

Proqramın həyata keçirilməsinin monitorinqi, dəyərləndirilməsi və əlaqələndirilməsi üzrə işçi qrupunun fəaliyyətinə rəhbərlik edilməsinin müstəqil mexanizm olan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) tövsiyə olunmuşdur.



Proqramın icra mexanizminin çevik və işlək tərzdə fəaliyyət göstərməsi üçün Müvəkkil tərəfindən bir sıra tədbirlər də nəzərdə tutulmuş və artıq həyata keçirilməkdədir. Bu proseslərin həyata keçirilməsi demək olar ki, Proqramın təsdiq olunmasının ilk günlərindən başlamışdır.

28 dekabr 2011-ci il tarixdə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun qəbul olunmasının 10-cu ildönümü günündə ilk dəfə olaraq Milli Fəaliyyət Proqramı ictimaiyyətə təqdim olunmuş, mətbuat səhifələrində işıqlandırılmışdır.

Proqramın icrası ilə bağlı Milli Məclis üzvlərinin, dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının, habelə media nümayəndələrinin iştirakı ilə dəyirmi masalar təşkil edilmiş və məsləhətləşmələr aparılmışdır. Həmçinin ali təhsil ocaqlarında (Bakı Dövlət Universitetində, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, Ədliyyə və Polis Akademiyalarında) professor-müəllim heyəti, tələbə və müdavimlərlə görüşlər keçirilmişdir.

Ötən dövrdə qazanılmış müsbət təcrübələrdən biri kimi, Ombudsmanın təşəbbüsü ilə hər il ənənəvi olaraq "18 iyun Milli İnsan Hüquqları Günü" ərəfəsində mayın 18-dən iyunun 18-dək respublikamızda keçirilən "İnsan hüquqları aylığı" çərçivəsində yerli və mərkəzi icra hakimiyyəti orqanları eləcə də, vətəndaş cəmiyyəti qurumları olan QHT-lər və KİV-lərlə birgə Milli Fəaliyyət Proqramının təbliği istiqamətində tədbirlər həyata keçirilməkdədir.[12]

Dövlət qurumlarının, əhalinin müxtəlif qruplarının, vətəndaş cəmiyyətinin Milli Fəaliyyət Proqramında fəal iştirakını təmin etmək və adı çəkilən sənədi təbliğ etmək məqsədilə müvafiq qrafik üzrə ətraf şəhər və rayonlar da cəlb olunmaqla Gəncədə, Şəkidə, Bərdədə, Cəlilabadda, Qubada və Bakıda regional ictimai dinləmələr keçirilmişdir. Dinləmələr ümumilikdə 60 şəhər və rayonu, bir sözlə bütün respublikanı əhatə etmişdir.

12 Elmira Suleymanova, "Giriş sözü". **Ombudsmanların IX Bakı Beynəlxalq Konfransının Materialları,** 16 iyun 2011, səh 49.

Həmin tədbirlərdə müvafiq şəhər və rayonlardan seçilmiş millət vəkilləri, yerli icra hakimiyyəti, məhkəmə və hüquq-mühafizə orqanlarının, bələdiyyələrin, dairə seçki komissiyalarının, yerli QHT-lərin, KİV-lərin və icmaların nümayəndələri iştirak etmişlər.

Ombudsmanın insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı çərçivəsində qəbul olunan fəaliyyət planlarına da Milli Fəaliyyət Proqramının icrası ilə bağlı birgə tədbirlərin həyata keçirilməsi təklif olunmuş və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməkdədir.

Belə ki, Milli Fəaliyyət Proqramında 2012-ci ildə həyata keçirilməsi nəzərdə tutulan vəzifələrə müvafiq olaraq "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və həmin qanun Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerlərində hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Eyni zamanda, Milli Fəaliyyət Proqramında nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müxtəlif vaxtlarda dəyişikliklər edilərək "Kompüter informasiyası sahəsində cinayətlər" adlanan otuzuncu fəsil "Kibercinayətlər" adlandırılmaqla yenidən işlənmiş, 171-ci maddəyə "Uşaq pornoqrafiyasının dövriyyəsi" adlanan 171-1-ci maddə, həmçinin məcəlləyə "Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlər" adlanan 15-2-ci fəsil əlavə olunmuşdur.

Beynəlxalq Əmək Təşkilatının "Analığın mühafizəsi haqqında" və "Kişi və qadın işçiləri üçün bərabər imkanlar: ailə vəzifələri olan işçilər haqqında" Konvensiyalarından irəli gələn öhdəlikləri nəzərə alaraq işləyən qadınların və ailə vəzifələri olan işçilərin əmək hüquqları ilə əlaqədar əmək qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində tədbirlər həyata keçirilmişdir.

Dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi və korrupsiyaya qarşı mübarizə məqsədilə "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya



qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" hazırlanmış, Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli, 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Milli Fəaliyyət Proqramında nəzərdə tutulmuş vəzifələrə müvafiq olaraq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən 2012-ci il 25 aprel tarixindən etibarən "Elektron hökumət" portalı tam istifadəyə verilmişdir. Hazırda 34 dövlət qurumu Portala qoşulmuşdur ki, onlardan 28-i tərəfindən Portal vasitəsilə 151 sayda elektron xidmət göstərilməkdədir.

Ombudsmanın müxtəlif dövlətin qurumları və beynəlxalq təşkilatlarla birgə fəaliyyəti əsasında insan hüquq və azadlıqlarının daha səmərəli təmini istiqamətində həyata keçirilən islahatların məntiqi davamı olaraq, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə qəbul edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramını effektiv nəticələr verməkdədir.

Bu imkanlar YUNESKO və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə də əməkdaşlığı dərinləşdirir.

# III FƏSİL

# YUNESKO PRİORİTETLƏRİ ÜZRƏ OMBUDSMANIN FƏALİYYƏTİ

## §1. TƏHSİLİN İNKİŞAFI VƏ İNSAN HÜQUQLARI SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN FƏALİYYƏT

Təhsil hər bir insanın inkişafına və ləyaqətinin dərk olunmasına, insan hüquqlarına və əsas azadlıqlara hörmətin möhkəmləndirilməsinə, eyni zamanda hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmasına imkan yaradır. Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində təsbit edilmişdir ki, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.

«İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktın 13-cü maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin təhsil hüququnu tanıyırlar. Onlar razılaşırlar ki, təhsil insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilməli, insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir. Onlar həm də razılaşırlar ki, təhsil hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmaq imkanı verməlidir, bütün millətlər, irqi, dini və etnik qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və Birləşmiş Millətlər Təşkilatının sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidir.

Respublikanın təhsil sistemində davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişikliklərinin baş verməsi, qəza vəziyyətində olan, zəlzələdən ziyan çəkən məktəblərin əsaslı təmiri və yeni məktəblərin tikintisi, inkişafa xidmət edən qanunvericilik aktlarının tətbiqi, proqram və layihələrin həyata keçirilməsi, dövlətin təhsilə,



o cümlədən təhsil işçilərinə və təhsil alanlara diqqətinin nəticəsidir.

Bu gün qloballaşan dünyada funksional savadsızlıq müasir cəmiyyətin aktual problemlərindən biri sayılır. Bu artmaqda davam edən sosial dinamikanın, innovativ texnologiyaların inkişafı, iqtisadiyyatda struktur dəyişəkliklərinin, sosial-mədəni mühitin transformasiyasının, əhalinin miqrasiyanın nəticəsində yaranır. Hazırda 200-ə yaxın üzvü olan YUNESKO-nun əsas məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəstək verməkdir. Təşkilatın Nizamnaməsi 9 hissə, 57 maddədən ibarədir. YUNESKO məqsədini Nizamnaməsinin birinci maddəsində belə açıqlayır: "YUNESKO beynəlxalq əməkdaşlığa söykənən, elm, mədəniyyət və təhsil yolu ilə dünyamızın sülh və təhlükəsizliyini qorumaq məqsədilə qurulmuşdur". Təşkilat millətlərarası qarşılıqlı əlaqələri inkişaf etdirərək anlaşma yaratmaq, insanları bir-birinə yaxınlaşdırmaq, habelə dünyanın geridə qalmış ölkələrində kütləvi savadsızlığın aradan qaldırılması kimi prioritet istiqamətləri özünün əsas fəaliyyəti hesab edir. Azərbaycan Respublikası və YUNESKO arasında əməkdaşlığa dair 1996-cı ilin noyabrında imzalanmış saziş isə təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın yeni mərhələsinin başlanğıcını qoymuşdur.

Hər bir dövlətin müəyyən bir beynəlxalq təşkilatla əməkdaşlığının əsasında həmin beynəlxalq təşkilat tərəfindən qəbul edilən beynəlxalq sazişlərdə dövlətin iştirakı durur. Ölkəmiz qısa müddət ərzində təşkilatın əksər konvensiyalarına, o cümlədən təhsil sahəsində sənədlərinə qoşulmuşdur. Bunlardan "Avropa regionu dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında" 21 dekabr 1979-cu il Konvensiyası; "Asiya və Sakit okean dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında" 16 dekabr 1983-cü il regional Konvensiyası; "Avropa regionunda ali təhsil ixtisaslarının tanınması haqqında" Konvensiyaları qeyd etmək olar.

YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım

Əliyevanın təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikası və YUNESKO arasında elm, təhsil və mədəniyyət sahəsində bir sıra mühüm layihələr həyata keçirilmiş və əməkdaşlıq münasibətləri daha da inkişaf etdirilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bir sıra sazişlərin imzalanması bu sahədə əməkdaşlığın yeni istiqamətlərini müəyyən etməklə bərabər, dövlətimizin beynəlxalq öhdəliklərinin icrası istiqamətində də mühüm işlər görülmüşdür. Məsələn, 2005-ci il avqustun 24-də Bakı şəhərində "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda keçirilən beynəlxalq konfransda təşkilatla Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığa dair Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır. Memorandumda təhsildə bərabər imkanların yaradılması, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, təhsilin bütün pillələri üzrə kurikulumun yeniləşdirilməsi və müəllimlərin ixtisasartırma sisteminin təkmilləşdirilməsi vasitəsilə keyfiyyətin artırılması, beynəlxalq əməkdaşlıq şəbəkəsinin təşkili və digər əsas prioritetlər əks olunmuşdur. 2007-ci ilin 18 iyununda YUNESKO, Azərbaycan hökuməti və Heydər Əliyev Fondu arasında "Azərbaycanda peşə təhsilinin inkişafı" layihəsinin icra planına dair saziş imzalanmışdır.

YUNESKO-nun "Beynəlxalq Qarşılıqlı Anlaşma Əməkdaşlıq və Sülh Ruhunda Tərbiyə və İnsan Hüquqlarına və Əsas Azadlıqlarına Hörmət Ruhunda Tərbiyə Haqqında" 19 noyabr 1974-cü il Tövsiyələrinə əsasən hamı ədalət, azadlıq, insan hüquqları və sülhün təntənəsi məqsədilə tərbiyə olunmalı və bu məqsədlərə yönəlmiş fəaliyyət təhsil yolu ilə həyata keçirilməlidir.

Bu baxımdan təhsil insan şəxsiyyətinin hərtərəfli inkişafı, cəmiyyətin mənəvi, əxlaqi, sosial və iqtisadi tərəqqisi, həmçinin, insan hüquqlarına və əsas azadlıqlarına dərin hörmətin həyata keçirilməsi məqsədi daşımalıdır. Bu dəyərlər çərçivəsində ən böyük əhəmiyyət təhsilin bütün xalqlar arasında qarşılıqlı anlaşma, sülh, dözümlülük və dostluq işinə töhfə verməlidir. BMT-nin Nizamnaməsi ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və



təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoyur. Bununla yanaşı, YUNESKO-nun Nizamnaməsinin 7-ci maddəsinə görə, üzv-dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini YUNESKO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Artıq fasiləsiz təhsilin inkişafına, təhsilin demokratikləşməsinə, struktur, iqtisadi, texniki dəyişikliklərə, sosial dəyişikliklərə və bir ölkənin mədəni şəraitinə cavab verən siyasətin qəbul edilməsinə və həyata keçirilməsinə yardım prinsipləri nəzərə alınmaqla milli, ikitərəfli və çoxtərəfli mexanizmlər yaradılmışdır. Təhsil, elm və mədəniyyət məsələləri üzrə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində xalqların əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə inamının elan olunduğunu və onların sosial tərəqqiyə və həyat şəraitinin yaxşılandırılmasına yardım göstərmək əzmini təsdiq edir. BMT-nin ixtisaslaşmış qurumu YUNESKO-nun elm, təhsil, mədəniyyət, kommunikasiya məsələlərində dünya birliyinin carçısı kimi göstərdiyi səylər dəstəklənməlidir.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Ombudsmanı məktəbli və tələbələrin, təhsilini davam etdirən gənclərin və yaşlıların problemləri ilə maraqlanmış, daxil olan müraciətlərin təhlilini aparmış və təhsil sahəsində narahatlığa səbəb olan problemlərlə bağlı məsul olan orqan, idarə və təşkilatlara müraciətlər etmiş və bir sıra məsələlərin həllinə nail olmuşdur. Bununla yanaşı, o, tələbə və gənclər hərəkatı, şagird-valideyn assosiasiyaları, gənclər və yaşlılar arasında iş aparan qeyri-hökumət təşkilatları və digər maraqlı tərəflərlə əməkdaşlıq qurmuşdur.

Müvəkkil yaşından asılı olmayaraq, peşə hazırlığının hər bir mərhələsində tələbələrə cəmiyyətin, beynəlxalq əməkdaşlığın inkişafında, sülhün möhkəmlənməsində və inkişafında özlərinin və peşələrinin rolunu dərk etmələri barədə görüşlər zamanı tövsiyələr irəli sürmüş və geniş söhbətlər aparmışdır. Bu söhbətlər zamanı o, texniki təhsilin və peşə təhsilinin müasir sivilizasiyanın və iqtisadi sosial inkişafın mürəkkəb strukturunun qorunub saxlanması üçün

zəruri ilkin şərt olduğunu xüsusi olaraq vurğulamış, hər bir insanın "İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə"nin 23 və 26-cı maddələrdə ifadə olunmuş əmək və təhsil hüququna təminat verən prinsipləri barədə danışmışdır. Bundan əlavə, Müvəkkil son illərdə texnika və təhsil sahəsində sürətli tərəqqinin sosial, iqtisadi və mədəni inkişaf naminə təhsili bütövlükdə yaxşılaşdırmaq üçün texniki təhsil və peşə təhsili sahəsində yeni, yaradıcı və təsirli tədbirlər görülməsini tövsiyə olunan məsələlərdəndir.

## §2 İNSAN HÜQUQLARI SAHƏSİNDƏ TƏHSİL

YUNESKO prioritetlərinə uyğun şəkildə insan hüquqları sahəsində təhsil Avropa məkanında geniş miqyasda inkişaf etdirilir. Bu həm də, milli, regional, qlobal səviyyədə əməkdaşlığı zəruri etdiyindən insan hüquqları sahəsində təhsil həm də təhsil hüququnun əsas tərkib hissəsi kimi çıxış edir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində deyilir:

*"Hər bir şəxsin təhsil hüququ var... Təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqları və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmanın, dözümlülüyün və dostluğun möhkəmləndirilməsinə və Birləşmiş Millətlərin sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidir".*

Deməli, təhsil peşəkar mütəxəssislərin hazırlanması məqsədini daşımaqla yanaşı, həm də şəxslərin cəmiyyətdə azad iştirak edə bilən şəxsiyyət kimi formalaşmasına dəstək olmalı, onların cəmiyyətin sosial, iqtisadi, mədəni siyasətlə əlaqədar qərarların qəbul edilmə prosesində iştirakı üçün bacarıqlar əldə etməsi vasitəsi olmalıdır ki, bunun üçün də insan hüquqlarının təhsil sisteminə daxil edilməsi olduqca zəruridir.

İnsan hüquqları üzrə təhsil müxtəlif formalarda, həyata keçirilə bilər. Məhz insan hüquqları üzrə ixtisaslaşmış ali hüquq təhsili alan şəxslərin təhsilin müxtəlif pillələrində insan hüquqlarının aktual



problemləri ilə bağlı sistemli bilik almasını və bu sahədə tədqiqatlar aparmasını nəzərdə tutur. Belə mütəxəssislər insan hüquqlarının müdafiəsi və geniş kütlələr arasında müvafiq biliklərin yayılması işində, hüquqi maarifləndirmə fəaliyyətində böyük rol oynamaq imkanına malik olurlar.

Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramında insan hüquqlarının müdafiəsi və təbliği ilə məşğul olacaq təsisatların yaradılması və insan hüquqlarının tədrisi və digər məsələlər də geniş şəkildə təsbit olunmuş və insan hüquqlarına dair müasir milli sənədlərin qəbulu və icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

Hazırda Azərbaycan təhsil sisteminin qarşısına ümumbəşəri dəyərlərə yiyələnən, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünən, biliyinə, yüksək əxlaqi və mənəvi keyfiyyətlərinə, demokratikliyinə görə dünyanın ən qabaqcıl ölkələrinin vətəndaşları səviyyəsində durmağa qadir olan insan tərbiyə etmək vəzifəsi qoyulmuşdur.

Bu baxımdan, insan hüquqları sahəsində təhsil peşəkar mütəxəssislərin hazırlanması zərurətini daim önə çəkir. Bunun üçün də insan hüquqlarına təhsil sistemində insan hüquqları təhsilinə daha geniş yer verilməsi zəruridir.

Təkcə hüquq istiqamətində deyil, müxtəlif sahələrdə çalışan və ya təhsil alan şəxslərin də insan hüquqları bazasında təhsil almaları cəmiyyətin inkişafı üçün olduqca zəruridir.

Belə mütəxəssislər insan hüquqlarının müdafiəsi və geniş kütlələr arasında müvafiq biliklərin yayılması işində, hüquqi maarifləndirmə fəaliyyətində böyük rol oynamaq imkanına malik olurlar.

Azərbaycan Ombudsmanı tərəfindən ölkədə insan hüquqları üzrə ixtisaslaşmış müəssisələr, eləcə də mütəxəssislərlə əlaqələrin inkişaf etdirilməsi və onların bu sahədə maarifləndirmə işinə cəlb edilməsi istiqamətində fəaliyyət həyata keçirilməkdədir.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə

Milli Fəaliyyət Planı və İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na uyğun şəkildə YUNESKO-nun "Davamlı İnkişaf naminə təhsil" onilliklərinə əsaslanan insan hüquqları sahəsində tədris proqramları və tədris vəsaitləri hazırlanmış və həyata keçirilməkdədir.

YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları (qadınlar, uşaqlar, gənclər, əlillər, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, narkomaniya və HİV/AİDS-ə yoluxmuş insanlar üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanması, həmçinin insan hüquqları sahəsində təhsilin səmərəliliyinin artırılması, bu sahədə işin əlaqələndirilməsi məqsədilə ixtisaslaşmış insan hüquqları mərkəzlərinin (insan hüquqları məktəbi, insan hüquqları evi və s.) və ya şəbəkələrinin yaradılması da bu strateji sənədlər əsasında inkişaf etdirilir.

2009-cu ilin Beynəlxalq İnsan hüquqları tədrisi ili elan edilməsi ilə bağlı BMT Baş Assambleyasının müvafiq qətnaməsinə əsaslanaraq, beynəlxalq ictimaiyyət tərəfindən insan hüquqlarına ədalətli və bərabər əsaslarla münasibət göstərilməsinin, insan hüquqları, o cümlədən təhsil hüququ və mədəni hüquqlar haqqında biliklərin genişləndirilməsinin zəruriliyi öz əksini tapmışdır. Tədqiqat Şəbəkəsinin yaradılması və inkişafı üzrə birgə səylərin davam etdirilməsi qərara alınmışdır.

Bakı Dövlət Universitetində artıq "İnsan hüquqları", habelə "Genderə giriş" fənlərinin bir fənn kimi tədrisinə nail olunmuşdur. Hazırda insan hüquqları fənni bakalavr və magistr pilləsində proqram əsasında tədris olunmaqdadır. Eyni zamanda, həmin fakültənin magistratura pilləsində insan hüquqları üzrə kadr hazırlığına başlanılmaqla bu sahəyə elmi yanaşma nümayiş etdirilir, yeni kadrlar hazırlanır.

Bu gün təkcə hüquq fakültəsində deyil, ali təhsil ocaqlarının müxtəlif fakültələrində insan hüquqları təhsilinin inkişaf etdirilməsi yaxın gələcəkdə həm müxtəlif sahələrə, insanlara, ümumilikdə isə



cəmiyyətimiz üçün mühüm töhfə verəcək.

*Uşaq hüquqlarının pilləli tədrisi.* İnsan hüquqları təhsili və elə hüquqi maarifləndirmə baxımından formalaşdırdığımız müsbət təcrübələrdən biri də "Uşaq hüquqlarının pilləli tədrisi" proqramıdır.

Artıq beş tədris ilidir ki, Ombudsmanın təşəbbüsü əsasında «Uşaq hüquqlarının Pilləli tədrisi» proqramı Təhsil Nazirliyi ilə razılaşdırılmış qaydada Bakı şəhərinin bütün rayonları üzrə iyirmi beş, respublikamızın regionlarında isə, ön üç rayon üzrə seçilmiş otuz iki orta ümumtəhsil məktəbində həyata keçirilməkdədir. Proqramın tətbiq olunduğu şəhər və kənd məktəblərində davamlılığın təmin edilməsi məqsədilə "Uşaq hüquqlarının tədrisi mərkəzləri" də yaradılmış və müvafiq tədris vəsaitləri əsasında uşaqlara ünvanlanan hüquqi təhsil inkişaf etdirilir. Respublikanın müxtəlif şəhər və rayonlarının bir çox məktəblərində həyata keçirilən bu unikal tədris növü, uşaqların öz hüquqları barədə biliklərinin artmasına, liderlik, ünsiyyət bacarıqlarının inkişaf etməsinə öz bəhrəsini vermişdir.

Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının (MFP) müddəaları, o cümlədən BMT-nin Baş Məclisi tərəfindən bəyan edilmiş "İnsan hüquqları sahəsində maarifləndirmə" və "İnsan hüquqları sahəsində təhsil", YUNESKO-nun "Davamlı inkişaf naminə təhsil" onilliyi əsasında başlanmış və Ombudsmanın təşəbbüsü ilə Təhsil Nazirliyi ilə əməkdaşlıqda orta ümumtəhsil məktəblərində insan hüquqları təhsili bazasında həyata keçirilən Uşaq hüquqları üzrə pilləli tədris sistemi Bakı şəhərində və respublikamızın regionlarında geniş şəkildə tətbiq olunur.

Bu interaktiv tədris proqramı insan hüquqları mədəniyyətinin təbliğinə, cəmiyyətdə və məktəb mühitində insan hüquqlarının tərkib hissəsi kimi uşaq hüquqlarının reallaşdırılmasına və tədrisinə xidmət edir.

Belə ki, bu tədris proqramı pilot olaraq Bakı şəhərinin üç orta ümumtəhsil məktəbi (5, 31, 207 saylı) seçilməklə tətbiq olunmuşdur.

Daha sonra "Uşaq hüquqları üzrə pilləli tədris layihəsi" Bakı şəhərinin 11, respublikanın regionlarında isə 8 rayon üzrə Gəncə,

Göygöl, Şəki, Qəbələ, Cəlilabad, Biləsuvar, Quba, Şabran şəhər və rayonlarının isə hərəsindən bir orta ümumtəhsil məktəbi seçilməklə tətbiq olunmuşdur.

Növbəti mərhələdə "Uşaq hüquqları üzrə pilləli tədris layihəsi" respublikanın müxtəlif şəhər və rayonlarında (Gəncə, Mingəçevir, Quba, Qusar, Füzuli, İmişli, Lənkəran və Masallıda), ümumilikdə, 24 orta ümumtəhsil məktəbi seçilməklə uğurla həyata keçirilmişdir.

Ötən tədris ilində isə Bakı şəhərinin 11 rayonundan, hərəsindən bir məktəb seçilməklə tətbiq olunan Uşaq hüquqları üzrə pilləli tədris sistemi uşaq hüquqlarının tədrisi baxımından müsbət təcrübə formalaşdırmaqla yanaşı, uşaqlara cəmiyyətin həyatında iştirakçılıq bacarıqlarını aşılayır.

Əhatə olunmuş Səbail rayonu 239, Yasamal rayonu 308, Nərimanov rayonu 82, Nəsimi rayonu 44, Xəzər rayonu 218, Qaradağ rayonu 288, Binəqədi rayonu 3, Sabunçu rayonu 22, Suraxanı rayonu 285 , Xətai rayonu 204 , Nizami rayonu 12 nömrəli orta ümumtəhsil məktəblərində bu proqram üzrə tədbirlər yekunlaşdırılmış və treninqlərin yekunu olaraq formalaşdırılan "Uşaq hüquqlarının tədrisi mərkəz"lərinin yaradılmasına başlanılmışdır.

Eyni zamanda respublikamızın regionlarında bu təcrübə yüksək dəyərləndirilərək həmin təhsil ocaqlarında da Uşaq hüquqlarının tədrisi mərkəzləri yaradılmış, müvafiq tədris vəsaitləri əsasında uşaqlara ünvanlanan xüsusi hüquqi təhsil inkişaf etdirilməklə Azərbaycan modelini formalaşdırmışdır.

İnteraktiv metodlarla həyata keçirilən insan hüquqları sahəsinə bacarıqlara yiyələnmə məqsədi daşıyan tədris müəllimlər və şagirdlər tərəfindən böyük maraqla qarşılanır. Aidiyyəti fənn müəllimlərinin də bu proseslərə cəlb olunması onların bu sahədə bilik və bacarıqlarının artırılması ilə yanaşı, insan hüquqları təhsilinə yiyələnmiş ixtisaslı kadrların hazırlanması işinə öz töhfəsini verir.

«Uşaq hüquqlarının Pilləli tədrisi» proqramı 2014-cü ildə əlavə olaraq, Bakı şəhəri üzrə Təhsil İdarəsinin seçimi ilə Bakı şəhərinin on iki rayonu üzrə hərəsindən bir yeni məktəb, o cümlədən respublikamızın regionlarında, Xızı, Siyəzən, Salyan, Lənkəran, Oğuz,



İsmayıllı, Goranboy, Tovuz rayonlarından hərəsindən üç məktəb seçilməklə 24 orta ümumtəhsil məktəbində həyata keçirilmişdir.

Ümumilikdə əhatə olunmuş orta ümumtəhsil məktəblərinin sayı 93, cəlb olunmuş şagirdlərin sayı 4000-dən artıq, o cümlədən 500-dən artıq bu tədris proqramını başa vurmuşdur.

İnteraktiv metodlarla həyata keçirilən insan hüquqları sahəsində bacarıqlara yiyələnmə məqsədi daşıyan tədris müəllimlər və şagirdlər tərəfindən böyük maraqla qarşılanır. Aidiyyəti fənn müəllimlərinin də bu proseslərə cəlb olunması onların bu sahədə bilik və bacarıqlarının artırılması ilə yanaşı, insan hüquqları təhsilinə yiyələnmiş ixtisaslı kadrların hazırlanması işinə öz töhfəsini verir.

*Hüquq Klinikaları və insan hüquqları sahəsində kadr hazırlığı.* İnsan hüquqları sahəsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə 2004-cü ilin dekabr ayından başlayaraq Müvəkkilin Aparatında mütəmadi olaraq ölkəmizdə dövlət və özəl universitetləri nəzdində fəaliyyət göstərən Hüquq Klinikalarının rəhbərləri və nümayəndələri ilə görüşlər keçirilmiş, 2005-ci ildən isə bu əməkdaşlıq daha geniş müstəvidə davam etdirilmişdir.

Müvəkkil Hüquq Klinikalarının işinin təkmilləşdirilməsi üçün xarici ekspertlərin dəvət olunmasını, habelə hüquqi maarifləndirmə seminarlarının keçirilməsini, həmin tədbirlərə universitetlərin hüquq fakültəsi tələbələrinin də cəlb edilməsini, milli qanunvericiliyin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələrin verilməsini, əhaliyə hüquqi xidmət göstərilməsi üçün yeni tədris modullarının işlənib-hazırlanmasını, hüquq klinikalarının üzvlərinin yetkinlik yaşına çatmayanlar üçün cəzaçəkmə müəssisəsində fəaliyyət göstərən himayəçilik şurasında iştirakının təmin olunmasını müxtəlif təklif etmişdir.

«Bakı Dövlət Universiteti», «Xəzər», «Azərbaycan», «Qərb», «Qafqaz», «Odlar Yurdu» Universitetlərində yaradılmış hüquq klinikalarının rəhbərləri və nümayəndələri Müvəkkilin hüquq klinikalarının fəaliyyətinə dəstək verməsini və bu əməkdaşlığın səmərəsini artırmaq üçün Ombudsman yanında şəbəkə və koordinasiya şurasının yaradılması, kollektiv müqavilə bağlanması təkliflərini

yüksək dəyərləndirmiş, qeyd olunan şəbəkə çərçivəsində birgə fəaliyyətin əsas prinsipləri və vəzifələrini əks etdirən Əsasnamə və hüquq klinikalarının minimal iş standartlarının razılaşma protokolu təsdiqlənmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ölkəmizin ali məktəblərində mövcud hüquq klinikaları ilə əməkdaşlığa önəm verir. Hüquq fakültələrində təhsil alan tələbələrin təcrübə keçməsində, professional hüquq etikası qaydalarına yiyələnməsində, əhaliyə pulsuz hüquqi xidmət göstərilməsində və ümumən, hüquq mədəniyyətinin inkişafında mühüm əhəmiyyət kəsb edən bu təhsil müəssisələrinin nümayəndələri ilə təsisatda fikir və təcrübə mübadiləsi aparılır.

Hüquq klinikalarının fəaliyyətinin gücləndirilməsi məqsədilə Ombudsman Aparatında müxtəlif səpkili tədbirlər keçirilir ki, bu da qeyd olunan sahədə qarşılıqlı əməkdaşlığı zəruri edir və bu məqsədlə Müvəkkilin təşəbbüsü ilə beynəlxalq təşkilatlar və Uşaq hüquqları üzrə QHT Alyansı ilə əməkdaşlıqda Uşaq hüquqları Klinikasının yaradılmasına nail olunmuşdur.

Bu gün Müvəkkilin təşəbbüsü ilə yerli və beynəlxalq təşkilatlarla əməkdaşlıqda yaradılmış Uşaq Hüquqları Klinikası qısa bir müddətdə özünün fəaliyyətini daha da təkmilləşdirmiş, klinikaya daxil olmuş müraciətlər əsasında uşaqların qanuni mənafeyinin müdafiəsi, məhkəmələrdə təmsilçilik, uşaq hüquqları sahəsində yerlərdə hüquqi maarifləndirmə işinin təşkili istiqamətlərində böyük uğurlar qazanılmışdır.

Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının və 2011-ci ilin dekabrın 27-də qəbul olunmuş Mili Fəaliyyət Proqramının müddəalarına uyğun olaraq Müvəkkilin dəstəyi ilə hüquq klinikalarının və klinik hüquq təhsilinin inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilir.

“Bir pəncərə” prinsipinin tətbiqi sahəsində qazanılmış uğurlu ölkə təcrübəsi olan, dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli və rahat həyata keçirilməsini təmin edən Azərbaycan Respublikasının Prezidenti



yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun nəzdində “ASAN” xidmət mərkəzlərində əhalinin müxtəlif qruplarına, ilkin olaraq isə mövcud təcrübə əsasında uşaqlara ünvanlanan hüquqi məsləhət və hüquqi yardım göstərən xidmətin də yaradılması müsbət nəticə verəcəkdir.

Bunlarla yanaşı, Müvəkkil tərəfindən insan hüquqları sahəsində kadrların hazırlanması işinə də fəaliyyət çərçivəsində geniş yer verilir. Bu baxımdan Ombudsman Aparatında yaradılmış «İnsan hüquqları sahəsində xüsusi qısamüddətli təhsil şəbəkəsi» də fəaliyyətini davam etdirməkdədir.

Bu təhsil şəbəkəsinin proqramına insan hüquqlarının və azadlıqlarının əsasları, milli və beynəlxalq qanunvericilik aktları, Ombudsman institutunun mahiyyəti, ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatlar, insan hüquqlarının milli və beynəlxalq müdafiə mexanizmləri, müraciət etmə qaydaları və s. mövzularda məruzə və seminarlar daxil edilmişdir.

Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Qafqaz Universitetinin hüquq və beynəlxalq hüquq fakültələrinin, Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər və Regionşünaslıq, Azərbaycan Dillər Universitetinin Avropaşünaslıq və Beynəlxalq münasibətlər fakültəsinin müxtəlif kurs tələbələri ardıcıl olaraq Müvəkkilin Aparatında istehsalat təcrübəsi keçirlər.

Ombudsman hüquq mədəniyyətinin və düşüncəsinin artırılmasında dövlət qurumları: nazirliklər, hüquq mühafizə orqanları, məhkəmələr, yerli icra hakimiyyətləri ilə səmərəli əməkdaşlıq qurmuşdur. İnsan hüquqları sahəsində məlumatlılıq səviyyəsinin artırılması ilə yanaşı, bu sahədə kadr hazırlığı, eləcə də İşgəncələr əleyhinə milli preventiv mexanizm fəaliyyətinin həyata keçirilməsi qarşılıqlı əməkdaşlıqda inkişaf etdirilir.

Layiqli idarəetməni, eləcə də dövlət qulluqçularının yenidən ixtisaslaşmasını həyata keçirən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, hüquq mühafizə orqanları

üçün kadr hazırlığını həyata keçirən Polis Akademiyası, Ədliyyə Akademiyası, Baş Prokurorluğun tədris mərkəzi, hərbi sahədə kadr hazırlayan təhsil müəssisələri və digərlərini göstərə bilərik ki, həmin tədris müəssisələrinin proqramına, o cümlədən Ombudsmanın tədbirlər planına əsasən gənc müdavimlərə, ixtisaslaşmaya cəlb olunmuş şəxslərə, hakimlərə, vəkillərə, dövlət qurumlarına ünvanlanan ardıcıl seminarlar təşkil olunur ki, bu da özlüyündə insan hüquqları mədəniyyətinin təbliğinə xidmət edir.

Hüquqi maarifləndirmə işinin effektivliyini təmin edən müxtəlif özəklərdə, mütəmadi olaraq minlərlə insanının faydalandığı, Ahılların Resurs Mərkəzində qadınlara, ahıllara və Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi nəzdində isə müntəzəm fəaliyyət göstərən, insan hüquqları təhsilini nəzərdə tutan «Liderlik məktəbi»ndə insan hüquqları sahəsində məlumatlı gənclərin yetişdirilməsi işinə xüsusi diqqət yetirilir ki, bu da uşaq və gənclərin öz hüquqlarını öyrənməsinə və bu hüquqları öz yaşıdlarına öyrətməsinə, onlarda vətənpərvərlik hissinin aşılanmasına, uşaqların liderlər kimi yetişməsinə xidmət edən silsilə tədbirlər təşkil olunur.

Müvəkkil fəaliyyətində insan hüquqları sahəsində kadr hazırlığı hüquq klinikalarının və klinik hüquq təhsilinin inkişaf etdirilməsi və paralel olaraq müxtəlif istiqamətlərdə təhsil alan gənclərin insan hüquqları sahəsində bilik və bacarıqlarının, o cümlədən məlumatlılıq səviyyəsinin artırılması işi davamlı inkişaf etdirilir.

*Hüquqi maarifləndirici nəşrlər.* Hüquqi təbliğat və maarifləndirmə işinin əhali arasında kütləvi şəkildə təşkilində insan hüquq və azadlıqlarına dair çap edilmiş hüquqi nəşrlər mühüm əhəmiyyət kəsb edir.

Hüquqi maarifləndirilmə işinin səmərəliliyinin artırılması məqsədi ilə ölkənin müxtəlif regionlarında keçirilən tədbirlər zamanı təsisatda hazırlanmış hüquqi nəşrlər, tematik lifletlər, müxtəlif məcmuələr, broşürlər, kitabçalar və yaddaş vərəqələri əhali arasında yayılır. Hazırda 142 adda nəşrlər hazırlanmış, 104-dən artıq insan hüquqlarına və layiqli idarəetməyə dair xarici ədəbiyyat dilimizə tərcümə olunaraq yayılmışdır.



## §3. YAŞLILARIN TƏHSİLİ

YUNESKO-nun 14 dekabr 1960-cı il tarixli "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" Konvensiyası ayrı-seçkiliyin yolverilməzliyini və hər bir insanın təhsil hüququnu bəyan edir.

Konvensiyaya əsasən hər bir şəxs və ya şəxslər qrupu təhsilin hər hansı bir pilləsindən məhrum edilə bilməz.

Deməli, illər keçdikcə siyasi və iqtisadi inkişafdan, texniki tərəqqidən, sosial və mədəni dəyişikliklərdən, innovativ texnologiyalardan istifadə etməsinə, əmək prosesində fəal olmasına və yenidən hazırlanmasına ehtiyac olduğundan yaşlılar da digərləri ilə bərabər şəkildə təhsil hüququna da malikdir. Qeyd olunan proseslər sosial və təhsil problemlərinin aradan qaldırılması məqsədilə fasiləsiz təhsil ideyasının əmələ gəlməsinə və inkişaf etdirilməsinə zərurət yaratmışdır. Bu baxımdan da yaşlıların təhsilinə ciddi tələbat əmələ gəlir. Yaşlıların təhsili (YT) fasiləsiz təhsil sisteminin tərkib hissəsi olmaqla yanaşı, vətəndaşların cəmiyyətdə və iqtisadiyyatda baş verən dəyişikliklərə uyğunlaşmasını təmin etmək məqsədilə çevik tədris proqramları vasitəsilə həyata keçirilən bir prosesdir. Yaşlıların təhsilinin məqsədi, təhsil vasitəsilə insan kapitalını inkişaf etdirmək, yaşlı vətəndaşların cəmiyyətin təhsil vasitəsilə dəyişən iqtisadi, sosial və mədəni həyatında fəal iştirakını təmin etməkdən ibarətdir.

"Yaşlıların təhsili" ifadəsi məzmunundan, səviyyəsindən və metodundan asılı olmayaraq, cəmiyyətin yaşlı hesab etdiyi şəxslərin məktəblərdə və ali təhsil müəssisələrində aldıqları, öz qabiliyyətlərini inkişaf etdirdikləri, texniki-peşə hazırlıqlarını yaxşılaşdırdıqları, müstəqil olaraq sosial, iqtisadi və mədəni inkişafda perspektivlərini təmin edərək, təhsili, həmçinin praktik təlimi davam etdirən, yaxud tamamlayan formal və ya qeyri-formal bütün mütəşəkkil təhsil prosesləri kompleksini bildirir. Lakin yaşlıların təhsili ayrılıqda götürülə bilməz, o, ümumi fasiləsiz təhsil və təlim sisteminin ayrılmaz hissəsidir.

Təhsil və təlim heç də məktəbdə oxumaq dövrü ilə məhdudlaşmayıb, bütün ömrü boyu həyata keçirilməli, bütün vərdiş və biliklər sahələrini

əhatə etməli və bütün insanlara şəxsiyyətini tam inkişaf etdirmək imkanı verməlidir.

Ümumilikdə, yaşlıların təhsilinin məqsədi cəmiyyətin tərəqqisində iştirak etmək qabiliyyətinin inkişafına, ətraf mühiti yaxşılaşdırmaq, təbiətə, ümumi irsə və ictimai mülkiyyətə hörmət və onları mühafizə etmək səylərinin inkişafına, mütəşəkkil təlim məqsədilə yaradılmış təhsil müəssisələri şəraitində yeni biliklər, ixtisas əldə etmək, asudə vaxtdan yaradıcılıqla istifadə etmək, arzu edilən bilikləri əldə etmək, kütləvi informasiya vasitələrindən və s. yararlanmağa xidmət edir.

Bununla yanaşı, elm sahəsinə diqqətin artırılması, istər yaşlı, istərsə də gənc alimlər nəslinin varisliyinin təmin edilməsi, elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılması, bu zaman elmin bütün istiqamətlərinə, o cümlədən humanitar, təbiət və texniki sahələrdə çalışan kadrlara bərabər maddi imkanların yaradılması, elmi kadrların sosial müdafiəsinin gücləndirilməsi, elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsi məqsədilə mövcud sahənin yetərli səviyyədə maliyyələşdirilməsi zəruridir.

"Ümumdünya İnsan Hüquqları Bəyannamə"sinin hər bir insanın təhsil almaq və mədəni həyatda azad surətdə iştirak etmək, incəsənət və elmlə məşğul olmaq hüququna təminat verən və onu şərtləndirən 26 və 27-ci maddələrində, həmçinin İqtisadi, Sosial və Mədəni hüquqlar haqqında beynəlxalq Paktın 13 və 15-ci maddələrində ifadə olunmuşdur. Bununla yanaşı, yaşlıların təhsilinə dair ikinci və üçüncü beynəlxalq konfransların (Monreal, 1960; Tokio, 1962) və Beynəlxalq Qadın İlinə dair ümumdünya konfransının (Mexiko, 1975) və Yaşlanma üzrə Madrid Beynəlxalq Fəaliyyət Planı (2002) nəticə, bəyanat və tövsiyələri həyata keçirilməkdədir.

Azərbaycanda yaşlıların təhsili probleminin aktuallaşması bir sıra amillərlə bağlıdır. Bazar iqtisadiyyatına keçid dövründə işsizlik, əhalinin müəyyən hissəsinin əmək bazarında rəqabətə davamlı olmaması, kiçik və orta sahibkarlıq fəaliyyəti, elm və texnikanın sürətlə artması, informasiya texnologiyalarının tətbiqi, erməni təcavüzü nəticəsində qaçqın və köçkünlük, iş yerlərinin itirilməsi və s. bu qəbildəndir. Yaşlıların təhsili məzmunu, məqsədi, vəzifələri, prinsipləri, forma, metod və



vasitələri ənənəvi təhsildən fərqlənir. Təhsil prosesində ənənəvi təlim metodlarla yanaşı müasir innovativ texnologiyalardan istifadəyə geniş yer verilməlidir.

Bu perspektivdən çıxış edərək, Müvəkkil ilk növbədə yaşlıların təhsil məsələləri ilə məşğul olan müstəqil bir qurumun təsis edilməsini, yaşlıların təhsilinin hüquqi bazasının və müvafiq qanunvericiliyin yaradılmasını, yaşlıların təhsili üzrə qanunvericilik aktlarının hazırlanmasını, yaşlıların təhsil müəssisələrinin maddi və tədris bazalarının yaradılmasını, bu sahə üzrə mütəxəssislərin hazırlanmasını, bu sahəyə vətəndaş cəmiyyətinin cəlb olunmasını vacib sayaraq, Milli Məclisə bir sıra təkliflər ünvanlanmışdır. Eyni zamanda o, təhsil alan yaşlıların arzusu, tələb və təkliflərini öyrənərək, ölkədə yaşlıların təhsil sistemi ilə bağlı geniş maarifləndirmə işi aparmışdır.

Bununla yanaşı, Müvəkkil təhsilin yaşlılara müyəssərliyinin təhsil hüququnun əsas perspektivlərindən biri olduğunu, siyasi və mədəni həyatda iştirak etmək, incəsənət və elmlə məşğul olmaq hüququnun həyata keçirilməsinə geniş imkanlar yaratmışdır. Yaşlıların təhsili proqramlarına və bu proqramların inkişafına yardım göstərmək üçün dövlət hakimiyyəti orqanlarının, kredit idarələrinin, sığorta agentliklərinin nümayəndələrinin iştirakı ilə tədbirlər həyata keçirmişdir. Təlim vasitələrinin, tədris proqram və vəsaitlərinin yayılmasına və istifadə olunmasına yardım etmişdir.

Yaşlı əhaliyə onların peşə və şəxsi həyatında yeni istiqamətlərin axtarışında dəstək verməklə bərabər ölkədə yoxsulluğun və işsizlik səviyyəsinin azaldılmasına kömək edən formal və qeyri-formal təhsil daxil olmaqla, ömür boyu təhsil və yaşlıların təhsili keçid dövrü yaşayan bir ölkə üçün əsas məsələlərdən biridir.

1997-ci ildə qəbul edilmiş "Yaşlıların təhsili haqqında" Hamburq Bəyannaməsində deyilir: "Ömür boyu davam edən proses kimi baxılan gənclərin və yaşlıların təhsillərinin məqsədləri müstəqillik və məsuliyyət hisslərinin inkişafından və iqtisadiyyatda, mədəniyyətdə və bütövlükdə cəmiyyətdə baş verən dəyişikliklərə uyğunlaşmaq qabiliyyətinin möhkəmlənməsindən, habelə vətəndaşların öz icmalarının həyatında birgə yaşayışa, dözümlülüyə, dərrakəli və yaradıcı iştiraka köməkdən,

qısa desək, insanların və icmaların öz müqəddəratlarını təyin etmələrini təmin etməkdən və beləliklə də qarşıda duran vəzifələri yerinə yetirə bilmələrini təmin etməkdən ibarətdir".

Bəyannamədən irəli gələn fikirlərə rəğmən qeyd etmək lazımdır ki, əmək bazarında müvəffəqiyyət və ictimai proseslərdə iştirak müəyyən bacarıq və səriştənin və müasir biliklərə çıxış imkanlarının olmasını tələb edir. Fasiləsiz təhsil sisteminin əsas iştirakçısı olan hər bir şəxsin səyləri bu gün məhz buna yönəldilməlidir.

Yaşlıların təhsil sistemi hər bir subyektin yaradıcılıq potensiyalının əhəmiyyətli dərəcədə genişləndirilməsinə, onun istehsal gücünün artırılmasına geniş imkan yaradır.

Azərbaycanda yaşlıların təhsil konsepsiyası insanın həyat boyu təhsil hüququna əsaslanmalı və sosial-iqtisadi inkişafın müasir səviyyəsini və ənənələrini nəzərə almalıdır.

Yaşlı nəslin təhsili üzrə konsepsiyanın reallaşması üçün Proqram hazırlanmalı və bu proqramda aşağıdakı istiqamətlər öz əksini tapmalıdır:

-Yaşlıların təhsilinin hüquqi əsaslarının formalaşdırılması;

-Yaşlı nəslin təhsili ilə əlaqədar mütəxəssis hazırlığı və ixtisas alma;

-Yaşlıların təhsilinin idarə sisteminin yaradılması;

-Təhsil proqramlarının işlənilməsi və reallaşdırılması.

Fasiləsiz təhsilin əsas vəzifələri Azərbaycan Respublikasının əsas Qanununda öz əksini tapmışdır.

"Yaşlıların təsili haqqında" qanunun qəbuluna böyük ehtiyac duyulur. Əhalinin bütün zümrələrindən olan müxtəlif peşə sahiblərini, yeni peşələrə yiyələnmək arzusunda olanları, ixtisaslarını artırmaq arzusunda olanları yaşlıların təhsili sisteminə cəlb etmək vəzifəsini hakimiyyət orqanları öz boynuna götürməli, vahid təhsil sistemi formalaşdırmalı və bu prosesə maneçilik göstərənlərin qarşısı alınmalıdır.

"Yaşlıların təhsili" (YT) dedikdə formal və qeyri-formal təhsil proseslərinin kompleksi nəzərdə tutulur. Bunun köməyi ilə insanlar sosial-ictimai həyatın, ailə-məişət sahəsindəki praktik iştirakı ilə təhsil fəaliyyətini növbələşdirirlər, öz qabiliyyətlərini inkişaf etdirir, bilik bacarıq və şəxsi keyfiyyətlərini təkmilləşdirir və ya yeni professional



dərəcələr alır, yaxud cəmiyyətin tələbatlarını ödəmək üçün bunları yeni səpkidə tətbiq edirlər.

Ömrünün əvvəlində insanın ənənəvi təhsil sistemi çərçivəsində aldığı baza təhsili prinsipial olaraq ömrünün sonunadək onu bilik, bacarıq, vərdiş və keyfiyyətlərlə və müxtəlif sosial rolların effektiv yerinə yetirilməsi ilə təmin edə bilməz. Dünyanın bütün inkişaf etmiş ölkələri tərəfindən qəbul edilmiş "yaşlıların təhsili" konsepsiyası sosial-iqtisadi inkişafının əsas istiqamətlərində, müasir dünyanın problemlərinin həllinə yönəldilmişdir.

YT-nin əsas məqsədi ictimai həyatın bütün sahələrində fəal və effektiv iştirak etməsidir və bu, yaşlıların konkret təhsilə olan, o cümlədən ümumi orta təhsili almaq, peşə vərdişlərinin əldə edilməsi və ya təkmilləşdirilməsi sağlamlığın yaxşılaşdırılması, ekoloji təhsil, ailə həyatının keyfiyyətinin yaxşılaşdırılması, ictimai həyatda fəal iştirak, asudə vaxtın təşkili, şəxsiyyətinin inkişafı və bu kimi tələbatlarının ödənilməsi vasitəsi ilə həyata keçirilir.

Yaşlıların təhsili sferası göstərilən məqsəd və vəzifələrin nail olunması üçün lazımi şəraiti yaratmağa yönəldilmişdir.

Yaşlıların təhsili üzrə Azərbaycanda mövcud olan formal təhsilin aspirantura, doktorantura, müəllim və həkimlər üçün ixtisasartırma və ixtisasdəyişmə institutları, texniki peşə təhsili və s. kimi növləri vardır. Təəssüf ki, bunlardan istifadə edənlərin sayı Azərbaycanda azdır. Bu da cəmiyyətin inkişafına müəyyən dərəcədə təsir edir.

Qeyd etmək lazımdır ki, Ombudsman tərəfindən insan hüquqları sahəsində bütün imkanlardan istifadə edilərək maarifləndirmə işi aparılmış, bir çox tədbirlər, o cümlədən treninq-seminarlar, regionlar üzrə, dəyirmi masalar, beynəlxalq konfranslar və seminar-müşavirələr təşkil edilmiş, müxtəlif mövzuları əhatə edən çox sayda buklet, kitablar nəşr edilərək ictimaiyyətə çatdırılmışdır. Lakin bu da kifayət deyil, əhalinin çox az qismini əhatə edir.

Bununla belə, cəmiyyətimizin inkişafının sosial-iqtisadi və mənəvi şəraiti yaşlı nəslə təqdim edilən təhsil xidmətlərinin genişləndirilməsi və dərinləşməsini tələb edir. Ölkədə aparılan islahatlarla əlaqədar mütəxəssislərin böyük əksəriyyətinin ixtisas dərəcələrinin artırılması və

yenidən hazırlanmalarına ehtiyac var.

2001-ci ildən etibarən Azərbaycan Ombudsmanının rəhbərliyi ilə Ahıllar üçün Resurs Mərkəzi yaradılmış müntəzəm fəaliyyət göstərməkdədir. Mərkəzdə yalnız ahıllara deyil, həmçinin qırx yaşından yuxarı qadınlara (onların arasında qaçqın və məcburi köçkünlər, şəhid ailələri də az deyil) hüquqi, tibbi və psixoloji biliklər verilir. Burada keçirilən seminarlar öyrənənlərin fiziki və psixoloji sağlamlığının profilaktikası və diaqnostikasına, həmçinin bir sıra hüquqi problemlərinin həllinə, öz hüquqlarının müdafiəsinə yönəldilmişdir. Mərkəzin üzvlərinin sözlərinə görə onlar əldə etdikləri bilikləri cəmiyyətdə və ailədə öz uşaqlarına nəvələrinə, başqa ailə üzvlərinə, qohumlarına və tanışlarına ötürürlər. Psixoloji biliklər onlara ətrafdakı insanlarla pozitiv ünsiyyət formalarını tapmaqda, qarşılıqlı münasibətlərdə yaranmış davranışda problemlərin həllini, böhran vəziyyətlərdən çıxış yolu axtarıb tapmaqda kömək edir. Tibbi biliklər onlara öz orqanizmini daha yaxşı öyrənməyə, düzgün qidalanmağa və sağlam həyat tərzi keçirməyə yönəldir. Hüquqi biliklər bu insanlara özlərinin bir sıra sosial problemlərin sərbəst həll etməyə, öz hüquqlarını lazım gələndə inamla müdafiə etməyə imkan verir. Bundan əlavə, Resurs Mərkəzinin üzvləri Bakı şəhəri Səhiyyə Nazirliyinin "Sağlamlıq zonası" poliklinikasının pulsuz xidmətlərindən istifadə edirlər. Burada xəstəliklərin diaqnostikası ilə yanaşı tibbi və ənənəvi üsullarla müayinə və müalicə işləri həyata keçirilir.

Sosial müdafiəyə daha çox ehtiyacı olan həssas qrupların, o cümlədən fiziki cəhətdən qüsurluların təhsili getdikcə daha vacib əhəmiyyət kəsb edir. Əhalinin bu kateqoriyadan olan insanların inkişafı və sosial inteqrasiyası yalnız yaşlıların təhsili vasitəsi ilə ola bilər. Vətəndaşların hüquqi və sosial münasibətlərdə savadı olmadan hüquqi dövlət qurmaq mümkün deyil. Yaşlıların hüquqi biliklərinin inkişaf edilməsi obyektiv zəruriliyə çevrilərək, vətəndaşlar tərəfindən öz hüquq və vəzifələrini öyrənilməsinə yönəldilmişdir.

Vətənpərvərlik tərbiyəsi öz vətəninin tarixinin öyrənilməsi, sosial bəlalarla mübarizə, qanunlara riayət, hüquqlara hörmət və vətəndaşın öz vəzifələrinin yerinə yetirməsi, sağlam həyat tərzinin aşılanması, ətraf mühitin qorunması və s məsələlərin öyrənilməsi yalnız böyüyən nəsil



üçün deyil, həmçinin yaşlı nəsli üçün də nəzərdə tutulmalıdır.

Müasir dövrdə təhsil sahəsində yaşlıların təhsilinin inkişafı dövlətin siyasətinin əsas məsələlərindən biri olmalıdır. Bu məqsədlə təklif edirik:

- Geniş kütləni "yetkinlik yaşına çatmış insanların təhsili" haqqında məlumatlandırmaq, ona maraq oyatmaq;
- "Ömür boyu təhsil", "Təhsil hamı üçün", "Yaşlıların təhsili" ideyalarının müvafiq orqanlarda həyata keçirilməsi üçün dövlət səviyyəsində qərarların verilməsi;
- Azərbaycanda YT-nin vəziyyətinin və inkişafının keçirilməsi;
- YT sistemində bir sıra metodiki vəsaitlərin hazırlanması;
- YT-nin informasiya təminatını yaratmaq və inkişaf etdirmək;
- YT problemlərini Kütləvi İnformasiya Vasitələrində geniş işiqlandırmaq;
- YT-ni inkişaf etdirmək üçün beynəlxalq qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı inkişaf etdirmək.

Müvəkkilin bu istiqamətdə tövsiyəsi həyata keçirilmişdir. Belə ki, Təhsil Nazirliyinin 13 avqust 2009-cu il tarixli, 1002 nömrəli əmri ilə ilk peşə ixtisas təhsili müəssisələrinə şagirdlərin qəbulu qaydaları təsdiq edilmişdir. Bu qaydalarda yaş həddi aradan qaldırılmışdır. Bu isə ahıl yaşlı şəxslərin də təhsil alma imkanlarını genişləndirmişdir. Yaşlıların təhsili prosesi üzrə mövcud vəziyyəti sistemli şəkildə təhlil etmiş, qiymətləndirmək üçün informasiya bazasının yaradılması və statistikanın təkmilləşdirilməsi ilə bağlı verilmiş təkliflər qəbul edilmişdir. Yaşlıların təhsili prosesi üzrə informasiya bazasının yaradılması və statistikanın təkmilləşdirilməsi sahəsində işlər aparılır.

Ölkəmizdə yaşlıların təhsilə olan ehtiyaclarını ödəmək üçün bir neçə şərt mühümdür: ümumi orta təhsil, professional vərdişlərin verilməsi və təkmilləşdirilməsi, sağlamlığın lazımı səviyyədə saxlanılması və yaxşılaşdırılması, ekoloji təhsil, ictimai həyatda fəal iştirak, asudə vaxtdan mənalı istifadə, şəxsiyyətin fərdi inkişafı və s.

Yaşlı nəslin təhsili üzrə konsepsiyanın reallaşması üçün Proqram hazırlanmalı və bu proqramda aşağıdakı istiqamətlər öz əksini tapmalıdır:

- Yaşlıların təhsilinin hüquqi əsaslarının formalaşdırılması;

-Yaşlı nəslin təhsili ilə əlaqədar mütəxəssislərin (sosial işçilər, psixoloqlar) hazırlanması;

-Yaşlıların təhsilinin idarə sisteminin yaradılması;

-Təhsil proqramlarının işlənilməsi və reallaşdırılması.

Bu vacib məsələlərin bizim cəmiyyətdə reallaşması üçün qarşımızda duran vacib məsələlərdən biri bugünki Azərbaycan təhsilinin strukturunda YT-yə diqqət yetirmək və onun həlli mexanizmlərini işləyib hazırlamaqdan ibarətdir.

Yaşlıların təhsilinin inkişafı üzrə milli proqramın hazırlanması və burada ahılların təhsilinə də yer verilməsi zəruriyyəti var. Fasiləsiz təhsil sisteminin tərkib hissəsi olan Yaşlıların təhsili məsələlərinin ictimaiyyətə çatdırılması üçün televiziyanın imkanlarından geniş istifadə olunmalıdır. Azərbaycanda analoqu olmayan Ahılların Resurs Mərkəzində keçirilən hüquqi maarifləndirmə üzrə fərdi məşğələ saatlarının, psixoloji seminar-treninqlərin, həkim konsultasiyalarının nəticələrinə əsasən deyə bilərik ki, həqiqətən yaşından asılı olmayaraq, insan öyrənməyə meylidir və öyrəndiklərinin tətbiqi onun həyatına yeni bir rəng verir, çox vaxt hətta həyatını, yaşayışını dəyişməyə imkan yaradır.

## §4. YUNESKO PRİORİTETLƏRİNƏ ƏSASLANAN OMBUDSMANIN RESURS MƏRKƏZLƏRİ

YUNESKO və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə əməkdaşlıq bir çox istiqamətlərdə, o cümlədən müsbət təcrübənin formalaşdırılmasına imkanlar açmaqdadır. Belə ki, Azərbaycan Ombudsmanı tərəfindən uşaqlar və gənclər, qadınlar, ahıllar üçün yaradılan, təhsil, liderlik bacarıqları, sağlamlıq, HİV/AİDS-ə qarşı mübarizə, insan hüquqları sahəsində maarifləndirmə məqsədi ilə formalaşdırılmış özəklər YUNESKO prioritetləri üzrə inkişaf etdirilir.

Azərbaycan Ombudsmanın təşəbbüsü ilə "Azərbaycan Qadın və İnkişaf Mərkəzi" qeyri-hökumət təşkilatının nəzdində 2000-ci ildə Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi (Əvvəlki Azərbaycan



Uşaqdan Uşağa Sülh Şəbəkəsi), daha sonra onun nəzdində Liderlik Məktəbi, 2001-ci ildə isə Azərbaycanda ilk "Ahıllar üçün Resurs Mərkəzi"ni yaradılmış və bununla daha bir xeyirxah missiyanın əsasını qoymuşdur.

Nəsillər arasında körpü yaratmaq, bir-birinə inam, hörmət, diqqət kimi nəcib hisslərin tərbiyə olunması, insanın mənəviyyatına, ünsiyyət mədəniyyətinə təsir göstərir.

Bu fəaliyyət Ombudsmanın təşəbbüsü ilə yaradılan "Ahılların Resurs Mərkəzi" və Azərbaycan "Uşaq və Gənclərin Sülh Şəbəkəsi"ndə geniş formada həyata keçirilir.

*Ahılların Resurs Mərkəzi (ARM).* Ölkəmizdə ahılların həyat tərzinin yaxşılaşdırılması, maarifləndirilməsi, sağlamlığı, asudə vaxtlarının səmərəli təşkili, onların hüquq və maraqlarının müdafiəsi və ictimai fəallığını təmin etmək məqsədilə Ombudsmanın təşəbbüsü ilə "Azərbaycan Qadın və İnkişaf Mərkəzi" nəzdində "Ahıllar üçün Resurs Mərkəzi"ni yaradılmışdır. 100-dən çox üzvü olan bu mərkəzdə müxtəlif sahələrdə çalışan xanımlarla yanaşı işləməyən evdar qadınlar, qaçqın, məcburi köçkün, şəhid anaları, əlil, yoxsul, tənhalar da var. Ahılların fiziki və psixi sağlamlığının qeydinə qalmağa yardımçı olan, 10 il müddətində ödənişsiz tibbi, psixoloji, hüquqi xidmətin göstərildiyi, eyni zamanda istirahətlərinin, asudə vaxtlarının mənalı keçirildiyi yeganə məkandır.

Azərbaycanda analoqu olmayan Ahılların Resurs Mərkəzində keçirilən hüquqi maarifləndirmə üzrə ödənişsiz həyata keçirilən hüquqi məşğələ saatlarının, psixoloji seminar-treninqlərin, həkim məsləhətlərinin nəticələri göstərir ki, həqiqətən yaşından asılı olmayaraq, insan öyrənməyə meyllidir və öyrəndiklərinin tətbiqi onun həyatına yeni rəng verir, çox vaxt hətta həyatını, yaşayışını dəyişməyə imkan yaradır, xüsusilə ahıl insanın fəal həyat mövqeyinə təhrik edir.

Ahılların Resurs Mərkəzində yaşlılar sağlamlığın qorunmasının, xəstəliklərin qarşısını almağın, özünə düzgün qulluq etməyin sirlərini mütəxəssislərdən öyrənirlər. Həkim nəzarətində olan ARM-in üzvləri lazımi müalicə alır, eyni zamanda Ombudsmanın Sağ-

lamlaşdırma və Reabilitasiya «Sağlamlıq zonası poliklinikası»nın rəhbərliyi ilə razılaşdırması əsasında mütəmadi həmin poliklinikanın xidmətlərindən istifadə edirlər. Burada xəstəliklərin diaqnostikası ilə yanaşı təbii və ənənəvi üsullarla müalicə, xəstəliklərdən sonra reabilitasiya və sağlamlaşdırıcı tədbirlər həyata keçirilir.

Təcrübəli psixoloq psixo-profilaktik iş aparmaqla yanaşı ahıllara və onların ailə üzvlərinə fərdi psixoloji məsləhətlər verir. İnsanların qocalar zümrəsinə keçməsi cəmiyyətlə onların münasibətinin və dəyərlər sisteminin köklü şəkildə dəyişməsinə səbəb olur, yaşlılar həyatın mənasına, məqsədinə, ədalət və xoşbəxtlik anlayışlarına yeni münasibətlə yanaşırlar. Psixoloq keçirdiyi məşğələlər vasitəsilə ahıllarda olan "lazımsızlıq" kompleksini, ünsiyyət çətinliyini korrektə etməyə çalışır, ailə üzvləri ilə ünsiyyət məsələlərini, ana-övlad, nənə-nəvə münasibətlərini tənzimləmək məqsədilə birgə müzakirə keçirirlər. Xüsusi məşqlərlə psixoloji gərginliyin azaldılması, stressdən azad olmaq qaydalarını öyrənir, tibb və psixologiya elmindən bəhrələnir və biliklərini həyatda tətbiq edir, passiv həyat tərzindən uzaqlaşaraq fəal və hərəkətli olurlar.

Hüquqlarını öyrənən ahıllar hüquqi müstəvidə yaranan çətinliklərini hüquqşünasla birlikdə və ya hər hansı hüquqi məsləhəti alaraq problemlərini özləri həll etməyə çalışırlar. Ailədə valideynlərin və uşaqların hüquqlarını, kişi və qadının ailədə rolunu, hüquq bərabərliyi və gender məsələlərini öyrənir, öyrəndiklərimizi ailə üzvlərimizə də öyrədirlər. Özlərinin və ailələrinin hüquqi müstəvidə hər hansı problemlərini həll etmək üçün göstərilən hüquqi xidmətdən bəhrələnirlər. Onlar eyni zamanda hüquqlarını öyrənməklə özünün və yaxınlarının haqlarını müdafiə etməyi bacarırlar.

Şəhərin mərkəzində yerləşən resurs mərkəzində bir araya gələn ahıl qadınlar öz aralarında ünsiyyət edir, televizorda birgə verilişlərə baxaraq, müzakirə edir, stolüstü oyunlar oynayır, musiqi dinləyir, bununla da asudə vaxtlarını səmərəli keçirirlər.

Ahıl qadınlar ad günlərini birgə keçirir, bir-birinin xeyir-şərində iştirak edirlər. Əlil, xəstə qadınları ziyarət edir, imkanları çərçivəsində onlara həm maddi, həm də mənəvi dəstək olurlar.



Mərkəzin üzvləri təşkilatçılarla birgə teatr tamaşalarına, konsertlərə gedir, mədəni həyatda təmsil olunurlar.

Ahıl vətəndaşların qarşılaşdıqları problemlər öyrənilir, onların aradan qaldırılması üçün və insan hüquqlarının təmin olunması üzrə müvafiq qurumlara təkliflər verilir.

ARM-nın üzvləri artıq bilirlər ki, yaxşı əhval-ruhiyyə, sevinc hissi və xoşməramlılıq sağlamlığın əsas şərtlərindəndir. Onlar istirahətlərini səmərəli keçirmək məqsədilə geniş, hər şəraiti olan mərkəzdə çay süfrəsi ətrafında birgə televizora baxır, müzakirələr edir, musiqi dinləyir, səhnəciklər göstərir, həmçinin Azərbaycanın müxtəlif bölgələrinə, o cümlədən Gəncə, Qəbələ, İsmayıllı, Quba, Şəki və digər rayonların tarixi yerlərinə, muzeylərə, teatr və konsertlərə, ziyarətgahlara, habelə Qobustana, Suraxanı rayonundakı "Atəşgaha", Mərdəkan rayonundakı Botanika bağına, isti vaxtlarda respublikanın müxtəlif bölgələrinə, o cümlədən Quba, Xızı, Gəncə, İsmayıllı, Şamaxı və Pirquluya, Altıağaca gəzintilər təşkil olunmuşdur.

Ahılların Resurs Mərkəzi xeyirxah işə xidmət edir və bu qurum az müddətdə faydalı fəaliyyəti və uğurları ilə tanınmışdır. Təcrübə göstərir ki, belə mərkəzlərin, həmçinin zorakılıq qurbanları üçün sığınacaqların təşkilinə cəmiyyətin ehtiyacı vardır. Hesab edirik ki, bölgələrdə də belə ictimai qurumlar yaradılmalı, bu müqəddəs işin həyata keçirilməsində hər bir azərbaycanlı öz köməyini əsirgəməməlidir.

*Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi (AUGSŞ).* Müvəkkilin uşaq hüquqları üzrə resurs mərkəzi – Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi 2000-ci ildə "Minilliyin Sülh Günündə" fəaliyyətə başlamış, minlərlə uşaq və gənci öz ətrafında birləşdirmişdir.

1999-cu ildə Haaqa Beynəlxalq Sülh Konfransında 100 nəfərlik Azərbaycan nümayəndə heyəti tərkibində iştirak edən 10 nəfər 12-15 yaşlı şagirdin geriyə qayıtdıqdan sonra yaratdıqları bu Şəbəkə 2000-ci ildə Azərbaycan Uşaqdan Uşağa Sülh Şəbəkəsi adı ilə fəaliyyətə başlamış və professor Elmira Süleymanovanın təşəbbüsü və dəstəyi

ilə formalaşaraq hərəkat halını almışdır.

Həmin konfransda Şəbəkənin ilk prezidenti Fərid Dadaşovun iştirakı ilə uşaqlar respublikamızın uşaq və gəncləri adından dünyaya sülh çağırışı ilə müraciət etmiş və vətənimizi layiqincə təmsil etmişlər.

Şəbəkə ölkəmizdə BMT-nin İqtisadi və Sosial Şurası ilə xüsusi məsləhətçi statusuna malik ilk və yeganə qadın təşkilatı olan Azərbaycan Qadın və İnkişaf Mərkəzi nəzdində formalaşmış və bu təşkilatın dəstəyindən faydalanmışdır.

Uşaq və gənclərin üzv olduğu bu birlik artıq Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi adı ilə Müvəkkilin uşaq hüquqları üzrə resurs mərkəzi kimi fəaliyyətini davam etdirir və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Dövlət Qeydiyyatına alınmışdır.

Şəbəkənin üzvləri "Bu vətən bizimdir", "Uşaqlara "HƏ" deyin!", "Uşaq hüquqlarının təbliği kampaniyası", "Uşaq hüquqları üzrə pilləli tədris layihəsi", "Sabahımızı bu gün düşünək", "Yod çatışmazlığı", "HİV/AİDS-lə mübarizə", "Narkomaniyaya yox deyək!", "Zərərli vərdişlər", "Sağlam həyat tərzi", "Sabahımızı bu gün quraq", "BMT-nin Uşaq Hüquqları Konvensiyası üzrə alternativ hesabatın hazırlanması" və digər layihələr üzrə ölkənin bir çox rayonlarında fəaliyyət göstərmişlər. Şəbəkə Uşaqlar üçün Dünya Hərəkatına (UDH) minlərlə uşaq və gənclərin qoşulmasına imkan yaratdı. Hal-hazırda da onlar bu hərəkatda davamlı iştirak edirlər.

Uşaqların bilik və bacarıqlarını daha da inkişaf etdirmək məqsədilə 2001-ci ildə Şəbəkə nəzdində "Azərbaycan Yurdum mənim" devizi ilə "Liderlik məktəbi" yaradılmışdır. Hər həftənin bazar günü Uşaq Hüquqları Konvensiyası, Azərbaycanın təbiəti, coğrafiyası, ekologiyası, yeraltı və yerüstü sərvətləri, tarixi, ədəbiyyatı, mədəniyyət və incəsənəti və digər müxtəlif mövzular üzrə keçirilən məşğələlərdə uşaqlar biliklərə, eləcə də nitq mədəniyyətinə yiyələnərək liderlər kimi formalaşırlar.

AUGSŞ-nin fəalları "Ekologiya ili" münasibətilə keçirilmiş "Ekoerudit" Bakı şəhəri məktəbliləri arasında breyn-rinq yarışmasında 2-ci yerə layiq görülmüş, "Azərbaycan tarixinin təbliği" mövzusunda keçirilmiş mühazirələrin tam kursunu bitirərək Tarix muzeyi tərəfindən sertifikatla mükafatlandırılmış, Sağlamlıq proqramları üzrə Qızıl Aypara Cəmiyyəti ilə səmərəli əməkdaşlığa və "Sağlam həyat tərzi", "İİV/QİÇS-lə mübarizə" mövzuları üzrə keçirilən təlimlərdə fəal iştiraklarına görə, eləcə də Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən uğurlu fəaliyyətə görə "Gələcək naminə" adlı kubok və sertifikata layiq görülmüşlər.

Təşkilat yarandığı dövrdən müntəzəm olaraq müxtəlif mövzularda uşaqlar arasında rəsm müsabiqələri keçirir. "Sehrli Dünya: Gələcəklə bağlı ümid və arzularımız" mövzusunda qaçqın, məcburi köçkün, əlil və kimsəsiz uşaqlar daxil olmaqla 5-18 yaşlı gənc rəssamların çəkdikləri 444 şəkil toplanmış və Nyu-York şəhərində BMT-nin Baş Assambleyasının uşaqlar üzrə xüsusi sessiyasına həsr olunmuş sərgidə nümayiş etdirilmişdir.

"Qocalıq uşaqların gözü ilə" mövzusunda 15 yaşınadək uşaqların çəkdiyi 250 fotoşəkil toplanmışdır ki, onlardan da 6-sı 2002-ci ildə Madriddə Qocalıq üzrə II Ümumdünya Assambleyası sərgisinə qəbul olunmuş və orada nümayiş etdirilmişdir.

AUGSŞ-nin üzvləri Yaponiya Beynəlxalq Əməkdaşlıq Təşkilatı və YUNESKO-nun təşkilatçılığı ilə keçirilən Kanaqava Dünya Uşaq İncəsənət sərgisində ardıcıl iştirak edirlər.

Təşkilatın ölkə daxilində gördüyü işlərlə yanaşı, ölkədən kənar fəaliyyəti də çox genişdir. Azərbaycan uşaqlarının öz sülh istəklərini dünya miqyasında səsləndirmək məqsədilə müzakirə mövzusu birbaşa uşaqlarla bağlı olan, onların problemləri, arzu və istəklərini əhatə edən beynəlxalq konfranslarda onların özlərinin iştirakı təmin edilir. ABŞ, Hollandiya, Fransa, Almaniya, Yaponiya, İordaniya, Misir, Hindistan, İsveçrə, İngiltərə, Şimali İrlandiya, Polşa, Çin, Qırğızıstan, Türkiyə, Rusiya və digər ölkələrdə keçirilən beynəlxalq konfransların iştirakçısı olan Şəbəkənin üzvləri çox fəallıq göstərərək, konfranslarda sərbəst şəkildə çıxışlar edir, fikir mübadiləsində, müzakirələrdə yaxından iştirak edir, sülhsevər

gəncləri öz ətraflarında birləşdirirlər.

Şəbəkə YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, YUNİSEF, UNDPİ, Avropa Uşaq Ombudsmanları Şəbəkəsi (ENOC), Yaponiyanın Ariqato Fondu, Uşaqlar üçün Qlobal Dini Şəbəkə və digər beynəlxalq təşkilatlarla əməkdaşlıqda müxtəlif layihələr həyata keçirilmiş və Şəbəkənin üzvləri yerli və xarici ölkələrdəki təşkil olunmuş proqramlarda iştirak edir.



# IV FƏSİL

# YUNESKO PRİORİTETLƏRİNƏ ƏSASLANAN STRATEJİ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

## §1. GƏNCLƏR SİYASƏTİ YUNESKO PRİORİTETİ KİMİ

YUNESKO prioritetlərindən birini də gənclərə ünvanlanan siyasət təşkil edir. Bu gün beynəlxalq miqyasda həyata keçirilən tədbirlərin mərkəzində innovativ gənclik dayanır.

Bu baxımdan YUNESKO-nun 2014-2021-ci illəri əhatə edən gənclərə ünvanlanan Strategiyası üç istiqaməti nəzərdə tutur.[13] Bunlar:

1. Gənclərin iştirakı ilə siyasətin formalaşdırılması və icmal;
2. Keçid dövrü üçün potensialının inkişaf etdirilməsi;
3. Onların azad iştirakı və sosial yenilikləri üçün imkanların yaradılması.

Azərbaycan Respublikası Gənclər və İdman sahəsində YUNESKO ilə də fəal əməkdaşlıq edir. YUNESKO-nun Bədən Tərbiyəsi və İdman üzrə Hökumətlərarası Komitəsinin (CIGEPS) 1998-ci ilin oktyabrında Parisdə keçirdiyi müşavirədə, 1999-cu ilin dekabr ayında Uruqvayın Punta-del Este şəhərində keçirdiyi bədən tərbiyəsi və idman nazirlərinin 3-cü ümumdünya konfransında, 1999-cu ilin noyabr ayında Parisdə keçirilən Gənclər Forumunda Azərbaycan Respublikasının nümayəndələri fəal iştirak etmişlər.

13-14 mart 2013-cü ildə Bakıda YUNESKO-nun Bədən Tərbiyəsi və İdman üzrə Hökumətlərarası Komitəsinin fövqəladə iclası öz işinə başlamış və uğurlu müzakirələr aparılmışdır. Tədbirdə

13 Operational Strategy on Youth 2014-2021, UNESCO, veb səhifə: *http://en.unesco.org/sites/default/files/Operational%20Strategy%20on%20Youth%20 2014-2021.pdf*

oyunların nəticələrinə müdaxiləyə qarşı və idmanın təmizliyini qoruyub saxlamaq istiqamətində əməkdaşlığın inkişaf etdirilməsi, hər kəsin idmanla məşğul olmaq kimi fundamental hüququnun dəstəklənməsi, bədən tərbiyəsi və idman sahəsinə dövlətlərin investisiyasının təşviq edilməsi mövzuları bu sahəyə mühüm töhfə vermişdir.

Qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə formalaşdığı hazırkı mərhələ Azərbaycan Respublikasında sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin daha fəal iştirakını təmin etmək istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir. Məhz buna görə də cəmiyyətin maraqlarının təmin edilməsi və ölkə iqtisadiyyatının rəqabətə davamlılıq qabiliyyətinin artırılması üçün gəncliyin innovativ potensialından geniş istifadə olunmasına əlverişli zəmin yaradılmalıdır.

Respublikamızda dövlət gənclər siyasətinin formalaşdırılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 26 iyul tarixli Fərmanı, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu və gənclər siyasəti sahəsində digər normativ hüquqi aktlar, habelə Azərbaycan gənclərinin forumlarının keçirilməsi gənclərlə iş sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.

Dövlət gənclər siyasəti – gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Dövlət gənclər siyasəti müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumları tərəfindən həyata keçirilir.



Gənclər siyasətinin əsas istiqamətləri "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə aşağıdakı kimi müəyyənləşdirilib:

1. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı;
2. İstedadlı gənclərə dövlət qayğısı;
3. Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı;
4. Gənclərin məşğulluğunun təmin edilməsi;
5. Gənc ailələrə dövlət yardımı;
6. Gənclər təşkilatlarına dövlət yardımı.

Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilmişdir.

1997-ci il fevralın 1-də "2 fevral" - Azərbaycan gəncləri gününün elan edilməsi haqqında Sərəncam imzalanmışdır. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Ümumilikdə Azərbaycan gənclərinin 6 forumu keçirilmişdir ki, bunlardan 4-ü son 10 ilə təsadüf edir.

Ölkə Prezidenti İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı «Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında» Sərəncamı da gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edir. Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri açıqlanmışdır. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim-tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği istiqamətində tədbirlər həyata keçirilmişdir.

Həmin Dövlət Proqramının icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş vermiş və müəyyən uğurlar əldə olunmuşdur. Gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində davamlı iş aparılmış, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilmişdir.

Məşğulluq sahəsində beynəlxalq təcrübəyə və gənclərin təşəbbüskarlığına əsaslanan fəaliyyətlər inkişaf etdirilmiş, regionlarda yaşayan gənclərin fəallığını stimullaşdıran tədbirlər həyata keçirilmişdir. Ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılmış və bu sahədə irəliləyişlərə nail olunmuşdur. Dövlətin qayğısı sayəsində gənclər təşkilatlarının dövlət gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilmiş, onların layihə və proqramlarına mütəmadi dəstək verilmişdir. Beynəlxalq əməkdaşlıq sahəsində gənclər təşəbbüskarlıq və davamlı fəaliyyət nümayiş etdirmişlər.

Bütün bunlarla yanaşı, ölkə gənclərinin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında onların intellektual və yaradıcı potensiallarının ümummilli məsələlərin həllinə yönəldilməsi müasir dövrün tələbi olaraq qalır.

Dövlət başçısının fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edilmiş, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il ölkədə «Gənclər ili» elan edilmişdir.

"Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" (2006-2010-cu illər), "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" (2007-2012-ci illər) gənclər siyasətinin daha da təkmilləşdirilməsini təmin edir, gənclərin yaradıcılıq potensialının aşkara çıxarılmasına, yaradıcılıq potensialının reallaşdırılması üçün lazımi şəraitin yaradılmasına, yaradıcılıq potensialının səmərəli idarə



edilməsinə, gənclərin intellektual səviyyəsinin yüksəldilməsinə, xüsusi istedadlı gənclərin seçilməsinə və onlarla müvafiq tədbirlərin həyata keçirilməsinə, gənclərin sosial problemlərinin həllinə böyük zəmin yaradır.

Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Belə ki, dövlət orqanlarına 2008-2011-ci illərdə işə qəbul edilənlərin 60 faizdən çoxunu gənclər təşkil etmişdir. Bələdiyyə üzvlərinin 28 faizi - 4303 nəfəri gənclərdir. Onlardan 326 nəfəri bələdiyyə sədridir.

2008-2011-ci illərdə Azərbaycan gənclər təşkilatları 11 beynəlxalq təşkilata üzv qəbul edilib.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi nəzərdə tutulmuşdur. Bu günədək 1204 azərbaycanlı gənc ölkəmizin ehtiyac duyduğu sahələr üzrə müxtəlif təhsil səviyyələri üzrə dünyanın ən qabaqcıl universitetlərinə göndərilmişdir.

Hazırda ölkədə 200-ə yaxın gənclər təşkilatı, 20 dən artıq ali məktəbdə fəaliyyət göstərən tələbə gənclər təşkilatları var. Onların əhatə etdikləri məsələlər də kifayət qədər genişdir: gənclərin vətənpərvər ruhda tərbiyəsi, məlumatlandırılması, işsizliyin azaldılması, gənclərin sağlamlığı, təhsili, fəal vətəndaş mövqeyi, mədəniyyətin geniş kütlələr arasında təbliği və s. məsələlər kifayət qədər aktualdır.

Bakıda Gənclər Mərkəzinin, regionlarda isə "Gənclər Evi"nin inşa edilməsi üçün müvafiq addımlar atılmışdır. Artıq 12 rayonda gənclər evləri fəaliyyət göstərir. Bakı şəhəri və ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafı proqramı çərçivəsində paytaxtın 5 rayonunda gənclər evi tikilməsi üçün layihələr təsdiq olunub və bu ildən etibarən inşasına başlanılacaq, yaxın 2-3 ildə isə 15 gənclər evi inşa olunacaq.

Son illər həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati - hüquqi

şərait və təminatların yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir. 6 aprel 2011-ci il tarixində prezident İlham Əliyev tərəfindən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında sərəncam imzalanmışdır. Gənclər siyasətilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönələn fəaliyyətlərin stimullaşdırılması məqsədilə Gənclər Fondu yaradılıb. 2005-2009-cu illər üçün Azərbaycan Gəncliyi Dövlət Proqramına büdcədən 8 milyon 375 min manat ayrılmışdısa, yeni proqrama 80 milyon manat vəsait ayırmaq planlaşdırılır. Bu əvvəlki proqrama nisbətən təxminən 10 dəfə artıq göstəricidir. Dövlət Proqramının əsas məqsədi Azərbaycan Respublikasında gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir.

Bununla da Azərbaycanda dövlət gənclər siyasətinin yeni mərhələsi başlanmışdır ki, bu da dövlətin həyata keçirdiyi düşünülmüş, ardıcıl ictimai-sosial islahatlardan əhalinin bütün təbəqələri kimi gənclərin də hərtərəfli yararlanmasına şərait yaradacaqdır.

Son 10 ildə gənclər siyasətinin əsas istiqamətləri həm kəmiyyət, həm də keyfiyyət baxımından təsirsiz ötüşməyib və bu dövrdə gənclərin sayı 350 min nəfər artaraq, 2 milyon 799 minə çatıb. Onlar ümumi əhalinin 30,3 faizini təşkil edirlər. Bu isə Azərbaycan Prezidenti İlham Əliyevin zamanında, ən əsası, dəqiq müəyyən etdiyi dövlət gənclər siyasətinin məhsuludur.[14]

Ombudsmanın da fəaliyyətində gənclərlə işə geniş yer verilir. Ölkənin böyük gənclər və tələbə hərəkatları ilə olan əməkdaşlıq bu gün də davam etdirilir.

Bu gün İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsini nəzərdə tutur. Proqramının 4.5-ci maddəsində Məktəblilər və tələbələr üçün

14. Trend İnformasiya Agentliyi, veb səhifə: http://az.trend.az/news/society/2192890.html



insan hüquqlarına dair olimpiadaların, müsabiqələrin, sərgilərin və digər tədbirlərin keçirilməsinin davam etdirilməsi nəzərdə tutulduğundan bu istiqamətdə geniş fəaliyyət həyata keçirilməkdədir.

Fəaliyyətin əsas məqsədi gənclərin hüquq və azadlıqlarının müdafiəsi və təmini ilə yanaşı, hüquq sahəsinə maraqlarının artırılması, eyni zamanda, onları bu istiqamətdə stimullaşdıraraq, aktiv vətəndaş mövqeyinin gücləndirilməsindən ibarətdir.

Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi və onun nəzdində fəaliyyət göstərən Liderlik məktəbində uşaq və gənclərə ünvanlanan fəaliyyət, uşaq və gənclərə ünvanlanan müsabiqələrin, olimpiadaların, rəsm sərgilərinin təşkili, "Tələbələrarası Hüquq Olimpiadası" əhalinin bu qrupu ilə işin təşkilinə töhfə verir.

## §2. QADIN HÜQUQLARI VƏ GENDER BƏRABƏRLİYİNİN TƏMİNATI

Qadın hüquqları və gender bərabərliyi YUNESKO-nun əsas prioritetlərindən biridir. 2014-2021 üçün prioritet kimi Gender bərabərliyi üzrə YUNESKO-nun Fəaliyyət Planı təsdiqlənmişdir.[15] Qadınların, qız uşaqlarının, qarşı cinsin nümayəndələri ilə münasibətdə bərabər hüquqlu olması məsələlərinin, insan hüquqlarının, ayrı-seçkiliklə mübarizənin, qarşılıqlı anlaşmanın, tam sosial inteqrasiya və sosial transformasiya üçün siyasətin yer aldığı Fəaliyyət Planı bütün üzv dövlətlərə tövsiyə olunmuşdur.

Bu minillikdə beynəlxalq ictimaiyyət bəşəriyyətin inkişaf məqsədlərini müəyyənləşdirərkən inkişafın, sosial ədalət və tolerantlığın əldə olunmasını gender bərabərliyindən asılı olduğunu müəyyənləşdirilməsinə və inkişafına geniş imkanlar açır, gender bərabərliyini cəmiyyətdə sosial-mədəni normalar, dəyərlər, inki-

15. Priority gender equality Action Plan for 2014-2021, UNESCO, veb səhifə. http://www.unesco org/new/fileadmin/MULTIMEDIA/HQ/BSP/GENDER/GEAPENGLISHFINAL.pdf

şaf modelləri toplusuna çevirir. Bu baxımdan XXI əsrdə gender bərabərliyi həm də inkişaf və sülhün bərqərar olması sahəsində gələcək tərəqqinin əsasını təşkil edir.

BMT Nizamnaməsinin və beynəlxalq hüququn məqsəd və prinsiplərinə tam uyğun olan Pekin Fəaliyyət Platformasında göstərilir ki, qadınların problemləri ümumi xarakter daşıyır və bu problemlərin həlli bütün dünyada gender bərabərliyinə nail olmaq məqsədilə yalnız qadınların kişilərlə birlikdə, müttəfiqlik şəraitində çalışması sayəsində mümkündür. Bir çox qadınlar, xüsusilə də tənha analar öz ailə vəziyyətləri, sosial-iqtisadi durumları, o cümlədən kənd yerlərində həyat şəraitləri ilə əlaqədar nisbətən təcrid olunmuş qadınlar, qaçqın, məcburi köçkün, immiqrant və işləyən miqrant qadınlar, təbii fəlakətlərdən əziyyət çəkmiş qadınlara ünvanlanan geniş səpkili tədbirlər həyata keçirilməkdədir.

Milli və regional xüsusiyyətləri, müxtəlif tarixi, mədəni və dini amilləri nəzərə alınmaqla, bütün dövlətlər öz siyasi, iqtisadi və mədəni sistemlərindən asılı olmayaraq, insanların bütün hüquqlarını və fundamental azadlıqlarını təmin və müdafiə etməyə cavabdehdirlər. Belə bir fəaliyyətin insanın bütün hüquqlarına və fundamental azadlıqlarına müvafiq qaydada, o cümlədən milli qanunlar çərçivəsində həyata keçirilməsi və strategiyaların, siyasətin, proqramların və inkişaf prioritetlərinin müəyyən edilməsi hər bir suveren dövlətin vəzifəsidir.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə, qadınların qarşısında yeni məqsəd və vəzifələr qoymuş, cəmiyyətin formalaşması prosesində vətəndaşların fəallığının yüksəlməsi yolunda görülən işlər qadınların cəmiyyətdəki rolunun artmasına səbəb olmuşdur. Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etmiş və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır. Bu baxımdan da Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi qadınlara qarşı münasibətdə beynəlxalq humanist aktların tələblərinə cavab verir. 1995-ci ildə BMT-nin "Qadınlara qarşı ayrı-



seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanı (CEDAW), 2001-ci ildə isə Fakultativ Protokolunu ratifikasiya etmiş, BMT-nin Pekin Platforması, Minilliyin Bəyannaməsi, Minilliyin İnkişaf Məqsədləri, beynəlxalq saziş və qətnamələr əsasında Azərbaycan Respublikasında qadınların cəmiyyətdəki fəallığına geniş imkanlar yaradılmışdır. Azərbaycan Respublikası Prezidetinin 6 mart 2000-ci il tarixli "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanı bütün dövlət strukturlarında qadınlarla kişilərin eyni səviyyədə təmsil olunmasını təmin edir. Bununla da Azərbaycanın ictimai-siyasi həyatında qadınlar barəsində hər hansı bir ayrı-seçkilik qanun səviyyəsində aradan qaldırılır.

Bəşər tarixinə mədəniyyətlərin dialoqu əsri kimi daxil olan XXI əsrdə dünyanın siyasi hakimiyyətində olduğu kimi, Azərbaycan qadını da beynəlxalq aləmdə özünəməxsus yer tuta bilmişdir. Bu mənada ölkəmizin Birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın həyata keçirdiyi beynəlxalq əhəmiyyətli layihələr onun simasında Azərbaycan qadınına dünya miqyasında şöhrət və ehtiram qazandırmışdır.

Ölkəmizin sürətlə inkişafına, dünya iqtisadiyyatındakı rolunun artmasına, demokratiyanın təkmilləşməsinə baxmayaraq, bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da gender bərabərliyi sahəsində hələ bir sıra problemlər mövcuddur və gender mədəniyyəti prioritet sahə olaraq qalmaqdadır.

Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 may 2010-cu il, Avropa Şurasına üzv dövlətlərin Gender Bərabərliyinə həsr olunmuş VII Konfransında çıxışında da, "Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil etdiyi, milli qanunvericiliyin qadınların hüquq bərabərliyini təmin edərək hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərdiyi, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəldiliyi vurğulanmışdır.

Fərdlərin gender şüurunun formalaşması sosial və mədəni

stereotiplərin, normaların və təlimatların saxlanması və yayılması vasitəsi ilə baş verir. Müvəkkil də öz növbəsində vurğulayır ki, qadınların bütün hüquqlarının və fundamental azadlıqlarının tam təmin olunması üçün onların səlahiyyətlərinin genişləndirilməsi əsas şərtdir.

Gender balansına, yəni kişilərlə bərabər səlahiyyətlər əsasında ictimai həyatın bütün sahələrində, xüsusilə də qərar qəbuletmə və siyasətin işlənib hazırlanması işində qadınların tam iştirakına dair tərəqqinin sürətləndirilməsi məqsədilə Müvəkkil, bütün nazirliklər, komitələr, siyasi qurumlarla əməkdaşlıq edir, mövcud problemlərin həllinə nail olmaq istiqamətində fəaliyyət göstərir. Burada qadınların vəziyyətinin yaxşılaşdırılmasına, gender bərabərliyinin təmin edilməsinə kömək edən səmərəli milli mexanizmlərin yaranmasına, qadınların səlahiyyətlərinin genişlənməsinə yönəlmiş siyasi prinsiplərin, qanunvericiliyin, proqramların yaradılması, qəbulu və monitorinqinə habelə, gender bərabərliyi üzrə açıq dialoqun təşkilinə geniş şərait yaradır.

Nəzərə alsaq ki, yaşından asılı olmayaraq müxtəlif formalı əlilliyə düçar olmuş qız və qadınlar, adətən cəmiyyətin daha az təminatlı, təcrid olunmuş həssas təbəqəsini təşkil edir, Müvəkkil siyasət və proqramların işlənməsi zamanı onlara aid olan problemləri nəzərə alaraq, bütün mümkün imkanları səfərbər edərək müxtəlif səviyyələrdə xüsusi tədbirlərin həyata keçirilməsi üzrə tövsiyələr verir.

Hazırkı dövrdə, qadınların əmək bazarında iştirakı genişlənir və bu iqtisadi sərbəstlik şəraitində onların məhsuldar fəaliyyəti artır. Qadınların iqtisadi imkanlarının genişləndirilməsi insan hüquqlarını qoruyan, qanunun aliliyini tanıyan, bərabər və ədalətli cəmiyyətin qurulması üçün ən başlıca şərtlərdən biridir. Yaşadığımız əsrdə yoxsulluğun aradan qaldırılması və səmərəli inkişafın təmin olunması Birləşmiş Millətlər Təşkilatının, beynəlxalq ictimaiyyətin və dünya dövlətlərinin, eləcə də Azərbaycan Respublikasının müəyyən etdiyi əsas məqsədlərdəndir. Elə buna görə də ölkəmizdə son illərdə iqtisadi inkişafın nailiyyətləri və bu sahədə imkanların genişləndirilməsi



qadınlara bu müstəvidə də özlərini təsdiq üçün real imkanlar yaradır. Qadınlarımız milli iqtisadi inkişafdan bəhrələnərək öz zəhməti, bilik və bacarıqları ilə bu inkişaf prosesinə təkan verməsi Müvəkkilin rəhbərliyi ilə təsisatın regional ofislərindəki əməkdaşların bu sahədə maarifləndirmə fəaliyyəti ilə də bilavasitə bağlıdır. Çünki, iqtisadi sahədə qadınların imkanlarının genişləndirilməsi milli inkişafın aparıcı amilləri ilə bilavasitə bağlı olan həyatın digər sahələrinə də təsir göstərir. İqtisadi cəhətdən müstəqil olan qadın, özünün və uşaqlarının təhsili üçün daha geniş imkanlar yarada bilər, özünün reproduktiv sağlamlığına daha diqqətli olar, bilik və bacarıqları ilə milli əmək qüvvəsini gücləndirə bilər, alıcılıq qabiliyyətini artıraraq milli iqtisadiyyata dəstək verər, ailədə və icmada verilən qərarlara təsir göstərə bilər.

Qadın siyasəti üzrə prioritetlərin yerinə yetirilməsi olduqca vacib olduğundan Müvəkkilin qadınların inteqrasiya proseslərinə, ictimai-siyasi fəaliyyətə cəlb edilməsi, onların qərar qəbuletmə vəzifələrində təmsil olunması və seçki hüquqlarını daha fəal həyata keçirməsi, cəmiyyətdə, qeyri-hökumət təşkilatlarında, dövlət idarələrində, yerli icra hakimiyyəti orqanlarında və parlament seçkilərində iştirakı uğrunda aktiv iş aparmışdır. Nəticədə 2009-cu ildə keçirilən bələdiyyə seçkilərində uğur qazanmış qadınların sayı əvvəlki illərə nisbətən 4%-dən 26%-dək, qanunvericilik orqanı olan Parlamentin 2010-cu il seçkilərində qadınların təmsilçiliyi əvvəlki illərə nisbətən 16% olmuşdur (124 üzvdən 19 qadındır).

Araşdırmalar göstərir ki, ölkə qanunvericiliyi və respublikamızın qoşulduğu beynəlxalq sənədlər kişi və qadınların ictimai inkişafı üçün bərabər imkanların hüquqi bazasını özündə ehtiva edir. Azərbaycanda cinslər arasında hüquq bərabərliyinin təmin olunması, dövlətin daim xüsusi diqqət yetirdiyi prioritet məsələlərdən biridir. Elə buna görə də, qadın problemləri, onların hüquqlarının müdafiəsi, gender bərabərliyinin (qadın və kişilər arasında hüquq bərabərliyinin) təmin edilməsi, Müvəkkilin də fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Təsisatın yarandığı ilk gündən Müvəkkil insan hüquqlarının bütün sahələrinə olduğu kimi qadın

hüquqlarının müdafiəsinə, xüsusilə gender bərabərliyinin təminatı məsələsinə xüsusi diqqət yetirmişdir. Burada konseptual yanaşma ondan ibarətdir ki, qadınların müxtəlif qruplarının xüsusiyyətləri nəzərə alınaraq onların hüquqlarının müdafiəsinə fərqli, bəzən isə fərdi yanaşma tətbiq olunur.

Cəmiyyətdə mövcud vəziyyətin dəyərləndirilməsi və gender bərabərliyinə nail olmaq üçün görülən tədbirlər, qadınların hüquqları, təhsili, sağlamlığı ilə bağlı məsələlər və onların idarəetmədə və ictimai həyatdakı mövqeyi Müvəkkilin daim diqqət mərkəzindədir. Burada, qadın hüquqlarının müdafiəsi, qanunvericiliyin təhlili, problemlərin tədqiq edilməsi, sorğuların keçirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və gender bərabərliyinin təbliğ olunması məqsədilə, Müvəkkil Aparatın əməkdaşları sırasından qadın hüquqları və gender bərabərliyi üzrə ixtisaslaşmış müşavir təyin etmişdir.

YUNESKO prioritetlərinə əsaslanaraq, qadın hüquqları, qadın təhsili, qadın sağlamlığı ilə bağlı məsələlər və ümumən qadının ictimai həyatdakı mövqeyi Müvəkkilin fəaliyyətində demokratizmin, cəmiyyətin ümumi inkişaf səviyyəsinin əsas meyarlarından biridir. Cəmiyyətdə mövcud vəziyyətin dəyərləndirilməsi, qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili, məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması, qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, sığınacaqların, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması və gender bərabərliyinə nail olmaq üçün görülən tədbirlər bu fəaliyyətin prioritet istiqamətlərindəndir.

Təhsilin, gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsini təmin edən ən qiymətli vasitələrdən biri olduğu üçün Müvəkkilin təşəbbüsü ilə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində İnsan hüquqları fənni artıq bir neçə ildir ki, tədris edilir. Eyni zamanda, həmin fakültənin magistratura pilləsində insan hüquqları üzrə kadr hazırlığına başlanmışdır ki, bu da respublikamız üçün insan hüquqları sahəsində ixtisaslı kadrların hazırlanmasına, müvafiq tədris proqramları və dərsliklərin nəşrinə, hüquqi maarifləndirmə prosesinin yüksək səviyyədə təşkilinə və hüquqların daha etibarlı müdafiə edilməsinə təkan verir.



Müvəkkilin təşəbbüsü ilə Bakı Dövlət Universitetinin adı çəkilən fakültəsində gender bir fənn kimi tələbələr üçün tədris olunur və eyni zamanda "İnsan hüquqları anlayışı", "Gender və bərabər imkanlara təminat", "Gender bərabərliyi üzrə beynəlxalq və milli qanunvericilik", "Genderin mədəni, iqtisadi və sosial aspektləri" və s. mövzularda mühazirələr oxuyur.

Bununla yanaşı, müntəzəm olaraq, Ombudsman və Aparatının müvafiq əməkdaşları ictimaiyyət arasında, o cümlədən Ədliyyə Nazirliyi Akademiyasında, Əmək və Sosial Münasibətlər Akademiyasında, Dövlət İdarəçilik Akademiyasında, Həmkarlar ittifaqlarının kadrları və fəalları üçün gender probleminin müasir aspektləri üzrə tədris kursları təşkil edilir, məruzələr oxuyur və interaktiv diskussiyalar aparır. Aidiyyəti dövlət orqanlarının nümayəndələri, QHT, icmalardan olan dinləyicilərə insan hüquqları, əmək, sosial təminat, həmkarlar ittifaqı ilə bağlı qanunvericilik aktları, kişi və qadınlar arasında hüquq bərabərliyinin təminatı-gender bərabərliyi, qadınların hüquqları üzrə beynəlxalq sənədlər və milli qanunvericilik və s. barədə ətraflı məlumat verilir, onlara müvafiq nəzəri biliklər aşılanır. Qeyd etmək lazımdır ki, Ombudsman təsisatı ilə adıçəkilən Akademiya, habelə Ədliyyə Akademiyası, Polis Akademiyası ilə sıx qarşılıqlı əməkdaşlıq əlaqələri mövcuddur.

Bu fəaliyyət YUNESKO-nun prioritetləri və BMT-nin 2005-2009-cu illər üzrə nəzərdə tutulmuş iki fazalı İnsan Hüquqları üzrə həyata keçirilən Dünya Maarifləndirmə Proqramının davamı olaraq 2010-2014-cü illər üzrə nəzərdə tutulmuş Proqrama uyğun şəkildə davam etdirilir. Bu Proqramın birinci fazasının müvəffəqiyyətlə yerinə yetirilməsinin yekunları barədə BMT-yə hesabat göndərilmiş və bu hesabat onun müvafiq orqanı tərəfindən dəyərləndirilərək,

BMT-nin internet səhifəsində yerləşdirilmişdir.[16]

Müvəkkil fəaliyyəti dövründə insan hüquq və azadlıqlarının daha səmərəli təmini və müdafiəsi məqsədilə qəbul edilmiş Dövlət Proqramlarının və Milli Fəaliyyət Planlarının həm hazırlanması prosesində, həm də həyata keçirilməsinə təşəbbüs göstərmiş və yaxından iştirak etmişdir.

Qadınlara qarşı zorakılıqla mübarizə, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür təsirlərə məruz qalmış şəxslərlə iş, arzuolunmaz hamiləliklərin, abortların qarşısının alınması, ümumilikdə isə gender məsələsinə, ölkəmizdə ana və körpələrin sağlamlıq hüququnun müdafiəsinin milli prioritetlərdən olduğu nəzərə alınmaqla, Minilliyin İnkişaf Məqsədlərindən biri kimi dövlət və qeyri-hökumət təşkilatlarının, millət vəkillərinin, BMT-nin müxtəlif agentliklərinin, KİV-lərin diqqəti qeyd olunan məsələyə yönəldilmişdir.

Gender bərabərliyi və qadın hüquqlarının təmin olunması sahəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, müvafiq nazirliklər, müxtəlif dövlət qurumları, o cümlədən beynəlxalq təşkilatlar, QHT və KİV-lərlə, ümumilikdə vətəndaş cəmiyyətinin, icmaların nümayəndələri ilə sıx əməkdaşlıqda qadın hüquqlarının təbliğinə dəstək verir.

Müvəkkil və aparatın əməkdaşları vətəndaş cəmiyyətinin üzvləri ilə birlikdə bölgələrdə, ucqar rayon və kəndlərdə yaşayan qadınlar üçün qadın sahibkarlığı, gender bərabərliyi, məişət zorakılığı, insan alveri və erkən nikahlar mövzusunda maarifləndirici seminar və məşğələlər təşkil edir və intensiv maarifləndirmə işləri aparır. Bunun nəticəsi olaraq, minlərlə qadın öz hüquqları barədə bilgilər əldə edir və bununla da onların cəmiyyətdəki fəallığı artır.

15 sentyabr 2008-ci ildə qəbul edilmiş "Yoxsulluğun azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramı"nda (2008-2015) gender komponenti geniş şəkildə öz əksini tapmışdır və buraya daxil

16. BMT-nin İHAK-nın veb səhifəsi: *www2.ohchr.org/english/issues/education/training/docs/replies/Azerbaijan WPHRE1stPhase.pdf*



edilən bu məsələ BMT tərəfindən Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ən güclü komponent kimi qiymətləndirilmiş və regionda "yaxşı təcrübə" kimi təklif edilmişdir.

Müvəkkilin qadın hüquqları sahəsində fəaliyyəti BMT-nin Saziş Qurumları, Universal Dövri İcmal, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən müsbət təcrübə kimi yüksək qiymətləndirilməkdədir.

Onu da qeyd etmək lazımdır ki, ATƏT-in Mərkəzi Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (ATƏT/DTİHB) 2012-ci ildə hazırladığı "İnsan Hüquqları üzrə Təsisatların Qadın Hüquqları və Gender Bərabərliyin Təbliği və Müdafiəsində Rolu" adlı Kitabda qadın hüquqlarının müdafiə və inkişaf strategiyası, vətəndaş cəmiyyəti ilə əməkdaşlıq, üzv ölkələrin insan hüquqları təsisatlarında qadın hüquqlarının müdafiəsi imkanlarının artırılması və s. məsələlər öz əksini tapmış və yalnız bir neçə ölkənin müsbət təcrübəsi nümunə kimi göstərilmişdir. Kitabda Azərbaycan Ombudsmanın qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təminatı sahəsində gördüyü işlər, Ombudsmanın Ahılların Resurs Mərkəzinin müntəzəm fəaliyyəti, o cümlədən qaçqın və məcburi köçkün, məhkum, əlil, zorakılığa məruz qalmış, tənha qadınların hüquqlarının müdafiəsi üzrə fəaliyyət, onlara göstərilən təmənnasız hüquqi, tibbi və psixoloji yardım, Müvəkkilin təşəbbüsü ilə Bakı və regionlardakı bir sıra orta məktəblərdə həyata keçirilən uşaq hüquqları üzrə pilləli tədris beynəlxalq qurumlar tərəfindən uğurlu sayılaraq, müsbət təcrübə kimi təqdim olunmuşdur.

2010-cu ildə Almaniya İnsan Hüquqları İnstitutu da Azərbaycan Ombudsmanının bu sahədə fəaliyyətini yüksək qiymətləndirərək Avropa Şurasının müvafiq Komitəsində hazırlanan "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizəyə dair Avropa Şurasının Konvensiyanın" (İstanbul,11.05.2011) layihəsinə dair təkliflər və şərhlər hazırlamaqla bağlı Müvəkkilə müraciət etmişdir. Müvəkkilin rəhbərliyi ilə Konvensiyanın maddələrinə dair təkliflər hazırlanaraq Avropa Şurasına təqdim olunmuşdur. Burada, qadınların zorakılığa məruz qaldıqları

halda AŞ-na birbaşa müraciətlərinin və Konvensiya üzrə onların hüquqlarını müdafiə etmək mexanizminin hazırlanması, Konvensiyanın ucqar kənd yerlərində, qaçqın, məcburi köçkün qəsəbələrində, milli azlıqlar və əhalinin digər həssas qrupları arasında yayılması üçün maarifləndirmə işlərinin aparılmasına xüsusi diqqət yetirilməsi, sığınacaqlarda ödənişsiz hüquqi, psixoloji, tibbi və sosial reabilitasiyaların təşkili, "iqtisadi zorakılıq" ifadəsinin əlavə olunması kimi təkliflər irəli sürülmüşdür. Təqdim olunan təklif və tövsiyələr uyğunlaşdırılmış qaydada Konvensiya layihəsində öz əksini tapmışdır. Yeri gəlmişkən, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova 2005-ci ildə Avropa Şurası İnsan Hüquqları üzrə Komissarı postuna ilk və yeganə qadın namizəd olmuşdur.

29-30 noyabr 2012-ci il tarixlərində Brusseldə Avropa Parlamentində II Avropa Gender Sammiti keçirilmişdir. Sammitə elm, təhsil, texnologiya-innovasiyalar, siyasət, sənaye, tibb və tədrisdə Gender sahəsində çalışan 400-dən artıq mütəxəssis toplanmışdı. Sammitin məqsədi Avropa Gender Bərabərliyi standartının inkişafına təkan vermək və gender aspektini Avropa İttifaqının siyasi elminə və innovasiyalar sisteminə daxil etmək idi. Belə bir standartın tətbiqi tədqiqat institutları, maliyyə təşkilatları, siyasi, sənaye və kənd təsərrüfatı sahəsində yeniliklər əldə etmək üçün əvəzolunmaz vasitə hesab olunmaqdadır.

Sammitdə Müvəkkilin qadın hüquqları və gender bərabərliyi üzrə müşaviri iştirak etmiş, diskussiyalar zamanı Müvəkkilin gender bərabərliyi sahəsində müsbət təcrübəsi, BMT-nin maarifləndirmə proqramına uyğun fəaliyyəti, BDU-da bu sahə üzrə oxuduğu mühazirələr və görüləcək işlər barədə məlumat verilmişdir.

Belə bir mühüm tədbirdə iştirak qarşıda duran prioritetlərin müəyyən edilməsi, daha çox zəif qrupların aşkarlanması, onların ehtiyaclarının öyrənilməsi, ünvanlı hüquqi və sosial yardım proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi, hüquqi maarifləndirmə sahəsində fəaliyyətin gücləndirilməsi, qaçqın müharibədən ziyan çəkən, şəhid ailələrinə, ahıl, əlil, məhbus qadınlara, gənc ailələrə, qız uşaqlarına ünvanlanmış təklif və tövsiyələrin hazırlanması və əhali arasında geniş təbliğat işlərinin aparılması, bunun üçün zəruri kitabların, broşurların məlumat kitabçalarının, lifletlərin və s. nəşr edilməsi və yayılması kimi vəzifələrimizi gerçəkləşdirmək üçün birgə layihələrin dəstəklənməsinə zəmin yaratmışdır.



YUNESKO-nun prioritetlərini nəzərə alan Müvəkkil elmin bütün sahələrində (tibb, biologiya, texnologiya və innovasiyalar, bioetika, təhsil və s.) qadınların elmi fəallığının artmasına, müxtəlif elmi tədqiqatların, layihələrin yerinə yetirilməsinə, gender sahəsində maarifləndirmə standartlarına əməl olunmasının və genderin elmin bütün sahələrinə inteqrasiyasının vacib olduğunu prioritet məsələ kimi daim gündəmdə saxlayır. Burada siyasətdə, parlamentlərdə, kimya, aqrar, neft və qaz sahələrində və əsasən qərar qəbuletmə səlahiyyəti olan vəzifələrdə qadınların kifayət qədər təmsil olunmaması narahatlıq törədən bir məqam kimi vurğulanır.

Qeyd olunmalıdır ki, Azərbaycan qadınlarının hələ də istifadə olunmayan böyük professional, intellektual, işgüzar, mənəvi potensialı vardır ki, bunları hərəkətə gətirmək, bərabər hüquqlara, bərabər imkanlara nail olmaqla onları keyfiyyətcə yeni səviyyəyə qaldırmaq sözün əsl mənasında gender bərabərliyinin inkişafına doğru mühüm addımlardır.

## §3. ƏTRAF MÜHİTİN QORUNMASI VƏ EKOLOJİ HÜQUQLAR

Bu gün insan fəaliyyəti hava şəraiti, ekosistemlər və insan sağlamlığı üçün qabaqcadan proqnozlaşdırılmayan və ən ciddi nəticələrlə qloballaşmaya səbəb olur, iqlimi dəyişdirir. İqlimin dəyişməsi, o cümlədən, qlobal istiləşmə, stratosfer ozon qatının tükənməsi, bioloji müxtəlifliyin itirilməsi, havanın və suyun təhlükəli kimyəvi maddələr və tullantılarla çirkləndirilməsi kimi ağır ümumbəşəri problemə çevrilmişdir. Bundan əlavə, dünyada içməli su çatışmaz-

lığı, şəhərsalma, havanın çirkləndirilməsi kimi yerli və regional problemlər artıq qlobal səviyyəyə çatmışdır.

Əsas məqsədi elm, təhsil, mədəniyyət və informasiya mübadiləsi vasitəsilə mədəniyyətlərarası dialoqun təşviqi, dünyada sülh və sabitliyin bərqərar olması, insan hüquqlarının təminatı olan YUNESKO-nun fəaliyyəti yalnız sülh şəraitini deyil, təbii fəlakətlər, silahlı münaqişələr və humanitar böhranlar dövrünü də əhatə edir. YUNESKO təbii fəlakətlər zamanı insan hüquqlarının qorunmasına, onların mədəniyyət, elm, din və təhsillərinin mühafizə olunması məsələsinə xüsusi önəm verir. Təşkilat bu məqsədlə çox saylı proqram, layihə, texniki yardım və s. fəaliyyətlər həyata keçirir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini təkrar bərpa etdikdən sonra ətraf mühitin mühafizəsi sahəsində bir çox beynəlxalq konvensiyalara və sazişlərə qoşulmuş, bununla bağlı üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində zəruri addımlar atmışdır. Son illər bu sahədə beynəlxalq təşkilatlarla, o cümlədən YUNESKO çərçivəsində əlaqələr genişlənmiş, birgə layihələr hazırlanaraq həyata keçirilmiş, ekoloji tarazlığın təmin edilməsinə, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasına yönəldilmiş bir sıra dövlət proqramlarının icrasına başlanılmış, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan flora və faunanın qorunub saxlanılması məqsədi ilə milli parklar, dövlət təbiət qoruqları və dövlət təbiət yasaqlıqları yaradılmışdır. Bunlarla yanaşı, beynəlxalq konvensiyalardan və sazişlərdən irəli gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsini təmin etmək üçün müvafiq dövlət orqanları səylərini artırmış və bu sahədə işlər daha da gücləndirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsi özündə hər bir vətəndaşın sağlam ətraf mühitdə yaşamaq hüququnu təsbit edir. Bu maddənin ikinci hissəsinin tələbinə görə isə, hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. Eləcə də həmin maddənin üçüncü və dördüncü bəndində göstərilir ki, heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə



törədə və ya zərər vura bilməz. Dövlət ekoloji tarazlığın saxlanmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.

Bununla yanaşı, Azərbaycan Respublikası ekoloji hüquqların müdafiəsi baxımından bir sıra əhəmiyyətli beynəlxalq müqavilələrin, o cümlədən, «Bitki mühafizəsi haqqında» 1951-ci il tarixli Beynəlxalq Konvensiyanın, «Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında» 1979-cu il tarixli Avropa Konvensiyasının, «Havanın böyük məsafələrdə transsərhəd çirkləndirilməsinə dair» 1979-cu il tarixli Konvensiyasının, «Bioloji müxtəliflik haqqında» 1992-ci il tarixli Konvensiyasının iştirakçısıdır.

Qeyd etmək lazımdır ki, ekologiya sahəsi üzrə münasibətləri tənzim edən xeyli sayda normativ hüquqi aktlar qəbul edilmişdir ki, bunların da, ekoloji hüquqların təmini, əhalinin ekoloji düşüncə tərzinin və mədəniyyətinin formalaşmasında əhəmiyyətli rolu olmuşdur.

Bu sənədlər sırasında Azərbaycan Respublikasının Torpaq, Meşə, Su Məcəllələrini, «Yerin təki haqqında», «Ekoloji təhlükəsizlik haqqında», «Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında», «Əhalinin radiasiya təhlükəsizliyi haqqında», «Atmosfer havasının mühafizəsi haqqında», «Heyvanlar aləmi haqqında», «Sanitariya epidemioloji salamatlıq haqqında», «Su təchizatı və tullantı suları haqqında», «Ətraf mühitin mühafizəsi haqqında», «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında», «Ətraf mühitə dair informasiya almaq haqqında» Qanunlarını, «Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanını, «Xəzər dənizinin çirklənmədən qorunması üzrə əlavə tədbirlər haqqında», «Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında», «Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarını və digər normativ hüquqi aktları misal göstərmək olar.

3 iyul 2006-cı il tarixdə ölkə Prezidenti yanında respublikanın ekoloji durumuna həsr olunmuş müşavirə keçirilmiş və həmin müşavirədə ətraf mühitin sağlamlaşdırılması sahəsində prioritetlər müəyyən edilərək əməli və konkret tədbirlərin həyata keçirilməsi üçün tapşırıqlar verilmişdir. Bu tapşırıqlar əsasında hazırlanmış «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı» həmin ilin sentyabr ayında ölkə başçısı tərəfindən təsdiq edilmişdir. Bu sənəd əsasında problemlərin, xüsusilə Bakı şəhərində və Abşeron yarımadasında ətraf mühitin sağlamlaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlanıldı və hazırda da, bu işlər davam etdirilir.

Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu da ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir. Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsindən, təbii ekoloji sistemlərə təsərrüfat və başqa növ fəaliyyətin zərərli təsirinin qarşısının alınmasından, bioloji müxtəlifliyin qorunub saxlanılmasından və təbiətdən istifadənin səmərəli təşkilindən ibarətdir. Qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu ilin ilk yarım illiyinə həsr olunmuş Nazirlər Kabinetinin müşavirəsindəki çıxışında və sonrakı bir sıra tədbirlərdəki dərin məzmunlu nitqlərində ekoloji məsələlərə xüsusi önəm verərək, 2010-cu ili Respublikamızda «Ekologiya ili» elan etmişdir. 2014-cü ildə ekoloji məsələlərə diqqətin artırılması bir daha gündəliyə gətirilmişdir.

Bu baxımdan ölkəmizdə əhalinin ekoloji təfəkkürünün və ekoloji mədəniyyətinin daha da inkişaf etdirilməsi, xüsusilə də, gənc nəslin təlim-tərbiyəsində sözügedən sahə ilə bağlı hüquqi biliklərin



təbliği və mənimsənilməsi işinin həyata keçirilməsi bu sahədə müəyyən səlahiyyətlərə malik dövlət orqanlarının qarşısında duran prioritet vəzifələrdən olmuşdur.

YUNESKO prioriteti kimi həyata keçirilən geniş fəaliyyət və ölkəmizdə ətraf mühitin mühafizəsi ilə bağlı sərgilərin keçirilməsi artıq ənənə halını almışdır. Son illərdə qazanılan nailiyyətlər respublikamızın iqtisadi əsaslarını möhkəmləndirərək, qeyri-neft sektorunun, infrastruktur sahələrinin və regionların inkişafının sürətləndirilməsi, xüsusən ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində kompleks tədbirlərin gerçəkləşdirilməsi üçün geniş imkanlar yaratmışdır. Ətraf mühitin yaxşılaşdırılması, təbii sərvətlərin və biomüxtəlifliyin mühafizəsi sahəsində bu günədək bir sıra mühüm layihələr icra edilmişdir. Hazırda cəmiyyətin, yerli və beynəlxalq təşkilatların diqqəti ekologiya problemlərinin həllinə yönəlmişdir və dövlətimizin müəyyənləşdirdiyi ekoloji siyasət uğurla həyata keçirilməkdədir.

Ətraf mühitin sağlamlaşdırılması və lazımınca qorunması məqsədi ilə bəzi pilot layihələrin icrası zamanı ekoloji tələblərə cavab verən yeni texnologiyalardan istifadə yüksək nəticələr əldə olunmasını təmin etmişdir. Bunlar bir daha göstərir ki, Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələri kimi, ekologiya məsələləri də daim diqqət mərkəzindədir. Vətəndaşlarımızın sağlam ətraf mühitdə yaşaması naminə ən müasir "yaşıl texnologiyalar"ın tətbiqindən maksimum faydalanmaq zəruridir.

Ölkəmizin ayrı-ayrı rayonlarında istər ağac emalı və mebel sənayesi üçün qiymətli ağacların, istərsə də məişət tələbatı üçün müxtəlif növlərdən olan ağacların qırılması halları nəticəsində meşə zolağının məhv edilməsinin qarşısının alınması üzrə ciddi tədbirlər görülməsi önə çəkilir, problemin qarşısını almaq üçün, ilk növbədə, hüquqi məsuliyyətin ciddiləşdirilməsi, həmçinin əhalinin yanacağa olan tələbatının digər vasitələrlə ödənməsi istiqamətində geniş fəaliyyət həyata keçirilir. Azərbaycanın ən ucqar rayonlarının belə təbii qazla təchizatı prosesi davam etdirilməsi və alternativ enerji mənbələrinin yaradılması bu prosesə mühüm töhfə verir.

Kür çayının daşması və başqa baş vermiş təbii fəlakətlər

nəticəsində ekoloji gərginlik yaranmış, vəziyyətlə əlaqədar müxtəlif vaxtlarda təbii fəlakət zonalarında həyata keçirilən işlər problemlərin aradan qaldırılmasına imkan vermişdir.

Azərbaycan Ombudsmanı da təbii fəlakətlər baş verən zaman həmin zonalara səfər edərək, təbii fəlakətin nəticələrinin aradan qaldırılması, mövcud problemin nəzarətdə saxlanılması məqsədilə yaradılmış mərkəzi qərargahlara baş çəkir, insanlarla görüşür, onların vəziyyəti, yaranmış problemi, geri qaytarılması prosesini müvafiq dövlət qurumlarının rəhbərləri ilə müzakirə etmişdir.

Ombudsmanın təbii fəlakət nəticəsində zərər çəkmiş əhali ilə görüşü zamanı onlar ölkə Prezidentinin regiona səfər edərək, şəxsən təbii fəlakətdən zərər çəkən insanlarla görüşməsinin, problemlərin aradan qaldırılması ilə bağlı müvafiq tapşırıqlar verməsinin, vəziyyəti daim nəzarətdə saxlamasının insanlarda ruh yüksəkliyini artırdığını və mənəvi dəstək olduğunu söyləmiş, əhaliyə göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə etmiş və dövlət başçısına minnətdarlıqlarını bildirmişlər.

Qeyd olunmalıdır ki, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları, Daxili İşlər Nazirliyinin polis və Daxili Qoşunların şəxsi heyəti, Səhiyyə Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və digər müvafiq qurumlar sellə bağlı çevik və mütəşəkkil qaydada əlaqəli çalışmış, qərargah şəklində səmərəli fəaliyyət göstərmiş, profilaktik işlərin vaxtında aparılması və gələcək təbii fəlakətlərin qarşısının alınmasına yönəlmiş tədbirlər görülmüş, bəndlərin möhkəmləndirilməsi və yenilərinin qurulması üzrə işlər aparılmışdır.

Əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini sahəsində ölkə rəhbərliyi tərəfindən yürüdülən məqsədyönlü siyasətin uğurla həyata keçirilməsində mərkəzi icra hakimiyyəti orqanı kimi Ekologiya və Təbii Sərvətlər Nazirliyi mühüm rol oynayır və insan hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə adıçəkilən qurumla Ombudsman təsisatı arasında yaranmış əməkdaşlıq əlaqələrini qurulmuşdur.

Bu sahədə dövlət qurumlarına ünvanlanan tövsiyələrini nəzərə



alaraq, «Ekologiya ili» çərçivəsində Müvəkkilin təşəbbüsü ilə aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəmüvafiq hesab edilmiş, onların da əksər hissəsi artıq icra edilmişdir:

- ekoloji qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı birgə müzakirələrin keçirilməsi;
- respublikanın müxtəlif bölgələrini əhatə etməklə hüquqi maarifləndirmə işlərinin görülməsi;
- aidiyyati dövlət qurumlarının nümayəndələrini cəlb etməklə 2 və 3 həftəlik təlim kurslarının təşkili;
- dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə treninqlərin, seminarların keçirilməsi;
- müxtəlif telekanallarda maarifləndirici verilişlərin hazırlanması;
- təbliğat materiallarının (buklet, yaddaş kitabçası, plakat və s.) çap olunması və yayılması;

Ombudsman istər ölkə çərçivəsində, istərsə də ondan kənarda təşkil olunmuş bir sıra tədbirlərdə (ikitərəfli və çoxtərəfli görüşlərdə) ekoloji problemləri daima diqqətdə saxlamış, onların həlli istiqamətində kompleks tədbirlərin görülməsi zərurətini qeyd edir.

Ekoloji problemlərdən danışarkən Ermənistanın Beynəlxalq ekologiya hüququnun prinsiplərinə, o cümlədən «Ətraf mühitin problemlərinə dair Stokholm Bəyannaməsi»nin (1972-ci il) və «Ətraf mühit və inkişafa dair Rio-de Janeyro Bəyannaməsi»nin (1992-ci il) müddəalarına zidd olaraq, hərbi təcavüz nəticəsində Azərbaycan Respublikasının 1.7 mln. hektar ərazisi işğal olunması ilə yaranan çətinlikləri qeyd etmək yerinə düşər. Bu gün işğal olunmuş ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir ki, bunlardan 70-i endemikdir. Nadir növ ağaclar işğal olunmuş ərazilərdə məhv edilərək dünya florasının xəzinəsindən silinmək üzrədir. Bu ərazilərdə “Azərbaycan Respublikasının Qırmızı Kitabı”na daxil edilmiş faunanın 24, bitkilərin isə 27 növü qorunurdu. Ərazilərdə ekoloji əhəmiyyətə malik bir çox göllər antropogen təsirə məruz qalır. Ən zəngin faydalı qazıntı yataqları ölkənin işğal olunmuş ərazilərində qalmışdır. Bu ərazilərdən keçən Araz və Kür çayları-

nın qolları olan Oxçu çay və Ağstafa çayın Ermənistan tərəfindən ən ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranmışdır. Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində 100 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv olmuş, torpağın üst münbit qatı yararsız hala düşmüşdür.

Azərbaycan ərazilərinin flora və fauna növlərini məhv etmək niyyəti ilə törədilən bu yanğınlar həmin ərazilərdən vəhşi, sürünən, gəmirici və digər heyvanların başqa ərazilərə axını və həmin ərazilərin təbiətindəki tarazlığın pozulması ilə nəticələnir və bununla bağlı beynəlxalq qurumlar tərəfindən aparılan monitorinqlər də heç bir nəticə vermir.

Torpaq, hava, su, habelə flora və fauna yalnız bir millət və ya bir dövlət üçün deyil, bütövlükdə, bəşəriyyət üçün həyati əhəmiyyətə malikdir. Bu baxımdan hər bir dövlət beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə əməl etməməklə «Beynəlxalq müqavilələr hüququ haqqında» 1969-cu il Vyana Konvensiyasında öz əksini tapmış «müqavilələr yerinə yetirilməlidir» prinsipini və bununla da beynəlxalq hüququn ümümtanınmış normalarını kobudcasına pozmaqda davam etdir.

Ölkə Ombudsmanı bəyanatlarında, hansı ki, müxtəlif dillərə tərcümə olunaraq bütün aidiyyəti beynəlxalq rəsmi qurumlara göndərilmişdir, işğal olunmuş ərazilərdəki yanğınlara, canlı və cansız aləmə uzunmüddətli təcavüzə, o cümlədən Şuşa, Kəlbəcər və digər işğal altında olan rayonların ərazilərində ətraf təbii mühit üçün də, yüksək təhlükə törədən qazıntılara son qoyulmasını tələb etmiş və beynəlxalq qurumları Ermənistanın bu siyasətinə və əməllərinə qiymət verməyə çağırmışdır.

Müvəkkilin çox şaxəli fəaliyyətində digər hüquqlarla yanaşı, ekoloji hüquqların müdafiəsi və təmininin də mühüm yer tutduğu, YUNESKO-nun prioritetlərindən olan bu aktual mövzuya diqqət göstərilməsinin ətraf mühitin saflığının, sağlamlığının qorunmasına, insanların sağlam mühitdə yaşamasının zəruriliyinə qayğıdan irəli gəldiyi önə çəkilir.



Ölkəmizdə əhalinin ekoloji təfəkkürünün və ekoloji mədəniyyətinin daha da inkişaf etdirilməsi, xüsusilə gənc nəslin təlim-tərbiyəsində, müvafiq sahə üzrə hüquqi biliklərin təbliği və mənimsənilməsi işinin həyata keçirilməsi olduqca zəruridir.

Müvəkkil mütəmadi olaraq uşaq və gənclərin də ekoloji mədəniyyətinin və düşüncə tərzinin formalaşmasına təsir göstərəcək maarifləndirici xarakterli mədəni və kütləvi tədbirləri təşkil edir. Adi və ekstremal şəraitdə (məsələn, ekoloji fəlakətlər, insan fəaliyyəti nəticəsində ekoloji tarazılığın pozulması, müharibə, hərbi münaqişələr, zəlzələlər, vulkan püskürmələri, torpaq sürüşməsi, sel, daşqın, quraqlıq yanğın və s.) hallarda belə insan hüquqlarının müdafiəsinə xüsusi önəm verilir.

25-27 may 2009-cu il tarixdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü və təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar Nazirliyinin dəstəyi ilə keçirilmiş "Ekstremal şəraitdə uşaq hüquqlarının müdafiəsi və milli insan hüquqları institutlarının rolu" mövzusunda beynəlxalq konfransı və onun əhəmiyyəti qeyd edilməlidir.

Bu beynəlxalq konfrans Avropa Şurasının yaranmasının 60 illiyinə, BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul olunmasının 20 illiyinə və Azərbaycanda "Uşaq ili"nə həsr edilmişdi.[17]

Beynəlxalq Konfransda təbii fəlakətlərin, vulkan püskürmələri, iqlim dəyişikliklərin, torpaq sürüşməsi, çayların daşması nəticəsində baş verən ekstremal şəraitdə insan hüquqlarının, o cümlədən uşaq hüquqlarının pozulduğu hallarda uşaqların hüquqlarının müdafiəsi, onlara yardım göstərilməsinə dair təcrübə müzakirə olunmuşdur.

İnsan fəaliyyəti nəticəsində - neft emalı, kimya sənayesində, kənd təsərrüfatında kimyəvi maddələrdən düzgün istifadə olunmadıqda ekoloji tarazlığın pozulduğunu, təbiətə ziyan vurulduğunu, bu halların daha çox iqtisadiyyatı inkişaf etmiş ölkələrdə özünü göstərdiyini önə çəkilmişdir.

17. Elmira Suleymanova. "***Ön söz***", **"Ekstremal şəraitdə uşaq hüquqlarının müdafiəsi və milli insan hüquqları institutlarının rolu" mövzusunda beynəlxalq konfransın materialları,** 25-27 may 2009, səh.8-9

Konfrans çərçivəsində "Ekstremal şəraitdə uşaq hüquqlarının müdafiəsi" mövzusunda jurnalist yazıları və uşaq rəsm müsabiqələrinin qalibləri mükafatlandırılmışdır.

Beynəlxalq konfransın sonunda Bakı Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə uşaq hüquqlarının daha səmərəli müdafiəsi məqsədi ilə ölkə Parlamenti və müvafiq qurumlarla, o cümlədən QHT-lərlə əməkdaşlığın inkişaf etdirilməsi, universal və regional beynəlxalq təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə birgə layihələrin həyata keçirilməsi və s. əks olunmuşdur.

4 noyabr 2009-cu il tarixində Bakıda YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, YUNESKO-nun Moskva Bürosu və AzərTAcın təşkilatçılığı ilə "Müasir iqlim dəyişmələri və Azərbaycan" mövzusunda seminar keçirilmişdir. Seminarın əsas məqsədi KİV nümayəndələri, onların vasitəsilə əhalini qlobal iqlim dəyişmələrinin əsas səbəbləri və onun Azərbaycandakı regional təsirləri ilə tanış etmək olmuşdur.

17 dekabr 2010-cu il tarixində Mətbuat Şurası, YUNESKO-nun Moskva Bürosu, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və YUNESKO-nun "İnsan və Biosfer" (MAB) Azərbaycan Milli Komitəsinin birgə təşəbbüsü ilə YUNESKO-nun Kommunikasiyanın İnkişafı üzrə Beynəlxalq Proqramına daxil olan (IPDC) "İqlim dəyişikliklərinə dair yayım jurnalistləri üçün təlim" layihəsi çərçivəsində üç günlük konfrans-seminar keçirilmişdir. Konfrans-seminarın təşkilində məqsəd qlobal iqlim dəyişiklikləri ilə bağlı proseslərin KİV-də peşəkarlıqla işıqlandırılmasına, ixtisaslı jurnalist kadrların hazırlanmasına dəstək verilməsi və bu sahədə nəzərə çarpan neqativ tendensiyaların aradan qaldırılmasına effektiv təsir göstərilməsindən ibarətdir.

Azərbaycan 2010-cu ildə YUNESKO-nun prioritetlərindən olan "İnsan Hüquqları və Ətraf Mühit: İqlim Dəyişikliklərinin Hüquqi və Etik Aspektləri"nə dair Ombudsmanların VII Bakı Beynəlxalq Konfransa ev sahibliyi etmişdir. Konfrans Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili tərəfindən YUNESKO-nun Moskva Bürosunun dəstəyi ilə təşkil edilmişdir.



Konfrans zamanı baş verən təbii fəlakətlərin, vulkan püskürmələri, iqlim dəyişikliklərin, torpaq sürüşməsi, çayların daşması nəticəsində baş verən ekstremal şəraitdə insan hüquqlarının, o cümlədən uşaq hüquqlarının pozulduğu diqqətə çatdırılmış, belə hallar zamanı uşaqların hüquqlarının müdafiəsinin, onlara yardım göstərilməsinin zəruriliyi vurğulanmışdır. İnsan fəaliyyəti nəticəsində - neft emalı, kimya sənayesində, kənd təsərrüfatında kimyəvi maddələrdən düzgün istifadə olunmadıqda ekoloji tarazlığın pozulduğu, təbiətə ziyan vurulduğu, bu halların daha çox iqtisadiyyatı inkişaf etmiş ölkələrdə özünü göstərdiyi önə çəkilmişdir.

Bundan əlavə, Konfransın işini dünyada baş verən və getdikcə də, artmaqda olan ciddi ekoloji fəlakətlər (kəskin iqlim dəyişiklikləri, yağıntılar, daşqınlar, meşə yanğınları, torpaq sürüşmələri, vulkan püskürmələri, zəlzələlər və s.) dövrünə təsadüf olunması, sözügedən problemlərin həllinin təkcə nəzəri deyil, eləcə də, praktiki yönümdən əhəmiyyətini şərtləndirirdi. Konfransda ekoloji hüquqların bir sıra başqa insan hüquqları ilə sıx bağlılığı barədə Müvəkkil demişdir ki:

"İqlim dəyişikliyi bir çox insanların fundamental hüquqlarının - sağlamlıq, hətta yaşamaq, qida, su, sığınacaq, əmlak hüquqlarının həyata keçirilməsini pozur, həmçinin mədəniyyətlə bağlı hüquqlar da bu faktorun mənfi təsirinə məruz qalır. Gələcəkdə iqlim dəyişikliyi ilə bağlı qaldırılacaq məsələlər sırasına insan hüquqları üzrə məsuliyyətin yaradılması məsələsi də daxil edilməlidir. İqlim dəyişiklikləri nəticəsində baş verən maddi və fiziki itkilərlə yanaşı insanlar həm də böyük mənəvi iztirablara, psixoloji stresslərə, etik normaların pozuntularına da məruz qalırlar ki, bunlarında aradan qaldırılması xüsusi yanaşma tələb edir.

Konfransda Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirlikləri ilə əməkdaşlıqda keçirilən beynəlxalq konfransda Tailand, Sloveniya, Kanada, Rusiya Federasiyası və subyektlərinin, Ukrayna və Moldovanın ombudsmanları və ya milli insan hüquqları təsisatlarının nümayəndələri, həmçinin insan hüquqları sahəsində beynəlxalq ekspertlər iştirak etmiş, məruzələri dinlənilmişdir.

İştirakçılar üçün xüsusi maraq doğuran aşağıdakı aktual

məsələlərə diqqət yetirilmişdir:

- İqlim dəyişiklikləri nəticəsində baş verən maddi və fiziki itkilərlə yanaşı insanlar həm də böyük mənəvi iztirablara, psixoloji stresslərə, etik normaların pozuntularına da məruz qalırlar ki, uzun müddət psixoloji reabilitasiyaya ehtiyacları olur və bunları nəzərə alaraq hər bir ölkədə xüsusi hazırlıqlı psixoloqların hazırlanması və ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının, krizis mərkəzlərinin mövcudluğunun zəruriliyi;

- iqlim dəyişikliklərinin nəticələrinin aradan qaldırılmasında, habelə həmin nəticələrə səbəb olan insan faktoru hallarının minimuma endirilməsində dövlətlərin həmrəyliyinə nail olmaq;

- sözügedən sahədə təkmil qanunvericilik sisteminin yaradılması və tətbiqi məsələsinin zəruriliyi;

- sözügedən sahədə beynəlxalq hüquqi aktların tələblərinin icrası vəziyyətinin öyrənilməsi məqsədi ilə monitorinq sisteminin yaradılması və təkmilləşdirilməsi;

- müharibə və hərbi münaqişə vəziyyətində olan yerlərdə mümkün ekoloji böhranların baş verməsinin qarşısının alınması və fəsadların aradan qaldırılması zəruriliyi;

- içməli su probleminin perspektiv baxımından həlli üzrə tədbirlər görülməsi;

- zərərli kimyəvi maddələrin atmosferə atılmasının, çirkab suların dənizə, çaylara və su tutarlarına axıdılmasının, çətin çürüyən tullantıların emal edilməməsinin, münbit torpaqların yararsız hala düşməsinin və ya salınmasının, bəzi nadir bitkilərin və heyvanların məhv edilməsinin yolverilməz olduğunu;

- səlahiyyətli dövlət orqanları tərəfindən ətraf mühiti çirkləndirən müəssisə və təşkilatların fəaliyyətinə nəzarətin gücləndirilməsini, sanitar-qoruyucu zonaların təşkilini tənzimləyən və sakinlərin sağlam ətraf mühitdə yaşamaq hüququnu qoruyan mexanizmlərin yaradılmasını, tikinti meydançaları ətrafındakı yaşıllıqların məhv edilməsinin qarşısının alınmasını, ekologiyanın keyfiyyət normativlərinin müəyyən olunması;



- təbii meşəliklərin və yaşıllıqların mühafizəsinin və bərpası istiqamətində kompleks tədbirlərin fasiləsizliyinin təmin edilməsi təklif edilmiş və s.

Məruzələrdən sonra mövcüd ekoloji problemlər və onların həlli yolları, o cümlədən sözügedən sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı müzakirələr davam etdirilmiş və həmin müzakirələrdə ayrı-ayrı ölkələri təmsil edən ombudsmanlar və ekspertlərlə (Tatyana Mişatkina - Minsk Beynəlxalq Ekoloji Universitetinin professoru, Revol Valeyev - Kazan Dövlət Universitetinin professoru və s.) yanaşı, dəvət almış digər qonaqlar da fəal iştirak edərək təcrübə mübadiləsi aparmışlar

Konfransın sonunda Bakı Bəyannaməsi yekdilliklə qəbul olunmuşdur. Bəyannamədə ekoloji məsələlərlə bağlı insan hüquqlarının daha səmərəli müdafiəsi məqsədi ilə parlamentlə, müvafiq dövlət qurumları, habelə QHT-lərlə əməkdaşlığın inkişaf etdirilməsi, universal və regional beynəlxalq təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə birgə layihələrin həyata keçirilməsi və s. əks olunmuşdur. Bu sənəddə ekoloji hüquqlara hörmətin təmin edilməsinin insan hüquqlarına dair beynəlxalq hüquqi aktlarda öz əksini tapmış etik norma və standartların təbliğinin zəruriliyi qeyd edilmişdir.

Hazırda həyata keçirilən bu kimi tədbirlərlə yanaşı, ali və orta ixtisas məktəblərində tədris üçün nəzərdə tutulmuş «Ekoloji mühit və insan hüquqları» kursunun proqramı da hazırlamışdır. Orta və ali tədris müəssisələrində, ictimai təşkilatlarda, icmalarda belə kursun tədrisi insanların təbiətin hər hansı bir şıltaqlığının qarşılanmasına, profilaktik tədbirlərin görülməsinə, zəngin təbiətimizin, bitki və heyvanat müxtəlifliyinin qorunmasına hazır olmasına və daha yaxından iştirakına öz töhfəsini verəcəkdir.

Ombudsmanın ekoloji sahədəki maarifləndirici xarakterli fəaliyyəti həm də, xarici mətbuatda da tez-tez işıqlandırılır. Belə ki, Avropa Ombudsmanının dövrü nəşrinin 15-ci sayında (noyabr 2010-cu il) ölkə Ombudsmanın «Ekoloji hüquqların qorunması ilə bağlı Ombudsmanın fəaliyyəti» adlı növbəti məqaləsi dərc edilmişdir.

Məlumat üçün bildirək ki, adıçəkilən dövrü nəşr dünyanın iyirmi dilinə tərcümə edilərək Avropa dövlətlərdə yayılır. Məqalədə ekoloji fəlakətlərin qarşısının alınması və preventiv tədbirlərin görülməsinin elmi - konseptual əsasları əksini tapmışdır.

Son illər ərzində ölkə Prezidenti tərəfindən aparılmış məqsədyönlü dövlət siyasəti, beynəlxalq təcrübədən istifadə olunmaqla hazırlanıb təsdiq edilmiş əhəmiyyətli dövlət proqramları həyata keçirilmiş ardıcıl tədbirlər nəticəsində ətraf mühitin mühafizəsi, təbiətdən səmərəli istifadə və beləliklə də vətəndaşların konstitusion hüquqlarından olan sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini sahəsində uğurlu nailiyyətlər əldə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 18 fevral tarixli, 1152 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram»ın, 2006-cı il 24 mart tarixli, 1368 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı»nın, 2010-cu ilə kimi, 2003-cü il 18 fevral tarixli, 1152 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı Sosial-iqtisadi inkişafa dair Milli Proqram»ın, 2004-cü il 28 yanvar tarixli, 62 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında hidrometeorologiyanın İnkişaf Proqramı»mn 2006-cı il 30 mart tarixli, 1396 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə tədbirlər»in, 2006-cı il 28 sentyabr tarixli, 1697 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər planı»nın icra müddəti artıq başa çatmışdır.

Ekoloji hüquqların müdafiəsinin səmərəliliyini artırmaq və təbliğini gücləndirmək məqsədilə dövlət və yerli özünüidarəetmə orqanlarının, nazirlik, QHT-in, yerli icmaların və ekspertlərin iştirakı



ilə sözügedən sahədə müntəzəm olaraq ölkənin bütün ərazisini əhatə etməklə fəaliyyəti əlaqələndirməyi, monitorinqləri aparmağı, habelə birgə dəyərləndirməni təklif edilmişdir.

Bu baxımdan haqlı olaraq ağacları və bitki aləmini təbiətin "ağ ciyərlər"i" adlandırırlar. Ölkə Prezidentinin xüsusi göstərişi ilə ölkədə üç milyon ağacın əkilməsi prosesinə start verilərək, bu iş müvəfəqiyyətlə davam etdirilir. Bu tədbirlərdə digər qurumlarla yanaşı Ombudsman təsisatının əməkdaşları da fəal iştirak etmişlər.

Təbii sərvətlərdən istifadə zamanı qanunverciliyə ciddi əməl edilməsini vacib hesab edən Müvəkkil torpaqların və daş karxanalarının istismarına ciddi nəzarətin təşkil edilməsini və bununla da ətraf qəsəbələrin əhalisinin sağlam ətraf mühitdə yaşamaq hüququnun ayrı-ayrı şəxslərin maddi mənafeyinə qurban verilməsinin yolverilməz olduğunu daima diqqətdə saxlamış və onların həllinə çalışmışdır.

Meşə sərvətlərinin və yaşıl zolaqların qorunması, Abşeronda neftlə çirklənmiş torpaqların təmizlənməsi, su hövzələrinin, dənizin və çayların istehsalat tullantıları ilə çirkləndirilməsinin qarşısının alınması problemləri üzrə regional proqramların yaradılmasını, meşələrin inkişafını və məqsədyönlü istismarını, ölkə landşaftının saflaşdırılmasını, çöl və çəmənliklərin qorunmasını nəzərdə tutan proqramın hazırlanmasını, yeni çoxmərtəbəli binaların tikintisi zamanı istirahət zonalarının dağıdılmasının və yaşıllıqların məhv edilməsinin qarşısının alınmasına nəzarətin artırılması olduqca vacibdir.

Mebel və taxta emalı sənayesi ilə məşğul olan subyektləri göstərilən məqsədlər üçün yeni meşəliklərin və yaşıllıqların salınması layihəsinin hazırlanmasını, bu yolla təbii yaşıllıqların nizamsız, nəzarətsiz qırılmasının qarşısının alınmasında preventiv üsulun tətbiqinə böyük ehtiyac vardır.

Son illər ərzində on minlərlə hektar ərazidə yaşıllıqlar salınmışdır (2011-ci ildə bu rəqəm 32 min 211 hektar olmuşdur). 2008-ci ilin əvvəlindən başlayaraq Bakı-Qazax magistral avtomobil yolunun

Atbulaq yaşayış məntəqəsindən Hacıqabul rayon mərkəzinədək olan 28 km hissəsində 172 min ağac və kol əkilib. Zığ-Heydər Əliyev adına Beynəlxalq Hava Limanı yolunun ətrafında 144 hektar ərazidə 140 mindən çox ting əkilib.[18] Günəşli yatağında 52 hektar ərazidə yaşıllıqlar yaradılıb. Su tutumu 10 min kubmetrdən çox olan su anbarları inşa edilib.

28 dekabr 2010-cu il tarixdə ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə Oğuz-Qəbələ-Bakı su kəməri istifadəyə verilmiş və ekoloji cəhətdən tam təmiz olan bu içməli sudan Bakının 75 % əhalisi istifadə edəcəkdir.

Azərbaycandakı 8 milli park, 11 qoruq və 24 yaşıllıqdan ibarət geniş şəbəkə ölkəmizin ərazisinin 10,1 faizini əhatə edir. Bunların hər biri, xüsusən sahəsi 115 min 895 hektar olan böyük Şahdağ Milli Parkının yaradılması Azərbaycanda biomüxtəlifliyin qorunmasında çox əhəmiyyətli rola malikdir.

Respublikamızda biomüxtəlifliyin bərpası, təbii resursların qorunması, əhalinin ekoloji təfəkkürünün və mədəniyyətinin daha da inkişaf etdirilməsi, xüsusilə gənc nəslin təlim-tərbiyəsində müvafiq sahə üzrə hüquqi biliklərin təbliği və aşılanması üçün Ombudsmanın və əməkdaşlarının, o cümlədən regional mərkəzlərin nümayəndələrinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlıq şəraitində paytaxtda və bölgələrdə əhali arasında, icmalarda, təhsil müəssisələrində təşkil etdikləri silsilə maarifləndirmə tədbirləri, seminarlar, sərgilər bu sıradandır.

Fərəhli haldır ki, BMT-nin Ətraf Mühit Proqramı (UNEP) 2010-cu ildə 5 iyun - Ətraf Mühit gününün Avropa regionunda qeyd edilməsi üçün Genuya və Cenevrə ilə yanaşı, Bakını da mərkəzi şəhərlər sırasında elan etmişdir.

Araz çayından ayrılmaqla Xəzər dənizinədək 130 kilometrlik məsafəni əhatə edən qolun çəkilməsi ilə bağlı mühəndis-tikinti işləri müvəffəqiyyətlə davam etdirilir. Belə ki, adıçəkilən qol

18 Azərbaycan Milli Kitabxanasının rəsmi veb səhifəsi: http: *www.anl.az/down/meqale/ses/2011/may/zh107.htm*



Azərbaycanın 7 rayonunun ərazisindən keçərək Xəzər dənizinə qovuşduğunu nəzərdə tutur. Qolun keçdiyi ərazilərə ziyan dəyməməsi üçün həmin ərazilərdə bəndlər gücləndirilir və artırılır və bununla bağlı digər tədbirlər görülməkdədir. Bu isə öz növbəsində, həm Araz çayında suyun səviyyəsinin azalmasına, həm də ətraf rayonlarının əkin sahələrinin suvarma suyu ilə təmin olunmasına xidmət edir.

Ekoloji hüquqların səmərəli təmini və təbii fəlakətlər zamanı mümkün fəsadların qarşısının alınması üçün preventiv tədbirlərin görülməsi, pozulmuş insan hüquqlarının bərpası məqsədilə müvafiq qurumların dinamik, operativ şəbəkə şəklində fəaliyyəti, ekoloji mədəniyyətin təbliği, ekoloji hüquqların təmini sahəsində vahid standartların, həmçinin monitorinq sisteminin işlənib hazırlanması və çevik informasiya mübadiləsinin təmin edilməsi, pozulmuş insan hüquqlarının bərpası baxımından mühüm əhəmiyyət daşıyır.

## §4. YUNESKO-nun SİYAHILARINDA YER ALAN AZƏRBAYCANIN MƏDƏNİ İRS NÜMUNƏLƏRİ

### Maddi mədəni irs nümunələri

Azərbaycanın mədəni və təbii irsinin qorunması YUNESKO ilə əməkdaşlığın əsas istiqamətlərindəndir. Bu gün YUNESKO-nun Ümumdünya İrs Siyahısına Azərbaycanın iki maddi-mədəni irs nümunəsi - İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Sarayı Kompleksi, eləcə də Qobustan Qaya Sənəti Mədəni Landşaftı daxildir.

Qeyd olunan abidələrdən başqa, YUNESKO-nun İlkin Siyahısında daha 10 maddi və təbii abidəmiz də yer almaqdadır. Onlar arasında Suraxanıda Atəşgah, Naxçıvanda Mömünə Xatun Türbəsi, Şəkidə Şəki Xanlarının Sarayı, Qarabağda Şuşa Tarix və Memarlıq Qoruğu və digər aidələrin adlarını qeyd etmək olar. Azərbaycan ərazisində yerləşən Qədim Alban məbədlərinin də gələcəkdə bu siyahılara daxil edilməsi nəzərdə tutulmuşdur.

22 hektarlıq ərazini əhatə edən və 30-dan çox qədim abidəni birləşdirən İçərişəhər 27 noyabr - 2 dekabr 2000-ci il tarixində Avstraliyanın Kerns şəhərində keçirilən YUNESKO-nun Ümumdünya Mədəni İrs Komitəsinin 24-cü Sessiyası çərçivəsində Ümumdünya İrs Siyahısına daxil edilmişdir.[19] Lakin Azərbaycanda baş verən zəlzələ nəticəsində abidələrə zərər dəymiş və bununla bağlı bir sıra problemlərə görə 4 iyul 2003-cü il tarixində Ümumdünya İrs Komitəsinin 27-ci Sessiyasında İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi YUNESKO-nun Təhlükədə olan Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Son illər ərzində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq fərman və sərəncamlarına uyğun olaraq, İçərişəhərə və onun ərazisindəki tarixi-memarlıq abidələrinin qorunub saxlanmasına, mühafizəsinə və inkişafına dövlət qayğısı artırılmış, abidələr kompleksinin xarici təsirlərdən mühafizəsi üzrə uzunmüddətli strategiya çərçivəsində vahid siyasətin həyata keçirilməsinə başlanılmışdır.

10 fevral 2005-ci il tarixində Prezident İlham Əliyev "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçəri şəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında" Sərəncam imzalamışdır. İdarənin səmərəli fəaliyyətini təmin etmək məqsədilə ölkə başçısı 16 may 2007-ci il tarixində "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Əsasnaməsinin, idarənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Fərman qəbul etmişdir. Bununla, "İçəri şəhər"in qorunması-nı və səmərəli idarə olunmasını həyata keçirmək məqsədilə mərkəzi

19. "Strateji Təhlil", Azərbaycanın xarici və daxili siyasəti, beynəlxalq münasibətlər üzrə analitik Jurnal, səh.33.





*İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi*

və yerli icra hakimiyyətinin səlahiyyətlərini özündə cəmləşdirən unikal idarəetmə sistemi yaradılmış oldu.

Görülən təxirəsalınmaz tədbirlər nəticəsində, 22-30 iyun 2009-cu il tarixində İspaniyanın Sevilya şəhərində keçirilən Ümumdünya Mədəni İrs Komitəsinin 33-cü Sessiyası çərçivəsində qəbul edilən qərara əsasən, abidənin YUNESKO-nun Təhlükədə olan Ümumdünya İrs Siyahısından çıxarılaraq əvvəlki statusu bərpa edilmişdir. 18-19 Dekabr 2013-cü il tarixində Parisdə YUNESKO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin 8-ci Sessiyası çərçivəsində bu ümumdünya irs nümunəsinə «gücləndirilmiş mühafizə» statusu verilmişdir.

20 min illik tarixə malik 6 min qayaüstü təsvir, eləcə də 20 mağara və yaşayış yerindən ibarət bu unikal kompleks əsasında 11 iyun 2007-ci il tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğu yaradılmışdır.[20] Açıq səma altında olan muzey 23 iyun - 2 iyul 2007-ci il tarixində Yeni Zelandiyanın Kraystçorç şəhərində keçirilən YUNESKO-nun Ümumdünya Mədəni İrs Komitəsinin



*Qobustan*

31-ci Sessiyası çərçivəsində Ümumdünya İrs Siyahısına daxil edilmişdir. 18-19 Dekabr 2013-cü il tarixində Parisdə YUNESKO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin 8-ci Sessiyası çərçivəsində bu ümumdünya irs

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 172 nömrəli Qərarı ilə "Qobustan" dövlət tarixi bədii qoruğuna milli qoruq statusu verilmişdir.



nümunəsinə «gücləndirilmiş mühafizə» statusu verilmişdir.

Qobustan qayaüstü rəsmlərinin mövcudluğu 1939-cu ildə məlum olduqdan sonra ilk dəfə görkəmli Azərbaycan arxeoloqu İshaq Cəfərzadə tərəfindən onun tədqiqatına başlanılmış, Cingirdağ və Yazılıtəpədə, 1940-cı ildə isə Böyükdaş, Kiçikdaş ərazisində qayaüstü rəsmlərin tədqiqatı aparılmışdır.

Qobustanda aparılan arxeoloji qazıntı və tədqiqatların nəticələri göstərir ki, burada - Böyükdaş və Kiçikdaş dağları sahəsində qədim insanın yaşaması tarixi üst Paleolit dövründən, yəni, eramızdan 35-34 min il əvvəlki dövrdən başlayır.

## Qeyri - maddi mədəni irs nümunələri

Azərbaycanın 5 qeyri-maddi mədəni irs nümunəsi YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, 1 irs nümunəsi Təcili qorunmaya ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan muğamı, Novruz, Azərbaycan xalçaçılıq sənəti, Aşıq sənəti, Tar və onun ifaçılıq sənəti, o cümlədən Azərbaycanının Çovqan Ənənəvi Qarabağ Atüstü Oyununun YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına salınması Azərbaycanın sadəcə maddi-mədəni abidələrinin deyil, eyni zamanda adət-ənənələrinin, ədəbiyyat və folklorunun, musiqisinin dünya miqyasında tanınmasına imkan verir.

### *Azərbaycan Muğamı*

Azərbaycan xalqının tarixi incəsənət nümunəsi hesab edilən muğamlarımız yüz illər boyu xalqımızın milli keyfiyyətləri ilə zənginləşən, inkişaf edən və öz gözəlliyi ilə qəlbləri fəth edən milli musiqi ladlarıdır. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin «Azərbaycan xalq musiqisinin əsasları» kitabında muğamlar və on-



*Cabbar Qaryağdıoğlu, Qurban Primov,*
*Saşa Oqanizaşvili (Soldan sağa)*



*Beynəlxalq Muğam Mərkəzi*



ların tərkib hissələri geniş şəkildə şərh edilmişdir.

7 noyabr 2003-cü il tarixində Azərbaycan muğamı YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunmuşdur. 2008-ci ildə Azərbaycan muğamları YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

2005-ci ildə Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulmuşdur. 27 dekabr 2009-cu il tarixində Beynəlxalq Muğam Mərkəzinin açılışı olmuşdur. Təməlqoyma və açılış mərasimlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ölkənin Birinci Xanımı Mehriban Əliyeva və YUNESKO-nun Baş Direktoru Koiçura Matsuura iştirak etmişlər.

### *Azərbaycan Aşıq Sənəti*

Aşıq sənəti Azərbaycan folklorunun yaradılması və yaşadılması sahəsində müstəsna rolu olan söz və saz sənətinin vəhdətidir. Qədim tarixə malik "Kitabi-Dədə Qorqud" dastanında təsvir olunan bu sənət növü eyni zamanda dastanların yaradılmasında iştirak edən ozanların da sənəti olmuşdur. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yazdığı «Koroğlu» operası aşıq musiqisi üzərində yazılan ölməz əsərlər sırasındadır.

Aşıq sənəti –xalq mühitində yaranmış şifahi xalq yaradıcılığı musiqi formasıdır. Aşıq sənətinə qədim epik dastanlar, xalqın azadlığını, qəhrəmanlığını, dostluğu, məhəbbəti vəsf edən mahnılar daxildir.

28 Sentyabr - 2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri - maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Azərbaycan Aşıq Sənəti YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.



*Aşıq Əkpər. Foto:Tariyel Məmmədov, 1976.*



## *Novruz*

Xalqımızın ən qədim bayramlarından olan Novruz özündə mili folklor, şən musiqi, milli yeməklər, milli rəqs və əyləncələr, eyni zamanda qədim inanclar, adət-ənənələri birləşdirir. Bir çox ölkələrdə də qeyd edilən bu bayram qismən fərqlilik göstərsə də insanların baharın gəlişi münasibəti ilə həmrəylik nümayiş etdirməsi və ümumi fikir baxımından eynilik təşkil etməkdədir. Bu fərqliliklər hər bir xalqın milli-mənəvi keyfiyyətlərini əks etdirir.

28 Sentyabr - 2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri - maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Novruz çoxmillətli nominasiya kimi YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.



*Səməni – Novruz bayramının rəmzi*

Azərbaycanın təşəbbüsü ilə 2010-cu ildən etibarən BMT tərəfindən qəbul olunmuş Qətnaməyə əsasən, hər il 21 mart tarixi bütün dünyada Beynəlxalq Novruz Günü kimi qeyd edilir.

### *Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti*

Xalqımızın adət-ənənələrini, folklorunu, milli düşüncə tərzini özündə yaşadan xalça sənətinin min illərlə ölçülən yaşı vardır. Bu sənət sahəsi ölkəmizin bütün bölgələrində geniş yayılmaqla Qarabağ, Naxçıvan, Gəncə, Quba, Şirvan, Qazax kimi məktəblərə ayrılmışdır. Hər məktəb öz naxışları, rəngləri və s. xüsusiyyətlərinə görə seçilməkdədir.

15-19 noyabr 2010-cu il tarixində Keniyanın Nayrobi şəhərində keçirilən YUNESKO-nun Qeyri - maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 5-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, «Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti»



*Azərbaycan xalçası*



YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

### *Tar musiqi alətinin hazırlanması və onun İfaçılıq Sənəti*

Milli xalq çalğı alətimiz olan tar Azərbaycan musiqisinin inkişafında əvəzedilməz rola malik çalğı aləti kimi Azərbaycan muğamının da vacib bir elementi hesab olunur. Tar təkmilləşdirildikdən sonra diz üstündən sinəyə qaldırılmış, eləcə də simlərinin sayı 5 ədəd artırılaraq 11-ə çatdırılmışdır. Beləliklə, bu gün istifadə etdiyimiz tarın ifa qabiliyyəti və digər bacarıqları artırılmışdır.

3-7 Dekabr 2012-ci il tarixində Parisdə keçirilən YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 7-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, «Tar və onun ifaçılıq sənəti» YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.



*Tar*

Qarabağ atları ilə oynanılan Çovqan oyununun yüzillərlə ölçülən qədim tarixi vardır. Nizami Gəncəvinin və digər mütəfəkkirlərin əsərlərində adı çəkilən bu oyun xalqımızın milli - qəhrəmanlıq, mahir atminicilik, qorxmazlıq kimi keyfiyyətləri özündə birləşdirir. Oyun at üstündə oynanılır və oyunun xarakterinə uyğun olaraq Çovqan üçün cəld və çox hündür olmayan atlar tələb olunur. Qarabağda - Cıdır düzündə tarixən çoxsaylı yarışlar keçirilməsi, o cümlədən Çovqan oyununun oynanılması məlumdur. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində unudulmaq təhlükəsi ilə qarşı-qarşıya qalan bu qədim Azərbaycan oyunu hazırda beynəlxalq səviyyədə qoruma altına alınmışdır.

2-8 dekabr 2013-cü ildə Bakıda keçirilən YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 8-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, "Azərbaycan Respublikasında Çovqan ənənəvi Qarabağ atüstü oyunu" YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.



*Çovqan oyunu*



## §5. MƏDƏNİ HÜQUQLAR

Müasir dövrdə insan hüquq və azadlıqlarının təmin edilməsi hər bir dövlətin kompleks, o cümlədən mədəni inkişafının mühüm göstəricisi hesab edilir. Bu hüquq və azadlıqlar fərdi və ictimai həyatın demək olar ki, bütün sferalarını əhatə edən insan sivilizasiyasının ən ali nailiyyətidir, varlığıdır. İnsan hüquqları insanın azadlığını ifadə edən və onun həyatını, cəmiyyətlə, dövlətlə, digər fərdlərlə əlaqələrini şərtləndirən insanın təbiətinə xas olan ayrılmaz hüquqlardır. İnsan hüquqları insanların sosial fəaliyyətinə, onların ictimai həyatına və qarşılıqlı əlaqələrinə köklü surətdə sirayət etmişdir. Buna görə də, müasir həyatı bütün şəxslərə məxsus insan hüquqları olmadan təsəvvür etmək mümkün deyildir.

Bu hüquqlar sırasında mədəni hüquqlar xüsusi yer tutur. Bəzən bu hüquqlara lazımi diqqət yetirilmir, onlar kölgədə qalır. Lakin qeyd etmək lazımdır ki, mədəni hüquqlar insan hüquqları kataloqunda mühüm yer tutmaqla insanın mənəvi inkişafının əsasını təşkil edir. Bu hüquqlara əsasən mədəniyyət hüququ, mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ, əqli mülkiyyət hüququ, milli mənsubiyyət hüququ, ana dilindən istifadə hüququ, yaradıcılıq azadlığı və s. hüquqlar daxildir.

Mədəni hüquqlar digər əsas insan hüquqları və azadlıqları kimi həm beynəlxalq-hüquqi aktlarda, həm də milli qanunvericilikdə təsbit olunmuşdur. Mədəni hüquqların beynəlxalq normativ məzmunu əsas universal beynəlxalq-hüquqi sənədlər olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və xüsusilə də İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda, həmçinin YUNESKO Konvensiyalarında müəyyən olunmuşdur.

Hər bir insan müəllifi olduğu elmi, ədəbi, yaxud bədii əsərlərdən irəli gələn mənəvi və maddi mənafelərini müdafiə etmək hüququna malikdir.

İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın 15-ci maddəsinə əsasən, iştirakçı-dövlətlər hər bir insanın mədəni həyatda

iştirak etmək, elmi tərəqqinin nəticələrindən və onların praktik tətbiqindən istifadə etmək, müəllifi olduğu hər-hansı elmi, ədəbi, yaxud bədii əsərlərdən irəli gələn mənəvi və maddi mənafelərini müdafiə etmək hüququnu tanıyır.

Bu sahədə beynəlxalq sənədlərdən həmçinin, «İnkişaf hüququ haqqında» BMT Bəyannaməsi (4 dekabr, 1986), «Milli və ya etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında» BMT Bəyannaməsi, «Elmi-texniki tərəqqinin sülh və insanlıq naminə istifadəsinə dair» BMT Bəyannaməsi (10 noyabr, 1975), Beynəlxalq mədəni əməkdaşlığın prinsipləri haqqında YUNESKO Bəyannaməsi (4 noyabr, 1966), Avropa mədəniyyət Konvensiyası (19 dekabr, 1954), Regional dillər və dil azlıqları haqqında Avropa xartiyası (5 noyabr, 1992), Milli azlıqların müdafiəsi haqqında çərçivə konvensiyası (1 fevral 1995), «Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə haqqında» YUNESKO Konvensiyası (20 oktyabr 2005) və s. göstərmək olar.

Azərbaycan Respublikasının 1997-ci il 22 aprel tarixli Qanunu ilə 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası və 1997-ci il 30 sentyabr tarixli Qanunu ilə 1970-ci il noyabrın 14-də Paris şəhərində imzalanmış «Mədəniyyət sərvətlərinin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında» Konvensiya ratifikasiya edilmişdir.

Yeri gəlmişkən Azərbaycan Respublikasının 2009-cu il 26 noyabr tarixli qanunu ilə 2005-ci il oktyabrın 20-də Paris şəhərində qəbul edilmiş «Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında» Konvensiyaya dövlətimizin ona dair bəyanatları ilə təsdiq edilmişdir.

Qeyd etmək istərdim ki, Azərbaycana münasibətdə 2010-cu ilin 15 may tarixindən qüvvəyə minmiş sözügedən Konvensiyanın Rəhbər prinsipləri sırasında «İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi» mühüm əhəmiyyət kəsb edir. Belə ki, həmin prinsipə əsasən mədəni müxtəlifliyin qorunması və təşviqi ancaq



ifadə, informasiya və kommunikasiya, fərdlərin mədəni özünüifadə formasını seçmək imkanı kimi insan hüquq və azadlıqlarının təmin olunduğu təqdirdə mümkündür. Heç bir kəs İnsan hüquqlarının Ümumi Bəyannaməsində nəzərdə tutulmuş və beynəlxalq hüquq ilə təminat verilmiş insan hüquq və azadlıqlarına qəsd etmək və ya onları məhdudlaşdırmaq məqsədilə bu Konvensiyanın müddəalarından istifadə edə bilməz.

Bu Konvensiya ölkəmizin mədəniyyətlərarası dialoq və əməkdaşlıq sahəsində yeni təşəbbüslərinə əlavə təkan verəcək, ölkəmizin Avropa İttifaqının mədəniyyət layihələrində iştirak etməsinə geniş imkanlar yaradacaqdır.

Milli qanunvericiliyə gəlincə mədəni hüquqlar əsas qanunumuz olan Konstitusiyada təsbit olunmuşdur. Əqli mülkiyyət hüququ 30-cu maddədə, mədəniyyət hüququ 40-cı maddədə, milli mənsubiyyət hüququ 44-cü maddədə, ana dilindən istifadə hüququ 45-ci maddədə, yaradıcılıq azadlığı 51-ci maddədə öz əksini tapmışdır.

1998-ci il 6 fevral tarixdə «Mədəniyyət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanmasının və inkişafının, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasının, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edir.

Sözügedən Qanun bütün xalqların mədəni özünəməxsusluğunun mənbəyi olan şifahi xalq yaradıcılığının, adət-ənənələrin qorunmasına və inkişafına, daha çox insanın mədəni irsdən və mədəniyyət sərvətlərindən istifadəsini təmin etmək məqsədilə bu sərvətlərin yaradılmasına, artırılmasına və yayılmasına təkan verir, habelə yaradıcı işçilərin sosial müdafiəsini təmin edir.

Qeyd etmək lazımdır ki, mədəniyyət sahəsində qanunvericilik bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

Məlum olduğu kimi, ölkəmizin Konstitusiyasına əsasən Azər-

baycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir (maddə-148).

Eyni zamanda Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir (maddə-151).

Bu baxımdan təbii ki, mədəniyyət sahəsini tənzimləyən normativ hüquqi aktlarla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Mədəniyyət haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət Azərbaycan Respublikasının mülki, cinayət, inzibati və digər qanunvericiliyinə əsasən müəyyən edilir.

«Mədəniyyət haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən mədəni sərvətlərdən istifadə hüququ yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər.

Azərbaycan Respublikasının ərazisində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər mədəniyyət hüququna malikdirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsinin II hissəsində hər kəsin tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalı olması mədəniyyət sahəsində bir vəzifə olaraq müəyyən edilmişdir. Belə ki, hər kəs:

*-mədəniyyət sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əməl etməli;*

*-xalqın mədəni ənənələrinə hörmət etməli;*

*-Azərbaycan xalqının, o cümlədən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün etnik qrupların mədəniyyətinə, dilinə, adət və ənənələrinə hörmət bəsləməli;*



*-uşaqların və yeniyetmələrin estetik tərbiyəsinə, mədəni inkişafına qayğı göstərməli;*

*-Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.*

Heç kəs və ya heç bir təsisat bütövlükdə mədəniyyət fəaliyyətini və ya mədəniyyət fəaliyyəti növünü inhisarda saxlamamalı və vətəndaşların sərbəst mədəniyyət fəaliyyətinə mane olmamalıdır.

Azərbaycan Respublikasının ərazisində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər mədəniyyət sahəsində ölkəmizin qanunvericiliyi ilə müəyyən edilmiş vəzifələri yerinə yetirməlidirlər.

Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş vətəndaşların vəzifələrinin sırasında tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı müddəaların olması və «Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur» ifadəsinin təsbit olması mühüm əhəmiyyət kəsb edir.

Xalqın milli sərvəti olan tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətlərin tənzimlənməsi hər bir dövlətin, o cümlədən beynəlxalq təşkilatların diqqət mərkəzində olan məsələlərdəndir.

Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin qorunması, bununla da insanların mədəni hüquqların təmini təkcə ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzim edilir.

1966-cı il 16 dekabr tarixli «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Pakt, 1954-cü il 14 may tarixli «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyası, 1954-cü il 19 dekabr tarixli Avropa Mədəniyyət Konvensiyası, 1972-ci il 16 noyabr tarixli YUNESKO-nun «Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında» Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq bir sıra beynəlxalq müqavilələrə, o cümlədən adları çəkilən konvensiyalara

qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşdırır.

1998-ci il 10 aprel tarixdə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətləri tənzimləyir.

Tarix və mədəniyyət abidələri arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir.

Təəssüflə qeyd etmək lazımdır ki, ermənilərin azərbaycanlılara qarşı siyasəti təkcə soyqırım, departasiya ilə məhdudlaşmamış, eyni zamanda maddi, mənəvi və mədəni dəyərlərimizi də hədəfə alaraq, onları mədəni terrora məruz qoymuşdur. Belə ki, hərbi təcavüz nəticəsində işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hal hazırda hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılmış, Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilmişdir.

Şuşa tarixi memarlıq qoruğunun ərazisininin ermənilər tərəfindən işğalı nəticəsində Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mərdinli, Cümə məscidlərini, dahi bəstəkar Üzeyir Hacıbəylinin, professional vokal sənətinin banisi Bülbülün ev muzeylərini, Xurşud Banu Natəvanın saray kompleksini, Firudin bəy Köçərlinin, Zöhrabbəyovların malikanələrini, şair, rəssam, alim Mir Mövsüm Nəvvabın evini, ümumiyyətlə qoruq şəhərin şərq memarlığı xüsusiyyətlərini əksetdirən milli üslubda inşa edilmiş əksər yaşayış evlərini, buradakı qədim qəbiristanlığı, böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin türbəsini, Ağdamda Pənah xanın imarətini, cümə məscidini, Laçın rayonunda Həmzə Sultan və Soltan Əhməd saraylarını, məscidləri, ziyarətgah və ibadətgahları,



daş heykəlləri, qədim qəbirləri, kurqanları, tarixi abidə olan yaşayış binalarını dağıtmış, daşınması mümkün olan maddi mədəniyyət abidələrini Ermənistana aparmışdır.

İşğal zonalarında maddi mədəniyyət yadigarlarımızın dağıdılması prosesi indi də davam edir. İşğalçılar genişmiqyaslı, qeyri peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanlar dağıdılır, qarət edilən tapıntılar Ermənistana daşınır. Zəbt olunmuş bu qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdır.

Bunlarla yanaşı işğal olunmuş ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi işğal altında qalmışdır.[21]

Dəyərini müəyyən etmək mümkün olmayan daşınmaz tarix və mədəniyyət abidələrindən başqa respublikamıza dəymiş ümumi zərərin məbləği 23 trilyon 680 milyon manat və ya 6 milyard 71 milyon ABŞ dolları təşkil edir. (Dəymiş ziyan 1994-cü ilin qiymətləndirilmə sənədləri əsasında təxmini hesablanmışdır).

Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyi şəhərin bombardmanı zamanı yerlə yeksan edilmiş, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir əşyası Ermənistana daşınmışdır.[22]

Şuşanın zəbt edilməsi nəticəsində mənəviyyatımıza olduqca ağır zərbə endirilmişdir. Təkcə Şuşa şəhərində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir.

Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan

21 Bu gün Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür", SƏS Qəzeti, 18 aprel 2012, Səh 12.

22. Nəzakət Olədinqızı, "Azərbaycanın yüzlərlə tarixi-dini abidələri erməni vandalizmi nəticəsində məhv edilib", SƏS Qəzeti, 21 may 2011, səh.11.

Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası dağıdılmışdır.

Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar olmuşdur.

Şuşa, Laçın və Qubadlı rəsm qalereyalarının Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarının əsərlərindən ibarət fondları da dağıdılmışdır. Azərbaycan musiqisinin böyük xadimləri Üzeyir Hacıbəylinin və Bülbülün, habelə şairə Xurşud Banu Natəvanın heykəllərini Şuşa şəhərindən Ermənistan ərazisinə aparmışlar. Bu abidələr bütün əxlaq normalarının ziddinə olaraq vəhşicəsinə güllələnmiş və ağır texnika vasitəsilə zədələnmişdir. Həmin abidələr çox çətinliklə əldə edilərək Bakıya gətirilmiş və hazırda İncəsənət Muzeyində nümayiş etdirilir.

Azərbaycan xalqının məhv edilmiş qədim, əvəzolunmaz qiymətli mədəni sərvətləri olan bu abidələrin qiymətini təyin etmək mümkün deyildir.

Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan Azərbaycan Respublikasının ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən bir problemdir.

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması «Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında» 1954-cü il Haaqa Konvensiyasına, «Arxeoloji irsin mühafizəsi haqqında» 1992-ci il Avropa Konvensiyasına, «Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında» YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.[23]

Azərbaycan Ombudsmanı da fəaliyyəti dövründə Azərbaycanın

23. **YUNESKO-nun Beynəlxalq Normativ Aktları**, Azərbaycan Nəşriyyatı, Bakı, 1998, Səh. 292.



tarixi və mədəni sərvətlərinin Ermənistan Respublikası və erməni millətçiləri tərəfindən dağıdılması və mənimsənilməsi, insanların mədəni hüquqlarının pozulması, hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə tamamilə zidd olması barədə bəyanat vermiş və Azərbaycanın tarixi və mədəni sərvətlərinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə qarşı Ermənistan Respublikasının və erməni millətçilərinin təcavüzünün qarşısının alınması, həmçinin təqsirkarların cəzalandırılması üçün beynəlxalq birliyi həmrəyliyə və bu məsələdə ədalətli mövqe nümayiş etdirməyə çağırmış, bununla bağlı 2005-ci il 28 fevral tarixdə «Azərbaycanın tarixi və mədəniyyət abidələrinin erməni millətçiləri tərəfindən dağıdılması və öz mənafeləri baxımından saxtalaşdırılması beynəlxalq hüquq normalarının kobud pozuntusudur» adlı bəyanat qəbul edərək nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən YUNESKO-nun Baş direktoruna müraciət ünvanlamışdır.

Bəyanatda Ermənistan Respublikasının Azərbaycana təcavüzünün faciəli nəticələrinin təkcə Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı yeddi rayonun zəbt edilməsi, milyona yaxın insanın qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmadığı, Ermənistanda xalqımıza qarşı dövlət səviyyəsinə qaldırılmış terror və soyqırımı, o cümlədən mədəni terror siyasətinin Azərbaycan tarixinə, mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurduğu qeyd olunmuşdur.

Müvəkkil tarixi və mədəni sərvətlərimizin Ermənistan Respublikası və erməni millətçiləri tərəfindən dağıdılması və mənimsənilməsinin, insanların mədəni hüquqlarının pozulmasının beynəlxalq hüquq normaları və prinsiplərinə tamamilə zidd olduğunu bəyan etmiş, beynəlxalq birliyi bu təcavüzün qarşısının alınması, təqsirkarların cəzalandırılması üçün həmrəylik və ədalətli mövqe nümayiş etdirməyə çağırmışdır.

Təkliflər sırasında: münaqişə vəziyyətində olan dövlətlərdə əsir və girov götürülmüş şəxslərin milli mənsubiyyətinə görə kölə vəziyyətinə salınaraq bədən orqanlarının satılmasının və onlara işgəncə verilməsi hallarının qarşısının alınması məqsədilə Avropa

Birliyi tərəfindən mütəmadi monitorinqlərin aparılması; münaqişə vəziyyətində olan dövlətlərdə beynəlxalq humanitar hüquq prinsip və normaların təbliği məqsədilə tədbirlərin (konfrans, seminar, dəyirmi masa və s.) keçirilməsi kimi məsələlər öz əksini tapmışdır.

2011-ci ilin 16-18 iyun tarixlərində Bakı şəhərində YUNESKO-nun dəstəyi ilə dövlət müstəqilliyinin 20 illiyinə, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında, həmçinin Vətəndaş və Siyasi hüquqlar haqqında Beynəlxalq Paktların qəbul olunmasının 45-ci ildönümünə həsr olunmuş «Milli azlıqların və miqrantların mədəni hüquqları: hüquqi aspektlər və implementasiya» mövzusunda Ombudsmanların IX Bakı Beynəlxalq Konfransı keçirilmişdir. Tədbir mədəni hüquqlar sahəsində nəinki ölkəmiz üçün, eləcə də iştirak etmiş çoxsaylı dövlətlərinin təmsilçiləri üçün faydalı olmuş və mədəni hüquqların təmininə öz töhfəsini vermişdir.

Mədəni hüquqlar sahəsində münasibətləri tənzim edən istər milli, istərsə də beynəlxalq hüquqi aktlar, o cümlədən sözügedən sahədə həyata keçirilmiş yüksək səviyyəli tədbirlər bütövlükdə mədəni tarixi irsimizin, mənəvi dəyərlərimizin mühafizəsinə zaman-zaman effektiv təsir göstərərək xeyli irəliləyişə nail olunmuşdur.



## §6. AZƏRBAYCAN RESPUBLİKASINDA MƏDƏNİ MÜXTƏLİFLİK

Yaşadığımız minillik yeni qlobal mədəni müxtəliflik fonunda inkişaf edir. Azərbaycan müxtəlif etnik və dini qrupların ənənəvi dözümlülük və harmonik birgəyaşayışı üzərində qurulmuş və həyata keçirilən milli siyasətin aparıldığı çoxmillətli və çoxdinli ölkədir.

Ötən əsrlər boyu milli azlıqlara mənsub olan şəxslər Azərbaycan Respublikasında Azərbaycan xalqı ilə sülh və harmoniya şəraitində yaşamaqdadırlar.

Ölkəmizin 20% ərazisini işğal etmiş qonşu Ermənistanla silahlı münaqişə nəticəsində mövcud olan çətinliklər, erməni silahlı qüvvələri və terrorist qruplaşmalarının təşkil etdiyi etnik təmizləmənin qurbanları olan Azərbaycanlılarla yanaşı müxtəlif milli azlıqlara mənsub olan şəxslərdən ibarət (Ahıska türkləri, kürdlər, ruslar, yəhudilər və s.) təxminən 1 milyon qaçqın və məcburi köçkünün, həmçinin keçid dövrünün problemlərinin mövcudluğuna baxmayaraq, Azərbaycan hökuməti milli azlıqların hüquqlarının qorunması üzrə ardıcıl siyasətini davam etdirir. Milli azlıqlar ölkə əhalisinin 9,4%-ni təşkil edir.

Azərbaycan Respublikasında milli azlıqların sayının, dilinin və sıx yaşayış yerlərinin struktur tərkibi:[24]

| Milli azlıqlar | Sayı | Dili | Sıx yaşadıqları ərazilər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Ləzgilər | 178000 | Qafqaz dillərinin Dağıstan qrupuna aid olan ləzgi dili, həmçinin Azərbaycan və rus dilləri | Azərbaycanın şimal bölgələri |

24. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, veb səhifə. *www.mfa.gov.az/?options=content&id=114*

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| Ruslar | 141700 | Şərqi-slavyan qrupuna aid olan rus dili | Sənaye şəhərlərində, eləcə də bir neçə kənd təsərrüfatı bölgələri |
| Ermənilər | 120700 | Hind-avropa dil ailəsinə aid olan erməni dili | Dağlıq Qarabağ, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə baxmayaraq məlumata görə, 30 minə yaxın erməni Dağlıq Qarabağdan kənar, eləcə də Bakıda yaşayır |
| Talışlar | 76800 | Hind-avropa dil ailəsinin İran qrupuna aid olan talış dili, eləcə də Azərbaycan dili | Cənub bölgələri |
| Avarlar | 50900 | Qafqaz dillərinin Dağıstan qrupuna aid olan avar dili, eləcə də Azərbaycan dili | Şimal bölgələri Şimal və aran bölgələr |
| Tatarlar | 30000 | Türk dil ailəsinə aid olan tatar dili, eləcə də rus dili | Azərbaycanın şəhərləri |
| Ukraynalılar | 29000 | Şərqi-Slavyan dil ailəsinə aid olan Ukrayna dili, eləcə də rus dili | Bakı |



| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| Saxurlar | 15900 | Qafqaz dillərinin Dağıstan qolunun cənub-şərq qrupuna aid olan saxur dili, eləcə də Azərbaycan dili | Zaqatala rayonu |
| Gürcülər | 14900 | Qafqaz dillərinin Kartvelian qrupuna aid olan gürcü dili | Qax rayonu |
| Kürdlər | 13100 | İran dil qrupuna aid olan kürd dili | Ermənistanla silahlı münaqişədən əvvəl Laçın, Kəlbəcər, Qubadlı və Zəngilan rayon-larında sıx yaşamışdırlar. Bu ərazilərin işğalı nəticəsində başqa rayonlara məcburi olaraq, köçürülmüşdürlər. |
| Tatlar | 10900 | İran dil qrupuna aid olan tat dili | Şimal bölgələri |
| Yəhudilər: Avropa (Aşkenazi), dağ və gürcü yəhudilərinə bölünür | 8900 | Semit dil ailəsinə aid Semit qrupuna daxil olan yəhudi dili | Quba rayonu və Bakı şəhəri |
| Udinlər | 4100 | Qafqaz dil ailəsinin Dağıstan qrupuna aid olan udin dili | Şimal bölgələri |

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörməti təmin edir. Azərbaycan Respublikasının suverenliyi haqqında Konstitusiya aktı Azərbaycan Respublikasının bütün vətəndaşlarının Qanun qarşısında bərabər olduğunu təsdiq edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə əsasən, Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən və mənşəyindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Konstitusiyasının 44-cü maddəsinə əsasən, «hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz».

«Mədəniyyət haqqında» Qanunun 11-ci maddəsində milli mədəniyyətin inkişafına və qorunub saxlanılmasına yardım nəzərdə tutulur. Dövlət Azərbaycan xalqının milli mədəniyyətinin inkişafına və qorunub saxlanılmasına, eləcə də Azərbaycan Respublikasının ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verir.

1992-ci il oktyabrın 7-də qəbul olunmuş «Təhsil» haqqında Qanunun 6-cı maddəsi və «Dövlət dili» haqqında Qanunu 3-cü maddəsinə əsasən təhsil milli azlıqların müxtəlif dillərində verilə bilər.

«Azərbaycanda yaşayan milli azlıqlar və etnik qrupların hüquq və azadlıqlarının qorunması, həmçinin dilinin və mədəniyyətinin inkişafına dövlət yardımı» haqqında Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 16 sentyabr tarixli Fərmanı milli azlıqlar arasında əlaqələrin yaxşılaşdırılması və hüquqi dövlətin yaradılmasına onların cəlb olunmasının səviyyəsinin artırılması məqsədini daşıyır.

Daxili qanunvericiliyin bu müddəaları ilə yanaşı, Azərbaycan Respublikasının 1996-cı il 31 may tarixində qoşulduğu İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, Aparteidin qarşısının



alınması və onun cəzalandırılması və Genosidin qarşısının alınması və onun cəzalandırılması haqqında BMT Konvensiyaları kimi beynəlxalq sənədlərin müddəaları da tətbiq olunur.

2000-ci ilin iyun ayında Azərbaycan Respublikası Avropa Şurasına üzv olmamışdan əvvəl Avropa Şurası Milli azlıqların qorunması haqqında Çərçivə Konvensiyasına qoşulmuşdur. Konvensiyanın 25-ci maddəsinə əsasən Azərbaycan 2002-ci il iyunun 4-də milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının qorunmasına dair vəziyyət barədə milli hesabatını təqdim etmişdir. Milli azlıqların qorunması haqqında Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitə sözügedən hesabatın baxılması məqsədilə xüsusi işçi qrup yaratmış, dövlət hesabatını yoxlamaq məqsədilə 2003-cü il martın 29-dan aprelin 4-ə qədər Azərbaycana səfərlər edilmişdir.

2005-ci il dekabr ayının 19-da Bakıda ölkəmizdə Milli azlıqların müdafiəsi üzrə Çərçivə Konvensiyasının həyata keçirilməsində əldə edilmiş nailiyyətlərin nəzərdən keçirilməsi və Məşvərətçi Komitəsinin qərarları, həmçinin Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş Qətnamənin nəticələrinin yerinə yetirilməsi üzrə atılmış addımların müzakirəsinə həsr olunmuş seminar keçirilmişdir (follow-up seminar).

2007-ci il yanvar ayının 10-da isə Azərbaycan Respublikası Milli azlıqların qorunması haqqında Çərçivə Konvensiyasına ikinci dövrü hesabatını təqdim etmişdir. Məşvərətçi Komitə ölkə hesabatındakı, eləcə də 2007-ci il sentyabr ayının 10-14-də Bakı və Lənkərana baş tutmuş səfər zamanı əldə edilmiş məlumatlar əsasında 2008-ci ilin yanvar ayında Azərbaycana dair ikinci rəyini hazırlamışdır.

Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasının Regional və ya azlıq dilləri haqqında Avropa Xartiyasını imzalamışdır.

Azərbaycan ATƏT kimi başqa beynəlxalq təşkilatlarla da milli azlıqlar məsələsində əməkdaşlıq edir. ATƏT-in Milli azlıqlar üzrə Ali komissarının siyasi müşaviri milli azlıqların hüquqlarının qorunmasına dair vəziyyətə müşahidə etmək məqsədilə Azərbaycana bir neçə dəfə səfər etmişdir.

Milli azlıqlar öz milli mədəni mərkəzlərini, assosiasiyalarını və

digər qurumlarını yaratmaq hüquqlarından tam istifadə edirlər.

Bu gün Azərbaycanda milli azlıqlara məxsus onlarla mədəniyyət mərkəzi fəaliyyət göstərir. Onların arasında «Birlik» cəmiyyəti, Rus icması, Rusiya mədəniyyət mərkəzi, Slavyan mədəniyyət mərkəzi, Azərbaycan-İsrail icması, Ukrayna cəmiyyəti, Kürd mədəni mərkəzi «Ronai», «Samur» ləzgi milli mərkəzi, Azərbaycan-Slavyan mədəniyyət mərkəzi, Tat mədəniyyət mərkəzi, Azərbaycan-tatar cəmiyyəti, Tatar mədəniyyət cəmiyyəti «Turqan-tel», Tatar mədəniyyət mərkəzi «Yaşlıq», Krım tatarları cəmiyyəti «Krım», gürcü cəmiyyəti, Azərbaycan gürcülərinin humanitar cəmiyyəti, İngiloy icması, Çeçen mədəniyyət mərkəzi, Axısxa türklərinin «Vətən» cəmiyyəti, Axısxa türk qadınlarının «Sona» cəmiyyəti, Talış mədəniyyət mərkəzi, Avar cəmiyyəti, Dağ yəhudilərinin icması, Avropa yəhudiləri (Aşkenazi) icması, Gürcü yəhudi icması, Yəhudilərin qadın humanitar assosiasiyası, «Kapelhaus» alman mədəniyyət icması, Udin mədəniyyət mərkəzi, Polyak mədəniyyət mərkəzi «Polonia», Beynəlxalq Talış assosiasiyası «Mada», Talış assosiasiyası «Avesta», Udin mədəniyyət mərkəzi «Orain», «Buduq» mədəniyyət mərkəzi, Saxur mədəniyyət mərkəzi. Milli azlıqların sıx yerləşdiyi ərazilərdə həvəskar cəmiyyətlər, milli və dövlət teatrları, həvəskar assosiasiyalar və maraq qruplarını göstərmək olar. Qusar rayonunda Ləzgi, Qax rayonunda isə Gürcü Dövlət teatrları, Astara və Lənkəran rayonlarında Talış folklor qrupları da fəaliyyət göstərməkdədir.

Dövlət bu qurumları ölkə büdcəsindən və Prezident fondunun hesabına maliyyə yardımı ilə təmin edir və mənşəyindən, mədəniyyətindən, dilindən və dinindən asılı olmayaraq, bütün şəxslər arasında qarşılıqlı anlaşma, dözümlülük və hörməti gücləndirməyə yardım göstərir. Milli azlıqların cəmiyyətin həyatında, eləcə də ölkə səviyyəsində keçirilən birgə tədbirlərdə fəal iştirakları Azərbaycanda mövcud olan qarşılıqlı hörmətin əyani göstəricisidir. İslam, Ortodoks və Yəhudi dini konfessiyalarını birləşdirən «Üç qardaş» təşkilatı artıq qeydiyyatdan keçmiş və hazırda ölkədə fəaliyyət göstərir.

Milli azlıqların dillərində onlarla qəzet və jurnallar nəşr olunur.



Hər gün onların dillərində radio və televiziya proqramları yayımlanır.

Mütəmadi olaraq, kürd, ləzgi, talış, gürcü, rus və erməni dillərində dövlət sifarişli verilişlər hazırlanaraq yayımlanır. Balakən rayonunda avar dilində, Xaçmaz rayonunda isə ləzgi və tat dillərində, Qusar və Xaçmaz rayonlarında yerli televiziyada ləzgi dilində verilişlər yayımlanır. Rus, kürd, ləzgi və talış dillərində qəzetlər nəşr olunur. Ləzgi və kürd dillərində "Samur" və "Dəngi Kürd", Yəhudi cəmiyyəti tərəfindən isə nəşr olunan «Soxnut», «Əziz» qəzetlərini göstərmək olar[25].

Dövlət idarəetməsində müxtəlif milli azlıqların nümayəndələri geniş təmsil olunurlar.

YUNESKO-nun 2001-ci ildə qəbul etdiyi Mədəni müxtəliflik haqqında Ümumdünya Bəyannaməsinin 1 maddəsində qeyd edilir ki, «mədəniyyət və mədəni müxtəliflik siyasi və hüquqi reallığa çevrilmişdir. Bu gün bioloji müxtəliflik nə qədər vacibdirsə, bəşəriyyət üçün də mədəni müxtəliflik o qədər vacibdir. Bu baxımdan o bəşəriyyətin ümumi sərvətidir, indiki və gələcək nəsillərin maraqları naminə qəbul və mühafizə edilməlidir. Mədəniyyət yaşayır və insanlar arasında müxtəlifliyi genlərdən daha çox dərəcədə müəyyən edir.

Multikulturalizm, dünyanın başqa məkanlarında mədəniyyətlərarası münasibətlərin tarixi təcrübəsi və modelləri yeni mərhələyə qədəm qoymuşdur. Dialoq fəlsəfəsi, çeşidli mədəniyyətlərin uzlaşması və inkişafı mexanizminin tapılması fundamental məsələ olaraq inkişaf etməkdədir.

25 Namiq Quliyev, "Çoxmillətlilik Azərbaycanın mədəni genefonduna böyük töhfələr verir". **Bakı Xəbər**, 7 mart 2013. Səh.10.

# V FƏSİL

## ÜÇÜNCÜ NƏSİL HÜQUQLAR SİSTEMİ VƏ BƏŞƏRİYYƏTİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİ

### §1. KOLLEKTİV HÜQUQLAR SİSTEMİ

İnsan hüquqları həyatın bütün aspektlərini əhatə edir. Onların həyata keçirilməsi nəticəsində əhali qrupları azadlıq, bərabərlik və insan ləyaqətinə hörmət mühitində təhlükəsiz yaşamaq və inkişaf etmək imkanını əldə edirlər. İnsan hüquqları mülki və siyasi hüquqlar, iqtisadi, sosial və mədəni hüquqlar, həmçinin kollektiv hüquqlardan ibarətdir.

Fərdi və kollektiv hüquqlar arasında qarşılıqlı əlaqə mövcuddur və "kollektiv hüquqların həyata keçirilməsi fərdin hüquq və azadlıqlarının pozulmasına gətirib çıxarmamalıdır" prinsipinə əsaslanmalıdır. Fərdi və kollektiv hüquqlar sıx əlaqədədir, halbuki onlar öz təbiətinə görə müxtəlifdirlər. Fərdin hüququ – anadangəlmə ona xas olan təbii hüquq olmaqla bəşəri mövcudluğun başlıca dəyərlərindən biridir. Kollektiv hüquqlar təbii hüquqlar deyil, çünki bu və ya digər cəmiyyət, yaxud kollektivin maraqlarının inkişafı dərəcəsinə görə formalaşır və inkişaf edir. Xüsusilə vurğulanmalıdır ki, kollektiv hüquqlara bu və ya digər cəmiyyət, yaxud kollektivə daxil olan şəxslərin fərdi hüquqlarının məcmusu kimi baxmaq olmaz. Kollektiv hüquqlar heç vaxt insan hüquqlarına etinasızlıq göstərməməli, onlara zidd olmamalı və təzyiq göstərməməlidir.

Kollektiv hüquqlar ikinci dünya müharibəsi dövründə insan hüquqlarının üçüncü nəsli kimi formalaşmağa başladı. Bir çoxlarının fikrincə, bu hüquqların xüsusiyyəti ondadır ki, onlar kollektiv hüquqlara aiddir və yalnız birlik ya assosiasiyalarda həyata keçirilə bilərlər.

Kollektiv hüquqlar sülh, inkişaf, təhlükəsiz və sağlam ətraf



mühitdə yaşamaq, bərabərlik, xalqların öz müqəddəratını təyin etmək və s. hüquqlarının cəmindən ibarətdir.

Kollektiv hüquqların daşıyıcıları (subyektləri) kimi gəncləri və pensiyaçıları, əlilləri və işsizləri, qaçqınları və gəlmə millətlərdən olanları göstərmək olar.

Bu gün insan hüquqlarının gerçəkləşməsi üçün dövlətlər və beynəlxalq ictimaiyyət insan hüquqlarının bütövlükdə həyata keçirilməsi, həmçinin zəruri şəraitin və hüquqi çərçivələrin yaradılması məqsədilə addımlar atırlar.

İnsan hüquqlarının yuxarıda qeyd olunmuş tərkib elementlərinin cəmləşdiyi və bu gün formalaşmaqda olan üçüncü nəsil hüquqlar sistemi də bu baxımdan fərqlənir.

Üçüncü nəsil hüquqlar (həmrəylik hüquqları) - bu hüquqlar yenidir, yaranma və tanınma prosesini keçir. Bir çox hallarda əxlaq və hüququn qarşılıqlı əlaqəsi müəyyən mübahisələrə yol açır. Universal dəyərlər və əxlaqi normalar arasında olan əlaqə də insan hüquqlarının araşdırılması baxımından olduqca önəmlidir.

Üçüncü nəsil hüquqlara həm də kollektiv hüquqlar adlanır. Şəxs bu hüquqları öz xüsusi statusuna görə yox, cəmiyyətin bir üzvü olduğu üçün əldə edir.

Yaşadığımız kataklizmlərlə, mürəkkəb sosial-siyasi hadisələrlə müşayiət olunan dövrdə qarşımızda duran mühüm məsələlərdən biri ailədə, istərsə də cəmiyyətdə, müxtəlif etnik qruplar, dövlətlər, millətlər arasında ayrı-seçkiliyin bütün təzahür formalarını, aradan qaldırmaq problemi durur. Başqa sözlə insanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək, inkişafa nail olmaq, təhlükəsiz və sağlam ətraf mühit, cəmiyyət formalaşdırmaq və s. addımlar atmaq lazım gəlir.

### §2. SÜLH HÜQUQU

Bu gün dünyada insanların sülh diləyi bütün bəşəri dəyərlərin, o cümlədən insan hüquqlarının təmin olunmasının əsasını təşkil edir. Yalnız sülh şəraitində hər bir istəyi reallaşdırmaq, yüksək

mədəniyyətə nail olmaq mümkündür. Bu meyarlara əsaslanaraq ölkə əhalisinin, hər bir vətəndaşın sülh mədəniyyətinə yiyələnməsi üçün səylər göstərməyimiz, ümumi məqsədə çatmağımız üçün atılan uğurlu addımlar sırasındadır və sülhsevərliyimizin ən başlıca təzahürlərindədir.

Ümumiyyətlə, sülh mədəniyyətinin bir fenomen kimi çox dərin tarixi kökləri var. Belə ki, tanınmış italyan tarixçisi V.Mançelli beynəlxalq konfransların birində demişdir: «Xoşbəxtlikdən dünyada davakar siyasətçilərlə yanaşı sülh barədə fikirləşən və pasifik fəlsəfəni formalaşdıran siyasətçilər də olmuşdur». Onlar sülh konsepsiyasını verməklə yanaşı, onun həyata keçməsi üçün çalışmışlar.

BMT Baş Assambleyasının 39/11 saylı 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilən Bəyannamədə də sülh hüququna xüsusi status verilərək bu hüquq heç bir ayrı-seçkiliyə yol verilmədən insanların müqəddəs hüququ kimi bəyan edilir[26]. Sülh və onun həyatda təşviqi və xalqların hüquqlarının qorunması hər bir dövlətin əsas öhdəliyi kimi vurğulanır.

BMT Baş Katibinin Beynəlxalq Sülh Günü münasibətilə hər il olan müraciətlərində də dünyada insanlar zorakılığa qarşı, eləcə də xalqlar və millətlər arasında harmoniyanın əldə olunması üçün mübarizə aparmaları xüsusi vurğulanır.

Əgər biz sülh mədəniyyətindən danışırıqsa, təbii ki, onun mənbələrini, tarixi ənənələrini və köklərini təhlil etməliyik. Sülh mədəniyyətinin yaranması münaqişələrin aradan qaldırılması uzun zaman, böyük səylər tələb edir. Sülh çox çətin əldə edilən və asanlıqla itirilən bir xoşbəxtlikdir. Müharibə və zülmə qarşı qoyulan «əbədi və daimi sülh» anlayışı dünya fəlsəfəsinə və ictimai fikrə tədricən daxil olmuşdur. Sülh mədəniyyəti ideyasının reallaşması sosial və siyasi islahatları aparmaqla, cəmiyyətin yenidən qurulması, sülh dəyərlərinin maarifləndirmə yolu ilə yayılması ilə əlaqələndirilmişdir. Sülh mədəniyyətinin qarşısında duran əsas məsələlərdən biri beynəlxalq və daxili münaqişələrin qarşısını al-

26 BMT-nin rəsmi veb səhifəsi
*www.un.org/Depts/german/uebereinkommen/ar39011.pdf*



maqdır. Sülh mədəniyyətinə nail olmaq böyük əhatə dairəsinə malik olan tədris proqramlarının həyata keçirilməsini, mədəni, sosial və vətəndaş yaradıcılığını tələb edir. Bu yolda təhsilin bütün aspektlərindən: onun mahiyyətindən, metodlarından, təşkilindən, müəllimlər və tələbələr müxtəlif təhsil ocaqları, ailələr arasındakı münasibətlərdən istifadə etməkdir.

İnsanları sülh mədəniyyəti ruhunda tərbiyə etməkdən ötrü təkcə formal təhsildən deyil, qeyri-formal təhsildən də istifadə edilməlidir. Qeyri-formal təhsil dedikdə bura ailədəki tərbiyə, informasiya vasitələri, ictimai təşkilatların, xüsusilə qadın təşkilatlarının rolu nəzərə daha qabarıq şəkildə çarpır.

Sülh mədəniyyətini insanlara aşılamaqdan ötrü sülh mədəniyyətinə aid metodoloji xarakter daşıyan ədəbiyyatdan, dövrü mətbuatdan tarixi sənədlərdən istifadə olunmalıdır. Sülh mədəniyyəti güc işlətməyə, insanların fundamental hüquq və azadlıqlarına hörmətə əsaslanan dəyərlər, əxlaq normaları və bunlara yanaşmaq qaydalarının vəhdətindən ibarətdir. Bu hüquqlar insan hüquqları haqqında Ümumdünya İnsan Hüquqları Bəyannaməsində öz əksini tapmışdır. Sülh mədəniyyətində güc silahdan deyil, qarşılıqlı əlaqələrdən, dialoq və əməkdaşlıq prinsiplərindən doğur. Bu güc zəiflərin, uşaqların, əlillərin, qocaların və sosial hüquqsuzla-hüquqlarını müdafiə edən cəmiyyətin yaranmasına təkan verir.

Sülh mədəniyyətinin inkişafı üçün qadınların geniş iştirakı olduqca vacibdir. Hərbi fəaliyyət sahəsini kişilər tərəfindən zəbt edilməsi qadınları hakimiyyət vəzifələrindən tamamilə uzaqlaşdırılmışdır. Halbuki, mübadilə, əməkdaşlıq və həmrəylik sahəsində qadınların qabiliyyət və bacarığı, gələcək nəslin tərbiyəsi və ailənin idarə olunması təcrübəsi sülh mədəniyyətinin inkişafı üçün olduqca vacibdir.

Sülh mədəniyyəti həmçinin, sərbəst mübadilə və sərbəst informasiya axını ilə fərqlənir. Sülh mədəniyyəti güclə qəbul etdirilə bilməz. Bu, müəyyən bir xalqın nümayəndələrinin inandırması və təsiri əsasında inkişaf edən bir prosesdir. Bu proses hər ölkədə və regionda, onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı

olaraq özünəməxsus şəkildə inkişaf edir.

Sülh mədəniyyəti - daima səy və yardım tələb edən uzun bir prosesdir və yalnız münaqişənin olmaması kimi qəbul edilməməlidir. Mürəkkəb həyatda münaqişə həmişə inkişafın bir hissəsi olacaq. Münaqişədən qorxmaqdansa, biz ona düzgün qiymət verməyi öyrənməli, münaqişənin ədalətsizlikdən imtina etməyi tövsiyə edən pozitiv güc işlətmək aspektlərini aşkar etməliyik. Sülh mədəniyyəti yalnız o şəraitdə çiçəklənə bilər ki, müharibə, münaqişəni həll etməyin yeganə vasitəsi kimi aradan qaldırılmış olsun. [27]

Sülh mədəniyyəti güc işlətməyə, insanların fundamental hüquq və azadlıqlarına hörmətə əsaslanan dəyərlər, əxlaq normaları və bunlara yanaşmaq qaydalarının vəhdətindən ibarətdir. Bu hüquqlar insan hüquqlar haqqında Ümumdünya Deklarasiyasında öz əksini tapmışdır. Sülh mədəniyyətində güc silahdan deyil, qarşılıqlı əlaqədən, dialoq və əməkdaşlıq prinsiplərindən doğur. Bu güc zəiflərin, uşaqların, əlillərin, qocaların və sosial hüquqsuzların hüquqlarını müdafiə edən cəmiyyətin yaranmasına təkan verir. Əgər sülh mədəniyyətinə bir hərəkat kimi baxsaq, onu elə bir böyük çaya bənzətmək olar ki, oraya çoxlu sayda müxtəlif cür ənənə, mədəniyyət, dil, din və siyasi cərəyanların selləri tökülür. Sülh mədəniyyətinin məqsədi elə bir dünya qurmaqdır ki, orada mədəniyyətin bütün müxtəlif növləri qarşılıqlı anlaşma və həmrəylik şəraitində mövcud olsunlar.

YUNESKO tərəfindən 2000-ci ilin "Sülh mədəniyyəti ili" elan edilməsi, Nobel mükafatları laureatlarının təşəbbüsü əsasında həmin ildə "Sülh manifesti"nin hazırlanması ilə nəticələndi və Azərbaycan Respublikası da Sülh manifestini imzalayan ilk dövlətlərdən biri oldu.

Bu baxımdan demək olar ki, BMT və digər beynəlxalq təşkilatların sülhü təbliğ edən, sülh mədəniyyətinin təşəkkülünü nəzərdə tutan bütün sənədləri ölkəmizdə öz hüquqi və praktiki təsdiqini tapmışdır.

Azərbaycan Ombudsmanı da özünün fəaliyyəti dövründə sülh

27. Rəşid Rumzadə, *"Sülh hüququ"*, **Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) – 10 il**, Bakı 2013. Səh. 163-165



hərəkatının formalaşdırılması, sülh mədəniyyətinin, sülh hüququnun təbliği, bu sahədə əməkdaşlıq, sülh təhsili və maarifləndirmə istiqamətlərinə xüsusi diqqət yetirmiş, o cümlədən beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələri daha da genişləndirmişdir.

Hər il ənənəvi olaraq Ombudsmanın təşəbbüsü ilə elan olunan "İnsan hüquqları aylığı", "Sülh aylığı", "Uşaq hüquqları aylığı" əhalinin hüquqi maarifləndirməsi işinə mühüm töhfələr verməklə yanaşı, ölkəmizdə insan hüquqları sahəsində müsbət təcrübə formalaşdırır.

Bu baxımdan Ombudsmanın təşəbbüsü ilə hər il ənənəvi olaraq 21 avqust - 21 sentyabr tarixlərində elan olunan "Sülh aylığı" da əhalinin müxtəlif qrupları arasında hüquq mədəniyyətinin, hüquq düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla insan hüquqlarının, sülh hüququnun təbliğinə xidmət edir.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının 39-cu bəndində, habelə 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının (MFP-nin) isə 4.10-cu bəndində də "Əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi" aidiyyəti qurumlar üçün bir vəzifə kimi təsbit olunmuşdur.

Artıq bir ənənəyə çevrilmiş «Sülh aylığı» çərçivəsində müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, beynəlxalq təşkilatlara, QHT və KİV-ə, icmalara müraciətlər ünvanlanır, müxtəlif silsilə tədbirlərin davam keçirilməsi tövsiyə olunur. Bu da özlüyündə sülh mədəniyyətinin təbliğinə, insanların sülh diləyinin təcəssümünə mühüm töhfələr verir.

İnsan hüquqları da sülh, bərabərlik və inkişaf meyarı olmaqla azad cəmiyyət qurmağa, insanlar arasında daha dolğun, ədalətli

münasibətlər formalaşdırmağa yönəlmiş, bəşəriyyətin tərəqqisini müəyyənləşdirən başlıca prinsiplərdən olduğundan bu təşəbbüslər elə insanların özlərinin iştirakı ilə yeniliklərin qazanılmasına imkan yaradır, sülh naminə əməkdaşlıq tələb edir.

Məhz insan hüquqları və insani dəyərlərin kontekstində dayanan sülh məfhumu bu gün bəşəriyyətin həllini gözləyən ən vacib problemlərindən biridir. Yaşadığımız mürəkkəb sosial-siyasi hadisələrlə müşayiət olunan dövrdə qarşımızda duran ən mühüm məqsəd istər ailədə, istərsə də cəmiyyətdə, müxtəlif etnik qruplar, dövlətlər, millətlər arasında ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqdır. Başqa sözlə hər zaman insanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zərurəti vardır.

Ənənəvi xarakter daşıyan və dəstəklənən "Sülh aylığı" çərçivəsində müxtəlif qurumlara ünvanlanmış müraciətlər respublikamızın bir çox rayon və şəhərlərində xüsusi fəallıqla həyata keçirilir. Dövlət qurumlarına ünvanlanmış müraciətlər əsasında, hüquq mühafizə orqanları, nazirliklər, komitələr tərəfindən həyata keçirilən tədbirlər demək olar ki, əhalinin müxtəlif qruplarını əhatə edir və fəal iştirakları ilə yadda qalır.

Silahlı Qüvvələrin hərbi birləşmələrində, cəzaçəkmə müəssisələrində, uşaq evləri və internat müəssisələrində, orta və ali təhsil ocaqlarında, icmalarda, müxtəlif dövlət qurumlarının, hərbi Elm-Tədris Mərkəzlərində, hüquq mühafizə orqanlarının Akademiyalarında insan hüquqları və sülh mədəniyyətini təbliğ edən seminar və treninqlərin təşkil olunması, dövlət qurumlarının mətbu orqanlarında, qəzet və jurnallarda məqalələr dərc edilməsi insan hüquqları və sülh mədəniyyətinin təbliğinə mühüm töhfə verir.

Ölkəmizin rayon və şəhərlərində, qəsəbə və kəndlərində keçirilən "Sülh aylığı" insanlar arasında hüquq mədəniyyəti ilə yanaşı, sülh mədəniyyətini təbliğ etməklə Minilliyin İnkişaf Məqsədlərinə xidmət edir.

Bunlarla yanaşı, "Sülh aylığı" gənc nəslin nümayəndələrinin təmsil olunduğu "Biz sülhə səs veririk", "Mən sülhə çağırıram" və sülhü təbliğ edən digər mövzularda rəsm müsabiqələri, Bakı



şəhərində və respublikamızın regionlarında yerləşən orta və ali təhsil ocaqlarında, ali təhsil müəssisələrinin filiallarında "Beynəlxalq Sülh Günü"nə həsr olunmuş dəyirmi masalar, seminarlar və konfransların keçirilməsi Müvəkkilin bu təşəbbüsünə xüsusi rəng verir.

QHT və KİV-lərin də qoşulduğu "Sülh aylığı" insanlarda hörmət hissinin, sülh və dözümlülük mədəniyyətinin aşılanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bölgələrdə milli-azlıqlardan olan ailələrin iştirakı ilə keçirilən tədbirlər isə ölkəmizdə formalaşmış sülh mədəniyyətini, sülh istəyini təcəssüm etdirən bədii kompozisiyalar və çıxışlar tolerant respublikamızın mövqeyini təcəssüm etdirir.

"Minilliyin Sülh Günündə" fəaliyyətə başlamış, minlərlə uşaq və gənci öz ətrafında birləşdirən Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi və onun nəzdində müntəzəm fəaliyyət göstərən Liderlik məktəbi müstəqil respublikamızda yaradılmış uşaq və gənclərin ilk birliyi olmaqla Müvəkkilin Sülh təşəbbüslərini təbliğini məqsədli və geniş şəkildə həyata keçirirlər.

Bu gün Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, insan hüquqlarına dair bir sıra universal və regional beynəlxalq hüquqi aktlarda öz əksini tapmış, insan hüquqlarının tərkib hissəsi kimi, kollektiv hüquq olan sülh hüququ geniş anlam ifadə etməklə yanaşı bütün xalqlar və cəmiyyətimiz üçün firavan, əmin-amanlıq, müharibəsiz, zorakılıqlarsız mədəniyyəti ehtiva edir.

Yaşadığımız minilliyi insanlar sülh dövrü kimi və münaqişəsiz görmək istəyirdilər. Amma indi biz daha təhlükəli olan və müxtəlif mədəniyyətlərə, irqlərə və dinlərə mənsub insanlar arasında nifrət hissi oyadan ədavətin astanasında dayanmışıq.

İkili standartlar nəticəsində isə dövlətlər münaqişə ocaqlarına çevrilir, əhalisi, mədəniyyəti, iqtisadiyyatı ağır itkilərə məruz qalır.

Xaricdən on minlərlə erməni köçürülərək Azərbaycanın İrəvan quberniyasında, Naxçıvanda, Qarabağda, habelə digər bölgələrdə yerləşdirilməsi ilə bu proseslərin başlanğıcı qoyuldu. Arxiv sənədlərinə əsasən, 1828-1830-cu illərdə Azərbaycan torpaqlarına İrandan 40 min, Türkiyədən isə 84 min erməni köçürülmüş,

beləliklə, bölgə əhalisinin etnik tərkibi məqsədli şəkildə ermənilərin xeyrinə dəyişdirilmişdir. XIX əsrin əvvəllərindən başlayaraq Qarabağa erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. Ötən əsrin əvvəllərində yürüdülən bu mənfur siyasət nəticəsində azərbaycanlılar öz qədim torpaqları olan İrəvan, Göyçə və Zəngəzuru itirmişlər. İyirminci əsrin sonunda isə erməni işğalçıları Dağlıq Qarabağı və ətraf yeddi rayonu - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarını zəbt etmişlər.

Ötən bu illər ərzində ermənilər tərəfindən Azərbaycan xalqına qarşı dəfələrlə öz siyasi-hüquqi qiymətini almamış təcavüz və soyqırım aktları törədilmiş, yüz minlərlə azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmiş, Azərbaycanın bir çox şəhər, rayon və kəndləri dağıdılaraq xarabalığa çevrilmişdir. Təkcə XX əsr ərzində Azərbaycan bir neçə dəfə erməni təcavüzünə və etnik təmizləməyə məruz qalmışdır.

1988-ci ildən Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistanın Azərbaycana qarşı əsrlər boyu apardığı ardıcıl etnik təmizləmə, soyqırım və təcavüz siyasətinin yeni mərhələsi başlamış və artıq 20 ildən artıqdır ki davam edir.

Ermənistanda "Azərbaycanlılarsız Ermənistan" şüarı altında soydaşlarımıza qarşı başlayan etnik təmizləmə siyasəti nəticəsində bu ölkə ərazisindən 200 mindən çox azərbaycanlı öz doğma yurdlarından məcburi qaydada zorakılıqla deportasiya olunmuş, 200-dən artıq azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüşdür.

Erməni işğalı nəticədə Azərbaycan ərazilərinin 20 faizi zəbt olunmuş, on minlərlə insan ermənilər tərəfindən törədilən soyqırım aktlarının və kütləvi qırğınların qurbanı olmuş, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, minlərlə yaşayış məntəqəsi, təhsil, səhiyyə və digər ictimai obyektlər, habelə



tarixi-mədəni abidələr məhv edilmişdir.

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımın ən dəhşətli səhifələrindən biri Azərbaycanın Xocalı şəhərində baş vermiş soyqırım olmuşdur. Ermənistanın Azərbaycana qarşı apardığı məqsədyönlü soyqırım siyasətinin davamı olaraq 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni hərbi qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq dinc əhalini xüsusi amansızlıq və vəhşiliklə məhv etmişlər. Bir gecədə şəhər yerlə-yeksan edilmiş, milli əlamətinə görə minlərlə sakin, o cümlədən qocalar, qadınlar və uşaqlar xüsusi qəddarlıqla qətlə yetirilmişlər.

Ermənistan tərəfi bu gün işğalçılıq siyasətini və ərazi iddiasını pərdələmək məqsədilə əsassız olaraq "xalqların öz müqəddəratını təyin etmək hüququ"nu gündəmə gətirmişdir ki, bu isə yalnız bütün xalqa, başqa dövlət ərazisində bu xalqın bir hissəsinə şamil oluna bilməz.

İngilis beynəlxalq hüquq məktəbinin sayılan nümayəndələrindən İ.Brounlinin dediyi kimi, beynəlxalq hüququn ümumtanınmış normalarını, yəni "jus cogens" normalarını pozmaqla xalqların öz müqəddəratını təyin etmə hüququndan istifadə beynəlxalq ictimaiyyət tərəfindən tanınmır. Bu baxımdan beynəlxalq hüquq normaları əzəli Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı faktı, ermənilərin ölkəmizə qarşı gücdən istifadə etmə, milli, etnik təmizləmə siyasəti və Dağlıq Qarabağ bölgəsində yaşayan azərbaycanlıların bir qrup kimi tamamilə məhv edilməsi niyyəti, onların bu ərazidə öz müqəddəratını təyinetmə hüququna istinad etmələrinin əsassız olduğunu bir daha bəyan edir.

Dünyada elə bir presedent yoxdur ki, azsaylı bir xalqın yanaşı iki dövləti olsun, və xalqlar bunu o halda tələb edə bilərlər ki, iddia etdikləri ərazi onlara məxsus olsun. Bu da bir daha Ermənistanın Azərbaycan torpaqlarına əsassız ərazi iddiasını ifşa edir.

Bu faktlar, yəni Azərbaycan Respublikasının ərazi bütövlüyünə münasibətdə qərəzli və təcavüzkar siyasət yeridən, BMT-nin 200-dən

artıq üzv dövlətlər sırasında yer alan və xalqların öz müqəddəratını təyinetmə hüququnu birtərəfli ayrılma kimi təfsir edən yeganə dövlətin də Ermənistan olduğunu sübut edir.

BMT Baş Assambleyasının 39/11 saylı 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilən Bəyannamədə də sülh hüququna xüsusi status verilərək bu hüquq heç bir ayrı-seçkiliyə yol verilmədən insanların müqəddəs hüququ kimi bəyan edilməsinə baxmayaraq, havadarlarına arxalanan Ermənistan davamlı olaraq beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərini pozur, qeyri-konstruktiv mövqe nümayiş etdirir, bu gün də Azərbaycana qarşı etnik təmizləmə siyasəti yürüdülür, atəşkəs rejimi mütəmadi olaraq pozulur, bunun da nəticəsində azərbaycanlı hərbi qulluqçular və sərhədyanı bölgədə yaşayan mülki vətəndaşlar həlak olur, işğal altında olan torpaqlarımızda mövcud zəngin təbii sərvətlər, mədəni irsimiz mənimsənilir, meşə zolaqları yandırılır, nadir tarixi və dini abidələrimiz amansızcasına dağıdılır. Bununla da əsas insan hüquq və azadlıqları, xüsusən də yaşamaq hüququ, o cümlədən də fundamental *kollektiv hüquqlardan olan sülh hüququ və inkişaf* hüququ davamlı olaraq kütləvi və kobud şəkildə pozulur.

Uzun sürən sülh danışıqları, nüfuzlu beynəlxalq təşkilatların BMT, Avropa Şurası, ATƏT-in Minsk qrupu və digər qurumların səyləri, problemin həllində vasitəçilik missiyası heç bir nəticə vermir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874, 884 saylı qətnamələri, habelə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan işğal olunmuş Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların dayandırılması, atəşkəsin təmin olunması, həmçinin bütün işğalçı erməni qüvvələrinin Azərbaycan torpaqlarından şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Baş Assambleyasının 14 mart 2008-ci il tarixli qətnaməsi, Avropa Şurası, ATƏT tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi sənədlər hələ də icra olunmur. Bu sənədlər də bir daha Dağlıq Qarabağ Konflikti anlayışını istisna edir və Ermənistanın təcavüzkar siyasətini tanıyır və ərazi iddiasını əsassız hesab edir.



Avropa Şurası Parlament Assambleyasının 2005-ci il tarixli 1416 saylı Qətnaməsi və 1690 saylı tövsiyəsi də Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələr tərəfindən idarə edilməsini və Azərbaycan torpaqlarının erməni qüvvələri tərəfindən işğalını bir daha təsdiqləmiş, BMT Təhlükəsizlik Şurasının yuxarıda adı çəkilən Qətnamələrinin icrasının vacibliyini vurğulamışdır.

Bunlarla yanaşı hazırda müxtəlif beynəlxalq təşkilatlar tərəfindən bir terrorçunun tapılması və cəzalandırılmasına külli miqdarda vəsaitlər sərf edildiyi halda, öz açıq terrorçuluq siyasəti ilə tüğyan edən "Asala" erməni terror təşkilatına qarşı heç bir tədbir görülmür.

Bu halda cəzasızlıq bütün dünya üçün təhlükə törədir.

Bu gün ölkəmizin BMT Təhlükəsizlik Şurasına seçilməsi tarixi qələbə olmaqla yanaşı, erməni lobbisi tərəfindən Azərbaycan haqqında yanlış rəy formalaşmasında ermənilərin ifşa olunması deməkdir. Bu gün 155 ölkə Azərbaycanı dəstəkləyir ki, bu da ədaləti, beynəlxalq hüququ müdafiə edən və ilk günlərdən bu prinsiplərə sadiq *ölkəni təcəssüm etdirir.*

Öz fəaliyyətində sülh hərəkatının formalaşdırılması, sülh mədəniyyətinin təbliği, bu sahədə əməkdaşlıq, xüsusilə də gənclər arasında sülh təhsili və maarifləndirmə istiqamətlərinə xüsusi diqqət yetirən Azərbaycan Ombudsmanı beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələri genişləndirir.

Artıq on beş ildən çoxdur ki, 100 illik tarixə malik Beynəlxalq Sülh Bürosunun üzvü olan, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin dəstəklədiyi Azərbaycan Sülh və İnkişaf Alyansı müxtəlif dövlət orqanlarının, beynəlxalq təşkilatların, dini icmaların, QHT-lərin iştirakı ilə qarşılıqlı əməkdaşlığa əsaslanan və respublikamızda sülh hərəkatının formalaşdırılması istiqamətində əhalinin müxtəlif qruplarına (uşaqlara, gənclərə, qadınlara, ahıllara, milli azlıqlara, dini icma nümayəndələrinə) ünvanlanan fəaliyyəti ölkəmizdə müsbət təcrübə formalaşdırmaqdadır.

Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olan yuxarıda adını qeyd etdiyimiz Azərbaycan Uşaq və Gənclərin Sülh

Şəbəkəsinin gənc sülh elçilərinin sülh hərəkatının inkişafında və sülh mədəniyyətinin təbliği prosesində fəal iştirakı da respublikamızda uşaq və gənclərin iştirakçılığını təmin edən və bu sahədə formalaşmış ən yaxşı təcrübələrdəndir.

Azərbaycanda Ombudsman təsisatı, Azərbaycan Sülh və İnkişaf Alyansı BMT-nin Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsinin prinsiplərini əsas tutaraq, qadınların sülh prosesində fəal iştirakını dəstəkləmək məqsədi ilə respublikamızda yaradılmış bütün qadın təşkilatları, həmçinin "Koalisiya 1325" təşkilatı ilə sıx əlaqələr qurmuş və qadınların sülh mədəniyyətinin təbliğində rolunu artırmaq üçün treninqlər, dəyirmi masalar, konfranslar, sərgilər təşkil edilir.

Qadınlar çox vaxt silah və sözlə ədalətin, sosial islahatların xeyrinə bütün dünyada mübarizə aparırlar. Lakin, qadınlar sülh danışıqlarında, konfliktin həllinə həsr olunmuş forumlarda nadir hallarda iştirak edirlər. Bununla belə, onlar konfliktin müxtəlif həlli yollarını özünəməxsus şəkildə axtarmağa çalışmışlar. Sülhlə bağlı müxtəlif qeyri-hökumət təşkilatlarında qadınların iştirakı ilə keçən əsrdə geniş vüsət almışdır: onlar müxtəlif sülh təşəbbüsləri, tədbirləri və proqramları ilə çıxış etmişlər. Bu təşəbbüslər onu göstərir ki, qadınların sülhə, təhlükəsizliyə və digər qlobal problemlərə yanaşmasında, kişilərdən fərqli olaraq, daha çox yenilikləri vardır.

Ombudsmanın təşəbbüsü ilə Betti A. Reardonun "Sülh mədəniyyəti təhsili-gender perspektivindən" adlı kitabının Azərbaycan və rus dillərinə tərcümə edilərək tədris vəsaiti kimi nəşri bu sahədə təşəbbüskarlığının artırılmasına xidmət edir.

Ölkəmizdə dini tolerantlıq, mənəvi tərbiyə və müxtəlif baxışları olan insanların qarşılıqlı münasibətləri zəminində sülhün bərqərar olmasına xidmət edən xalqlararası, sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoqun və əməkdaşlığın inkişaf etdirilməsi və bu proseslərə dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, həmçinin kütləvi informasiya vasitələrinin cəlb edilməsi, ayrı-seçkiliyin qadağan edilməsi və sülh mədəniyyətinin təbliği istiqamətində mütəmadi olaraq tədbirlərin həyata keçirilməsi və ənənəvi olaraq "Sülh aylığı"nın elan olunması bu istiqamətdə öz töhfəsini verməkdədir.



Müstəqil ölkəmizdə bütün bunlar sülh mədəniyyəti, mədəniyyətlərarası, dinlərarası dialoqun, tolerantlıq və dözümlülük mədəniyyətinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Mövcud qloballaşma prosesi mədəniyyətləri və dinləri yaxınlaşdırır, özünü dinlə bağlı olaraq daha açıq şəkildə göstərir. Yer üzərində yaşayan insanlara dünyəvi dinlərin və Allahın ən böyük tövsiyəsi də ondan ibarətdir ki, onlar bir-biri ilə xoş məramda, sülh şəraitində, bir-birinə qarşılıqlı hörmət, qarşılıqlı ehtiram şəraitində yaşasınlar. Ona görə də din xadimlərinin vicdana çağırış, səbir, sülhün təmin olunması ilə bağlı təşəbbüsləri olduqca zəruridir.

Bununla yanaşı insanların mənəvi sərvətləri içərisində dinin fərqliliyi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə, əməkdaşlığa dəvət etmişdir. Getdikcə daha çox din adamı dinlərarası dialoqun zəruriliyini dərk edir və dəstəkləyir. Bu isə sülh, dözümlülük, tolerantlıq və xeyirxahlıq naminə əməkdaşlıq tələb edir.

*Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin sözləri ilə desək: "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir...*

*O təkcə dinlərin bir-birinə yaxınlaşması deyil, onların bir birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".*

Dözümlülük qarşılıqlı anlaşma və ehtiram üçün əsas təməl rolunu oynayır. Bu dünya mədəniyyətlərinin zəngin fərqliliyin çiçəklənməsinə şərait yaradan yaşayış tərzidir. 1995-ci il tarixli YUNESKO-nun Dözümlülük haqqında Prinsiplər Bəyannaməsində deyildiyi kimi, dözümlülük "sülhü mümkün edən müharibə mədəniyyətinin sülh mədəniyyəti ilə əvəz olunmasını təbliğ edir".

Surətli genişlənən qloballaşma, səfərbərlik və qarşılıqlı asılılığın hökm sürdüyü hazırkı əsrdə dözümlülüyün təbliğ edilməsi xüsusilə əhəmiyyətlidir. Müxtəlifliyin misilsiz müsbət keyfiyyət olmasına baxmayaraq, o da gərginliyin yaranmasında mənbə ola bilər. Dö-

zümlülük potensial konfliktləri zəiflədə bilər. Bu, irqi nəzəriyyələrin və mədəni üstünlüyün meydana gəlməsinin qarşısının almasında yardım edir və cəmiyyətlərə uzunmüddətli xurafatlar və neqativ stereotiplərin öhdəsindən gəlməyə kömək edir.

Dözümlülük güzəşt və mərhəmət səhv salınmamalıdır. Əsl dözümlülük aşkarlıq, maraq və ünsiyyət deməkdir. Bu, bilik və dərk etmə ilə yanaşı gedir. Təhsil insanlar arasında oxşarlığı aşkar etməklə və müxtəlifliyə ehtiramı yaymaqla dözümsüzlüyün qarşısının alınmasında əsas yollardan biridir.

Dözümlülüyü həmçinin laqeydliklə səhv salmaq olmaz. Dözümlülüyü irqçilik, ksenofobiya, ayrı-seçkiliyə qarşı passiv münasibət bildirmək və ya azlıqlar, qaçqınlar, miqrant işçilər və başqa zəif qrupların təhqirə məruz qalması zamanı sakit durmaq kimi başa düşmək olmaz. Dözümlülük, əsas hüquq və azadlıqlarından məhrum olanlara arxa dayanmaq və onların müdafiəsində durmaqdır.

Hələ də dünyada bir çox insanların hüquqları, xüsusilə silahlı münaqişələr zamanı və münaqişələrdən sonrakı dövrdə pozulmaqda davam edir. Məhz buna görə də hər kəs çalışmalıdır ki, hüquqlar günümüzün reallığına çevrilsin, hər bir kəsə məxsus hüquq digəri tərəfindən hörmətlə qarşılansın, başa düşülən olsun və tətbiq edilsin. Bu inkişaf edən cəmiyyətimiz üçün olduqca vacibdir.

## §3. İNKİŞAF HÜQUQU

XXI əsrin ilk onilliyində sürətlə inkişaf edən və yayılan informasiya və kommunikasiya texnologiyaları, bununla bağlı yeni təkan almış qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına ciddi şəkildə təsir etməkdədir. Bu mənada Azərbaycan istisna deyil. Qlobal, planetar xarakterli amillər ölkə həyatının demək olar ki, bütün sahələrində - iqtisadi, sosial, siyasi, humanitar-mədəni və s. sahələrdə gedən proseslərin axınına nüfuz edir. Bununla yanaşı, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da öz mənşəyinə və təsir dairəsinə görə regional (region ölkələrinə xas olan), yaxud ölkədaxili xarakter daşıyan amillər mövcuddur ki, onların da ölkənin ictimai həyatının müxtəlif sahələrinin idarə edilməsində nəzərə alınması səmərəli siyasətin formalaşdırılması baxımından vacib əhəmiyyətə malikdir. Müasir dövrümüzün əsas amilləri (çağırışları) şərti olaraq aşağıdakı kimi qruplaşdırıla bilər.



Üçüncü nəsil hüquqlar sisteminə daxil olan inkişaf hüququ insani inkişaf prosesinin mərkəzində yerləşməklə, insan inkişafının əsas iştirakçısı kimi çıxış edir.

İnkişaf hüququ bütün insan hüquqlarının və əsas azadlıqlarının bölünməzliyi, həmçinin qarşılıqlı asılılığı prinsipinə əsaslanmaqla, mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsi ilə sıx bağlıdır.

İnkişaf hüququ sahəsində əsas mənbə olan, həmçinin inkişaf hüququnun həyata keçirilməsi vacibliyini vurğulayan sənədlər qismində BMT Baş Assambleyasının qəbul etdiyi "İnkişaf hüququna dair Bəyannamə", "İnkişaf hüququna dair Qətnamə", habelə Vyana Bəyannaməsi və Fəaliyyət Proqramını göstərmək olar.

1986-cı ildə BMT Baş Məclisi tərəfindən qəbul edilmiş "İnkişafa olan hüquq" haqqında Bəyannamənin preambulasında inkişafın bütün əhalinin və bütün şəxslərin inkişafda və onun gedişində yaradılan nemətlərin ədalətli bölgüsündə fəal, azad və konstruktiv iştirakı əsasında onların rifahının durmadan yüksəldilməsinə yönəldilmiş hərtərəfli iqtisadi, sosial, mədəni və siyasi proses olduğu göstərilir. İnkişaf hüququ insanın ayrılmaz hüququdur və buna müvafiq olaraq hər bir insan və bütün xalqlar insanın bütün hüququ və əsas azadlıqlarını tam həyata keçirə biləcək iqtisadi, sosial, mədəni və siyasi inkişafda iştirak etmək və onun nemətlərindən istifadə etmək hüququna malikdir.

Bəyannamənin tələbinə görə, insan inkişaf prosesinin əsas subyektidir və inkişaf hüququnun fəal iştirakçısı və benefisiarı olmalıdır. Dövlətlər inkişaf hüququnun həyata keçirilməsi üçün milli səviyyədə lazım olan bütün tədbirləri görməli və məsələn, ehtiyatlara yol tapmağa, təhsilə, səhiyyəyə, qidalanmaya, mənzilə, məşğulluğa və gəlirlərin ədalətli bölgüsünə aid məsələlərdə hamı üçün inkişafın

bərabərliyini təmin etməlidirlər. Qadınların inkişaf prosesində fəal rolunu təmin etmək üçün təsirli tədbirlər görülməlidir. Bütün sosial ədalətsizlikləri ləğv etmək məqsədilə müvafiq iqtisadi və sosial islahatlar keçirilməlidir. Bəyannamənin 10-cu maddəsində birbaşa göstərilir ki, milli və beynəlxalq səviyyələrdə siyasi tədbirlərin, qanunvericilik tədbirlərinin və digər tədbirlərin işlənib hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi daxil olmaqla inkişaf hüququnun tam həyata keçirilməsini və durmadan möhkəmləndirilməsini təmin etmək üçün bütün tədbirlər görülməlidir.

Bu sənədlərin müddəalarının həyata keçirilməsi universal və bölünməz şəkildə bir-biri ilə bağlı olan bütün insan hüquqlarını əhatə etməklə, inkişaf üçün zəruri imkanları və çatışmazlığın müəyyənləşdirilməsini asanlaşdırır

2000-ci ilin sentyabrında Nyu-Yorkda BMT-nin təşkilatçılığı ilə 147 ölkə başçısı Minilliyin Sammitinə toplaşaraq, Minilliyin İnkişaf Məqsədlərini (MİM) əks etdirən birgə Bəyannamə imzalamış və bununla da yoxsulluğun azaldılması məsələlərini özlərinin 2015-ci ilə qədər öhdəlikləri kimi müəyyənləşdirmişlər.

Kollektiv hüquqlara da toxunulan Bəyannamədə göstərilən vəzifələri həyata keçirmək üçün 18 hədəfi və 48 göstəricini özündə əks etdirən 8 qlobal məqsəd müəyyənləşdirilmişdir. Həmin qlobal məqsədlərdən birincisi məhz ifrat yoxsulluq və aclıq içində yaşayan dünya əhalisinin sayının yarıyadək azaldılmasını nəzərdə tutur.

Minilliyin Bəyannaməsini Azərbaycan Respublikası adından ulu öndər Heydər Əliyev imzalamışdır. Minilliyin Bəyannaməsinə qoşulan bir ölkə kimi, Azərbaycan Respublikasında da bu öhdəliyin ölkə şəraitinə uyğun şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə təsdiqlənmiş dövlət proqramları bu sahədə Azərbaycan təcrübəsini formalaşdırır və mühüm töhfələr verir.

Bu baxımdan BMT-nin bütün üzv dövlətləri 2015-ci ilədək aşağıdakı çox-şaxəli istiqamətlər üzrə vəzifələri yerinə yetirmək öhdəliyini götürmüşlər:[28]

28. BMT-nin rəsmi veb səhifəsi: *www.un.org/en/development/desa/development-beyond-2015.html*



- İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq;
- Ümumi ibtidai təhsilə nail olmaq;
- Gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək;
- Uşaq ölümü hallarını azaltmaq;
- HİV/AİDS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq;
- Ətraf mühitin davamlılığını təmin etmək;
- İnkişaf üçün qlobal tərəfdaşlığı inkişaf etdirmək.

Əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunmuş nailiyyətləri davam etdirmək, yoxsulluq səviyyəsinin daha da azaldılmasını, habelə bununla bağlı BMT-nin qəbul etdiyi«Minilliyin İnkişaf Məqsədləri»ndən irəli gələn vəzifələrin ölkəmizin xüsusiyyətləri nəzərə alınmaqla yerinə yetirilməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə «2008—2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» ilə təsdiq edilmişdir.

Ölkəmizdə də iqtisadi və sosial həyatındakı müsbət meyllərin, əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluq səviyyəsinin azaldılması və aradan qaldırılması sahəsində tədbirlərin davamı məqsədi daşıyan Dövlət Proqramı makroiqtisadi sabitliyi saxlamaq və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi, əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi, təhsil və səhiyyə sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sosial infrastrukturun inkişaf etdirilməsi üçün əsas strateji istiqamətlərdəndir. Bu sahədə həyata keçiriləcək məqsədyönlü tədbirlər nəticəsində 2008-2015-ci illərdə ölkədə işsizlik səviyyəsinin 3-4%-dək, yoxsulluğun səviyyəsinin isə 2 dəfə azaldılması nəzərdə tutulur.

Son illər Azərbaycan Respublikasında aparılan uğurlu iqtisadi

siyasət nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadi artımın davamlılığı təmin edilmiş, əhalinin gəlirlərinin artırılmasına və rifahının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına nail olunmuşdur. Ölkəmizdə sosial problemlərin, o cümlədən yoxsulluq probleminin həlli istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş «2003—2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı» xüsusi əhəmiyyətə malik olmuşdur. Həmin Dövlət Proqramının həyata keçirilməsi nəticəsində 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7 faizdən 29,3 faizə endirilmişdir. Sonrakı illərdə bu istiqamətdə daha çox nailiyyətlər qazanılmış və əvvəlki illərlə müqayisədə yoxsulluq səviyyəsi rəsmi açıqlamalara görə ümumilikdə 49 faizdən 7 faizə enmişdir.

Gəlirlər əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasında mühüm vasitə olsa da, yoxsulluğun azaldılmasına təsir edən yeganə amil deyildir. Ölkədə yoxsulluq probleminin həll edilməsi əhalinin gəlir səviyyəsinin artırılması ilə yanaşı, sosial sahədə göstərilən xidmətlərin də inkişaf etdirilməsini zəruri edir. Bu baxımdan, körpə və uşaq ölümü, ana ölümü, ərzaq təhlükəsizliyi və uşaqların qidalanması, yoluxucu xəstəliklərin yayılması, məktəbdə davamiyyət və qeydiyyat səviyyələri, habelə təlim nailiyyətləri kimi göstəricilərin monitorinqinin aparılması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili də öz fəaliyyətində kollektiv hüquqların tərkib hissəsi kimi sülh və inkişaf hüququnun geniş təbliğinə yer vermişdir. Minilliyin inkişaf məqsədlərinə uyğun olaraq qurulmuş bu fəaliyyətə dövlət qurumları ilə yanaşı, milli QHT-lər, icma nümayəndələri eləcə də beynəlxalq təşkilatlar cəlb olunmuşdur.

“Azərbaycan - 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsaslanmaqla həyata keçirilən fəaliyyət də bu qəbildəndir və əsas məqsədlərdən biri də demokratik cəmiyyətin, şəffaf ictimai münasibətlər sisteminin formalaşdırılmasına dəstək vermək, insan hüquqları sahəsində də islahatların daha geniş şəkildə həyata



keçirilməsinə nail olmaqdır.

Bu baxımdan qız uşaqlarının, reproduktiv yaşlı, həmçinin ahıl qadınların, müharibədən ziyan çəkənlərin, dul gəlinlərin, natamam ailəyə başçılıq edən tək qadınların, narkomaniyaya aludə olanların, HİV/AİDS virusuna yoluxanların, ehtiyaclarının həll edilməsi, təhsildən kənarda qalma hallarının aradan qaldırılması, sülh mədəniyyətinin, ümumilikdə kollektiv hüquqların təbliği üzrə tədbirlər daim davam etdirilməlidir və buna cəmiyyətimizdə böyük ehtiyac duyulur.

İnkişaf hüququnun təmini baxımından bir çox sahələrdə islahatlar olduqca zəruridir:

- Minilliyin İnkişaf Məqsədlərinə uyğun olaraq əhalinin müxtəlif qruplarına ünvanlanan fəaliyyət proqramların həyata keçirilməsi, həmin proqramların müntəzəm şəkildə monitorinqinin aparılması, nəticələrinin təhlili və dəyərləndirilməsi, sorğuların keçirilməsi üçün hər bir sahə üzrə xüsusi indikatorların hazırlanması;
- Vasitəçilik institutunu inkişaf etdirmək, ailədə baş verən zorakılıq hallarını aradan qaldırmaq məqsədilə proqramlar hazırlamaq;
- Sosial işçilərin hazırlanması, universitetlərin hüquq fakültələrinin nəzdində hüquq klinikalarının yaradılması və digər sahələrdə əhaliyə sosial xidmətlərin göstərilməsi məqsədilə kadrların hazırlanması.
- Bu sahədə müxtəlif araşdırmalar və elmi təhqiqat işlərinin aparılmasına dəstək vermək;
- Qadınların, kişilərin, gənclərin məsuliyyətli və sağlam cinsi, həmçinin reproduktiv davranışa kömək edəcək məlumat əldə etmələri üçün imkanların genişləndirilməsinə, mərkəzlərin yaradılmasına, ictimai xidmətlərin təşkilinə dəstək verilməsi;
- Mənfi stereotipləri aradan qaldırmaq məqsədilə tədbirlər planı hazırlamaq;
- Əhalinin müxtəlif qruplarını insan alveri, cinsi istismar, narkomaniya və AİDS-in yayılmasının qarşısını almağa istiqamətləndirmək;
- Gender və sülh mədəniyyətinin təhsilinin formalaşdırılması və s.

Beynəlxalq təcrübə göstərir ki, iqtisadi artım vasitəsilə ölkənin bütün regionlarında və iqtisadiyyatın müxtəlif sektorlarında məşğulluq və gəlir əldəetmə imkanlarını genişləndirməklə uzunmüddətli dövrdə yoxsulluğun azaldılmasına nail olmaq mümkün olsa da, cəmiyyətdə hər zaman maddi durumu dövlətin sosial müdafiə sistemindən asılı olan insanlar mövcud olacaqdır. Həssas qrupların sosial müdafiəsinin səmərəli təşkil edilməsi dövlətin əsas vəzifəsidir. Sosial müdafiə sistemi ölkənin sərvətinin müəyyən bir hissəsinin cəmiyyətin varlı təbəqəsindən yoxsul təbəqəsinə istiqamətləndirilməsində əhəmiyyətli hesab edilən mexanizmlərdən biridir.

Qeyd olunmalıdır ki, sosial müdafiə sistemi əhalinin yoxsulluqdan davamlı müdafiəsi üçün uzunmüddətli həlli yolu hesab edilə bilməz. Bu sahədə müxtəlif ölkələrdə toplanmış təcrübə göstərir ki, sosial müdafiə sahəsinin qeyri-mütənasib şişirdilməsi əslində insanlarda ələ-baxımlılıq meyllərinin güclənməsinə gətirib çıxarır. Bu isə, nəticə etibarı ilə, iqtisadi aktivliyə mənfi təsir etməklə, iqtisadi inkişafı əngəlləyən amildir.

Təhsil səviyyəsinin aşağı olması ailələrin yoxsulluq riskini artırmaqla, yoxsul əhalinin məşğulluq imkanlarını və yoxsulluqdan xilas olmaq ehtimalını məhdudlaşdırır. Bilik və bacarıqlar insanların iş yeri və gəlir mənbələri tapmaq imkanlarına əhəmiyyətli təsir göstərir. Təsadüfi deyil ki, BMT XXI əsri "Təhsil əsri" elan etmişdir. Təhsil insan inkişafına təsir edən əsas amil olmaqla yanaşı onların iqtisadi, siyasi və sosial proseslərdə iştirakının gücləndirilməsinə kömək edir. Digər tərəfdən, ailələr yoxsulluq səbəbindən gündəlik tələbatlarının ödənilməsi ilə təhsil almaq arasında seçim etmək məcburiyyətində qalırlar. Belə ki, onlar ya öz uşaqlarının təhsil xərclərini ödəyə bilmir, ya da bu xərcləri ödəmək üçün gündəlik yaşayışları ilə əlaqədar zəruri xərcləri azaltmalı olurlar.

İnkişaf hüququ daxilində sağlamlığın pisləşməsi insanların gəlir əldə etmək imkanlarına, habelə uşaqların məktəbdə davamiyyətinə və təlimdə müvəffəqiyyətinə mənfi təsir göstərir, insanların yoxsulluqdan çıxmaq imkanlarını məhdudlaşdırır. Əslində, sağlam olmayan



aztəminatlı insanlar özlərinin yoxsulluq yükünü uşaqlarının üzərinə qoymaqla, həmin ailələr üçün çıxışı olmayan «yoxsulluq dairəsi»nin yaranma ehtimalını artırmış olurlar. Yoxsul insanların, ümumən mövcud səhiyyə xidmətlərindən istifadə etmək üçün kifayət qədər maliyyə vəsaiti olmur ki, bu da onlarla yoxsul olmayanlar arasındakı bərabərsizliyi gücləndirir.

Bu çərçivədə gender zorakılığı və uşaqlara qarşı zorakılıq, eləcə də insan alveri hallarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində həmin halların aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması ilə məşğul olan hüquq mühafizə orqanlarının, təhsil, səhiyyə, sosial xidmət və miqrasiya məsələləri ilə əlaqədar olan təşkilatların, eləcə də KİV-lərin potensialının gücləndirilməsinə ehtiyac duyulur.

Gender zorakılığı və uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərin daha da gücləndirilməsi və səmərəli əlaqələndirilməsi məqsədilə Milli Fəaliyyət Planı hazırlanması, eləcə də mövcud qanunvericilikdə bununla əlaqədar boşluqların müəyyən edilməsi üçün ekspertiza aparılması olduqca vacibdir.

Əhalinin, xüsusən də yoxsul və həssas qrupların, hüquqi təsisatlardan və müvafiq xidmətlərdən istifadə imkanlarının artırılması inkişaf hüququnun əsas hissələrindən birini təşkil edir.

Yoxsul əhalinin öz hüquqları barədə maarifləndirilməsi və onlara ödənişsiz hüquqi yardım xidmətinin göstərilməsi üçün regionlarda hüquqi məsləhət xidmətləri mərkəzlərinin şəbəkəsi genişləndirilməsi, eləcə də əhalinin hüquqi təsisatlara müraciət etmək imkanlarının genişləndirilməsi məqsədilə digər zəruri tədbirlərin görülməsi olduqca zəruridir. Eyni zamanda, məhkəmə-hüquq sistemi işçilərinin peşəkarlıq səviyyəsinin artırılması üçün məhkəmə-hüquq işçilərinin potensialının gücləndirilməsinə, eləcə də məhkəmələrin fəaliyyətində yeni texnologiyaların istifadəsi genişləndirilməsi bu sahədə əsas komponentlərdəndir.

Təqsirləndirilən şəxslərin və məhkumların hüquqi biliklərinin artırılması, onların saxlanma şəraitinin yaxşılaşdırılması və sağlamlığının qo-

runması hüququnun təmin edilməsi məqsədilə penitensiar müəssisələrin tibbi-sanitariya və müalicə müəssisələri müasirləşdiriləcək, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin mühafizə sistemi gücləndiriləcək, kitabxanalar və idman meydançalarının yaradılması, eləcə də məhkumlar arasında maarifləndirmə işi genişləndirilməsi inkişaf hüququnun təməl istiqamətlərindəndir.

Bələdiyyələrin institusional inkişafının gücləndirilməsi tədbirləri davam etdirilməsi, bələdiyyə assosiasiyalarının fəaliyyətinin dəstəklənməsi, eləcə də bələdiyyələrin maliyyə-təsərrüfat fəaliyyəti üzərində dövlət və ictimai nəzarət mexanizmi təkmilləşdirilməsi olduqca zəruridir.

Bələdiyyələrin potensialının inkişaf etdirilməsi məqsədilə bələdiyyə üzvləri və bələdiyyə qulluqçularının bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlərin təşkil olunması, bu sahədə ölkə daxilində və beynəlxalq səviyyədə təcrübə mübadiləsinin genişləndirilməsi, eləcə də dövlət təhsil sistemində bələdiyyə idarəçiliyi sahəsində ixtisaslaşmış kadrların hazırlanması olduqca ehtiyac duyulan inkişafı şərtləndirən istiqamətlərdəndir.

Əlbəttə ki, inkişaf hüququnun təşəkkülü baxımından bunlar kifayət etmir. Elm-təhsil, iqtisadi inkişaf, səhiyyə, mədəniyyət, turizm, sənaye, kənd təsərrüfatı, məşğulluq və əmək, ümumilikdə isə bütün sahələrdə yeniliklərin tətbiqi zərurəti duyulur.

## §4. SAĞLAM ƏTRAF MÜHİTDƏ YAŞAMAQ HÜQUQU

Qloballaşma vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni hüquqların, bütövlükdə fərdi və kollektiv insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə, həmçinin ekoloji proseslərə mühüm təsir göstərir. Hüquqi-demokratik dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu yolunu tutmuş dövlətlərdə əsas insan hüquq və azadlıqlarının, o cümlədən ekoloji hüquqların səmərəli müdafiəsi bu gün milli prioritet kimi vurğulanır.



Bu baxımdan əsas ekoloji hüquqların, xüsusilə də sağlam ətraf mühitdə yaşamaq hüququnun səmərəli müdafiəsinin, təbliğinin zəruriliyi də önə çıxır.

XX əsrin ikinci yarısından başlayaraq əhalinin sürətlə artımı və elmi-texniki inqilab biosferdə deqradasiya proseslərinin əlamətlərini yaratdı. Əsrlər ərzində formalaşan təbii ekosistemlər ciddi dəyişikliyə məruz qalaraq insanın xarici təsirinə qarşı davamsız vəziyyətə düşdü.

Elmi-texniki inqilab həyatda məlum olmayan və ağıla sığmayan çox böyük gərginliklər yaratdı: aviasiya və avtomobil nəqliyyatı, nüvə energetikası, kimya sənayesi və s. Bu və digər sahələr təbiət üçün zərərli olmaqla yanaşı, həm də təbii resursların azalmasına, bəzən tükənməsinə səbəb oldu. Belə ki, materiallardan və enerjidən istifadə XX əsrdə son dərəcə sürətlə artaraq, hətta əhali artımını da keçdi. Bütün bunların nəticəsi olaraq, insan müəyyən dərəcədə mühitin əlverişsiz faktorlarının təsirindən qorunmağı da öyrənmiş oldu. Bununla da insan özü də onu əhatə edən mühitə böyük təsir göstərməyə başladı.

Hər bir şəxs ətraf mühitlə təmasda olması prosesində bir sıra hüquqlara malikdir ki, bu da həm beynəlxalq əhəmiyyətli konvensiyalarda, həm də müxtəlif dövlətlərin milli qanunvericiliyində öz əksini tapmışdır.

Qeyd olunan istiqamətə aid olan bütün hüquqları 2 növdə fərqləndirmək olar: şəxsin ekoloji maraqlarının həyata keçirilməsi ilə əlaqədar olan hüquqlar və şəxsin pozulmuş və ya pozulmaqda davam edən ekoloji maraqlarının müdafiəsinə yönələn hüquqlar.

Şəxsin ekoloji maraqlarının həyata keçirilməsi ilə əlaqədar olan hüquqlara aşağıdakı hüquqları aid etmək olar:

1) şəxsin onun sağlamlığı və həyatı üçün əlverişli olan ətraf təbii mühitdən istifadə etmək hüququnu;

2) şəxsin müəyyən edilmiş qaydada ətraf mühiti dəyişdirmək hüququnu ;

3) şəxsin ətraf mühitin vəziyyəti barədə informasiya almaq hüququnu. Şəxsin ekoloji maraqlarının həyata keçirilməsi ilə əlaqədar

olan hüquqlarla yanaşı həmçinin şəxsin pozulmuş və ya pozulmaqda davam edən ekoloji maraqlarının müdafiəsinə yönələn hüquqları da vardır. Belə hüquqlara aiddir:

1) dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən ətraf təbii mühitin çirkləndirilməsinə yönələn konkret fəaliyyət növünə və ya müntəzəm olaraq davam edən bu cür hərəkətlərə son qoymağı tələb etmək;

2) ətraf təbii mühitin çirkləndirilməsi nəticəsində ona dəymiş maddi ziyanın əvəzinin ödənilməsini tələb etmək;

3) ətraf təbii mühitin çirkləndirilməsi ilə əlaqədar ona dəymiş mənəvi (psixoloji) ziyanın kompensasiyasını tələb etmək hüququ.

Sırf mülki hüquq nöqteyi-nəzərindən yuxarıda sadalanan üç hüquq mülki hüquqların müdafiə vasitələrinə aid edilir. Lakin bizim məqsədimiz şəxsin ətraf təbii mühitlə təmasda olma prosesində malik olub həyata keçirə biləcəyi bütün səlahiyyətləri bir-bir nəzərdən keçirməkdir. Bu səbəbdən də biz mülki hüquqların mümkün olan müdafiə vasitələrini də subyektiv hüququn məzmununda nəzərdən keçiririk. Beləliklə, qeyd etdiyimiz səlahiyyətlərdən (hüquqlardan) biri də dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən ətraf təbii mühitin çirkləndirilməsinə yönələn konkret fəaliyyət növünə və ya müntəzəm olaraq davam edən bu cür hərəkətlərə son qoymağı tələb etmək hüququdur.

Azərbaycan Respublikası "Ətraf mühitə dair informasiya aşkarlığı, ictimaiyyətin bu sahədə qərarlar qəbul olunmasında iştirakı və ədalət mühakiməsinin aşkarlığı barədə" 25 iyun 1998-ci il tarixli Aarxus Konvensiyasının iştirakçısıdır. Bu Konvensiyanın 1-ci maddəsinə əsasən: "İndiki və gələcək nəslin nümayəndəsi olan hər bir insanın, onun sağlamlığı üçün əlverişli olan ətraf mühitdə yaşamaq hüququnun müdafiəsinin təmin edilməsi üçün konvensiyanın iştirakçıları olan tərəflər bu Konvensiyanın şərtlərinə uyğun olaraq, ətraf mühitə dair informasiyanın aşkarlığına, ictimaiyyətin bu sahədə qərarlar qəbul olunmasında iştirakına və bu sahədə ədalət mühakiməsinin aşkarlığı barədə təminat verirlər". Çində adı gedən Konvensiyanın şərtlərinin cəmiyyətdə çox geniş tətbiqi



nəinki onların məhkəmə təcrübələrindən məlumdur, bu həmçinin əhali təbəqələrinin ekoloji problemlərlə əlaqədar kifayət qədər məlumatlandırılması və ictimaiyyətin bu sahədə qərarlar qəbul olunmasında bizim ictimaiyyatdən fərqli olaraq daha aktiv olmasında da özünü biruzə verir.

İqlim dəyişiklikləri nəticəsində baş verən maddi və fiziki itkilərlə yanaşı insanlar həm də böyük mənəvi iztirablara, psixoloji stresslərə, etik normaların pozuntularına da məruz qalırlar ki, uzun müddət psixoloji reabilitasiyaya ehtiyacları olur və bunları nəzərə alaraq hər bir ölkədə xüsusi hazırlıqlı psixoloqların hazırlanması və ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının, krizis mərkəzlərinin mövcudluğu zəruridir.

İqlim dəyişikliklərinə qarşı dünya dövlətlərinin səmərəli fəaliyyətinin olmaması Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin təsbit etdiyi hüquqların mahiyyətini azaldır və odur ki, sözügedən məsələlərin həllində dünyanı regionlara bölmək yox, bu işdə məhz inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərin həmrəyliyinə nail olmaq gərəklidir.

İstər beynəlxalq, istərsə də milli səviyyələrdə qlobal iqlim dəyişikliyi ilə bağlı kompleks tədbirlər həyata keçirilir. Sözügedən beynəlxalq xarakterli tədbirlərdən ən önəmlisi ötən ilin dekabr ayında Kopenhagendə keçirilmiş Üçüncü Ümumdünya iqlim konfransıdır. Həmin konfransın yekunu olaraq qəbul edilən sənəd «Kopenhagen razılaşması (sazişi)» təəssüf ki, məcburi hüquqi qüvvəyə malik deyildir. Bu sahədə dövlətlərin üzərinə imperativ öhdəliklər qoyan universal beynəlxalq hüquqi aktların qəbul olunması isə olduqca vacibdir.

Əhalinin sağlamlığının qorunması hüququ, əsas etibarilə məhz ölkədəki ekoloji saflığın və təmizliyin nə dərəcədə təmin olunmasından, müxtəlif çirklənmələrin (torpağın, suyun və havanın) qarşısının alınmasından və bununla bağlı zəruri maarifləndirmə və əməli tədbirlərin həyata keçirilməsindən asılıdır. Eyni zamanda, sözügedən sahədə təkmil qanunvericilik sisteminin yaradılması və

tətbiqi məsələsi də son dərəcə prioritet vəzifələrdəndir.[29]

Cəmiyyət inkişaf etdikcə mövcud ictimai münasibətlərin tənzimlənməsi sahəsində tətbiq edilən normaların təkmilləşdirilməsi zərurəti meydana çıxır. Belə ki, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədi ilə konstitusion hüquq islahatları həyata keçirilmiş və 18 mart 2009-cu il tarixdə referendum yolu ilə "Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Referendum Aktı qəbul edilmişdir. Referendum Aktına əsasən Azərbaycan Respublikasının Konstitusiyasının digər maddələri ilə yanaşı, 39-cu maddəsinə də ekoloji hüquqların təmini baxımından əhəmiyyətli bir sıra əlavələr edilmişdir. Heç kəsin ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməməsi, dövlətin ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verməsi ilə bağlı normalar bu qəbildəndir.

Azərbaycan Respublikası ekoloji hüquqların müdafiəsi baxımından əhəmiyyətli bir sıra beynəlxalq müqavilələrin, o cümlədən, «Bitki mühafizəsi haqqında» 1951-ci il tarixli Beynəlxalq Konvensiyanın, «Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında» 1979-cu il tarixli Avropa Konvensiyasının, «Havanın böyük məsafələrdə transsərhəd çirkləndirilməsinə dair» 1979-cu il tarixli Konvensiyasının, «Bioloji müxtəliflik haqqında» 1992-ci il tarixli Konvensiyasının iştirakçısıdır.

Qeyd etmək lazımdır ki, ekologiya hüquq sahəsi ilə bağlı münasibətləri tənzim edən xeyli sayda normativ hüquqi aktlar qəbul edilmişdir ki, bunların da, ekoloji hüquqların təmini, əhalinin ekoloji düşüncə tərzinin və mədəniyyətinin formalaşmasında əhəmiyyətli rolu olmuşdur.

Azərbaycan Respublikasının erməni işğalında olan ərazilərində narkotik vasitələrin tədarükü və ixracı müxtəlif dövlətlərə «ağ

29. Rəşid Rumzadə, *"Sağlam ətraf mühitdə yaşamaq hüququ"*. **Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) – 10 il.** Bakı 2013. Səh. 175-180.



ölümlər» bəxş edilməklə yanaşı, eyni zamanda çaylar və su hövzələri də zəhərli tullantılarla çirkləndirilərək ətraf mühit fəlakət həddinə çatdırmışdır.

Beynəlxalq ekologiya hüququnun prinsiplərinə, o cümlədən «Ətraf mühitin problemlərinə dair Stokholm Bəyannaməsi»nin (1972-ci il) və «Ətraf mühit və inkişafa dair Rio-de Janeyro Bəyannaməsi»nin (1992-ci il) müddəalarına zidd olaraq Ermənistan dövləti cəzasızlıqdan istifadə edərək işğal altında olan Zəngilan rayonu ərazisində dünyada ikinci ən böyük - 107 hektar sahəsi olan təbii çinar meşələri məhv edilmiş, digər ərazilərdə isə meşə və ətraf yaşıllıqlar, əkinə yararlı sahələr yandırılmış, beləliklə də ətraf mühitə və təbii sərvətlərə ölçüyəgəlməz ziyan vurulmuşdur.

Respublikamızda sağlam ətraf mühitin mühafizəsi sahəsində kompleks tədbirlər həyata keçirilməkdədir.

Oğuz və Qəbələ rayonlarının ərazisindən Bakı şəhərinə yeni su kəmərinin çəkilməsi üzrə həyata keçirilən işlər bu tədbirlərin tərkib hissəsi kimi böyük əhəmiyyət daşıyır.

Müvəkkilin ünvanına sağlam ətraf mühitdə yaşamaq hüququnun pozulması ilə bağlı daxil olan müraciətlər digər hüquqlar sırasında azlıq təşkil etsə də, qaldırılmış problemlərin miqyası təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edir.

Müvəkkilin təşəbbüsü ilə ötən dövrdə əlaqədar dövlət qurumlarının, xüsusilə də Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirliklərinin, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini vəziyyəti, içməli su ilə qidalanma, habelə ekologiya ilə bağlı bir sıra problemlər və onların həlli yollarının müzakirəsi keçirilmişdir.

Həmin tədbirlərdə Müvəkkil bir sıra mühüm məsələlərə, o cümlədən zərərli kimyəvi maddələrin atmosferə atılmasının, çirkab suların dənizə, çaylara və su tutarlarına axıdılmasının, çətin çürüyən tullantıların emal edilməməsinin, münbit torpaqların yararsız hala düşməsinin və ya salınmasının, bəzi nadir bitkilərin və heyvanların məhv edilməsinin yolverilməz olduğunu diqqətə çatdıraraq mü-

vafiq nazirlik, habelə səlahiyyətli dövlət orqanları tərəfindən ətraf mühiti çirkləndirən müəssisə və təşkilatların fəaliyyətinə nəzarətin gücləndirilməsini, sanitar-qoruyucu zonaların təşkilini tənzimləyən və sakinlərin sağlam ətraf mühitdə yaşamaq hüququnu qoruyan mexanizmlərin yaradılmasını, tikinti meydançaları ətrafındakı yaşıllıqların məhv edilməsinin qarşısının alınmasını, ekologiyanın keyfiyyət normativlərinin müəyyən olunmasını təklif etmişdir.

Haqlı olaraq ağacları və bitki aləmini təbiətin "ağ ciyərlər"i adlandırırlar. Təqdirəlayiq haldır ki, ölkə Prezidentinin xüsusi göstərişi ilə ölkədə üç milyon ağacın əkilməsi prosesinə start verilərək, bu iş müvəffəqiyyətlə davam etdirilir.

Ombudsman Aparatının əməkdaşları da bu aksiyaya fəal şəkildə qoşulmuş, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ilə birgə ağacəkmə kampaniyasında iştirak etmişlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə 18 iyun - Azərbaycanda İnsan hüquqları gününə və «Ekologiya ili»nə həsr olunmuş «İnsan hüquqları və ətraf mühit: iqlim dəyişikliyinin hüquqi və etik aspektləri» mövzusunda 17-19 iyun 2010-cu il tarixdə Bakı şəhərində keçirilən Ombudsmanların VIII Beynəlxalq Konfransı da kollektiv hüquq kimi sağlam ətraf mühitdə yaşamaq hüququna mühüm töhfələr vermişdir.

Konfransın sonunda dünyanın elm, təhsil və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumu kimi BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO-nun milli və ya dini mənsubiyyətindən, cinsindən, dilindən və digər əlamətlərdən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində bəyan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi bir vəzifə kimi qarşıya qoyduğu qeyd olunaraq dünya ictimaiyyətinə ünvanlanan Bəyanat da qəbul olunmuş və aşağıdakı məsələlər barədə razılığa gəldiyi bəyan edilmişdir.

Bu gün qlobal iqlim dəyişikliyinin, təbii və texnogen fəlakətlərin təsiri kontekstində insan hüquqlarına, etik normalara əməl edilməsinin, insan ləyaqətinə hörmətin həvəsləndirilməsi və dəstəklənməsi sahəsində fəaliyyətin gücləndirilməsi, ekoloji tarazlığın pozulması ilə bağlı insanı mümkün təhlükələrdən qoruyan yeni nəsil hüquqların (ekoloji hüquqlar toplusunun) formalaşması və təbliği prosesinə dəstək verilməsi böyük zərurətə çevrilmişdir.



## §5. XALQLARIN ÖZ MÜQƏDDƏRATINI TƏYİN ETMƏK HÜQUQU

İnsan hüquqlarına hörmət edilməsi prinsipi ilə bilavasitə əlaqədar olan digər mühüm rəhbər başlanğıclar – dövlətlərin suveren bərabərliyi, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi, mübahisələrin dinc yolla həlli, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi BMT Nizamnamənin 2-ci maddəsinin tərkib hissəsini təşkil edir. Bu Nizamnamənin 55-ci maddəsi isə insan hüquqlarına hörmət prinsipinin digər aspektlərini müəyyən edir. Həmin maddədə göstərilir ki, millətlər arasında, xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipinə hörmət əsasında sülh və dostluq münasibətləri üçün zəruri olan sabitlik və əmin-amanlıq şəraitini yaratmaq məqsədilə BMT aşağıdakılara dəstək verir: həyat səviyyəsinin yüksəldilməsinə, əhalinin tam məşğulluğuna, iqtisadi və sosial tərəqqinin inkişaf etdirilməsinə, iqtisadi, sosial, səhiyyə və buna müvafiq sahələrdə beynəlxalq problemlərin həllinə, mədəniyyət və təhsil sahələrində beynəlxalq əməkdaşlığa, irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət və riayət edilməsinin təmini.

Qloballaşan dünyada isə bir çox münaqişələr gedişində və işğalçılıq siyasətini pərdələmək məqsədilə "xalqların öz müqəddəratını təyin etmək hüququ" məntiqsiz şəkildə önə çəkilir.

Misal olaraq göstərilməlidir ki, Ermənistan tərəfi də bu gün işğalçılıq siyasətini bu anlayışla pərdələmək niyyətindədir. Belə ki, xalqların öz müqəddəratını təyin etmək hüququ hər bir millətin onun

iqtisadi, sosial, siyasi, mədəni baxımdan tam inkişafını təmin edə biləcək sabit bir şəraitdə yaşamaq hüququna malik olması başa düşülür və xalqın bir hissəsinə şamil oluna bilməz. Öz müqəddəratını təyin etmək hüququ BMT nizamnaməsinin 2.1 və 55-ci maddələrində öz əksini tapmaqla dövlətləri öz müqəddəratını müəyyən etmək hüququna hörmətlə yanaşmağa dəvət edərək bu hüququn realizəsini diskriminasiyaya yol vermədən insan hüquq və azadlıqlarına hörməti mümkün edən sabit şəraitin mövcudluğu ilə xarakterizə edir. Helsinki Yekun Aktında (1975) öz müqəddəratını təyin etmə ayrılma kimi deyil, xalqların bərabərliyinə, dövlətlərin ərazi bütövlüyünə hörmət məzmununda və demokratik dövlət formasında insan hüquqlarına nail olmaq kimi başa düşülür.

1990-cı il 21 noyabr tarixində Parisdə ATƏT çərçivəsində qəbul edilmiş yekun sənəddə millətlərin öz müqəddəratını həll etmək hüququ nəzərdən keçirilərək BMT nizamnaməsinə və orada təsbit edilmiş prinsiplərə, xüsusilə ərazi toxunulmazlığı prinsipinə uyğun şəkildə bir daha təsdiq edilib. Millətlərin öz müqəddəratını təyin etməsi hüququ bir çox beynəlxalq hüquqi sənədlərdə təsbit edildiyi halda, ayrılma hüququ beynəlxalq hüquqa əsasən, ümumiyyətlə, hüquq kimi müəyyən edilməyib.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar sadalanmaqla yanaşı hər bir şəxsin cəmiyyət qarşısında öhdəliyə malik olması, həmin hüquq və azadlıqların həyata keçirilməsinin heç bir halda BMT-nin məqsəd və prinsipləri ilə ziddiyyət təşkil etməməsi xüsusilə vurğulanır. Bundan əlavə, Bəyannamənin preambulasında insan şəxsiyyətinin ləyaqəti və dəyəri, qadın və kişi hüquqlarının bərabərləşdirilməsi də xüsusi olaraq vurğulanır.

Son dövrlər qanunun aliliyi və demokratiya ilə qarşılıqlı əlaqədə olan insan hüquqlarının inkişaf tendensiyası daha da güclənməkdədir. Belə ki, BMT-nin 2000-ci ildə qəbul etdiyi Minilliyin Bəyannaməsi də demokratiyanın dəstəklənməsi və qanunçuluğun möhkəmləndirilməsi, o cümlədən beynəlxalq hüquqla tanınmış insan hüquq və azadlıqlarına hörmət edilməsi üzrə bütün səylərin birləşdirilməsini bəyan edir.



İnsan hüquqlarına hörmət prinsipi bir çox regional beynəlxalq aktların da tənzimetmə obyektinin tərkib hissəsini təşkil edir. Helsinki Yekun Aktında müvafiq rəhbər başlanğıc "fikir, vicdan, din və əqidə azadlığı da daxil olmaqla, insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi" kimi göstərilir. Helsinki Yekun Aktında dövlətlərin bütün nəsil hüquq və azadlıqların səmərəli həyata keçirilməsini inkişaf etdirməsi, bu fəaliyyəti təşviq etməsi, onların milli azlıqlara münasibətdə təmin edilməsi, həmin hüquq və azadlıqların dostluq münasibətlərinin inkişafının bərqərar olması üçün zəruri sülh, ədalətlilik və rifah kontekstində tanınması, bütün bunların tərəqqisi üçün qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi daha aydın şəkildə təsbit edilmişdir.

21 noyabr 1990-cı il tarixli Yeni Avropa üçün Paris xartiyasında isə dövlətlərin ən vacib öhdəliyi kimi əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi, onlara əməl edilməsi və onların həyata keçirilməsi vasitəsi qismində isə azadlığın əsası, ədalətlilik və sülh göstərilir.

Bu isə birbaşa olaraq insan hüquqlarına hörmət, onlara əməl edilməsi, onların dəstəklənməsi məqsədilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunması ideyasından irəli gəlir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 1-ci maddəsi də analoji müddəanı müəyyən edir. 1969-cu il tarixli İnsan hüquqları haqqında Amerikaarası Konvensiyanın I fəsli bütövlükdə dövlətlərin insan hüquqlarına hörmət etmək öhdəliyini təsbit edir.

## §6. VYANA BƏYANNAMƏSİ VƏ FƏALİYYƏT PROQRAMI, VYANA+20 KONFRANSI

YUNESKO prioritetlərinin də əsaslandığı, 1948-ci ilin 10 dekabrında BMT Baş Məclisi tərəfindən «İnsan Hüquqları haqqında Ümumi Bəyannamə»si qəbul edilməsi, həmin günün tarixə insan hüquqları günü kimi düşməsinə də töhfə verdi.

Bu Bəyannamənin qəbul edilməsindən etibarən əldə olunmuş insan hüquqları sahəsində nailiyyətləri qiymətləndirmək, həmçinin sözügedən sahədə maneələri və onların aradan qaldırılması üsullarını aşkar etmək məqsədilə ümumdünya konfransının təşkil edilməsinə çağırışlar edildi.

Bu çağırışlar və gözləntilər YUNESKO prioritetlərini də özündə əks etdirirdi.

1992-ci ilin sentyabrında Cenevrədə Hazırlıq Komitəsinin ilk dörd görüşündən məlum oldu ki, qarşıya qoyulmuş vəzifələrə nail olmaq sahəsində çoxlu sayda çətinliklər mövcuddur və yaranır (o cümlədən universallıq, qeyri-hökumət təşkilatlarının rolu məsələlərinə münasibətdə, həmçinin insan hüquqları sahəsində yeni və ya daha güclü mexanizminin icraçılığı və qərəzsizliyə münasibətdə və s.).

Hazırlıq prosesi üç hazırlıq mərhələni əhatə etdi: Tunis, San-Xose və Banqkokda regional görüşlər, hansı ki, üç regionun (Afrika, Latın Amerikası və Karib hövzəsi, Asiya və Sakit okeanı) problemlərini və perspektivlərini əhatə edən Bəyannamə qəbul olundu. Bundan başqa Avropada və Şimali Amerikada qeyri-formal görüşlər vasitəsilə, o cümlədən bütün dünya üzrə bir sıra telekonfransların keçirilməsi geniş ictimaiyyətə təsiri oldu. Mayda sonuncu iclasda uzunmüddətli sessiyanın yekunu olaraq Hazırlıq komitəsi yekun sənəd layihəsini tərtib etdi, hansı ki, Vyana Konfransında öyrənilməsi və müzakirəsi davam etdi.

25 iyun 1993-cü ildə 171 ölkənin nümayəndəsinin iştirakı ilə Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı imzalandı. Bu sənəddə insan hüquqları üzrə Ümumdünya konfransının iki həftəlik nəticələri yer aldı. Beynəlxalq ictimaiyyətə təqdim olunan sözügedən sənəd bütün dünyada insan hüquqları sahəsində fəaliyyətlərinin möhkəmləndirilməsi üzrə ümumi plan oldu.[30]

Konfrans dövlət nümayəndələrinin və beynəlxalq hüquq-mühafizə ictimaiyyətinin iştirakının səviyyəsinin bənzərsizliyinə

30. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının veb səhifəsi: *www.ohchr.org/EN/NewsEvents/Pages/ViennaW20ConferencelookstotheglobalHR.aspx*



görə fərqlənirdi. Belə ki, Vyanaya öz təcrübələrini müzakirə etmək və bölüşmək məqsədilə 7 000 iştirakçı, onların sırasında elmi-tədqiqat institutları, müqavilə orqanları, milli institutlar və üçdə ikisi yerli əhəmiyyətli olmaqla 800-dən artıq qeyri-hökumət təşkilatlarının nümayəndələri toplaşmışdı.

Həmin dövrdə BMT-nin Baş Katibi olmuş Butros Butros-Qali özünün Konfransa müraciətində, "Vyana Bəyannaməsinin və Fəaliyyət Proqramının qəbul edilməsi insan hüquqlarının müdafiəsi və genişləndirilməsi sahəsində beynəlxalq ictimaiyyətin fəaliyyətinə yeni impulslar verəcəyini vurğuladı. O, "Növbəti əsrdə (XXI) insan hüquqları sahəsində qlobal fəaliyyət üzrə yeni baxışlar"ın işlənib hazırlanmasını da alqışladı.

Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı dünyada insan hüquqları mexanizminin o dövrdəki vəziyyəti barədə uzunmüddətli mübahisələrin kulminasiya nöqtəsi oldu. VB və FP həmçinin 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi əsasında işlənib hazırlanmış insan hüquqları üzrə gələcək fəaliyyət mexanizmlərinin təmin edilməsi və gücləndirilməsi cəhdlərini yenilədi.

Konfransın Baş Katibi İbrahim Foll tədbirin yekun plenar iclasında çıxışı zamanı bildirdi ki, Vyana Bəyannaməsi beynəlxalq ictimaiyyətə "planlaşdırma, dialoq və əməkdaşlıq üçün əsaslar" verir, hansı ki, insan hüquqlarının genişləndirilməsi sahəsində vahid yanaşmanı formalaşdırır və beynəlxalq, milli və yerli səviyyəli xadimlərin diqqətini cəlb edir.

BMT Baş Assambleyasının 48-ci sessiyasında (48/121, 1993-cü il qətnaməsi ilə) razılaşdırılmış və Vyanada qəbul edilmiş sözügedən yekun sənəd son 45 il ərzində işlənib hazırlanmış prinsipləri təsdiq etdi və insan hüquqları sahəsində gələcək tərəqqi üçün əsasları möhkəmləndirdi. Belə ki, məsələn, demokratiya, inkişaf və insan hüquqlarının qarşılıqlı asılılığının tanınması beynəlxalq və milli təşkilatlarının insan hüquqlarının, o cümlədən inkişaf üzrə hüququnun irəliləməsi sahəsində gələcək əməkdaşlığa səbəb oldu.

Konfrans qadın, uşaq və yerli xalqların hüquqlarının müdafiəsinə və həvəsləndirməsinə münasibətdə yeni addımlar atdı, yeni

mexanizmlərin (qadınlara münasibətdə zorakılıq barədə məsələlər üzrə xüsusi məruzəçi, uşaq hüquqları haqqında Konvensiyanın ümumilikdə ratifikasiyası, həmçinin Baş Assambleyaya tövsiyə edildi ki, yerli xalqlarının beynəlxalq on illiyi keçirilsin) yaradılmasına təsir göstərdi. Sonrakı mərhələdə Baş Assambleya həmin tövsiyələri icra etdi.

Vyana Bəyannaməsində ən önəmli məsələlərdən bir də, BMT-nin müşahidə sisteminin möhkəmləndirilməsi və əlaqələndirilməsi üzrə konkret tövsiyələrin yer alması oldu. Bununla əlaqədar olaraq 20 dekabr 1993-cü ildə Baş Assambleyanın 48/141 saylı Qətnaməsi ilə BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı təsis edildi. Yeri gəlmişkən Ali Komissarlıq vəzifəsinə ilk dəfə olaraq Hose Ayyala-Lasso təyin edildi və o, 5 aprel 1994-cü ildən etibarən öz vəzifəsinin icrasına başladı.

Vyana Bəyannaməsində insan hüquqları sahəsində digər alətlərin bacardıqca tez ratifikasiya etmək, həmçinin Ümumdünya konfransının katibliyi funksiyasını icra edən insan hüquqları üzrə Mərkəz üçün əlavə resursların yaradılması zərurəti vurğulandı.

İbrahim Foll konfransdakı yekun çıxışını belə tamamladı ki, "BMT üzvləri - dövlətlər hazırkı Bəyannaməni qəbul edərək təntənəli surətdə insan hüquqlarına və əsas azadlıqlarına riayət etmək və hər kəsin insan hüquqlarının ifadəsi üzrə fəaliyyətinin həyata keçirilməsi öhdəliyini götürürlər."

1993-cü ildə Vyanada keçirilmiş insan hüquqları üzrə Ümumdünya konfransı İkinci Dünya Müharibəsindən sonra hüquqmüdafiə hərəkatı sahəsində ən əhəmiyyətli hadisələrdən biri oldu.

2013-cü ilin 24-28 iyununda baş tutan Avstriya Hökumətinin insan hüquqları üzrə BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı ilə birgə təşkil etdiyi Vyana+20 Konfransında iki onilliyin nailiyyətləri və çətinlikləri qeyd edildi.[31]

Vyana+20 Konfransında da insan hüquqlarının təmini və müdafiəsi ilə bağlı dövlətlərə və bütövlükdə dünya ictimaiyyətinə ol-

31. Vyana+20 Konfransının veb səhifəsi: *www.viennaplus20.wordpress.com/*



duqca önəmli mesajlar ünvanlanmış oldu. Bu xüsusatda 2018-ci ildə İnsan hüquqları üzrə Ümumdünya konfransının keçirilməsini, biznes və insan hüquqlarına diqqəti, qanunun aliliyinin möhkəmləndirilməsi, qurbanların, xüsusilə də qadın, uşaq və azlıqların hüquqlarının həyata keçirilməsi və müdafiəsinin gücləndirilməsi, diskriminasiyanın hər cür təzahürlərini aradan qaldırmaq, vətəndaş cəmiyyəti ilə əməkdaşlıq, İnsan hüquqları üzrə Ümumdünya məhkəməsinin yaradılması ideyasını, Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üzrə BMT-nin prioritetlərinin 2015-ci ildə başa çatdıqdan sonra dövlətlərin davam etdirməsi, hüquq müdafiə yanaşmasının qurulmasını və s. bu kimi məsələləri yer aldı.

Ötən müddət ərzində insan hüquq və azadlıqlarının təmini sahəsində ölkəmizin həyatında da, olduqca önəmli hadisələr yer aldı.

XX əsrin sonunda dünyada gedən davamlı siyasi proseslərin tərkib hissəsi kimi insan və vətəndaş hüquqlarının və azadlıqlarının inkişafı sahəsində ciddi dönüş olmaqla yanaşı, Azərbaycan öz müstəqilliyini elan edərək ümumbəşəri dəyərlərə, demokratik ənənələrə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının reallığı, təminatı və müdafiəsi prinsiplərinə sadiq qalaraq, vətəndaş cəmiyyəti, demokratik, hüquqi, dünyəvi dövlət və buna uyğun insan hüquqları sisteminin yaradılmasını özünün inkişaf yolu kimi bəyan etdi. Məhz elə buna görə də insan hüquqlarına hörmət ölkəmizi demokratik, hüquqi dövlət kimi xarakterizə edən ən mühüm keyfiyyətlərdən biri hesab olunur. Çünki, hüquqi dövlət quruculuğunun ən vacib şərti ölkədə insan hüquqlarının və azadlıqlarının təmin edilməsindən ibarətdir.

Azərbaycan Respublikasında aparılan demokratik hüquqi islahatlar insan hüquqlarının, beynəlxalq hüququn ümumqəbul olunmuş prinsipləri əsasında müdafiəsi sahəsində mühüm irəliləyişlərin əldə edilməsinə şərait yaratmış və bu müddət ərzində ölkəmiz bir çox beynəlxalq konvensiyalara qoşulmuşdur ki, bunların da yarısından çoxu bilavasitə və ya dolayısı ilə insan hüquq və azadlıqları ilə bağlıdır.

Məlumdur ki, ümumilikdə hüquqi islahatların başlıca məqsədlərindən biri də insan hüquqlarının təsdiq edilməsindən və onların

səmərəli müdafiə mexanizmlərinin yaradılmasından ibarətdir.

Müstəqil dövlətimizin insan hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyinin inkişafı tarixində ən əhəmiyyətli hadisələrdən biri 28 dekabr 2001-ci ildə «Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında» Konstitusiya Qanununun qəbul edilməsi və həmin Qanuna müvafiq olaraq ölkə başçısının təqdimatına əsasən Parlament tərəfindən Azərbaycan tarixində ilk dəfə olaraq 2 iyul 2002-ci ildə Azərbaycan Respublikasının ilk Ombudsmanının seçilməsi olmuşdur. Belə bir demokratik institutun yaradılmasında əsas məqsəd Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsinə nail olmaqdan ibarətdir.

Öz fəaliyyətini aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik kimi bəşəri prinsiplər əsasında quran Müvəkkil «İnsan Hüquqları haqqında Ümumi Bəyannamə»də, Avropa İnsan Hüquqları Konvensiyasında, eləcə də ölkəmizin tərəfdar çıxdığı digər beynəlxalq hüquqi sənədlərdə, həmçinin, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edimiş insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün Qanunla müəyyən edilmiş səlahiyyətlərdən səmərəli isifadə etməklə öz vəzifəsini yerinə yetirir.

Ombudsman təsisatının həyata keçirdiyi fəaliyyətin əsas məqsəd və məramı bütünlüklə insan hüquqlarının həyata keçirilməsinə, pozulmuş insan hüquqlarının bərpasına, vətəndaş cəmiyyətinin, demokratiya meyarlarına cavab verən dövlətin və buna uyğun insan hüquqları sisteminin yaradılmasına yönəldilmişdir.

İnsan hüquqlarının təmini baxımından əhəmiyyətli hadisələr sırasında həmçinin BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində həyata keçirilən Universal Dövri İcmal (UDİ) mexanizmini qeyd etmək lazımdır.

Məlum olduğu kimi respublikamız BMT-nin İnsan Hüquqları Şurasına üzv qəbul olunarkən öz üzərinə bir sıra öhdəliklər götürmüş və bu öhdəliklərdən biri də UDİ ilə bağlı olmuşdur.



Müvəkkil ilk vaxtlardan bu prosesə fəal qoşulmuş, dövlət və qeyri hökumət təşkilatlarını cəlb etməklə maarifləndirici xarakterli tədbirlər həyata keçirmiş, İnsan Hüquqları Şurasının 18 iyun 2007-ci il tarixli 5/1 saylı qətnaməsinə uyğun olaraq UDİ mexanizmi üzrə əlavə məruzə hazırlamış və aidiyyatı üzrə Ali Komissarlığa göndərmişdir.

Eyni zamanda UDİ mexanizmi ilə bağlı rəsmi hesabatın hazırlanması ilə əlaqədar olaraq xarici işlər nazirliyinə Ombudsmanın fəaliyyəti ilə bağlı arayış təqdim olunmuşdur. 2009-cu ilin fevralında və cari ilin mayında isə insan hüquqları sahəsində vəziyyətin dəyərləndirilməsi baxımından tam yeni mexanizm olan UDİ üzrə Azərbaycan dövlətinin BMT-nin İnsan Hüquqları Şurasında ilk hesabatı dinlənilmiş və bu sənədə böyük maraq göstərmiş 56 dövlətin nümayəndələrinin fəal iştirakı ilə müzakirələr nəticəsində ölkəmizdə insan hüquqları sahəsində əldə edilmiş uğurlar, müsbət təcrübə kimi dəyərləndirilmiş, mövcud nöqsanlar, çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələr verilmişdir. Bu zaman ən yüksək dəyərləndirilən uğurlar sırasında Milli Fəaliyyət Planının, o cümlədən Milli Fəaliyyət Proqramının qəbulu və Ombudsman təsisatının fəaliyyəti xüsusilə vurğulanmışdır.

2013-cü ildə BMT Baş Katibi Pan Ki Mun insan hüquqları günü münasibətilə müraciətində haqlı olaraq demişdir ki, Vyana bəyannaməsinin və fəaliyyət Proqramının 20 illiyi yubileyini qeyd etdiyimiz bir vaxtda bütün dünyada insanların hüquqlarının və ləyaqətinin müdafiəsi və təşviqi üzrə kollektiv məsuliyyətimizin realizasiyası üçün səylərimizi gücləndirməliyik.

## §7. GENOSİD CİNAYƏTİNİN BEYNƏLXALQ HÜQUQİ ƏSASLARI

YUNESKO-nun çağırışları bütün dünyada sülhə və qarşılıqlı hörmətə, insanlıq əleyhinə olan cinayətlərlə mübarizəyə əsaslanır. Mədəni müxtəlifliyi, tolerantlığı, münaqişəsiz həyatı, sağlam ətraf

mühiti, təhsil, elm və mədəniyyətin inkişafını özündə əks etdirən prioritet istiqamətlər üzrə fəaliyyət YUNESKO-nun dünya üzrə fəaliyyət proqramlarının əsasını təşkil edir.

Xatın, Holokost, Sonqmi, Ruanda və Srebrenitsa, Xocalı kimi dəhşətli faciələr dünyada insanlıqdan kənar əməlin təcəssümüdür. Soyqırım qurbanlarının xatirəsini yad edərkən insanlar bir daha bu faciələrin acı nəticələrini yaşayırlar.[32]

Dünyada insanların sülh naminə mübarizəsi, mədəniyyətlərin təbliği naminə fəaliyyəti cəmiyyətdə müsbət dəyişikliklərə və zorakılıqsız həyata töhfə verir.

Beynəlxalq hüquqa görə genosid (yun. genos – qəbilə, tayfa və lat. caedo – öldürürəm) ən ağır beynəlxalq cinayət olmaqla təcavüz, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, beynəlxalq terrorizm kimi cinayətlərlə yanaşı sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Beynəlxalq cinayət hüququnda genosid xüsusilə təhlükəli beynəlxalq cinayət kimi dəyərləndirilir. Genosid cinayətinin tərkibi bir sıra beynəlxalq hüquqi aktlarda müəyyənləşdirilmişdir.

İkinci dünya müharibəsi illərində beynəlxalq cinayətlər törətmiş şəxsləri mühakimə etmək üçün yaradılmış ilk beynəlxalq məhkəmə orqanı olan Nürnberq hərbi tribunalının Nizamnaməsinə əsasən tribunalın yurisdiksiyasına aşağıdakı cinayətlər aid edilmişdir:

- sülh əleyhinə cinayətlər, əsasən də: təcavüzkar müharibənin və ya beynəlxalq müqaviləni pozmaqla müharibənin planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması və ya yuxarıda sadalanan fəaliyyətin hər hansı birinin həyata keçirilməsinə yönəlmiş ümumi planda və qəsdlərdə iştirak etmək;
- hərbi cinayətlər, əsasən də: müharibə qanun və ya adətlərini pozmaq. Bu pozuntulara işğal olunmuş ərazinin mülki əhalisinin öldürülməsi, işgəncə verilməsi, qula çevrilməsi və ya başqa məqsədlə aparılması; hərbi əsirlərin və ya dənizdə olan şəxslərin öldürülməsi

32. Послание Генерального Директора ЮНЕСКО, г-жи Ирины Боковой. По случаю Международного дня памяти жертв Холокоста. ЮНЕСКО. (DG/ME/ID/2014/01). 27 января 2014 г.



və ya onlara işgəncə verilməsi; girovların öldürülməsi; ictimai və ya xüsusi mülkiyyətin talanması; şəhər yaxud kəndlərin mənasız olaraq dağıdılması; hərbi zərurətlə əlaqədar olmayan viranççılıq və başqa cinayətlər;
- insanlıq əleyhinə cinayətlər, əsasən də: müharibəyə qədər və ya müharibə zamanı mülki əhaliyə qarşı törədilmiş adamöldürmə, işgəncə, qula çevirmə, sürgün və başqa qəddarlıqlar və ya siyasi, irqi və ya dini motivlərə əsasən mülki əhalini təqib etmə.

Nizamnamədə birbaşa genosid termini işlədilməsə də, bu cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur.

Genosid cinayətinin əsas tərkib elementini zəruri niyyətin təşkil etməsi və onun dinc dövrdə törədilə bilməsi də bu əməli digər oxşar beynəlxalq cinayətlərdən, xüsusilə də insanlıq əleyhinə cinayətlər və müharibə cinayətlərindən fərqləndirir. Məhz buna görə də, genosid, Yuqoslaviya və Ruanda tribunalları nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda və bir sıra digər sənədlərdə ayrıca beynəlxalq cinayət kimi fərqləndirilmişdir.

Məhz buna görə də, genosid, Yuqoslaviya və Ruanda Tribunalları nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda və bir sıra digər sənədlərdə ayrıca beynəlxalq cinayət kimi fərqləndirilmişdir. Nürnberq Beynəlxalq Hərbi Tribunalının Nizamnaməsində təsbit olunmuş prinsiplər BMT Baş Məclisinin qətnamələrində əsas prinsiplər kimi təsdiq olunmuşdur. Həmin prinsiplər əsasən aşağıdakılardır:

- beynəlxalq hüquqa görə cinayət sayılan hər hansı əməli törətmiş hər bir şəxs ona görə məsuliyyət daşıyır və cəzalandırılmalıdır;
- beynəlxalq hüquqa görə cinayət sayılan hər hansı əmələ görə dövlətdaxili hüquqda cəza nəzərdə tutulmaması həmin əməli törətmiş şəxsi beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir;
- beynəlxalq hüquqa görə cinayət sayılan hər hansı əməli törətmiş hər hansı şəxsin dövlət başçısı və ya hökumətin məsul vəzifəli şəxsi kimi hərəkət etməsi həmin şəxsi beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir;

- beynəlxalq hüquqa görə cinayət sayılan hər hansı əməli törətmiş şəxsin hökumət və ya məsul şəxsin əmrini yerinə yetirməklə əlaqədar fəaliyyət göstərməsi onu beynəlxalq hüquq üzrə məsuliyyətdən azad etmir; lakin yüngülləşdirici hal kimi qiymətləndirilə bilər;
- sülh və bəşəriyyət əleyhinə cinayətlər, insanlığa qarşı cinayətlər, hərbi cinayətlər beynəlxalq cinayət kimi cəzalandırılır.

BMT-nin bir sıra sənədlərində də, genosid ümumi beynəlxalq hüquq normalarını pozan bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayət kimi dəyərləndirilir. BMT Baş Məclisinin 11 dekabr 1946-cı il tarixli 96 (1) saylı qətnaməsində genosidin beynəlxalq hüquq normalarını pozan, BMT-nin ruhuna və məqsədlərinə zidd cinayət olduğu elan edilir.

Genosid cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və bu il qəbul edilməsinin 65 ili tamam olan Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur.

Konvensiyanın preambulasında qeyd olunduğu kimi, genosidin bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq bu Konvensiya qəbul olunmuşdur.

Konvensiyaya görə genosid hər-hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlərdir: bu cür qrup üzvlərinin öldürülməsi; belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; hər-hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Analoji müddəa Yuqoslaviya beynəlxalq cinayət tribunalının nizamnaməsində (4-cü maddə), Ruanda beynəlxalq cinayət tribunalının nizamnaməsində (3-cü maddə), Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (6-cı maddə) və bəzi dövlətlərin cinayət qanunvericiliyində əks olunmuşdur. Belə bir müddəa Azərbaycanın



daxili qanunvericiliyində də təsbit olunmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsinə əsasən, hər-hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə genosid sayılır.

Ermənilər tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilmiş əməllərdə niyyət, əvvəlcədən düşünülmüş qaydada (yaxınlıqdakı kəndlərdə, qaçmaq istəyən əhalini məhv etmək məqsədilə əvvəlcədən pusquların qurulması da bunu sübut edir) məhz azərbaycanlı olduqlarına görə milli qrupu tam və ya qismən məhv etmək məqsədilə bu qrup üzvlərinin öldürülməsi olmuşdur. Həmçinin, Xocalıda uşaqların zorla valideynlərindən alınması faktı da məlumdur. Belə ki, faciə zamanı yüzlərlə azərbaycanlı ermənilər tərəfindən girov götürülmüşdür.

Uşağı olan girov götürülmüş azərbaycanlılardan isə uşaqları zorla alınmışdır. Uşaqların zorla bir qrupdan alınıb başqa bir qrupa verilməsi də genosid cinayətinin obyektiv cəhətini təşkil edən əlamətlərdəndir. Bütün bunlar isə ermənilərin genosid cinayəti törətmələrini bir daha sübut edir.

Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın iştirakçısı olan dövlətlər sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Konvensiyaya əsasən genosid, genosid törətmək məqsədilə sui-qəsd, genosidə birbaşa və açıq təhrikçilik, genosidə cəhd, genosiddə iştirak etmək əməlləri cəzalandırılır.

Genosid cinayətinə görə məsuliyyət universal olduğundan bununla bağlı digər dövlətlər də müvafiq tədbirlər görə bilərlər. Belə

ki, Konvensiyanın əsasında duran prinsiplər, BMT Beynəlxalq Məhkəməsi tərəfindən bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır. Konvensiyada qeyd edilir ki, genosidi həyata keçirmiş şəxslər konstitusiyaya görə məsul şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdırlar.

Genosid törətmiş şəxslərin cəzalandırılması labüddür. Konvensiyanın 5-ci maddəsinə əsasən, iştirakçı-dövlətlər genosid cinayəti törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görməlidirlər. Həmin şəxslər ya dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə, yaxud da beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidir.

Onu da qeyd etmək lazımdır ki, 26 noyabr 1968-ci il tarixli, Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında Konvensiya imkan verir ki, törədilmə vaxtından asılı olmayaraq genosid cinayəti törətmiş məsul şəxslər istənilən vaxt cinayət məsuliyyətinə cəlb olunsunlar.

BMT Baş Məclisinin 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərdə, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərdə və bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin məhkəmə təqibinin və cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət vardır. Hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq tədqiq edilməli, belə cinayətləri törətdikləri barəsində dəlillər olan şəxslər isə axtarılmalı, həbs edilməli, məsuliyyətə cəlb olunmalı və müqəssir sayıldıqda, cəzalandırılmalıdırlar.

Bir məqamı da vurğulamaq lazımdır ki, genosid cinayətinə görə məsuliyyətin meydana çıxması üçün bütövlükdə müəyyən qrupun məhv edilməsindən ibarət son nəticə tələb olunmur. Yuxarıda qeyd etdiyimiz genosid cinayətinin tərkibini təşkil edən əməllərdən birinin və ya bir neçəsinin müəyyən qrupu tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi genosid kimi qiymətləndirilir.



Genosid cinayəti törətməkdə təqsirli bilinən şəxslərin ekstradisiyasına gəlincə isə, Konvensiyaya əsasən müqəssirlərin təhvil verilməsinə münasibətdə genosid siyasi cinayət sayılmır. Deməli, genosid cinayəti törətmiş şəxslərə sığınacaq hüququ şamil edilmir.

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının ağır texnikasının və şəxsi heyətinin dəstəyi altında Xocalı şəhərini işğal etməsi, uşaqlar, qadınlar, qocalar daxil olmaqla yüzlərlə dinc sakin həlak olması ilə yazıldı. Bu insanlığın faciəsi idi. Soydaşlarımıza qarşı törədilən dəhşətli qətliam insanlıq çərçivəsinə sığmayan qəddarlıqla törədilmişdi.

Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, XX əsrin Xatın, Sonqmi, Lidiçe, Babi Yar kimi dəhşətli faciələrin sırasına düşdü.

Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədi ilə Ermənistan Respublikasının apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasına görə ən dəhşətlisi idi. Bundan əvvəl azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisi xüsusi amansızlıqla qətlə yetirilmişdi.

Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsi olan Xocalı Ermənistan hərbi birləşmələrinin növbəti hədəfi idi 7 min nəfərlik şəhərdə Ermənistandakı ata-baba torpaqlarından zorla qovulub didərgin salınmış azərbaycanlıların bir hissəsi və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türklərinin 54 ailəsi də məskunlaşmışdı.

1991-ci ilin noyabr ayından şəhər blokadaya alınmışdı, xarici aləmlə yeganə əlaqə radiotelefon və mülki vertolyotlar vasitəsi ilə keçirilirdi ki, 1992-ci il yanvarın 28-də "Azərbaycan Hava Yolları" Dövlət Şirkətinə məxsus Mİ-8 markalı mülki vertolyot Dağlıq Qarabağ səmasında erməni hərbi birləşmələri tərəfindən vurulması, 47

azərbaycanlının həlak olması ilə bu əlaqə də kəsildi.

Fevralın ikinci yarısından başlayaraq Xocalı şəhəri Ermənistan silahlı birləşmələri tərəfindən tam mühasirədə idi, dinc sakinlərin dəstələr halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin isə qarşısını aldı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücumun başlaması ilə erməni hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə şəhər bir neçə saatın içərisində yerlə yeksan edildi. Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürüldü. 8 ailə bütünlüklə məhv edildi. 487 nəfər şikəst edildi. 1275 sakin – qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qaldılar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.[33]

Bu soyqırım aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirilmiş, əsir götürülənlərə amansız işgəncə verilmişdir. Bu zaman soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə yaşamaq hüququ kütləvi şəkildə pozulmuşdur.

Mənfur erməni millətçilərinin kütləvi informasiya vasitələrində, mitinqlərdə azərbaycanlıların kütləvi məhvini təşkil etməyə çağırışları isə Ermənilər tərəfindən Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetirilməsi planının qabaqcadan hazırlanmasını bir daha sübut edir.

Bir məqamı da vurğulamaq lazımdır ki, genosid cinayətinə görə məsuliyyətin meydana çıxması üçün bütövlükdə müəyyən qrupun məhv edilməsindən ibarət son nəticə tələb olunmur. Yuxarıda qeyd etdiyimiz genosid cinayətinin tərkibini təşkil edən əməllərdən birinin və ya bir neçəsinin müəyyən qrupu tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi genosid kimi qiymətləndirilir.

"Krua l'Eveneman", "Valer aktuel" (Paris) jurnalları, "Sandi

33. Elmira Süleymanova. *"Xocalı - əsrin soyqırımıdır"*. **Respublika Qəzeti**, 26 fevral 2014. Səh. 3.



Tayms", "Faynenşl Tayms", "Tayms" (London), "Le Mond" (Paris), "İzvestiya" (Moskva) qəzetləri və başqa mətbu orqanların "Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu", "Minlərlə vəhşicəsinə öldürülənlər və başsız meyitlər var", "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər", "Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər", "Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü" başlıqlı yazılar insanlıq əleyhinə qəddar və düşünülmüş soyqırım aktını bir daha sübut edir.

Ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş əməllər beynəlxalq hüquqa müvafiq olaraq beynəlxalq cinayət – genosid kimi qiymətləndirilməlidir.

Ermənistan tərəfi bu işğalçılıq siyasətini pərdələmək məqsədilə "xalqların öz müqəddəratını təyin etmək hüququ"nu kortəbii şəkildə ifadə edir. Belə ki, xalqların öz müqəddəratını təyin etmək hüququ dedikdə, hər bir millətin onun iqtisadi, sosial, siyasi, mədəni baxımdan tam inkişafını təmin edə biləcək sabit bir şəraitdə yaşamaq hüququna malik olması başa düşülür. Öz müqəddəratını müəyyən etmək hüququ BMT nizamnaməsinin 2.1 və 55-ci maddələrində öz əksini tapıb. Bu maddələr dövlətləri öz müqəddəratını müəyyən etmək hüququna hörmətlə yanaşmağa dəvət edərək bu hüququn realizəsini diskriminasiyaya yol vermədən insan hüquq və azadlıqlarına hörməti mümkün edən sabit şəraitin mövcudluğu ilə xarakterizə edir. Helsinki Yekun Aktında (1975) öz müqəddəratını təyin etmə ayrılma kimi deyil, xalqların bərabərliyinə, dövlətlərin ərazi bütövlüyünə hörmət məzmununda və demokratik dövlət formasında insan hüquqlarına nail olmaq kimi başa düşülür.

1990-cı il 21 noyabr tarixində Parisdə ATƏT çərçivəsində qəbul edilmiş yekun sənəddə millətlərin öz müqəddəratını həll etmək hüququna baxış keçirilərək bu hüquq BMT nizamnaməsinə və orada təsbit edilmiş prinsiplərə, xüsusilə ərazi toxunulmazlığı prinsipinə uyğun şəkildə bir daha təsdiq edilib. Millətlərin öz müqəddəratını təyin etməsi hüququ bir çox beynəlxalq hüquqi sənədlərdə təsbit edildiyi halda, ayrılma hüququ beynəlxalq hüquqa əsasən, ümumiyyətlə, hüquq kimi müəyyən edilməyib.

Azərbaycan Xalqının Ümummilli lideri Heydər Əliyev siyasi

hakimiyyətə qayıdışı ilə Xocalı soyqırımının əsl mahiyyəti açıqlanmış və 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisində Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilmişdir.

Ölkə səviyyəsində bu siyasi kurs davam etdirilməklə yanaşı, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmasın, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini vurğulamaqla yanaşı, Xocalı soyqırımının tanınmasını qətiyyətlə tələb edir.

Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərilir. Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən "Xocalı – uşaqların gözü ilə" rəsm müsabiqəsinin, əl işlərinin və fotoşəkillərin dünyanın aparıcı ölkələrində keçirilən sərgisi dünya ictimaiyyətində XX əsrin ən böyük faciəsi haqqında daha dolğun təsəvvür yaratmışdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dünya boyu gerçəkləşdirdiyi "Xocalıya Ədalət" kampaniyası bu gün Xocalı hadisələri barədə dünya ictimaiyyətini məlumatlandırmaq və beynəlxalq-hüquqi tanınmasına nail olmaq məqsədilə Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika ölkələri tərəfindən Xocalı soyqırımının tanınmasını təmin etməkdədir.

Kampaniya çərçivəsində beynəlxalq təşkilatlar və 50-dən artıq müxtəlif ölkələrin parlamentlərində Xocalı soyqırımı ilə bağlı sənədlərin qəbul olunmasına nail olunmuşdur. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan İslam Respublikası, Bosniya və Herseqovina, Rumıniya, Çexiya və İordaniyanın parlamentləri də Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanımışlar.

Xocalı soyqırımının artıq tanınması ilə yanaşı, bu qətliamları törədənlərin cəzalandırılması tələb olunur. Bu məqsədə əsas zərurətlərdən biri BMT Təhlükəsizlik Şurasına müraciət etməklə Beynəlxalq tribunalın yaradılması, eləcə də mövcud beynəlxalq məhkəmələr çərçivəsində cəzalandırmanın vacibliyidir.



# VI FƏSİL

# YUNESKO İLƏ ƏMƏKDAŞLIQDA HƏYATA KEÇİRİLMİŞ OMBUDSMANLARIN BAKI BEYNƏLXALQ KONFRANSLARI VƏ BAKI BƏYANNAMƏLƏRİ

## §1. YUNESKO PRİORİTETLƏRİNƏ ƏSASLANAN KONFRANSLAR VƏ BAKI BƏYANNAMƏLƏRİ

İnsan hüquq və azadlıqlarının səmərəli müdafiəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi olduqca mühüm rol oynayır. İnsan hüquqları ideyasının milli sədləri aşaraq beynəlxalq status alması və bütün dünya birliyi çərçivəsində sülhün bərqərar olunmasında əvəzedilməz vasitələrdən biri kimi çıxış etməsi danılmaz bir gerçəkdir. Bu da öz növbəsində "insan hüquqları" anlayışının ayrıca götürülmüş hər hansı dövlətin milli sərvəti kimi deyil, bütövlükdə insan cəmiyyətinin xəzinəsi kimi qəbul edildiyini və onun bəşəri dəyər səviyyəsinə qalxdığını göstərir.

XX əsrin 70-ci illərindən başlayaraq insan hüquqlarına əməl edilməsi problemi beynəlxalq səviyyədə mühüm yer tutmağa başlamış, ölkələrarası əlaqələrin tərkib hissəsinə çevrilmişdir. İndi sosial və humanitar əməkdaşlıq üzrə elə bir beynəlxalq tədbir tapılmaz ki, həmin problem və onun həlli yolları müzakirə edilməmiş olsun.

Azərbaycanda Ombudsman təsisatı yarandığı gündən etibarən Müvəkkilin təşəbbüsü ilə bir sıra beynəlxalq tədbirlər keçirilmişdir ki, bunlardan da ən əhəmiyyətliləri heç şübhəsiz, Ombudsmanların Bakı Beynəlxalq Konfranslarıdır.

Bu konfranslarda toxunulan mövzuların aktuallığı və əhəmiyyəti eyni zamanda bir sıra mühüm beynəlxalq qurum və təşkilat nümayəndələrinin, 60-a yaxın xarici ölkələrin ombudsmanlarının

həmin tədbirlərdə fəal iştirakına səbəb olmuşdur.

Ombudsmanların Beynəlxalq Bakı Konfranslarında Azərbaycanda insan hüquq və azadlıqlarının Milli İnsan Hüquqları İnstitutu kimi məhkəmədənkənar müdafiəsini həyata keçirən, müstəqil bir qurum olan Ombudsman təsisatının fəaliyyəti barədə ətraflı məlumat verilmiş, inkişaf etmiş ölkələrin insan hüquqları institutlarının bu sahədəki müsbət təcrübəsi öyrənilmişdir.

Belə əhəmiyyətli tədbirlərin keçirilməsində Azərbaycan Ombudsmanının səmərəli və davamlı əməkdaşlıq etdiyi YUNESKO-nun böyük dəstəyi olmuşdur. Belə ki, 12 konfransdan 9-u, prioritet istiqamətlər üzrə məhz YUNESKO-nun dəstəyi ilə həyata keçirilmişdir. Konfransların gündəliyinə çıxarılmış mövzular nəinki YUNESKO-nun prioritetlərinə uyğun olmaqla, ölkəmiz, o cümlədən bütün dünya üçün əhəmiyyətli olan məsələlərə həsr edilmişdir:

YUNESKO-nun prioritetlərinə əsaslanmaqla və YUNESKO-nun dəstəyi ilə keçirilmiş Ombudsmanların III Bakı Beynəlxalq Konfransı hüquqi maarifləndirmə mövzusuna həsr edilmişdir. BMT-nin "İnsan hüquqları üzrə maarifləndirmə onilliyi (1995-2004)" münasibətilə 29-30 noyabr 2004-cü il tarixdə keçirilən tədbirin mövzusu "Demokratikləşmənin inkişafında vətəndaş cəmiyyəti ilə birgə insan hüquqları üzrə maarifləndirmənin rolu" olmuşdur.

Beynəlxalq tədbirdə İsveç, Macarıstan, Litva, Rusiya Federasiyası və onun subyektləri olan Moskva, Sverdlovsk vilayətlərinin, Tatarıstan Respublikasının, habelə MDB ölkələrinin, o cümlədən Moldova, Qırğızıstan və Gürcüstanın ombudsmanları və onların nümayəndələri iştirak etmişdir. Konfransa Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Baş Prokurorluğun, Daxili və Xarici İşlər Nazirliklərinin, Təhsil Nazirliyinin, eyni zamanda QHT-lərin və başqa təşkilatların nümayəndələri qatılmışdır.

Azərbaycan Ombudsmanı insan hüquq və azadlıqlarının həyata keçirilməsi sahəsində aparılan köklü islahatlar, ölkənin 200-dən artıq beynəlxalq konvensiyaya qoşulması, insan hüquqlarının dəstəklənməsinin Azərbaycanın demokratik inkişafının mühüm istiqamətlərindən olması haqqında danışmış, əhalinin ictimai və hüquqi maarifləndirilməsinin, vətəndaşların hüquq mədəniyyətinin gü-



nün tələbləri səviyyəsində inkişaf etdirilməsinin hüquqi-demokratik dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən mühüm amil olduğunu vurğulamışdır.

Çıxışlarda bu beynəlxalq tədbirin təşkilini Azərbaycanda demokratiyanın və stabil inkişafın göstəricisi kimi dəyərləndirmiş, Azərbaycan Ombudsman İnstitutunun qısa bir vaxtda səmərəli fəaliyyətinə görə bütün dünyada tanınması təqdir edilmişdir.

Konfransın yekununda aparılan müzakirələrin nəticələri təhlil edilmişdir. Çıxış edənlər konfransın hüquqi maarifləndirmə istiqamətində ombudsmanların fəaliyyətinin daha da təkmilləşməsinə, onların səylərinin dövlət qurumları, QHT-lər, bütövlükdə vətəndaş cəmiyyətinin səyləri ilə birləşdirilməsinə təkan verəcəyini vurğulamış, tövsiyələr və təkliflər irəli sürmüş, fikir mübadiləsi aparmışlar.

Azərbaycan Ombudsmanının təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə 18-19 iyun 2007-ci il tarixində keçirilmiş Ombudsmanların V Bakı Beynəlxalq Konfransı "İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində ombudsmanların imkanlarının inkişaf etdirilməsi"nə həsr olmuşdur.

Konfransda YUNESKO-nun Moskva Bürosunun direktoru Dendev Badarç və sosial elmlər üzrə proqram mütəxəssisi Alla Ampar, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Bürosunun direktor müavini Mark Qatri, Beynəlxalq Ombudsmanlar İnstitutunun vitse-prezidenti, Avstriyanın Federal Ombudsmanı Peter Kostelka, Avropa Şurası Baş katibinin Azərbaycan Respublikasındakı xüsusi nümayəndəsi Denis Bribosiya, Gürcüstanın, Moldovanın Ombudsmanları, Rusiya Federasiyasının Moskva, Saratov, Sverdlovsk, Kemerovo vilayətlərinin, Dağıstan Respublikasının insan hüquqları üzrə müvəkkilləri, habelə Ukrayna, Özbəkistan və Qırğızıstan ombudsmanlarının səlahiyyətli nümayəndələri, Belarus parlamentinin insan hüquqları üzrə daimi komissiyasının sədri, o cümlədən Azərbaycan Respublikası Milli Məclisinin deputatları, dövlət qurumlarının və QHT-lərin nümayəndələri iştirak etmişlər.

İnsan hüquqlarının cəmiyyətdə birliyin möhkəmlənməsinə real şərait yaratdığı, dövlət orqanları və onların vəzifəli şəxslərinə verilmiş hakimiyyət hüduduna riayət edilməsinin təminatçısı kimi çıxış

etdiyi, vətəndaş və dövlət münasibətlərini daha yüksək səviyyəyə qaldırmaqla ikitərəfli etimadın yaranması prosesinə kömək göstərdiyi, dövlətçiliyə inamı möhkəmləndirdiyi vurğulanmışdır.

Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsi tərəfindən Azərbaycan Ombudsman təsisatına "A" statusunun verildiyi, həmin statusun təsisatın beynəlxalq əlaqələrini, BMT və onun qurumları ilə əməkdaşlığını daha da genişləndirməsinə, həmçinin Ombudsmana Azərbaycanın ən uzun dövr – üç il müddətinə üzv seçildiyi BMT-nin İnsan Hüquqları Şurasının fəaliyyətində iştirak etməsi və tövsiyələr verməsinə imkan yaratdığı vurğulanmışdır.

YUNESKO-nun dəstəyi ilə 18-19 iyun 2008-ci il tarixdə həyata keçirilmiş, Ombudsmanların VI Bakı Beynəlxalq Konfransının isə əsas məqsədi minilliyin daha bir inkişaf məqsədi kimi, davamlı inkişaf naminə qlobal əməkdaşlıq çərçivəsində "Qloballaşan dünyada insan hüquqları" mövzusunda olmuş, BMT-nin İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasının 60 illiyinə və Milli İnsan Hüquqları Gününə həsr edilmişdir.

Əhəmiyyətli toplantıda BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının və Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarının nümayəndələri, YUNESKO-nun Baş ofisinin təmsilçisi, bir sıra Avropa, Asiya, Afrika, həmçinin MDB ölkələrinin – Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Polşa, Macarıstan, Albaniya, Litva, Pakistan, Misir, Rusiya Federasiyası və subyektləri, habelə Ukrayna, Qazaxıstan, Özbəkistan və Gürcüstanın milli insan hüquqları təsisatlarının nümayəndələri iştirak etmişlər.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 60 illiyi ilə bağlı ölkədə mühüm tədbirlərin keçirilməsini yüksək qiymətləndirmiş, qlobal çağırışlar, eləcə də "Qloballaşan dünyada insan hüquqları" mövzularında beynəlxalq ekspertlərin məruzələri dinlənilmişdir.

Ölkəmiz üçün də yeni olan bioetikanın əhəmiyyətini nəzərə alaraq Müvəkkilin təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə 17-19 iyun 2009-cu il tarixdə baş tutan Ombudsmanların VII Bakı Beynəlxalq Konfransının müzakirə mövzusu "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşmasının hüquqi və etik aspektləri" olmuşdur.



Ölkəmiz üçün də yeni olan bioetikanın əhəmiyyətini nəzərə alaraq müzakirə mövzusu "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşmasının hüquqi və etik aspektləri" olmuşdur.

Konfransda BMT-nin Azərbaycan üzrə rezident əlaqələndiricisi B. Pueza, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqaz üzrə nümayəndəsi V. Stefanov, YUNESKO-nun (Paris) Etika, elm və texnologiyalar şöbəsinin nümayəndəsi İ. Kodeli, bu qurumun Moskva Bürosunun sosial elmlər üzrə proqram mütəxəssisi A. Ampar, Avropa Şurası Bioetika Komitəsində Rusiyanın nümayəndəsi, Rusiya Elmlər Akademiyasının müxbir üzvü B.Yudin, Misirin Milli İnsan Hüquqları Komissiyasının üzvü M. Fayek, Pakistanın Belucistan vilayətinin Ombudsmanı A.Akbar, Tatarıstan Respublikasının (RF) Ombudsmanı R.Vaqizov, Moskva, Sverdlovsk, Kaluqa, Lipetsk, Altay vilayətlərinin ombudsmanları A.Jarov, T.Merzlyakova, Y.Zelnikov, N.Zaqnoyko, Y.Visloquzov, Litva Respublikası Bərabər İmkanlar Ombudsmanı A.Burneikene, Özbəkistan Ombudsman təsisatının nümayəndəsi M.Usmanov, Kazan Universitetinin professoru R. Valeyev, Kiyev Müasir Ürək Mərkəzinin baş həkimi, professor B. Todurov, insan hüquqları sahəsində beynəlxalq ekspertlər, Milli Məclisin deputatları, dövlət qurumlarının, QHT-lərin, vətəndaş cəmiyyətinin və KİV-in təmsilçiləri iştirak etmişlər.

YUNESKO-nun prioritet hesab etdiyi sahələrdən biri də ətraf mühitin qorunmasıdır. Ətraf mühitin qorunması insan hüquqlarına xüsusilə sağlam ətraf mühitdə yaşamaq hüququna birbaşa təsir edən çox əhəmiyyətli bir məsələdir.

Son illər qlobal iqlim dəyişikliyinin, artan təbii fəlakətlərin yalnız maddi və fiziki itkilərlə müşayiət olunmadığı, eyni zamanda insan hüquqlarının həyata keçirilməsinə mənfi təsir etdiyi nəzərə alınaraq İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə 17-19 iyun 2010-cu il tarixdə "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişikliyinin hüquqi və etik aspektləri" mövzusunda ətraf mühit məsələlərinə həsr olunmuş Ombudsmanların VIII Bakı Beynəlxalq Konfransı keçirilmişdir.

Əhəmiyyətli toplantıda Kanada, Tailand, Sloveniya, Rusiya

Federasiyası (RF) və subyektlərinin, Ukrayna, Belarus və Moldovanın ombudsmanları və ya bu ölkələrin milli insan hüquqları təsisatlarının nümayəndələri, həmçinin insan hüquqları sahəsində tanınmış beynəlxalq ekspertlər iştirak etmişlər.

Daha bir beynəlxalq Konfrans YUNESKO-nun da prioritetlərindən olan "Milli azlıqların və miqrantların mədəni hüquqları: hüquqi aspektlər və implementasiya" mövzusunda olmuşdur. Ombudsmanın təşəbbüsü ilə YUNESKO ilə əməkdaşlıqda 16-18 iyun 2011-ci ildə keçirilən Ombudsmanların IX Bakı Beynəlxalq Konfransı dünyada tolerant məkan kimi tanınan Azərbaycanda 90-a yaxın milli azlıq, etnik qrup və müxtəlif dini etiqadlara malik insanlar yüzilliklərdən bəri dinc, qarşılıqlı hörmət, bərabərlik və ayrıseçkiliyə yol vermədən yaşayıb yaratdıqları, ölkənin həyatında fəal iştirak etmələri üzrə məruzələr dinlənilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Birinci Katibi Günay Əfəndiyeva, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov insan hüquqları, o cümlədən qaçqın və məcburi köçkünlərin, miqrantların, milli azlıqların hüquqlarının müdafiəsi sahəsində milli siyasət, bu istiqamətdə mövcud fəaliyyət və təcrübə, Azərbaycanda milli azlıqların, milli etnik qrupların hüquqlarının müdafiəsi üçün hüquqi bazanın yaradılması, mədəni müxtəlifliyin dəstəklənməsi, multikultiralizm, mədəniyyətlərarası dialoq, ölkənin mühüm beynəlxalq konvensiyalara qoşulması, əhali üçün xüsusi əhəmiyyət kəsb edən yerlər, bütün millətlərə məxsus tarix və mədəniyyət abidələrinin, qoruqların, parkların qorunması üzrə çıxışlar etmişlər.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Birinci Katibi Günay Əfəndiyeva bu beynəlxalq konfransın ölkəmizin bütün dünyada tolerantlıq mərkəzi kimi tanınmasında mühüm rol oynayacağını, milli azlıqların və miqrantların da hüquqlarının, o cümlədən mədəni hüquqlarının müdafiəsinin, habelə ayrıseçkiliklə mübarizənin əhəmiyyətini diqqətə çatdırmışdır.



Konfransda İsveç, Norveç, Polşa, Sloveniya, Hindistan, Tailand, Pakistan, Ukrayna və Moldovanın, habelə Rusiya Federasiyasının 12 subyektinin ombudsmanları və ya milli insan hüquqları təsisatlarının nümayəndələri, həmçinin insan hüquqları sahəsində tanınmış beynəlxalq ekspertlər, mədəniyyət və elm xadimləri iştirak etmiş, məruzələri dinlənilmişdir.

"Fövqəladə hallarda insan hüquqlarının müdafiəsi: problemlər və imkanlar" mövzusunda keçirilən Ombudsmanların X Bakı Beynəlxalq Konfransı 18-20 iyun 2012-ci il tarixlərində keçirilmişdir. Konfrans 18 iyun – "İnsan Hüquqları Günü"nə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin 10 illiyinə və Azərbaycanın YUNESKO-ya üzv olmasının 20 illiyinə həsr edilmişdir.

Azərbaycan Ombudsmanı Elmira Süleymanova, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Birinci Katibi Günay Əfəndiyeva açılış nitqləri söyləyərək, iştirakçıların diqqətini prioritet istiqamətlərə yönəltmiş və konfransın əhəmiyyətini vurğulamışlar.

Bu toplantıda Avropa, Asiya və Amerikanın 23 ölkəsindən 52 xarici qonaq - ombudsmanlar və onların nümayəndələri, insan hüquqları sahəsində tanınmış alimlər və beynəlxalq ekspertlər iştirak etmiş, məruzələri dinlənilmişdir.

Azərbaycan Ombudsmanı Elmira Süleymanova "Azərbaycan Ombudsman təsisatı 10 ildə" mövzusunda məruzə etmiş, YUNESKO ilə insan hüquqları sahəsində səmərəli əlaqələr qurulduğunu diqqətə çatdırmış, təbii fəlakət zonalarına gedərək, nəticələrin aradan qaldırılması, mövcud problemin nəzarətdə saxlanılması məqsədilə yaradılmış mərkəzi qərargahda da olmaqla, problemlərin həlli yollarını müvafiq dövlət qurumlarının rəhbərləri ilə müzakirə edilməsinin müsbət nəticələrindən danışmışdır.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov erməni təcavüzü nəticəsində doğma yurdlarından qovulmuş, əhali qruplarından biri kimi, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı

ərazilərdə, eləcə də mülki əhalinin yaşadığı cəhbə bölgələrində erməni hərbi birləşmələri tərəfindən törədilən texnogen xarakterli fövqəladə halların baş verməsi təhlükəsinin hər zaman qaçılmaz olduğunu və soydaşlarımızın bundan əziyyət çəkdiyini vurğulamışdır. O, dünya ictimaiyyəti hərbi sursatlarla törədilən partlayışların, yanğınların qarşısının alınmasına sərt şəkildə reaksiya verməyə səsləmişdir.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Birinci Katibi Günay Əfəndiyeva bildirmişdir ki, fövqəladə hallarda insan hüquqlarının müdafiəsi həssas yanaşma tələb edir. Sülh, əmin-amanlıq və stabillik şəraitində insan hüquqlarının qorunmasından fərqli olaraq fövqəladə hallarda bu cür müdafiəni təşkil etmək daha gərgin fəaliyyət növünə çevrilmişdir. Bu baxımdan, belə tədbir və konfransların təşkil olunması ekstremal hallarda insan hüquqlarının qorunması yönündə olan problemləri müzakirə etməyə və mövcud imkanları aşkarlamağa geniş şərait yaradır.

Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov mülki müdafiə, əhalinin və ərazilərin təbii (geofiziki, geoloji, meteoroloji, hidroloji, dəniz-hidroloji, təbiət yanğınları və s.) və texnogen xarakterli (yanğınlar, partlayışlar, bina və qurğuların uçması, kimyəvi, radioaktiv və bioloji təhlükəli maddələrin tullantısı ilə əlaqədar qəzalar, elektroenergetika sistemlərində, həyat təminatlı kommunal sistemlərdə, təmizləyici qurğularda, hidrodinamik qurğularda, neft və qaz hasilatı və emalı obyektlərində, magistral boru kəmərlərində qəzalar, nəqliyyat qəzaları və s.) fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin və kiçik həcmli gəmilərin hərəkətinin təhlükəsizliyinin, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin, tikintidə təhlükəsizliyin təmin olunmasında dövlət siyasətindən danışmışdır.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri H. Hüseynovanın, Müəllif Hüquqları Agentliyinin sədri K. İmanovun, Avropa Şurasının İnsan hüquqları və ayrı-seçkiliklə mübarizə üzrə Departamentinin direktoru



R.R.Weingartnerin, Sloveniya Ombudsmanının müavini T. Dolciçin, Yaponiya Daxili İşlər və Kommunikasiya Nazirliyi İnzibati dəyərləndirmə bürosu baş direktorunun müavini S. Kamimuranın, digər yerli və xarici qonaqların məruzələri dinlənilmiş, prioritet istiqamət üzrə müzakirələr aparılmışdır.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi ilə 18-20 iyun 2013-cü il tarixdə "Davamlı inkişaf strategiyalarının yeni mexanizmlərinin insan hüquqlarının müdafiəsində və təbliğində rolu" mövzusunda Ombudsmanların XI Bakı Beynəlxalq Konfransı baş tutmuşdur.

18 iyun Milli İnsan Hüquqları Gününə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 65 illiyinə həsr edilmiş konfransa Kanada, Türkiyə, Niderland, Bolqarıstan, Pakistan, Rusiya Federasiyası və subyektlərinin, habelə Moldova, Gürcüstan, Estoniya və digər ölkələrin təmsilçiləri qatılmış, məruzələr etmişlər.

Konfransda Ombudsman Elmira Süleymanova "İnsan hüquqlarının inkişafı üzrə strateji sənədlər və onların implementasiyasında Ombudsmanın rolu" mövzusunda məruzəsində "Davamlı inkişaf naminə təhsil onilliyi"nin və "Minilliyin inkişaf məqsədləri"nin başa çatması ilə bağlı, bu sahədə xeyli iş görülməsinin zəruriliyini vurğulamışdır. BMT-nin Davamlı İnkişaf üzrə "Rio+20" konfransının əsas məqsədinin həmin nüfuzlu qurumun 2015-ci ildən sonrakı milli, regional və qlobal əhəmiyyətli inkişaf prioritetlərini müəyyənləşdirməklə davamlı inkişafı təmin etməkdən ibarət olduğu bildirilmişdir.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov Azərbaycan Hökuməti adından konfrans iştirakçılarını salamlamış, ölkədə insan hüquqlarının etibarlı müdafiəsindən danışaraq, diqqəti sosial müdafiyəyə daha çox ehtiyacı olan əhali qrupuna, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz yurd yuvalarındn didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünlərə yönəltmişdir.[34]

O, davamlı inkişaf mərhələsində qaçqın və məcburi köçkünlərin

34. Əli Həsənov, *"Açılış nitqi"*, **Ombudsmanların XII Bakı Beynəlxalq Konfransının Materialları**, 18-20 iyun 2013-cü il, Səh. 37-39

maraqlarının təmin olunması, bu proseslərində onların fəal iştirakının zəruriliyini vurğulamış, eləcə də ölkədə həyata keçirilən islahatlar çərçivəsində əhalinin bu qrupu üçün yaradılan imkanları, onların sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işləri konfrans iştirakçılarının diqqətinə çatdırmışdır.

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Birinci Katibi Günay Əfəndiyeva vurğulamışdır ki, bu mötəbər beynəlxalq tədbir Ombudsman Aparatı ilə YUNESKO arasında insan hüquqları sahəsində mövcud olan sıx, səmərəli əməkdaşlığın davamıdır. Azərbaycan son illərdə mühüm layihələr gerçəkləşdirərək, müxtəlif forum və konfranslara, mədəniyyət tədbirlərinə ev sahibliyi edir. O, təşkilatın həmin tədbirlərin əksəriyyətində, həmçinin Ombudsmanların beynəlxalq konfranslarında əsas tərəfdaş kimi çıxış etdiyini vurğulamışdır.

BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Antonius Bruk çıxış edərək, 2015-ci ildən sonrakı dövr üçün əhatəli inkişaf məqsədlərini formalaşdırmaq və işləyib hazırlamaq məqsədi ilə hökumətlər, vətəndaş cəmiyyəti və digər tərəfdaşlarla qlobal əməkdaşlıq etdiyini, açıq məsləhətləşmələr apardığını vurğulamışdır. O, milli müzakirələr nəticəsində əldə edilmiş tövsiyələrin yüksək səviyyəli İşçi Qrupunun hesabatına daxil edildiyini və BMT Baş Məclisinin qarşıdakı sessiyasına təqdim olunacağını, 2015-ci ildən sonrakı dövrdə davamlı inkişaf məqsədlərinə dair təkliflərin yer alacağı hesabata daxil ediləcəyini bildirmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Fuad Ələsgərov, Azərbaycan Respublikası fövqəladə hallar naziri Kəmaləddin Heydərov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov (hazırki Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri), Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov, Milli Məclisin İqtisadi Siyasət Komitəsinin sədri Ziyad Səmədzadə, Kanadanın Ontario şəhərinin Ombudsmanı Andre Marin, eləcə də müxtəlif nazirliklərin nümayəndələri, beynəlxalq



ekspertlər və digərləri davamlı inkişafa əsaslanan, ölkələrin gələyə baxış istiqamətində strategiyalar və gözləntiləri, əhalinin müxtəlif qruplarının inkişafını nəzərdə tutan mövzular üzrə məruzələr etmiş, YUNESKO ilə əməkdaşlığın perspektivlərini, Azərbaycan Ombudsmanının fəaliyyətini, ölkədə insan hüquqları sahəsində mövcud milli strategiyaları, formalaşdırılmış müsbət təcrübəni yüksək dəyərləndirmişlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü, YUNESKO-nun dəstəyi ilə 18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə, YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının 20 illiyinə, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiyasının 35-ci ildönümünə və qarşıdan gələn Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının 20 illiyinə həsr olunmuş 18-20 iyun 2014-cü ildə keçirilən Ombudsmanların XII Beynəlxalq Konfransı "Qadın hüquqlarının təmin edilməsində milli insan hüquqları təsisatlarının rolu" mövzusundadır.

İnsan hüquqlarının, o cümlədən bəşəriyyətin yarısını təşkil edən qadın və qızların hüquqlarının müdafiəsi sahəsində mühüm əhəmiyyət bu Konfrans qadınların siyasi və iqtisadi qərar qəbul etmə proseslərində, o cümlədən resursların bölüşdürülməsində bərabər hüquq və imkanlara malik olmasının və onların biznes mühitində tam iştirakının qarşısındakı maneələrin aradan qaldırılmasının önə çəkilməsində mühüm əhəmiyyət kəsb edir.

Milli insan hüquqları təsisatlarının insan hüquqlarının, o cümlədən qadın hüquqlarının təmin olunmasındakı rolunu, onların bu sahədə imkanlarının inkişaf etdirilməsini zəruriliyi ilə yanaşı, hərbi münaqişə şəraitində və bundan sonrakı dövrlərdə qadın və qızların insan hüquqlarının qorunması, bu hüquqların pozulması ilə mübarizə, qadınların hərbi münaqişələrin qarşısının alınması və həll edilməsində, sülhün bərqərar olunmasında əhəmiyyətli rolunu nəzərə alaraq, qərarların qəbul olunması prosesində iştirakının artırılmasının zəruriliyi önə çəkilmişdir.

Vətəndaş cəmiyyəti institutlarını da cəlb etməklə gender bərabərliyinin təmin olunması, ayrı-seçkilik, o cümlədən gender

əsaslı ayrı-seçkilik haqqında məlumatlılığın artırılmasına dəstək verilməsi, qadınlara qarşı zorakılığın aradan qaldırılması və gender mədəniyyətinin formalaşdırılması konfrans iştirakçılarının, yerli və beynəlxalq ekspertlərin məruzələri dinlənilmişdir.

Universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, İnsan Hüquqları Şurası, YUNESKO, YUNİSEF, Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə qadın hüquqlarının səmərəli təmini sahəsində təcrübə mübadiləsi, əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin təşviq olunması əsas müzakirə mövzuları olmuşdur.



## YUNESKO-nun PRİORİTETİ - HÜQUQİ MAARİFLƏNDİRMƏ ÜZRƏ OMBUDSMANLARIN V BAKI BEYNƏLXALQ KONFRANSININ BƏYANNAMƏSİ

*Bakı şəhəri, 18-19 iyun 2007-ci il*

İnsan hüquqları mədəniyyətinin təşəkkülündə və inkişafında ombudsmanların rolu danılmazdır. Bunu nəzərə alaraq, Müvəkkilin təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə 18-19 iyun 2007-ci il tarixində keçirilmiş Ombudsmanların V Bakı Beynəlxalq Konfransı "İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində ombudsmanların imkanlarının inkişaf etdirilməsi" olmuşdur.

Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən 18 iyun 1998-ci il tarixdə təsdiq edilmiş ilk "İnsan hüquqlarının təmin edilməsinə dair Dövlət Proqramı"nın ildönümü günü keçirilmiş konfrans ölkəmizin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmasının, habelə Azərbaycanda Ombudsman təsisatının yaradılmasının 5-ci ildönümünə həsr olunmuşdur.

Yekun olaraq, Ombudsmanların V Bakı Beynəlxalq Konfransı iştirakçıları aşağıdakı məzmunda birgə Bəyannaməni qəbul edirik:

Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili, Avstriyanın Federal Ombudsmanı – Beynəlxalq Ombudsmanlar İnstitutunun vitse-prezidenti, Moldova Respublikasının parlament Ombudsmanı, Gürcüstan Respublikasının Xalq Müdafiəçisi, Rusiya Federasiyasının Sverdlovsk, Saratov, Kemerovo vilayətlərinin və Dağıstan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilləri, Rusiya Federasiyasının İnsan Hüquqları üzrə Müvəkkilinin, Moskva vilayəti, Ukrayna, Özbəkistan, Qırğızıstan Respublikalarının Ombudsmanlarının səlahiyyətli nümayəndələri, həmçinin Belarus Respublikası Parlamentinin İnsan hüquqları daimi komissiyasının sədri və YUNESKO-nun Moskva Bürosunun məsul nümayəndəsi, Azərbaycanda Ombudsman təsisatının yaradılmasının və Azərbaycan Respublikasının "İnsan hüquqlarının və

əsas azadlıqların müdafiəsi üzrə Avropa Konvensiyası"na qoşulmasının beşinci ildönümünə" həsr edilmiş və "İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində ombudsmanların imkanlarının inkişaf etdirilməsi" mövzusunda 18-19 iyun 2007-ci il Bakı şəhərində keçirilən Ombudsmanların V Bakı Beynəlxalq Konfransının iştirakçıları olaraq,

Dünyanın elm, təhsil və mədəniyyət məsələləri sahəsindəki, əməkdaşlığın ən böyük hökumətlərarası forumu kimi BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO-nun irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində bəyan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi bir vəzifə kimi qarşıya qoyduğunu qeyd edərək,

Hüquqi dövlət quruculuğu yolunu tutmuş dövlətlərdə insan hüquqlarının təmininin milli prioritet olmasını vurğulayaraq,

İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin demokratiyanın təmini və vətəndaş cəmiyyətinin bərqərar olmasında əhəmiyyətini nəzərə alaraq,

İnsan hüquqlarının müdafiəsi sahəsində məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatlarının imkanlarının inkişaf etdirilməsini vacib hesab edərək,

*aşağıdakı istiqamətlərdə birgə əməkdaşlıq etmək niyyətini bəyan edirik:*

BMT və Avropa Şurası çərçivəsində qəbul edilmiş insan hüquqlarına dair beynəlxalq sənədlərin milli səviyyədə implementasiyasında Milli İnsan Hüquqları İnstitutlarının rolunun gücləndirilməsi;

İnsan hüquq və azadlıqlarının müdafiəsində mühüm amil olan insan hüquqlarının təşviqi və bu sahədə elmi-analitik fəaliyyətə xüsusi diqqətin ayrılması;

Milli səviyyədə insan hüquqlarının daha səmərəli təmin olunması məqsədilə Ombudsman təsisatlarının parlamentlə, hüquq mühafizə orqanları və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq əlaqələrinin



genişləndirilməsi;"

Əhalinin müxtəlif kateqoriyalarının, xüsusilə zəif qruplarının: uşaqların, qadınların, ahılların, müharibə və hərbi münaqişələrdən zərər çəkən və kütləvi şəkildə insan hüquqları pozulan qaçqın və məcburi köçkünlərin, əlillərin və digərlərinin hüquqlarının qorunması istiqamətində fəaliyyətin davam etdirilməsi və bu istiqamətdə təcrübə mübadiləsinin həyata keçirilməsi;

Ombudsman təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi və imkanlarının genişləndirilməsi məqsədilə yeni metodların və mexanizmlərin araşdırılması;

İnsan hüquqlarının daha səmərəli təmini naminə Ombudsman təsisatları arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsi;

YUNESKO-nun əsas prioritet istiqamətlərindən olan insan hüquqları və sülh mədəniyyətinin aşılanması və bu məqsədlə üzv dövlətlərdə ictimai fikrin formalaşdırılması;

Milli, irqi, dini, etnik və digər əlamətlər zəmində ayrı-seçkiliyin və insanlara qarşı hər cür zorakılığın qarşısının alınması;

Ümumbəşəri dəyərlərə, beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə və beynəlxalq humanitar hüquq normalarına hörmətlə yanaşmaq;

İnsan hüquqlarının və əsas azadlıqların təmin və müdafiə olunmasında beynəlxalq əməkdaşlığın gələcək inkişafına nail olmaq üçün milli və regional səviyyələrdə Sülh Konfransları təşkil etmək.

***

## YUNESKO-nun PRİORİTETİ - İNKİŞAFLA BAĞLI PROQRAM VƏ LAYİHƏLƏRİN DƏSTƏKLƏNMƏSİ ÜZRƏ OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ BƏYANNAMƏSİ

*Bakı şəhəri, 18-19 iyun 2008-ci il*

Müasir dövrümüz qloballaşma proseslərinin sürətlə inkişafı ilə xarakterikdir. Qloballaşma özü-özlüyündə irimiqyaslı proses olmaqla beynəlxalq əlaqələrin, dövlət və ictimai münasibətlərin, ümumilikdə həyatın bütün sferalarına sirayət edir. Qloballaşma siyasi, hüquqi, iqtisadi, sosial proses olmaqla o cümlədən də dövlətlərə, hüquq sistemlərinə təsirsiz ötüşmür.

Müasir dövrümüz bir sıra qlobal problemlərin mövcudluğu ilə xarakterizə edilir. Bunların sırasında BMT-nin Minilliyin İnkişaf Məqsədlərinə uyğun olaraq yoxsulluğun azaldılması, ana və uşaq ölümünün ixtisar olunması, gender bərabərliyinin təmin edilməsi, narkomaniyaya, AİDS-ə qarşı mübarizə, ətraf mühitin mühafizəsi xüsusi yer tutur. Eyni zamanda etnik və dini dözümsüzlük, insan alveri, korrupsiya, narkotrafikinq, transmilli cinayətkarlıq, terrorizm və bu kimi digər cinayətlər bu gün demək olar ki, bütün dünya dövlətlərini narahat edir.

Məhz bu baxımdan minilliyin daha bir məqsədi xüsusi əhəmiyyət kəsb edir: davamlı inkişaf naminə qlobal əməkdaşlıq. YUNESKO-nun dəstəyi ilə keçirilən konfransın mövzusu da "Qloballaşan dünyada insan hüquqları" olmaqla, 18-19 iyun 2008-ci il tarixdə keçirilən, BMT-nin İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasının 60 illiyinə və Milli İnsan Hüquqları Gününə həsr edilmiş Ombudsmanların VI Bakı Beynəlxalq Konfransının əsas məqsədi məhz bu məsələləri müzakirə edib ortaq məxrəcə gəlməkdən ibarətdir.

Konfrans iştirakçıları tərəfindən aşağıdakı məzmunda Bakı Bəyannaməsini qəbul edilmişdir:

Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 60 illiyinə və 18 iyun - Azərbaycanda İnsan hüquqları gününə həsr



olunmuş "Qloballaşan dünyada insan hüquqları" mövzusunda 18-19 iyun 2008-ci il tarixdə Bakı şəhərində keçirilən Ombudsmanların VI Bakı Beynəlxalq Konfransının iştirakçıları olaraq,

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin insan hüquqlarının mühüm mənbəyi olduğunu və milli insan hüquqları təsisatlarının fəaliyyət göstərdiyi bir çox dövlətlərin konstitusiyalarının əsasını təşkil etdiyini, bütövlükdə Bəyannamənin insan hüquqları sahəsində beynəlxalq normaların inkişafında misilsiz rolunu, həmçinin BMT Baş Katibinin Bəyannamənin qəbul edilməsinin 60 illiyinin üzv-dövlətlərdə yüksək səviyyədə qeyd edilməsi ilə bağlı beynəlxalq birliyə müraciətini nəzərə alaraq,

Bəyannamənin insan hüquqlarının təməl prinsiplərini müəyyən etdiyini, əksər müddəalarının ümumi beynəlxalq hüququn ayrılmaz bir hissəsinə çevrildiyini və onun milli qanunvericiliyə daxil edildiyini nəzərə alaraq, onun hələ uzun müddət insan hüquqları sahəsində mühüm sənəd kimi qalacağına əminliyi ifadə edərək,

Dünyanın elm, təhsil və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumu kimi BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO-nun milli və ya dini mənsubiyyətindən, cinsindən, dilindən və digər əlamətlərdən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində bəyan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi bir vəzifə kimi qarşıya qoyduğunu qeyd edərək,

Qloballaşmanın mürəkkəb proses olmaqla onun vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni hüquqların, o cümlədən də inkişaf hüququnun, sağlam ətraf mühitdə yaşamaq hüququnun, bütövlükdə fərdi və kollektiv insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə təsir göstərdiyini bildirərək,

Hüquqi-demokratik dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu yolunu tutmuş dövlətlərdə əsas insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin milli prioritet olduğunu vurğulayaraq,

Milli insan hüquqları təsisatlarının insan hüquqlarının müdafiəsi

sahəsində imkanlarının inkişaf etdirilməsini vacib hesab edərək,

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təklifi əsasında Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən Azərbaycanda İnsan hüquqları gününün təsis olunmasını alqışlayaraq və bunu Azərbaycan dövlətinin insan hüquqlarına verdiyi önəmin göstəricisi hesab edərək,

12 iyul 1993-cü il Vyana Bəyannaməsi və Fəaliyyət Proqramına uyğun olaraq Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü ilə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə İnsan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planının qəbul edilməsini və Planın həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi, hesabatların, tövsiyələrin, təhlillərin hazırlanması üzrə İşçi Qrupuna rəhbərliyin Ombudsman tərəfindən həyata keçirilməsini alqışlayaraq, bunu Azərbaycan dövlətinin bu təsisatın fəaliyyətinə verdiyi yüksək önəm kimi qiymətləndirərək və Ombudsmanın bu sahədə fəaliyyətin davam etdirilməsinin insan hüquqlarının daha səmərəli müdafiəsi işinə xidmət etdiyini vurğulayaraq,

*aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:*

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 60 illiyi münasibətilə BMT Baş Katibinin bununla bağlı dünya birliyinə müraciətini də nəzərə alaraq "Ləyaqət və ədalət hamımız üçün" devizi altında Bəyannamənin milli hüquq sistemlərində implementasiyasının dəyərləndirilməsi və təbliği sahəsində fəaliyyətin gücləndirilməsi;

Dövlətdaxili normativ-hüquqi aktların insan hüquqları sahəsində beynəlxalq konvensiyalara və digər beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi sahəsində, bütövlükdə insan hüquqlarının səmərəli müdafiəsi məqsədilə parlamentlə və digər dövlət qurumları ilə, o cümlədən də qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi;

Universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları, Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə



əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin təşviq olunması;

BMT-nin İnsan Hüquqları Şurası, İnsan hüquqları üzrə Ali Komissarlığı, Avropa Şurasının İnsan hüquqları üzrə Komissarlığı, ATƏT-in Demokratik təsisatlar və insan hüquqları bürosu, Avropa Komissiyası ilə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi üçün səylərin birləşdirilməsi;

İnsan hüquqlarının müdafiəsinin beynəlxalq müqavilə mexanizmlərinə (BMT-nin, Avropa Şurasının və digər təşkilatların müvafiq ixtisaslaşmış qurumlarına) hökumətlər tərəfindən təqdim edilən hesabatların, həmçinin BMT-nin İnsan Hüquqları Şurasına təqdim edilən universal dövri məruzənin hazırlanması və alternativ hesabatların hazırlanması prosesində fəal iştirakın təmin edilməsi sahəsində əməkdaşlığın gücləndirilməsi;

Bütün insan hüquqlarının, vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni, o cümlədən də kollektiv hüquqların (sülh hüququ, inkişaf hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və s.) hər-hansı bir əlamətə görə heç bir ayrı-seçkiliyə yol vermədən tam həcmdə həyata keçirilməsinin təmin edilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi;

Əhalinin müxtəlif kateqoriyalarının, xüsusilə zəif qruplarının: uşaqların, qadınların, ahılların, məhkumların, hərbi münaqişələrdən zərər çəkənlərin və kütləvi şəkildə insan hüquqları pozulan qaçqın və məcburi köçkünlərin, həmçinin əlillərin, əqli qüsurlu şəxslərin, HİV daşıyıcılarının və AİDS xəstələrinin və digərlərinin hüquqlarının səmərəli müdafiəsi və onlara münasibətdə hər-hansı bir ayrı-seçkiliyə yol verilməməsinin təmin edilməsi istiqamətində fəaliyyətin gücləndirilməsi və bu istiqamətdə təcrübə mübadiləsinin həyata keçirilməsi;

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının "ləyaqət və ədalət azadlıqdan məhrum olunmuş şəxslər üçün" devizini nəzərə alaraq, azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin beynəlxalq və Avropa standartlarına uyğunlaşdırılması, onların saxlanma şəraitinin və hüquqlarının təmininin müşahidəsi prosesinə vətəndaş cəmiyyətinin cəlb edilməsi və ictimai nəzarət mexanizmlərinin tətbiq olunması və bu sahədə beynəlxalq təcrübənin

öyrənilməsi məqsədilə zəruri tədbirlərin və təcrübə mübadiləsinin həyata keçirilməsi;

HİV/AİDS və insan hüquqlarına dair BMT-nin Beynəlxalq Rəhbər Prinsiplərini nəzərə alaraq, HİV daşıyıcılarının və AİDS xəstələrinin beynəlxalq hüquqi aktlarda və milli qanunvericilikdə təsbit olunmuş hüquq və azadlıqlarının hər-hansı bir ayrı-seçkiliyə yol verilmədən təmin olunması və effektiv müdafiəsi, həmçinin cəmiyyətdə onlara qarşı ayrı-seçkiliyin, stiqmanın və zərərli stereotiplərin aradan qaldırılması məqsədilə zəruri tədbirlərin görülməsi;

YUNESKO-nun "Davamlı inkişaf naminə təhsil" onilliyinin təbliği və insan hüquqları sahəsində təhsilin inkişaf etdirilməsi məqsədilə ali təhsil müəssisələrinin nəzdində YUNESKO-nun insan hüquqları kafedralarının yaradılması istiqamətində fəaliyyətin davam və inkişaf etdirilməsi;

Hüquqi düşüncənin və hüquq mədəniyyətinin, insan hüquqlarına hörmətin inkişaf etdirilməsi, insan hüquqlarının ümumqəbul olunmuş və fundamental prinsiplərinin, ayrı-seçkiliyə yol verilməməsinin, sülh və tolerantlıq mədəniyyətinin, mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın təbliği məqsədilə tədbirlərin həyata keçirilməsi;

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın qüvvəyə minməsinin 55 illiyi çərçivəsində onun əsas müddəalarının, həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun təbliği işinin gücləndirilməsi, Avropa Məhkəməsinin qərarlarının dövlətlər tərəfindən icrası prosesinə milli insan hüquqları təsisatlarının cəlb olunması və bu qərarların milli təsisatlar tərəfindən nəzərə alınması və tətbiqi sahəsində Avropa Şurasının İnsan hüquqları üzrə Komissarlığı ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi;

Minilliyin inkişaf məqsədlərinə uyğun olaraq yoxsulluğun azaldılması, ana və uşaq ölümünün, gender bərabərsizliyinin, etnik və dini dözümsüzlüyün, insan alveri, korrupsiyanın qarşısının alınması, həmçinin iqlim dəyişikliyi, içməli su çatışmazlığı nəzərə alınmaqla ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması və



onun nəticələrinin aradan qaldırılması və bu kimi digər problemlərin həlli istiqamətində qloballaşan dünyanın tələblərinə uyğun olaraq səylərin birləşdirilməsi;

Qloballaşmanın yalnız iqtisadi proses deyil, həmçinin onun hüquqi aspektləri və insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə mühüm təsir göstərdiyi nəzərə alınaraq sülh və inkişaf sahəsində beynəlxalq məqsədlərə çatmaq üçün qloballaşma prosesini nəzərə alaraq iqtisadi və hüquqi inkişafın dəstəklənməsi;

*eyni zamanda:*

Bu Bəyannaməni qəbul edərək Minilliyin inkişaf məqsədlərinə və qloballaşan dünyanın tələblərinə müvafiq insan hüquqlarının BMT Baş Assambleyasının 62/151 saylı "Qloballaşma və onun bütün insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə təsiri" adlı qətnaməsinə uyğun olaraq effektiv həyata keçirilməsi məqsədilə birgə əməkdaşlığın zəruriliyini qeyd edir;

Ombudsmanların Bakı konfransının bütün iştirakçılarını bu Bəyannamənin müddəalarının milli və beynəlxalq səviyyədə həyata keçirilməsi üçün birgə səy göstərməyə və əməkdaşlığa dəvət edir;

Regionlararası əməkdaşlıq perspektivlərinin müzakirəsi məqsədilə Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarının, həmçinin Asiya Ombudsmanlar Assosiasiyasının üzvlərinin iştirakı ilə Bakı şəhərində beynəlxalq konfransın keçirilməsi barədə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təklifinin bəyənildiyini bildirir;

və

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin insan hüquqlarının müdafiəsi işində innovativ yanaşmalarını dəstəkləyərək, bütövlükdə insan hüquqlarının müdafiəsində səmərəli fəaliyyətini yüksək qiymətləndirərək Konfransın təşkili və keçirilməsinə görə Azərbaycan Ombudsmanına minnətdarlığımızı bildiririk.

***

## YUNESKO-nun PRİORİTETİ - BİOETİKA ÜZRƏ OMBUDSMANLARIN VII BAKI BEYNƏLXALQ KONFRANSININ BƏYANNAMƏSİ

*Bakı şəhəri, 17-19 iyun 2009-cu il*

Dünyada baş verən güclü inkişaf prosesi, elmi-texniki tərəqqinin geniş vüsət alması yeni elm sahələrinin yaranmasına səbəb olur. Müasir təbabətin sürətli inkişafı da bütün tibb aləminin qarşısında bioetik və hüquqi problemlərin nəzərdən keçirilməsini zəruri edir. Belə elm sahələrindən biri də son vaxtlar aktual olan bioetikadır. Yeni tibbi texnologiyaların yaratdığı çoxsaylı problemlərin hüquqi və mənəvi tənzimlənməsində etik normaların, mənəviyyat prinsiplərinin üstünlüyünü təmin edən mürəkkəb bir fenomen olan bioetika 2002-ci ildən etibarən YUNESKO-nun prioritetlərindən biridir.

Ölkəmiz üçün də yeni olan bioetikanın əhəmiyyətini nəzərə alaraq Müvəkkilin təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə keçirilmiş Ombudsmanların VII Bakı Beynəlxalq Konfransının müzakirə mövzusu "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşmasının hüquqi və etik aspektləri" olmuşdur.

17-19 iyun 2009-cu il tarixdə baş tutan bu tədbir Avropa Şurasının 60 illiyinə və 18 iyun Milli İnsan Hüquqları Gününə həsr edilmişdir.

XX əsrin bəşər tarixinə texniki tərəqqi əsri kimi daxil olduğu, bu sürətli inkişafın isə bioetikanı, ailə planlaşmasını, reproduktiv sağlamlığı ön sıraya çıxması müzakirə mövzusu olmuşdur.

Beynəlxalq konfransın sonunda aşağıdakı məzmunda Bakı Bəyannaməsi qəbul edilmişdir:

Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə Avropa Şurasının 60 illiyinə və 18 iyun - Milli İnsan hüquqları gününə həsr olunmuş "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşmasının hüquqi və etik aspektləri" mövzusunda 17-19 iyun 2009-cu il tarixdə Bakı şəhərində keçirilən Ombudsmanların VII Bakı Beynəlxalq Konfransının iştirakçıları olaraq,



Dünyanın elm, təhsil və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumu kimi BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO-nun milli və ya dini mənsubiyyətindən, cinsindən, dilindən və digər əlamətlərdən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində bəyan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi bir vəzifə kimi qarşıya qoyduğunu qeyd edərək,

Qloballaşmanın mürəkkəb proses olmaqla onun vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni hüquqların, o cümlədən də inkişaf hüququnun, sağlam ətraf mühitdə yaşamaq hüququnun, bütövlükdə fərdi və kollektiv insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə, həmçinin biotəbabətin inkişafına mühüm təsir göstərdiyini bildirərək,

Elmin, texnologiyanın və biotəbabətin inkişafının, biotibbi araşdırmalar kontekstində insan hüquqlarına hörmətin təmin edilməsinin insan hüquqlarına dair beynəlxalq hüquqi aktlarda, əsasən də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Avropa İnsan Hüquqları Konvensiyasında və Bioetika və insan hüquqlarına dair Ümumi Bəyannamədə öz əksini tapmış etik norma və standartların təbliğini zəruri etdiyini nəzərə alaraq;

Hüquqi-demokratik dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu yolunu tutmuş dövlətlərdə əsas insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin milli prioritet olduğunu vurğulayaraq,

Milli insan hüquqları təsisatlarının insan hüquqlarının müdafiəsi sahəsində imkanlarının inkişaf etdirilməsini vacib hesab edərək,

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təklifi əsasında Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən Azərbaycanda İnsan hüquqları gününün təsis olunmasını alqışlayaraq və bunu Azərbaycan dövlətinin insan hüquqlarına verdiyi önəmin göstəricisi hesab edərək,

12 iyul 1993-cü il Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı-

na uyğun olaraq Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü ilə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə İnsan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planının qəbul edilməsini və Planın həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi, hesabatların, tövsiyələrin, təhlillərin hazırlanması üzrə İşçi Qrupuna rəhbərliyin Ombudsman tərəfindən həyata keçirilməsini, Planın təbliği və monitorinqi məqsədilə onun tərəfindən müntəzəm olaraq ölkənin bütün şəhər və rayonlarını əhatə etməklə dövlət qurumlarının, ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının nümayəndələrini cəlb etməklə ictimai dinləmələrin keçirilməsini alqışlayaraq, bunu Azərbaycan dövlətinin bu təsisatın fəaliyyətinə verdiyi yüksək önəm kimi qiymətləndirərək və Ombudsmanın bu sahədə fəaliyyətinin davam etdirilməsinin insan hüquqlarının daha səmərəli müdafiəsi işinə xidmət etdiyini vurğulayaraq,

*aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:*

Elmi-texniki tərəqqinin və biotəbabətin inkişafı kontekstində insan hüquqlarına, bioetik normalara əməl edilməsinin, insan ləyaqətinə hörmətin həvəsləndirilməsi və dəstəklənməsi sahəsində fəaliyyətin gücləndirilməsi;

İnsan həyatının idarə edilməsi ilə bağlı olan müasir təbabətin yeni imkanlarının bir çox hallarda uzun əsrlər boyu formalaşan əxlaqi və etik dəyər və prinsiplərlə ziddiyyət təşkil etdiyini, yeni texnologiyaların yeni problemlər yaratdığını nəzərə alaraq, şəxsiyyətin ləyaqətinin qorunmasına, özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və digər təcrübələrin aparılmasının yolverilməz olduğuna diqqətin artırılması;

İnsan genetikası, bioloji tədqiqatlar sahəsində eksperimentlərlə bağlı insanı mümkün təhlükələrdən qoruyan yeni IV nəsil hüquqların formalaşması və təbliği prosesinə dəstək verilməsi;

Ətraf mühitin hədsiz çirklənməsi və bunun insanların sağlamlığına mənfi təsiri nəticəsində yeni elmi-texniki istiqamətin - biotexnologiyanın yaranması, həmçinin bununla əlaqədar olaraq insanın həyatının və ölümünün mümkün idarə edilməsinin sərhədlərini



müəyyən edən normalar məcmusu olan bioetikanın əsas tələblərinə əməl edilməsinin insan hüquqlarına hörmət baxımından zəruriliyi;

Əsas sosial hüquqlardan biri olan reproduktiv sağlamlıq hüququnun səmərəli təmin edilməsinin milli insan hüquqları təsisatları qarşısında duran mühüm vəzifələrdən biri olması və bu sahədə mühüm addımların atılmasının zəruriliyi;

Reproduktiv sağlamlıq və ailə planlaşması sahəsində effektiv milli qanunvericilik aktlarının qəbul edilməsinin və bu sahədə milli insan hüquqları təsisatlarının parlamentlə əməkdaşlığının zəruriliyi;

Avropa Şurasının 60 illiyi münasibətilə Avropa İnsan Hüquqları Konvensiyasının milli hüquq sistemlərində implementasiyasının dəyərləndirilməsi və təbliği sahəsində fəaliyyətin gücləndirilməsi;

Dövlətdaxili normativ-hüquqi aktların insan hüquqları sahəsində beynəlxalq konvensiyalara və digər beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi sahəsində, bütövlükdə insan hüquqlarının səmərəli müdafiəsi məqsədilə parlamentlə və digər dövlət qurumları ilə, o cümlədən də qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi;

Universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları, Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin təşviq olunması;

BMT-nin İnsan Hüquqları Şurası, İnsan Hüquqları üzrə Ali Komissarlığı, Avropa Şurasının İnsan hüquqları üzrə Komissarlığı, ATƏT-in Demokratik təsisatlar və insan hüquqları bürosu, Avropa Komissiyası ilə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi üçün səylərin birləşdirilməsi;

İnsan hüquqlarının müdafiəsinin beynəlxalq müqavilə mexanizmlərinə (BMT-nin, Avropa Şurasının və digər təşkilatların müvafiq ixtisaslaşmış qurumlarına) hökumətlər tərəfindən təqdim edilən hesabatların və alternativ hesabatların hazırlanması prosesində fəal iştirakın təmin edilməsi sahəsində əməkdaşlığın gücləndirilməsi;

Bütün insan hüquqlarının, vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni, o cümlədən də kollektiv hüquqların (sülh hüququ, inkişaf

hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və s.), həmçinin bioetik norma və prinsiplərin hər-hansı bir əlamətə görə heç bir ayrıseçkiliyə yol vermədən tam həcmdə həyata keçirilməsinin təmin edilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi;

Avropa Şurasının 60 illiyi və Avropa İnsan Hüquqları Məhkəməsinin fəaliyyətə başlamasının 50 illiyi çərçivəsində İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın əsas müddəalarının, həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun təbliği işinin gücləndirilməsi, Avropa Məhkəməsinin qərarlarının dövlətlər tərəfindən icrası prosesinə milli insan hüquqları təsisatlarının cəlb olunması və bu qərarların milli təsisatlar tərəfindən nəzərə alınması və tətbiqi sahəsində Avropa Şurasının İnsan hüquqları üzrə Komissarlığı ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi;

Biotəbabətin və gen mühəndisliyinin inkişafının yalnız tibbi proses deyil, həmçinin onun hüquqi, sosial və etik aspektləri və insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə mühüm təsir göstərdiyi nəzərə alınaraq YUNESKO tərəfindən qəbul olunan Bioetika və insan hüquqlarına dair Ümumi Bəyannamənin və Avropa Şurası tərəfindən qəbul olunan İnsan hüquqları və biotəbabət haqqında Konvensiyanın əsas prinsiplərinin təbliği sahəsində fəaliyyətin həyata keçirilməsi;

*eyni zamanda:*

Bu Bəyannaməni qəbul edərək dünyada ilk ombudsman institutunun yaranmasının 200 illiyini nəzərə alaraq və bu institutun müasir dövrdə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin mühüm göstəricilərindən biri olduğunu və demokratiyanın inkişafı, səmərəli idarəetmənin təkmilləşməsi sahəsində mühüm rol oynadığını nəzərə alaraq, ombudsman təsisatının bəşəriyyətin rifahı naminə hələ uzun illər fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə birgə əməkdaşlığın zəruriliyini qeyd edir;

Ombudsmanların Bakı konfransının bütün iştirakçılarını bu Bəyannamənin müddəalarının milli və beynəlxalq səviyyədə həyata keçirilməsi üçün birgə səy göstərməyə və əməkdaşlığa dəvət edir;



*və*

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin insan hüquqlarının müdafiəsi işində innovativ yanaşmalarını dəstəkləyərək, bütövlükdə insan hüquqlarının müdafiəsində səmərəli fəaliyyətini yüksək qiymətləndirərək Konfransın təşkili və keçirilməsinə görə Azərbaycan Ombudsmanına minnətdarlığımızı bildiririk.

***

## YUNESKO-nun PRİORİTETİ - ƏTRAF MÜHİTİN QORUNMASI ÜZRƏ OMBUDSMANLARIN VIII BAKI BEYNƏLXALQ KONFRANSININ BƏYANNAMƏSİ

*Bakı şəhəri, 17-19 iyun 2010-cu il*

YUNESKO-nun prioritet hesab etdiyi sahələrdən biri də ətraf mühitin qorunmasıdır. Ətraf mühitin qorunması insan hüquqlarına xüsusilə sağlam ətraf mühitdə yaşamaq hüququna birbaşa təsir edən çox əhəmiyyətli bir məsələdir. Bu hüquq, əsas etibarilə məhz ölkədəki ekoloji saflığın və təmizliyin nə dərəcədə təmin olunmasından, müxtəlif çirklənmələrin (torpağın, suyun və havanın) qarşısının alınmasından və bununla bağlı zəruri maarifləndirmə və əməli tədbirlərin həyata keçirilməsindən asılıdır. Eyni zamanda, sözügedən sahədə təkmil qanunvericilik sisteminin yaradılması və tətbiqi məsələsi də son dərəcə prioritet vəzifələrdəndir.

Son illər qlobal iqlim dəyişikliyinin, artan təbii fəlakətlərin yalnız maddi və fiziki itkilərlə müşayiət olunmadığı, eyni zamanda insan hüquqlarının həyata keçirilməsinə mənfi təsir etdiyi nəzərə alınaraq İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə ətraf mühit məsələlərinə, o cümlədən fövqəladə hallarda insan hüquqlarının müdafiəsinə həsr olunmuş iki konfrans, müvafiq olaraq Ombudsmanların VIII və X Bakı Beynəlxalq Konfransları keçirilmişdir.

Ombudsmanların VIII Bakı Beynəlxalq Konfransının keçirilməsi 2010-cu ilin 17-19 iyun tarixlərinə təsadüf etmişdir. 18 iyun – "İnsan Hüquqları Günü"nə və Azərbaycanda "Ekologiya ili"nə həsr edilmiş, Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirlikləri ilə əməkdaşlıqda keçirilən konfransın mövzusu isə "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişikliyinin hüquqi və etik aspektləri" olmuşdur.

Konfransın sonunda aşağıdakı məzmunda Bakı Bəyannaməsi yekdilliklə qəbul edilmişdir:

Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə 18 iyun - Azərbaycanda İnsan hüquqları gününə və "Ekologiya ili"nə həsr olunmuş "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişikliyinin hüquqi və etik aspektləri" mövzusunda 17-19 iyun 2010-cu il tarixdə Bakı şəhərində keçirilən Ombudsmanların VIII Beynəlxalq Konfransının iştirakçıları olaraq,



Dünyanın elm, təhsil və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumu kimi BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO-nun milli və ya dini mənsubiyyətindən, cinsindən, dilindən və digər əlamətlərdən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində bəyan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi bir vəzifə kimi qarşıya qoyduğunu qeyd edərək,

Qloballaşmanın vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni hüquqların, bütövlükdə fərdi və kollektiv insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə, həmçinin ekoloji proseslərə mühüm təsir göstərdiyini bildirərək,

Hüquqi-demokratik dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu yolunu tutmuş dövlətlərdə əsas insan hüquq və azadlıqlarının, o cümlədən ekoloji hüquqların səmərəli müdafiəsinin milli prioritet olduğunu vurğulayaraq,

Əsas ekoloji hüquqların, xüsusilə də sağlam ətraf mühitdə yaşamaq hüququnun səmərəli müdafiəsinin təbliğinin zəruriliyini nəzərə alaraq,

Qlobal iqlim dəyişikliyinin insan hüquqlarına birbaşa təsir etdiyini vurğulayaraq,

Ötən ilin 7-19 dekabr tarixlərində iqlim dəyişikliyi üzrə Kopenhagendə keçirilən konfransda qəbul edilən sənəddən ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması ilə bağlı irəli gələn tələblərə əməl edilməsinin zəruriliyini qeyd edərək,

Milli insan hüquqları təsisatlarının insan hüquqlarının, o cümlədən bu hüquqlar sırasında mühüm yer tutan ekoloji hüquqların müdafiəsi sahəsində imkanlarının inkişaf etdirilməsini zəruri hesab edərək,

Son vaxtlar Azərbaycanın bir sıra bölgələrində baş vermiş sel

və daşqınlar nəticəsində Müvəkkil tərəfindən təbii fəlakət bölgəsində insan hüquqlarının təmini məsələlərinin diqqətdə saxlanılmasını alqışlayaraq,

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təklifi əsasında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycanda İnsan hüquqları gününün təsis olunmasını, həmçinin ölkə Prezidenti tərəfindən 2010-cu ilin Azərbaycanda "Ekologiya ili" elan edilməsini alqışlayaraq və bunu Azərbaycan dövlətinin insan hüquqlarına, əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququna verdiyi önəmin göstəricisi hesab edərək,

*aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:*

Qlobal iqlim dəyişikliyinin, təbii və texnogen fəlakətlərin təsiri kontekstində insan hüquqlarına, etik normalara əməl edilməsinin, insan ləyaqətinə hörmətin həvəsləndirilməsi və dəstəklənməsi sahəsində fəaliyyətin gücləndirilməsi;

Ekoloji tarazlığın pozulması ilə bağlı insanı mümkün təhlükələrdən qoruyan yeni nəsil hüquqların (ekoloji hüquqlar toplusunun) formalaşması və təbliği prosesinə dəstək verilməsi;

Ətraf mühitin hədsiz çirklənməsi və bunun insanların sağlamlığına mənfi təsirinin mümkün qədər qarşısının alınması məqsədilə ümumtanınmış ekoloji normaların, bununla bağlı beynəlxalq hüquqi qaydaların tələblərinə əməl edilməsinin insan hüquqlarına hörmət baxımından zəruriliyi;

Ekoloji hüquqların müdafiəsi sahəsində effektiv milli qanunvericilik aktlarının qəbul edilməsinin və bu sahədə milli insan hüquqları təsisatlarının parlamentlə əməkdaşlığının zəruriliyi;

Əsas insan hüquqlardan biri olan sağlam ətraf mühitdə yaşamaq hüququnun səmərəli təmin edilməsinin milli insan hüquqları təsisatları qarşısında duran mühüm vəzifələrdən biri olması və bu sahədə mühüm addımların atılmasının zəruriliyi;

Ekoloji hüquqların təmini sahəsində vahid standartların, həmçinin monitorinq sisteminin işlənib hazırlanması və çevik informasiya mübadiləsinin təmin edilməsi;

Ekologiya məsələlərinə dair normativ-hüquqi aktların bu sahədə əsas beynəlxalq konvensiyalara və digər beynəlxalq hüquqi sənədlərə



uyğunluğunun təmin edilməsi sahəsində, bütövlükdə ekoloji hüquqların səmərəli müdafiəsi məqsədilə parlamentlə və digər dövlət qurumları ilə, vətəndaş cəmiyyəti. o cümlədən də qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi;

Universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, İnsan Hüquqları Şurası, Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin təşviq olunması;

Bütün insan hüquqlarının, vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni, o cümlədən də kollektiv hüquqların (sülh hüququ, inkişaf hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və s.), həmçinin ətraf mühitlə bağlı beynəlxalq norma və prinsiplərin hər-hansı bir əlamətə görə heç bir ayrı-seçkiliyə yol vermədən tam həcmdə həyata keçirilməsinin təmin edilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi;

Qlobal iqlim dəyişikliyinin, təbii fəlakətlərin yalnız təbiət hadisəsi deyil, həmçinin onun hüquqi, sosial və etik aspektləri və insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə mühüm təsir göstərdiyi, son dövrlər Azərbaycanda və digər ölkələrdə baş verən təbii fəlakətlərin, o cümlədən sel və daşqınların insanlara vurduğu zərəri, həmçinin insan hüquqlarının həyata keçirilməsinə mənfi təsiri nəzərə alınaraq bütün aidiyyəti qurumların, o cümlədən milli insan hüquqları təsisatlarının və vətəndaş cəmiyyəti institutlarının birgə əlaqələndirilmiş şəkildə fəaliyyətinin zəruriliyi;

Təbii fəlakətlər, insan fəaliyyəti nəticəsində yaranan texnogen fəlakətlər, hərbi münaqişələr və müharibələr nəticəsində yaranan fövqəladə hallarda müdafiəyə və qayğıya daha çox ehtiyacı olan əhali qrupları üçün (qadınlar, uşaqlar, əlillər, ahıllar, qaçqın və məcburi köçkünlər və s.) dövlətdaxili strategiyaları və proqramları nəzərə almaqla milli insan hüquqları təsisatlarının, ombudsmanların, vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti əlaqələndirilməklə çevik araşdırma qruplarının yaradılması və bilavasitə fəlakət zonasında pozulmuş insan hüquqlarının bərpası istiqamətində tədbirlərin görülməsi;

Davamlı inkişafın və sülhün təmini məqsədilə hərbi münaqişələr və konfliktlərin qarşısının alınması, onların dinc yolla həll olunma-

sı və nəticələrinin aradan qaldırılması üçün çevik proqramların hazırlanması və dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək verməklə milli insan hüquqları təsisatlarının, vətəndaş cəmiyyətinin, yerli icmaların imkanlarının səfərbər edilməsi;

*eyni zamanda:*

Bu Bəyannaməni qəbul edərək ombudsman institutlarının, milli insan hüquqları təsisatlarının müasir dövrdə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin mühüm göstəricilərindən biri olduğunu və demokratiyanın inkişafı, səmərəli idarəetmənin təkmilləşməsi sahəsində mühüm rol oynadığını nəzərə alaraq, bu təsisatların Beynəlxalq Ombudsmanlar İnstitutu, Avropa Ombudsmanlar İnstitutu və Asiya Ombudsmanlar Assosiasiyası çərçivəsində əməkdaşlığının gücləndirilməsinin və təcrübə mübadiləsinin zəruriliyini qeyd edir;

Ombudsmanların Bakı konfransının bütün iştirakçılarını bu Bəyannamənin müddəalarının milli və beynəlxalq səviyyədə həyata keçirilməsi üçün birgə səy göstərməyə və əməkdaşlığa dəvət edir;

*və*

"A" statuslu milli insan hüquqları təsisatı kimi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin bu statusla üzərinə düşən vəzifələri Paris Prinsiplərinə uyğun şəkildə yerinə yetirdiyini vurğulayaraq insan hüquqlarının müdafiəsi işində innovativ yanaşmalarını dəstəkləyərək, bütövlükdə insan hüquqlarının müdafiəsində səmərəli fəaliyyətini yüksək qiymətləndirərək Konfransın yüksək səviyyədə təşkili və keçirilməsinə görə Azərbaycan Ombudsmanına minnətdarlığımızı bildiririk.

Bu Bəyannamə Kanada, Tailand, Sloveniya, Belarus, Moldova, Rusiya Federasiyası və onun subyektləri – Tataristan, Dağıstan respublikaları, Moskva, Saratov, Krasnodar, Samara, Lipetsk vilayətlərindən olan ombudsmanlar və ya onların nümayəndələri, həmçinin insan hüquqları sahəsində tanınmış beynəlxalq ekspertlər tərəfindən qəbul edilmişdir.

***



## YUNESKO-nun PRİORİTETİ - MƏDƏNİ İRSİN QORUNMASI ÜZRƏ OMBUDSMANLARIN IX BAKI BEYNƏLXALQ KONFRANSININ BƏYANNAMƏSİ

*Bakı şəhəri, 16-18 iyun 2011-ci il*

İnsan hüquqları sırasında xüsusi yer tutan mədəni hüquqlar insanın mənəvi inkişafının əsasını təşkil edir. Mədəni hüquqlar digər əsas insan hüquqları və azadlıqları kimi həm beynəlxalq-hüquqi aktlarda, həm də milli qanunvericilikdə təsbit olunmuşdur. Mədəni hüquqların beynəlxalq normativ məzmunu Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və xüsusilə də İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda müəyyən olunmuşdur.

İnsan hüquqlarının dövlət siyasətinin özülünü təşkil edən Azərbaycanda 90-a yaxın milli azlıqlar, etnik qruplar, müxtəlif dini etiqada malik insanlar yüz illiklərdən bəri dinc, qarşılıqlı hörmət, bərabərlik və ayrı-seçkiliyə yol vermədən yaşayıb yaradır və bu diyarı dünyada tolerant məkan kimi tanıtmışlar.

Son zamanlar iqtisadiyyatda olan dinamik inkişaf bütün dünyada olduğu kimi, ölkəmizə də miqrasiya axınının ildən-ilə artmasına gətirib çıxarmışdır. Belə olan halda ölkənin inkişafı və təhlükəsizliyinin təmin edilməsi milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, bütün miqrantların fundamental hüquq və azadlıqlarının təmin edilməsini və bu sahədə beynəlxalq əməkdaşlığı zəruri edir ki, bu istiqamətdə müvafiq tədbirlər görülmüşdür.

Yuxarıda deyilənlərdən göründüyü kimi, müasir dövrdə milli azlıqların və miqrantların hüquqlarının səmərəli müdafiəsi prioritet məsələlərdəndir. YUNESKO-nun da prioritetlərindən olan mədəni irsin qorunması Müvəkkilin daim diqqət göstərdiyi məsələlərdən biridir. Müvəkkilin təşəbbüsü ilə mədəni hüquqlar və mədəni irsin qorunması mövzusunda bir sıra tədbirlər keçirilmişdir.

Milli azlıqların və miqrantların hüquqlarının müdafiəsi: dövlətdaxili və beynəlxalq standartlar" mövzusuna həsr olunmuş ilk plenar iclasda "Azərbaycanda milli azlıqların və miqrantların hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti" mövzusunda məruzə edən Müvəkkil qeyd etmişdir ki, dünyanı bürüyən miqrasiya prosesləri Azərbaycandan da yan keçməmişdir. Zaman-zaman miqrantların sayı və milli tərkibi dəyişsə də, ölkəmizdə sığınacaq axtaranlar da heç bir ayrı-seçkiliyə, təqiblərə məruz qalmadan beynəlxalq normalara və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyat sürürlər.

Dünyada tolerant məkan kimi tanınan Azərbaycanda 90-a yaxın milli azlıq, etnik qrup və müxtəlif dini etiqadlara malik insanlar yüzilliklərdən bəri dinc, qarşılıqlı hörmət, bərabərlik və ayrı-seçkiliyə yol vermədən yaşayıb yaradır və ölkənin həyatında fəal iştirak edirlər. Ulu öndər Heydər Əliyevin "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" kimi müdrik kəlamını iştirakçıların diqqətinə çatdırılmışdır.

Konfransın sonunda Azərbaycan Ombudsmanının çoxsaylı təkliflərinin də yer aldığı aşağıdakı məzmunda Bakı Bəyannaməsi yekdilliklə qəbul olunmuşdur:

Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə 18 iyun - İnsan Hüquqları Gününə Azərbaycanın Dövlət Müstəqilliyinin 20 illiyinə, Vətəndaş və siyasi hüquqlar, İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktların 45 illiyinə həsr olunmuş "Milli azlıqların və miqrantların mədəni hüquqları: hüquqi aspektlər və implementasiya" mövzusunda 16-18 iyun 2011-ci il tarixdə Bakı şəhərində keçirilən Ombudsmanların IX Beynəlxalq Konfransının iştirakçıları olaraq,

YUNESKO-nun, insan hüquq və azadlıqlarına hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət



sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi bir vəzifə kimi qarşıya qoyduğunu qeyd edərək,

İnsan hüquqları sahəsində məcburi xarakter daşıyan ilk universal beynəlxalq hüquqi aktlar olan Vətəndaş və siyasi hüquqlar, İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktların əhəmiyyətini vurğulayaraq,

Qlobal xarakter daşıyan miqrasiya prosesinin vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni hüquqların, bütövlükdə fərdi və kollektiv insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə təsir göstərdiyini bildirərək,

Hüquqi-demokratik dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu yolunu tutmuş dövlətlərdə əsas insan hüquq və azadlıqlarının, o cümlədən mədəni hüquqların səmərəli müdafiəsinin milli prioritet olduğunu vurğulayaraq,

Miqrantların və milli azlıqların hüquq və azadlıqlarının, həmçinin mədəni hüquqlarının səmərəli müdafiəsinin təbliğinin zəruriliyini nəzərə alaraq,

Milli insan hüquqları institutlarının əməkçi miqrantların və milli azlıqların hüquqlarının, o cümlədən bu hüquqlar sırasında mühüm yer tutan mədəni hüquqların müdafiəsi sahəsində imkanlarının inkişaf etdirilməsini zəruri hesab edərək,

Tolerantlıq məkanı olan Azərbaycanda 90-dək milli azlıq və etnik qrupun uzun əsrlər boyu sülh və əmin-amanlıq şəraitində dinc yaşamasını müsbət təcrübə kimi dəyərləndirərək və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin milli azlıqların və miqrantların vəziyyətini diqqətdə saxlamasını alqışlayaraq,

*aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:*

Özündə milyonlarla insanı və çoxsaylı dövlətləri birləşdirən əmək miqrasiyasının miqyasını və əhəmiyyətini nəzərə alaraq əməkçi miqrantların hüquqlarının müdafiəsini təmin edəcək və bu

sahədə milli insan hüquqları institutlarının mövqelərinin razılaşdırılmasına yardım göstərəcək normaların yaradılmasının zəruriliyi;

Miqrantların, milli azlıqların, həmçinin qaçqınların və ölkədaxili məcburi köçkünlərin hüquqlarının etibarlı təmin edilməsi məqsədilə universal, regional və ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi;

Əməkçilərin beynəlxalq miqrasiyası üçün normal, ədalətli və humanist şərtlərin müəyyən edilməsi;

Əməkçi miqrantların və onların ailə üzvlərinin sosial, iqtisadi, mədəni, mülki və digər hüquqlarının qorunmasına, o cümlədən belə miqrasiyanın müvafiq cəmiyyət üçün nəticələrinə xüsusi diqqət yetirilməsi;

Miqrasiya proseslərinin hüquqi tənzimlənməsi və miqrantların hüquqlarının daha etibarlı təmin olunması istiqamətində ikitərəfli müqavilə təcrübəsinin genişləndirilməsi;

Milli qanunvericilik aktlarının miqrasiya sferasında dövlət siyasətinin əsas prinsiplərini, müxtəlif kateqoriya miqrantların statusunu. qeyri qanuni əmək miqrasiyasının qarşısının alınmasını, miqrasiya kvotalarını, miqrantların hüquqlarının və qanuni maraqlarının müdafiəsi üzrə dövlət təminatlarını özündə təsbit etməsinin vacibliyi;

Qeyri-qanuni beynəlxalq miqrasiyanın sürətli inkişafının onu beynəlxalq birlik üçün razılaşdırılmış tədbirlərin görülməsini tələb edən qlobal problemlərdən birinə çevirdiyini nəzərə alaraq, qeyri-qanuni beynəlxalq miqrasiyanın qarşısının alınması və aradan qaldırılması məsələlərini ətraflı şəkildə tənzim edəcək Milli İnsan Hüquqları İnstitutlarının iştirakı ilə universal və regional beynəlxalq müqavilələrin qəbul edilməsinin zəruriliyi;

BMT Baş Məclisinin 18 dekabr 1992-ci il tarixli qətnaməsi ilə qəbul edilən Milli və ya etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqında Bəyannaməyə uyğun olaraq mədəni müxtəlifliyin və milli azlıqların mədəni irsinin qorunması, habelə



onlara münasibətdə ayrı-seçkiliyə yol verilməməsi üçün səylərin gücləndirilməsi;

Miqrantların və milli azlıqların hüquqlarının səmərəli təmini sahəsində effektiv milli qanunvericilik aktlarının qəbul edilməsinin və bu sahədə Milli İnsan Hüquqları İnstitutlarının qanunverici orqanla əməkdaşlığının zəruriliyi;

Mədəni hüquqların səmərəli təmin edilməsinin milli insan hüquqları institutlarının qarşısında duran mühüm vəzifələrdən biri olması və bu sahədə mühüm addımların atılmasının zəruriliyi;

Miqrantların və milli azlıqların hüquqlarının səmərəli müdafiəsi məqsədilə aidiyyəti dövlət orqanları ilə, habelə qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi, vətəndaş cəmiyyətinin, icmaların imkanlarından istifadə edərək YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinə uyğun olaraq "Davamlı inkişaf naminə təhsil" dekadasının (2005-2014) təbliği;

Milli insan hüquqları institutlarının səylərini səfərbər etməklə mədəniyyətlərarası dialoq və dinlərarası, millətlərarası əməkdaşlığın təbliği;

Minilliyin İnkişaf Məqsədlərini, BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi, saziş qurumları, xüsusi məruzəçilər tərəfindən dövlətlərə verilən tövsiyələri nəzərə alaraq, müsbət təcrübəni bölüşdürməklə mövcud çətinliklərin aradan qaldırılması üçün əhalinin bütün qruplarının, o cümlədən miqrantların və milli azlıqların nümayəndələrinin hüquqlarının daha etibarlı təmin edilməsi baxımından müntəzəm olaraq təcrübə mübadiləsinin həyata keçirilməsi, habelə regional əməkdaşlığı qlobal əməkdaşlığın bir tərkib hissəsi kimi qiymətləndirərək Beynəlxalq Ombudsmanlar İnstitutu, Avropa Ombudsmanlar İnstitutu və Asiya Ombudsmanlar Assosiasiyası çərçivəsində əməkdaşlığın gücləndirilməsinin zəruriliyi;

Miqrasiya sahəsində dövlətdaxili qanunvericilik aktlarının formalaşması zamanı BMT-nin Bütün əməkçi miqrantların və onların

ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiyasının, həmçinin Avropa Şurasının üzvləri tərəfindən qəbul edilən Miqrant işçilərin hüquqi statusu haqqında Avropa Konvensiyasının, Beynəlxalq Əmək Təşkilatı (BƏT) çərçivəsində əməkçi miqrantlara dair qəbul olunmuş tövsiyələrin nəzərə alınmasının zəruriliyi;

Milli azlıqlarla bağlı normativ bazanın yaradılması zamanı Milli azlıqların müdafiəsinə dair Çərçivə Konvensiyasının, beynəlxalq hüququn norma və prinsiplərinin rəhbər tutulmasının labüdlüyü;

Universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, İnsan Hüquqları Şurası, YUNESKO, Beynəlxalq Miqrasiya Təşkilatı, Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər təşkilatlarla, həmçinin Milli İnsan Hüquqları İnstitutları ilə əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin təşviq olunması;

BMT Baş Assambleyasının 4 dekabr 1986-cı il tarixli qətnaməsi ilə qəbul edilən İnkişaf hüququ haqqında Bəyannaməyə uyğun olaraq bütün insan hüquqlarının, eləcə də mədəni hüquqların, həmçinin miqrantlar və milli azlıqlarla bağlı beynəlxalq norma və prinsiplərin hər-hansı bir əlamətə görə heç bir ayrı-seçkiliyə yol vermədən tam həcmdə həyata keçirilməsinin təmin edilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi;

Miqrantların və milli azlıqların hüquqlarının səmərəli təmini, həmçinin bu sahədə universal və regional səviyyədə qəbul olunmuş beynəlxalq və milli hüquqi aktların təbliği məqsədilə kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edilməsi;

Miqrantların və milli azlıqların hüquqlarının müdafiəsi, tolerantlığın təbliği üçün dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək verməklə Milli insan hüquqları institutlarının, vətəndaş cəmiyyətinin, yerli icmaların imkanlarının səfərbər edilməsi;

*eyni zamanda:*

Ombudsmanların IX Bakı konfransının bütün iştirakçılarını bu



Bəyannamənin müddəalarının milli və beynəlxalq səviyyədə həyata keçirilməsi üçün birgə səy göstərməyə və əməkdaşlığa dəvət edir;

*və*

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin insan hüquqlarının müdafiəsində səmərəli fəaliyyətini yüksək qiymətləndirərək Konfransın yüksək səviyyədə təşkili və keçirilməsinə görə Azərbaycan Ombudsmanına minnətdarlığımızı bildiririk.

Bu Bəyannamə Azərbaycan, Hindistan, İsveç, Moldova, Norveç, Pakistan, Polşa, Rusiya Federasiyası və onun subyektləri - Dağıstan, Tatarıstan respublikaları, Moskva şəhər, Həştərxan, Kaluqa, Krasnodar, Moskva, Novqorod, Saratov, Sverdlovsk, Volqoqrad vilayətləri, Sloveniya, Tailand, Ukrayna ombudsmanları və ya onların nümayəndələri, Beynəlxalq Ombudsmanlar İnstitutu, Avropa Ombudsmanlar İnstitutu, Asiya Ombudsmanlar Assosiasiyası, YUNESKO-nun Moskva bürosu, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, həmçinin insan hüquqları sahəsində tanınmış beynəlxalq ekspertlər tərəfindən qəbul edilmişdir.

***

## YUNESKO-nun PRİORİTETİ - FÖVQƏLADƏ HALLARDA İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ MÖVZUSUNDA OMBUDSMANLARIN X BAKI BEYNƏLXALQ KONFRANSININ BƏYANNAMƏSİ

*Bakı şəhəri, 18-20 iyun 2012-ci il*

Ombudsmanların X Bakı Beynəlxalq Konfransı 18-20 iyun 2012-ci il tarixlərində keçirilmişdir. "Fövqəladə hallarda insan hüquqlarının müdafiəsi: problemlər və imkanlar" mövzusunda keçirilən konfrans 18 iyun – "İnsan Hüquqları Günü"nə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin 10 illiyinə və Azərbaycanın YUNESKO-ya üzv olmasının 20 illiyinə həsr edilmişdi.

Təbii fəlakətlər, zəlzələ, terrorizm və s. fövqəladə hallarda insan hüquqlarının qorunması sahəsində dünyanın bir çox ölkələrindən olan nümayəndələrin təcrübə mübadiləsi fövqəladə hal baş verdikdə stabilliyə və cəmiyyətin təhlükəsizliyinin qorunmasına böyük təsir göstərdiyini diqqətə çatdırmışdır.

Konfransın sonunda aşağıdakı məzmunda Bakı Bəyannaməsi yekdilliklə qəbul olunmuşdur:

Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə 18 iyun - Azərbaycanda İnsan Hüquqları Gününə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin 10 illiyinə və Azərbaycanın YUNESKO-ya üzv olmasının 20 illiyinə həsr olunmuş "Fövqəladə hallarda insan hüquqlarının müdafiəsi: problemlər və imkanlar" mövzusunda 18-20 iyun 2012-ci il tarixdə Bakı şəhərində keçirilən Ombudsmanların X Beynəlxalq Konfransının iştirakçıları olaraq,

YUNESKO-nun insan hüquqlarına hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi bir vəzifə kimi qarşıya



qoyduğunu qeyd edərək və bu konfransın Azərbaycanın YUNESKO-ya üzvlüyünün 20-ci ildönümünə həsr edildiyini alqışlayaraq,

Hüquqi-demokratik dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu yolunu tutmuş dövlətlərdə, o cümlədən gənc demokratiya ölkələrində əsas insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin milli prioritet olduğunu vurğulayaraq,

Fövqəladə vəziyyətlərdə əsas hüquqların, xüsusilə də sağlamlığın qorunması, sağlam ətraf mühitdə yaşamaq və mülkiyyət hüququnun səmərəli müdafiəsinin zəruriliyini nəzərə alaraq,

Fövqəladə halların insan hüquqlarına birbaşa təsir etdiyini vurğulayaraq,

Fövqəladə hallarda insan hüquqlarının müdafiəsi işinin səmərəli təşkili məqsədilə strateji planlaşdırma və əlaqələndirmənin təmin edilməsini vacib hesab edərək,

Fövqəladə vəziyyətdə insan hüquqlarının müdafiəsi məsələlərinə həsr olunmuş beynəlxalq aktlardan, o cümədən beynəlxalq təşkilatların müvafiq qətnamələrindən irəli gələn tələblərə əməl edilməsinin zəruriliyini qeyd edərək,

Milli insan hüquqları təsisatlarının insan hüquqlarının, o cümlədən fövqəladə hallarda insan hüquqlarının müdafiəsi sahəsində imkanlarının inkişaf etdirilməsini zəruri hesab edərək,

İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) təklifi əsasında ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsini alqışlayaraq və bunu Azərbaycan dövlətinin insan hüquqlarına verdiyi önəmin göstəricisi hesab edərək,

*aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:*

Fövqəladə hallarda insan hüquqlarının müdafiəsi sahəsində yeni norma və prinsiplərin formalaşması və təbliği prosesinə dəstək verilməsi;

Fövqəladə vəziyyətlərdə insan hüquqları pozuntusunun mümkün qədər qarşısının alınması məqsədilə beynəlxalq hüquq qaydalarının tələblərinə əməl edilməsinin insan hüquqlarına hörmət baxımından

zəruriliyi;

Fövqəladə vəziyyətlərdə insan hüquqlarının müdafiəsi sahəsində effektiv milli qanunvericilik aktlarının qəbul edilməsinin və milli insan hüquqları təsisatlarının parlamentlə əməkdaşlığının zəruriliyi;

Fövqəladə vəziyyətlərdə insan hüquqlarının səmərəli təmin edilməsinin milli insan hüquqları təsisatları qarşısında duran mühüm vəzifələrdən biri olması və bu sahədə səmərəli addımların atılmasının zəruriliyi;

Fövqəladə vəziyyətlərdə insan hüquqlarının müdafiəsinə dair normativ-hüquqi aktların bu sahədə əsas beynəlxalq konvensiyalara və digər beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi məqsədilə dövlət qurumları, vətəndaş cəmiyyəti, o cümlədən qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi;

Universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, İnsan Hüquqları Şurası, YUNESKO, YUNİSEF, Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin təşviq olunması;

Bütün əsas insan hüquqlarının, vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni, o cümlədən kollektiv hüquqların (sülh hüququ, inkişaf hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və s.) hər hansı bir əlamətə görə heç bir ayrı-seçkiliyə yol vermədən tam həcmdə həyata keçirilməsinin təmin edilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi;

Qlobal iqlim dəyişikliyinin, təbii fəlakətlərin yalnız fiziki və maddi itkilərlə müşayiət olunduğu deyil, həmçinin onun hüquqi, sosial və etik aspektləri və insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə təsir göstərdiyi, son dövrdə bir çox ölkələrdə, o cümlədən Azərbaycanda baş verən təbii fəlakətlərin, zəlzələ, sel və daşqınların insanlara vurduğu zərəri, insan hüquqlarının həyata keçirilməsinə mənfi təsiri nəzərə alınaraq bütün aidiyyəti qurumların, milli insan hüquqları təsisatlarının və vətəndaş cəmiyyəti institutlarının birgə əlaqələndirilmiş şəkildə fəaliyyətinin zəruriliyi;

Təbii fəlakətlər, insan fəaliyyəti nəticəsində texnogen hadisələr,



hərbi münaqişələr və müharibələr nəticəsində yaranan fövqəladə hallarda müdafiəyə və qayğıya daha çox ehtiyacı olan əhali qrupları üçün (qaçqın və məcburi köçkünlər, qadınlar, uşaqlar, əlillər, ahıllar və s.) dövlətdaxili strategiyaları və proqramları nəzərə almaqla milli insan hüquqları təsisatlarının, ombudsmanların, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətini əlaqələndirməklə çevik araşdırma qruplarının yaradılması və bilavasitə fəlakət zonasında pozulmuş insan hüquqlarının bərpası istiqamətində tədbirlərin görülməsi;

*eyni zamanda:*

Bu Bəyannaməni qəbul edərək ombudsman institutlarının, milli insan hüquqları təsisatlarının müasir dövrdə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin mühüm göstəricilərindən olduğunu, demokratiyanın inkişafı, səmərəli idarəetmənin təkmilləşməsi sahəsində mühüm rol oynadığını nəzərə alaraq, bu təsisatların Beynəlxalq Ombudsmanlar İnstitutu, Avropa Ombudsmanlar İnstitutu və Asiya Ombudsmanlar Assosiasiyası çərçivəsində əməkdaşlığının gücləndirilməsinin, informasiya və təcrübə mübadiləsinin zəruriliyini qeyd edir;

Ombudsmanların Bakı konfransının bütün iştirakçılarını bu Bəyannamənin müddəalarının milli və beynəlxalq səviyyədə həyata keçirilməsi üçün birgə səy göstərməyə və əməkdaşlığa dəvət edir;

və

"A" statusu ilə bu il yenidən akkreditasiya olunmuş milli insan hüquqları təsisatı kimi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin üzərinə düşən vəzifələri Paris Prinsiplərinə uyğun şəkildə yerinə yetirdiyini vurğulayaraq, insan hüquqlarının müdafiəsi işində innovativ yanaşmalarını dəstəkləyərək, bütövlükdə insan hüquqlarının müdafiəsində 10 il ərzində səmərəli fəaliyyətini müsbət qiymətləndirərək Konfransın yüksək səviyyədə təşkili və keçirilməsinə görə Azərbaycan Ombudsmanına minnətdarlığımızı bildiririk.

***

## YUNESKO-nun PRİORİTETİ – DAVAMLI İNKİŞAF STRATEGİYALARININ YENİ MEXANİZMLƏRİ MÖVZUSUNDA OMBUDSMANLARIN XI BAKI BEYNƏLXALQ KONFRANSININ BƏYANNAMƏSİ

*Bakı şəhəri, 18-20 iyun 2013-cü il*

Ombudsmanların XI Bakı Beynəlxalq Konfransı davamlı inkişaf mövzusuna həsr olunmuşdur. Bildiyimiz kimi BMT tərəfindən qəbul olunan Minilliyin İnkişaf Məqsədləri 2015-ci ildə sona çatır. Bundan sonrakı dövrün yeni inkişaf hədəflərinin yaradılmasının əhəmiyyətini nəzərə alan Müvəkkil "Davamlı inkişaf strategiyalarının yeni mexanizmlərinin insan hüquqlarının müdafiəsində və təbliğində rolu" mövzusunda konfransın keçirilməsinə təşəbbüs göstərmiş və prioritetlərindən biri inkişafla bağlı proqram və layihələrin dəstəklənməsi olan YUNESKO-nun dəstəyi ilə 18-20 iyun 2013-cü il tarixdə bu konfrans baş tutmuşdur.

Konfransın sonunda Azərbaycan Ombudsmanının çoxsaylı təkliflərinin də yer aldığı aşağıdakı məzmunda Bakı Bəyannaməsi qəbul olunmuşdur:

Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə 18 iyun - Azərbaycanda İnsan Hüquqları Gününə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 65 illiyinə həsr olunmuş "Davamlı inkişaf strategiyalarının yeni mexanizmlərinin insan hüquqlarının müdafiəsində və təbliğində rolu" mövzusunda keçirilən Ombudsmanların XI Beynəlxalq Konfransının iştirakçıları olaraq,

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin insan hüquqları sahəsində bəşəriyyət tarixində ilk universal sənəd və özündən sonra qəbul olunmuş digər sənədlərin bazisi olduğunu qeyd edərək və bu konfransın Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 65-ci ildönümünə həsr olunduğunu alqışlayaraq,

Davamlı inkişafın mürəkkəb proses olmaqla onun vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni hüquqların, o cümlədən də inkişaf



hüququnun, sağlam ətraf mühitdə yaşamaq hüququnun, bütövlükdə fərdi və kollektiv insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə təsir göstərdiyini bildirərək,

Ötən ilin 20-22 iyun tarixlərində BMT-nin Davamlı İnkişaf üzrə Rio+20 konfransında qəbul edilən yekun sənəddən irəli gələn tələblərə əməl edilməsinin zəruriliyini qeyd edərək,

İnsan hüquqlarına hörmət edilməsini və bu hüquqların təmin edilməsini davamlı inkişafın əsas şərti hesab edərək,

Hüquqi-demokratik dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu yolunu tutmuş dövlətlərdə, o cümlədən gənc demokratiya ölkələrində əsas insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin milli prioritet olduğunu vurğulayaraq,

Milli insan hüquqları təsisatlarının insan hüquqlarının müdafiəsində əhəmiyyətli rola malik olan davamlı inkişaf strategiyalarının yeni mexanizmlərinin hazırlanmasında və həyata keçirilməsində iştirakını zəruri hesab edərək,

*aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:*

65 il öncə qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əhəmiyyətini nəzərə alaraq bu sənədin milli hüquq sistemlərində implementasiyasının dəyərləndirilməsi və təbliği sahəsində fəaliyyətin daha da gücləndirilməsi;

İnsan hüquqlarının müdafiəsindəki rolunu və təsirini nəzərə alaraq davamlı inkişaf strategiyalarının formalaşması və təbliği prosesinə dəstək verilməsi;

İnsan amilinin davamlı inkişafın hədəfi olduğunu qəbul edərək ədalətli bir dünya üçün davamlı tərəqqini, sosial inkişafı və ətraf mühitin qorunmasının təşviqi və hər kəsin bu inkişafdan faydalanması üçün birgə fəaliyyətin zəruriliyi;

Davamlı inkişafla bağlı BMT tərəfindən qəbul edilmiş "Davamlı inkişaf naminə təhsil onilliyi"nin 2014-cü ildə və "Minilliyin inkişaf məqsədləri"nin müddətinin 2015-ci ildə bitməsi ilə əlaqədar olaraq sonrakı dövr üçün gələcək prioritetlərin müəyyənləşdirilməsinin zəruriliyi;

20-22 iyun 2012-ci il tarixlərində BMT-nin Davamlı İnkişaf

üzrə Rio+20 konfransında qəbul edilən "Bizim İstədiyimiz Gələcək" adlı yekun sənədin gələcək nəsillərin də mənafelərinə uyğun olan davamlı inkişafa nail olmaq yolunda əhəmiyyəti nəzərə alınaraq onun müddəalarının yerinə yetirilməsi sahəsində əlaqələndirilmiş fəaliyyətin vacibliyi;

Ətraf mühitin davamlı inkişafa birbaşa təsirini nəzərə alaraq, qlobal iqlim dəyişikliyinin, təbii fəlakətlərin davamlı inkişafın digər aspektləri kimi insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə təsir göstərdiyi, baş verən təbii fəlakətlərin insanlara vurduğu zərəri, insan hüquqlarının həyata keçirilməsinə mənfi təsiri nəzərə alınaraq bütün aidiyyəti qurumların, milli insan hüquqları təsisatlarının və vətəndaş cəmiyyəti institutlarının birgə əlaqələndirilmiş şəkildə fəaliyyətinin zəruriliyi;

Universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, İnsan Hüquqları Şurası, YUNESKO, YUNİSEF, Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin təşviq olunması;

Milli normativ-hüquqi aktların insan hüquqları sahəsində beynəlxalq konvensiyalara və digər beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi sahəsində, bütövlükdə insan hüquqlarının səmərəli müdafiəsi məqsədilə parlamentlə və digər dövlət qurumları ilə, o cümlədən də qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi;

Bütün əsas insan hüquqlarının, vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni, o cümlədən də kollektiv hüquqların (sülh hüququ, inkişaf hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və s.) hər hansı bir əlamətə görə heç bir ayrı-seçkiliyə yol vermədən tam həcmdə həyata keçirilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi;

Minilliyin inkişaf məqsədlərinə uyğun olaraq yoxsulluğun azaldılması, ana və uşaq ölümünün, gender bərabərsizliyinin, etnik və dini dözümsüzlüyün, insan alveri, korrupsiyanın qarşısının alınması, həmçinin iqlim dəyişikliyi, içməli su çatışmazlığı nəzərə



alınmaqla ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması və onun nəticələrinin aradan qaldırılması və bu kimi digər problemlərin həlli istiqamətində qloballaşan dünyanın tələblərinə uyğun olaraq səylərin birləşdirilməsi;

Davamlı inkişafın yalnız iqtisadi proses deyil, həmçinin onun hüquqi aspektləri və insan hüquqlarının tam həcmdə həyata keçirilməsinə mühüm təsir göstərdiyi nəzərə alınaraq davamlı inkişaf məqsədlərinə çatmaq üçün iqtisadi və hüquqi inkişafın dəstəklənməsi;

Davamlı inkişafın və sülhün təmini məqsədilə hərbi münaqişə və konfliktlərin qarşısının alınması, onların dinc yolla həll olunması və nəticələrinin aradan qaldırılması üçün çevik proqramların hazırlanması və dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək verməklə milli insan hüquqları təsisatlarının, vətəndaş cəmiyyətinin, yerli icmaların imkanlarının səfərbər edilməsi;

*eyni zamanda:*

Bu Bəyannaməni qəbul edərək Ombudsman institutlarının, milli insan hüquqları təsisatlarının müasir dövrdə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin mühüm göstəricilərindən olduğunu, demokratiyanın inkişafı, səmərəli idarəetmənin təkmilləşməsi sahəsində mühüm rol oynadığını nəzərə alaraq, bu təsisatların ikitərəfli əsaslarla və ombudsmanların beynəlxalq təşkilatları çərçivəsində əməkdaşlığının gücləndirilməsinin, informasiya və təcrübə mübadiləsinin zəruriliyini qeyd edir;

Ombudsmanların Bakı Konfransının bütün iştirakçılarını bu Bəyannamənin müddəalarının milli və beynəlxalq səviyyədə həyata keçirilməsi üçün birgə səy göstərməyə və əməkdaşlığa dəvət edir;

*və*

Konfransın yüksək səviyyədə təşkili və keçirilməsinə görə Azərbaycan Ombudsmanına minnətdarlığımızı bildiririk.

***

# YUNESKO-nun PRİORİTETİ - "QADIN HÜQUQLARININ TƏMİN EDİLMƏSİNDƏ MİLLİ İNSAN HÜQUQLARI TƏSİSATLARININ ROLU" MÖVZUSUNDA KEÇİRİLƏN OMBUDSMANLARIN XII BAKI BEYNƏLXALQ KONFRANSININ BƏYANNAMƏSİ

*Bakı şəhəri, 18-20 iyun 2014-cü il*

Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə 18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə, YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının 20 illiyinə, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiyasının 35-ci ildönümünə və qarşıdan gələn Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının 20 illiyinə həsr olunmuş "Qadın hüquqlarının təmin edilməsində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda keçirilən Ombudsmanların XII Beynəlxalq Konfransının iştirakçıları olaraq,

Sözügedən Konvensiyanın, Pekin Bəyannaməsinin və Fəaliyyət Platformasının insan hüquqlarının, o cümlədən bəşəriyyətin yarısını təşkil edən qadın və qızların hüquqlarının müdafiəsi sahəsində mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək və bu Konfransın "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" BMT Konvensiyasının 35 illiyinə, qarşıdan gələn Pekin Bəyannaməsinin və Fəaliyyət Platformasının 20 illiyinə həsr olunması təşəbbüsünü alqışlayaraq,

BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsində ayrı-seçkiliyə yol verilməməsi prinsipinin təsdiq edildiyini və hər bir insanın onda təsbit olunmuş bütün hüquqlara və bütün azadlıqlara heç bir fərq, o cümlədən cinsi fərq qoyulmadan malik olmalı olduğunun bəyan edildiyini nəzərə alaraq,

1993-cü ildə Vyanada keçirilən Ümumdünya Konfransında



qəbul edilmiş Bəyannamədə və Fəaliyyət Proqramında qeyd edildiyi kimi, qadın hüquqlarının insan hüquqlarının ayrılmaz bir hissəsi olduğunu xatırladaraq,

Qadın və qızlara qarşı yol verilən zorakılıq hallarını kəskin şəkildə pisləyərək, bunun insan hüquqlarının və fundamental azadlıqların pozulmasına, qadın və qızların öz hüquqlarından lazımi şəkildə istifadə etməməsinə səbəb olduğunu narahatçılıq hissi ilə bildirərək,

Qadınların siyasi və iqtisadi qərar qəbul etmə proseslərində, o cümlədən resursların bölüşdürülməsində bərabər hüquq və imkanlara malik olmasının və onların biznes mühitində tam iştirakının qarşısındakı maneələrin aradan qaldırılmasının əhəmiyyətini qeyd edərək,

Milli insan hüquqları təsisatlarının insan hüquqlarının, o cümlədən qadın hüquqlarının təmin olunmasındakı rolunu nəzərə alaraq, onların bu sahədə imkanlarının inkişaf etdirilməsini zəruri hesab edərək,

*aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:*

35 il öncə qəbul olunmuş "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" BMT Konvensiyasının əhəmiyyətini nəzərə alaraq, sözügedən Konvensiyanın milli hüquq sistemlərində implementasiyasının dəyərləndirilməsi və təbliği sahəsində fəaliyyətin daha da gücləndirilməsi;

Qadınların davamlı inkişafın hər sahəsində vacib rolunu, tam və bərabər iştiraklarının əhəmiyyətini bir daha bəyan edərək Pekin Bəyannaməsi və Fəaliyyət Platforması, Minilliyin İnkişaf Bəyannaməsi və digər sənədlərdə gender bərabərliyinin əhəmiyyəti və s. bu kimi məsələlər ilə bağlı öhdəliklərin hər birinin yerinə yetirilməsinin sürətləndirilməsi;

Təbii fəlakətlər, insan fəaliyyəti nəticəsində texnogen hadisələr, hərbi münaqişələr və müharibələr nəticəsində yaranan fövqəladə hallarda müdafiəyə və qayğıya daha çox ehtiyacı olan əhali qruplarından olan qız və qadınlar üçün dövlətdaxili strategiyaları və proqramları nəzərə almaqla, milli insan hüquqları təsisatlarının, ombudsmanla-

rın, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətini əlaqələndirməklə çevik araşdırma qruplarının yaradılması və bilavasitə fəlakət zonasında pozulmuş insan hüquqlarının bərpası istiqamətində tədbirlərin görülməsi;

Hərbi münaqişə şəraitində və bundan sonrakı dövrlərdə qadın və qızların insan hüquqlarının qorunması, bu hüquqların pozulmasının qarşısının alınmasının təmin edilməsi, qadınların hərbi münaqişələrin qarşısının alınması və həll edilməsində, sülhün bərqərar olunmasında əhəmiyyətli rolunu nəzərə alaraq, onların təhlükəsizliyin təmin olunmasına cəlb olunması, o cümlədən münaqişələrin qarşısının alınması və həll olunması sahəsində qərarların qəbul olunması prosesində rolunun artırılmasının zəruriliyi;

Dövlətdaxili normativ-hüquqi aktların qadın hüquqları sahəsində beynəlxalq konvensiyalara və digər beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi sahəsində, bütövlükdə bu hüquqların səmərəli müdafiəsi məqsədilə parlamentlə və digər dövlət qurumları ilə, o cümlədən də qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi;

BMT və Avropa Şurası çərçivəsində qəbul edilmiş qadın hüquqlarına dair beynəlxalq sənədlərin milli səviyyədə implementasiyasında milli insan hüquqları institutlarının rolunun gücləndirilməsi;

Avropa Şurasının 65 və Avropa İnsan Hüquqları Məhkəməsinin fəaliyyətə başlamasının 55 illiyi ilə bağlı İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın müddəalarının, həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının dövlətlər tərəfindən icrası prosesinə milli insan hüquqları təsisatlarının cəlb olunması, bu qərarların milli təsisatlar tərəfindən nəzərə alınması və tətbiqi sahəsində Avropa Şurasının İnsan hüquqları üzrə Komissarı ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi;

Vətəndaş cəmiyyəti institutlarını da cəlb etməklə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edən gender bərabərliyinin təmin olunması, ayrı-seçkilik, o cümlədən gender əsaslı ayrı-seçkilik haqqında



məlumatlılığın artırılmasına dəstək verilməsi, qadınlara qarşı zorakılığın aradan qaldırılması və gender mədəniyyətinin formalaşdırılması ilə əlaqədar əhalinin müxtəlif təbəqələri arasında qadın hüquqları ilə bağlı maarifləndirmə tədbirlərinin davam etdirilməsinin zəruriliyi;

Universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, İnsan Hüquqları Şurası, YUNESKO, YUNİSEF, Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları təsisatları ilə qadın hüquqlarının səmərəli təmini sahəsində əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin təşviq olunması;

*eyni zamanda:*

Bu Bəyannaməni qəbul edərək Ombudsman institutlarının, milli insan hüquqları təsisatlarının müasir dövrdə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin mühüm göstəricilərindən olduğunu, demokratiyanın inkişafı, səmərəli idarəetmənin təkmilləşməsi sahəsində mühüm rol oynadığını nəzərə alaraq, bu təsisatların Beynəlxalq Ombudsmanlar İnstitutu, Avropa Ombudsmanlar İnstitutu və Asiya Ombudsmanlar Assosiasiyası çərçivəsində, habelə ikitərəfli əsaslarla əməkdaşlığının gücləndirilməsinin, informasiya və təcrübə mübadiləsinin zəruriliyini qeyd edir;

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin insan hüquqlarının, o cümlədən qadın hüquqlarının müdafiəsində səmərəli fəaliyyətini yüksək qiymətləndirir, Konfransın yüksək səviyyədə təşkili və keçirilməsinə görə Azərbaycan Ombudsmanına minnətdarlığımızı bildiririk.

***

## AZƏRBAYCANIN TARİXİ VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN ERMƏNİ MİLLƏTÇİLƏRİ TƏRƏFİNDƏN DAĞIDILMASI VƏ ÖZ MƏNAFELƏRİ BAXIMINDAN SAXTALAŞDIRILMASI İLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN (OMBUDSMANIN)

## BƏYANATI

Xalqın milli sərvəti olan tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətlərin tənzimlənməsi hər bir dövlətin, o cümlədən beynəlxalq təşkilatların diqqət mərkəzində olan məsələlərdəndir.

Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin qorunması, bununla da insanların mədəni hüquqların təmini təkcə ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzim edilir.

16 dekabr 1966-cı il tarixli «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyası, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli YUNESKO-nun «Ümumdünya mədəni və təbii irsin qorunması haqqında» Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq bir sıra beynəlxalq müqavilələrə, o cümlədən adları çəkilən konvensiyalara qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşdırmışdır.

Tarix və mədəniyyət abidələri arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir.

Acı təəssüf hissi ilə qeyd edirik ki, Ermənistan Respublikasının



Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı 7 rayonun zəbt edilməsi, milyona yaxın insanın qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmır. Azərbaycan xalqına qarşı Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmış terror və soyqırımı siyasəti Azərbaycan tarixinə mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurmuşdur.

Ermənistan Respublikası yuxarıda adları sadalanan beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq bütün dünyanın gözü qarşısında Azərbaycanın mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir. Belə ki, Azərbaycan Respublikasının işğal edilmiş ərazisində ölkə və dünya əhəmiyyətli 100.000-dən artıq mədəniyyət nümunəsi dağıdılmış və qəsb edilmiş, 500-ə yaxın tarixi və 100-dən çox arxeoloji abidənin, 22 muzeyin əksəriyyəti tamamilə və ya qismən dağıdılmışdır.

Maddi mədəniyyət abidələri ilə yanaşı, erməni millətçiləri ardıcıl və sistemli şəkildə Azərbaycan xalqının folklorunu, musiqisini, ədəbiyyatını və digər mənəvi sərvətlərini mənimsəməklə, əslində işğalçılıq müharibəsini mədəni sərvətlər müstəvisində genişləndirirlər.

Heç bir qanuna və mənəvi-əxlaqi meyarlara məhəl qoymayan erməni millətçiləri mövcud cəzasızlıq şəraitindən istifadə edərək Azərbaycan mədəniyyətinə qarşı mənəvi terroru bir qədər də dərinləşdirmişlər. Bunun nəticəsidir ki, erməni millətçiləri artıq Azərbaycanın tarixən mədəniyyət beşiyi olan Şuşa şəhərinin ətrafında yerləşən, bürünc dövrünə aid 200 məzarda arxeoloji qazıntılara başlamaqla beynəlxalq hüquq normalarına saymazyana münasibət göstərdiklərini bir daha nümayiş etdirirlər. Belə ki, işğal olunmuş ərazilərdə arxeoloji qazıntıların aparılması beynəlxalq hüquqla qadağan edilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) olaraq bəyan edirəm ki, Azərbaycanın tarixi və mədəni sərvətlərinin Ermənistan Respublikası və erməni millətçiləri tərəfindən dağıdılması və mənimsənilməsi, insanların mədəni hüquqlarının pozulması hamılıqla qəbul edilmiş beynəlxalq hüquq nor-

malarına və prinsiplərinə tamamilə ziddir.

Deyilənləri nəzərə alaraq Azərbaycanın tarixi və mədəni sərvətlərinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə qarşı Ermənistan Respublikasının və erməni millətçilərinin təcavüzünün qarşısının alınması, həmçinin təqsirkarların cəzalandırılması üçün beynəlxalq birliyi həmrəyliyə və bu məsələdə ədalətli mövqe nümayiş etdirməyə çağırıram.

**Elmira Süleymanova**

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

*Bəyanat 28 fevral 2005-ci il tarixdə YUNESKO-nun Baş Direktoru Koiçiro Matsuuraya göndərilmişdir.*

***



## AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN (OMBUDSMANIN) AZƏRBAYCAN SÜLH VƏ İNKİŞAF ALYANSI İLƏ BİRGƏ 21 SENTYABR - BEYNƏLXALQ SÜLH GÜNÜ MÜNASİBƏTİLƏ DÜNYA İCTİMAİYYƏTİNƏ

## MÜRACİƏTİ

Biz, özündə onlarla qeyri-hökumət təşkilatlarını, əhalinin müxtəlif qruplarını və dini icmaları birləşdirən, dövlət qurumları və beynəlxalq təşkilatlarla sülh mədəniyyətinin təbliği, sülh təşəbbüslərinin həyata keçirilməsi sahəsində əməkdaşlıq edən Azərbaycan Sülh və İnkişaf Alyansı *olaraq,*

BMT-nin əsas vəzifələri sırasında universal sülhün möhkəmləndirilməsi üçün zəruri tədbirlər görmək, beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq, bu məqsədlə sülhə təhlükənin qarşısını almaq üçün, təcavüz aktlarını və digər sülhün pozulması hallarını aradan qaldırmaq üçün səmərəli tədbirlər görmək, sülhün pozulmasına gətirib çıxara bilən münaqişələrin dinc vasitələrlə ədalətli şəkildə və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasının mühüm yer tutduğunu nəzərə *alaraq,*

Dünya səviyyəsində etnik təmizləmə təcrübəsinin qadağan olunması və onu törədənlərin cəzalandırılması zəruriliyini *qeyd edərək,*

Müharibə və fəlakətlərin yaratdığı təhlükələrlə üzləşən, acınacaqlı vəziyyət yaşayan ölkələrə dəstək verilməsinin zəruriliyini bir daha önə *çəkərək,*

Erməni təcavüzü nəticəsində torpaqlarının 20 faizi işğal olunmuş, bir milyondan çox qaçqın və məcburi köçkünlərinin pozulmuş hüquqlarının müdafiəsini, öz doğma yurd-yuvalarına qayıtmasını gözləyən, silahlı münaqişədən dinc əhalisi əziyyət çəkən ölkə *olaraq,*

"Dinlər – sülh körpüsü" ideyası ilə *çıxış edərək,*

BMT Baş Katibi Ban Ki Munun Beynəlxalq Sülh Günü ilə bağlı

dünya dövlətlərinə müraciətini və sülhə çağırışını *nəzərə alaraq,*

*Bu Müraciəti qəbul edirik:*

BMT-nin bütün üzvləri öz beynəlxalq münasibətlərində hər-hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Təşkilatın məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyi götürmüşlər, lakin hələ də bir çox ölkələrdə dinc əhali müharibə və münaqişə həyatını yaşayır, insanlar yaşadıqları doğma yurd-yuvalarından didərgin düşür, öldürülür, zorakılıqlara məruz qalır, kobud şəkildə öz hüquq və azadlıqlarından məhrum olurlar.

İnsan hüquqları, bərabərlik, inkişaf, azad cəmiyyət və insani dəyərlərin özülündə dayanan sülh məfhumu bu gün cəmiyyətimizdə həllini gözləyən ən vacib məsələlərdəndir.

İkili standartlar nəticəsində müsəlman dövlətləri münaqişə ocaqlarına çevrilir, əhalisi ağır itkilərə məruz qalır. Bu baxımdan Ermənistanın Azərbaycana qarşı 20 ildən çox davam edən təcavüzü nəticəsində torpaqlarının beşdə bir hissəsi zəbt olunmuş, 1 milyonadək insan öz doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmiş, on minlərlə soydaşımız ermənilər tərəfindən törədilən soyqırım aktlarının, kütləvi qırğınların və etnik təmizləmənin qurbanı olmuş, minlərlə yaşayış məntəqəsi, təhsil, səhiyyə və digər ictimai obyektlər, habelə tarixi-mədəni abidələr məhv edilmişdir. Eyni zamanda minlərlə soydaşımız itkin düşmüş, əsir və girov götürülmüş, atəşkəs rejiminə baxmayaraq bu proses bu gün də davam edir, uşaqlar, qadınlar, qocalar və bütövlükdə əhali uzun müddətdir ki, bu silahlı münaqişədən əziyyət çəkir.

Elə bu il, 8 mart tarixində 9 yaşlı Fariz Bədəlovun Ermənistan tərəfindən işğal olunmuş Ağdam rayonu ərazisindən snayper tüfəngindən açılmış atəş nəticəsində qətlə yetirilməsi, ermənilər tərəfindən çayla Azərbaycan ərazisinə axıdılan partlayıcı qurğu quraşdırılmış oyuncağın partlaması nəticəsində Tovuzda 14 iyul tarixində 13 yaşlı Aygün Şahmalıyevanın faciəli ölümü erməni qəddarlığını bir daha sübut edir. Buna çoxsaylı misallar göstərmək olar.



Beləliklə, Ermənistanın Azərbaycana qarşı apardığı işğal və soyqırım siyasəti nəticəsində insanların əsas hüquq və azadlıqları, xüsusən də yaşamaq hüququ, o cümlədən də fundamental kollektiv hüquqlardan olan sülh hüququ və inkişaf hüququ davamlı olaraq kütləvi və kobud şəkildə pozulur.

Bu gün uzun sürən sülh danışıqları, nüfuzlu beynəlxalq təşkilatların (BMT, Avropa Şurası, ATƏT-in Minsk qrupu və digər qurumlar) problemin həllində vasitəçilik missiyası hələ də məsələnin həllində öz müsbət nəticəsini vermir.

Bu baxımdan BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874, 884 saylı qətnamələri, habelə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan işğal olunmuş Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların dayandırılması, atəşkəsin təmin olunması, həmçinin bütün işğalçı erməni qüvvələrinin Azərbaycan torpaqlarından şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Baş Assambleyasının 14 mart 2008-ci il tarixli qətnaməsi, Avropa Şurası, ATƏT tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi sənədlər hələ də icra olunmur.

Hazırda havadarlarına arxalanan Ermənistan davamlı olaraq beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərini pozur, qeyri-konstruktiv mövqe nümayiş etdirir, bu gün də Azərbaycana qarşı etnik təmizləmə siyasəti yürüdülür, atəşkəs rejimi mütəmadi olaraq pozulur, bunun da nəticəsində azərbaycanlı hərbi qulluqçular və sərhədyanı bölgədə yaşayan mülki vətəndaşlar həlak olur, işğal altında olan torpaqlarımızda mövcud zəngin təbii sərvətlər, mədəni irsimiz mənimsənilir, meşə zolaqları yandırılır, nadir tarixi və dini abidələrimiz amansızcasına dağıdılır və vandalizmə məruz qalır.

Belə bir vaxtda sülhyaratma proseslərinə dəstək verilməli, sülhü qoruyub saxlamaq, xalqların rifahını yüksəltmək istiqamətində bütün səylər birləşdirilməlidir. Davamlı inkişafa gedən birbaşa yol məhz sülh, ədalət, tolerantlıq və qanunun aliliyindən keçir. Elə qeyd etdiyimiz "21 sentyabr – Beynəlxalq Sülh Günü" də, bütün dünyada, o cümlədən ölkəmizdə əlamətdar gün kimi ona görə qeyd olu-

nur ki, insanların sülh diləyinin, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsi yalnız sülh şəraitində mümkündür.

BMT Baş Assambleyasının 39/11 saylı 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilən Bəyannaməsində də sülh hüququna xüsusi status verilərək bu hüquq heç bir ayrı-seçkiliyə yol verilmədən insanların müqəddəs hüququ kimi bəyan edilmişdir. Bu isə sülh hüququnun təmin edilməsinin zəruri olduğunu bir daha təsdiq edir. 1995-ci il YUNESKO-nun Dözümlülük haqqında Prinsiplər Bəyannaməsində də deyildiyi kimi, tolerantlıq, sülh, ədalət, qarşılıqlı anlaşma və ehtiram üçün əsas təməl rolunu oynayan dözümlülük "sülhü mümkün edərək müharibə mədəniyyətinin sülh mədəniyyəti ilə əvəz olunmasını təbliğ edir". Bu Bəyannamələr hər bir dövlətin üzərinə sülhün təmini və qorunması öhdəliyini qoyur. Çox təəssüflər olsun ki, bu gün Ermənistan və bir sıra digər ölkələr bu öhdəliyə əməl etmirlər.

Beynəlxalq Sülh Bürosunun üzvü olan, ölkədaxili və beynəlxalq miqyasda davamlı fəaliyyət göstərən Azərbaycan Sülh və İnkişaf Alyansı olaraq, dünyada törədilən bütün müharibələri, terror və faciələri, Ermənistanın ölkəmizə, xalqımıza qarşı uzun müddətdən bəri davam edən təcavüzünü pisləyir, bunu dünyada və Cənubi Qafqaz regionunda sabitliyə, sülhyaratma proseslərinə təsir edən neqativ amil hesab edir, dünya ictimaiyyətini, beynəlxalq qurumları, o cümlədən dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarından olan BMT-ni münaqişənin sülh yolu ilə həllində əməli tədbirlər görməyə, Azərbaycanın haqlı mövqeyini müdafiə etməyə, ərazi bütövlüyünün bərpasında kömək göstərməyə çağırırıq.

BMT Baş Məclisinin bu günlərdə işə başlamış 66-cı sessiyasının gündəliyinə daxil edilən Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi zamanı da BMT-nin, eləcə də müxtəlif dövlət nümayəndələrinin qətiyyətli mövqe nümayiş etdirmələrini gözləyir və ümidvarıq ki, Azərbaycanın ərazi bütövlüyünü, öz doğma yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərimizin pozulmuş hüquqlarının bərpa edilməsini, əsir və itkin düşmüş soydaşlarımızın hüquqlarını özündə əks etdirən



qətnamə qəbul olunacaq və bu sənəd kağız üzərində qalmayacaqdır.

BMT-nin Baş Katibi Ban Ki Munun "Biz, Birləşmiş Millətlər Təşkilatı olaraq, hər kəs üçün ləyaqət, təhlükəsizlik və imkanlar kimi ortaq arzularımızın reallaşması üçün çalışacağıq" sülh mesajını nəzərə alaraq tələb edirik ki, beynəlxalq təşkilatlar ölkəmizə qarşı erməni təcavüzünə son qoyulmasında və dünyada baş verən münaqişələrin həllində iradə nümayiş etdirsinlər.

Eyni zamanda uzun illər boyu beynəlxalq hüquq normalarını pozan Ermənistan dövləti qarşısında BMT-nin üzvü olaraq bu normalara riayət edilməsi tələbi qətiyyətlə irəli sürülməlidir.

Bütün dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar tərəfindən sülhün bərqərar olması üçün daha qətiyyətli tədbirlərin görülməli, dünyada baş verən təcavüz aktlarına kəskin münasibət bildirilməlidir.

**Bu müraciət Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkilinin (Ombudsmanın) Azərbaycan Sülh və İnkişaf Alyansı ilə birgə keçirdiyi dəyirmi masada qəbul edilmişdir.**

**Bakı şəhəri, 12 sentyabr 2011-ci il**

*Müraciət BMT-nin Baş Katibi, BMT-nin Təhlükəsizlik Şurası, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı, Avropa Birliyi, Avropa Şurası, ATƏT, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutları, Asiya Ombudsmanlar Assosiasiyası, Beynəlxalq Sülh Bürosu, Universal Sülh Federasiyası, müxtəlif ölkələrin ombudsmanları, Azərbaycan Respublikasının xarici ölkələrdəki, xarici ölkələrin respublikamızdakı səfirlikləri və Azərbaycanın diaspor təşkilatlarına göndərilmişdir.*

## OMBUDSMANLARIN BAKI BEYNƏLXALQ KONFRANSLARINDAN FOTOLAR



*Ombudsmanların I Bakı Beynəlxalq Konfransı, 9-13 iyun 2003*




*Ombudsmanların III Bakı Beynəlxalq Konfransı. 29-30 noyabr 2004*





*Ombudsmanların IV Bakı Beynəlxalq Konfransı. 5-7 may 2006-cı il*




*Ombudsmanların V Bakı Beynəlxalq Konfransı. 18-19 iyun 2007-ci il*



*Ombudsmanların VI Bakı Beynəlxalq Konfransı. 18-19 iyun 2008-ci il*




*Ombudsmanların VII Bakı Beynəlxalq Konfransı. 17-19 iyun 2009-cu il*





*Ombudsmanların VIII Bakı Beynəlxalq Konfransı. 17-19 iyun 2010-cu il*



*Azərbaycan Respublikası Milli Məclisində Ombudsmanların VIII Bakı Beynəlxalq Konfransı iştirakçılarının görüşü. 18 iyun 2010-cu il*




***



Ombudsmanların IX Bakı Beynəlxalq Konfransı, 16-18 iyun 2011-ci il






***



Ombudsmanların X Bakı Beynəlxalq Konfransı. 18-20 iyun 2012-ci il



***



*Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi üzvlərinin 23 dildə Ombudsmanların X Bakı Beynəlxalq Konfransının iştirakçılarını salamlaması*





***



*Ombudsmanların XI Bakı Beynəlxalq Konfransı. 18-20 iyun 2013-cü il*



***



*Ombudsmanların XI Bakı Beynəlxalq Konfransı. 18-20 iyun 2013-cü il*





*Ombudsmanların XI Bakı Beynəlxalq Konfransı. 18-20 iyun 2013-cü il*



*Ombudsmanların Bakı Beynəlxalq Konfranslarının Materialları*



*İçəri şəhər*



*Qız Qalası*





*Şirvanşahlar Sarayı Kompleksi*



*Sıratağlı dini-memarlıq kompleksi – Xanəgah (İçəri şəhər)*



*Qobustan*



*Şəki Xanlarının Sarayı*





*Şuşa Məscidi*



*Möminə Xatun Türbəsi*



*Atəşgah*



*Azərbaycan Muğamı*





*Novruz xonçası*



*Çovqan oyunu*




*Aşıqlar*



*Tarzən Əhsən Dadaşov*





*Azərbaycan xalçası*




*Orta əsr Azərbaycan tibb və əczaçılıq əlyazmaları*



# AZƏRBAYCAN – YUNESKO ƏLAQƏ MƏLUMATLARI

**YUNESKO-nun Baş Qərargahı**
**Parisdə iki müxtəlif ofisdə yerləşir:**

Ünvan: 7, place de Fontenoy, 75352 Paris 07 SP, France
1, rue Miollis , 75732 Paris Cedex 15, France
Tel: +33 1 45 68 10 00
Faks: +33 1 45 67 16 90
Veb səhifə: www.unesco.org

**Azərbaycan Respublikasının**
**YUNESKO yanında Daimi Nümayəndəliyi**

Ünvan: 1, rue Miollis, 75015 Paris
Tel: + 33 1 45 68 34 00; + 33 1 45 68 28 77;
+ 33 1 45 68 28 78
Faks: + 33 1 43 06 05 47
E-mail: unesco@mission.mfa.gov.az

**YUNESKO üzrə Azərbaycan Respublikasının**
**Milli Komissiyası**

Ünvan: Ş.Qurbanov küç. 4, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, AZ1009, Bakı, Azərbaycan.

Tel: +(99412) 596 93 22
Faks: +(99412) 596 93 74
E-mail: unesco@mfa.gov.az

# ƏDƏBİYYAT SİYAHISI

1. Süleymanova E., Azərbaycan Respublikasında Ombudsman təsisatı və insan hüquqlarının inkişafı. Elmi-praktiki konfransın materialları. Bakı Universiteti nəşriyyatı. Bakı 2007.

2. Süleymanova E., Rumzadə R. Uşaq Hüquqlarının Pilləli Tədrisi üzrə Seçilmiş Mövzular. Bakı 2009

3. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) İllik Məruzəsi. Bakı 2012.

4. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsmanın) - 10 il. Bakı 2013.

5. Ekstremal şəraitdə uşaq hüquqlarının müdafiəsi və Milli İnsan Hüquqları İnstitutlarının rolu. Beynəlxalq konfransın materialları. Bakı 2009.

6. YUNESKO-nun Beynəlxalq Normativ Aktları. Bakı 1998.

7. Levin L. Human rights: Questions and answers. UNESCO - Paris 2009.

8. Mertus J.A. Human rights matters: local politics and nat. human rights institutions. J.A.Mertus. - Stanford: Stanford Univ. Press, 2009.

9. Politakis G.P. Protecting labour rights as human rights: present and future of international supervision. UN, International Labour Organization. Geneva 2007.

10. Claiming the Millennium Development Goals: A human rights approach, Office of the UN, 2010.

11. Delivering better for peace, development and human rights. 2007. UN–Geneva, 2007.

12. Education for All Global Monitoring Report - 2013. UNESCO Publication 2013.



13. Human rights. Major international instruments. Status as at 31 May 2009. UNESCO - Paris 2009.

14. The new core international human rights treaties / UN, Office of the UN High Commissioner for Human Rights. - New York. Geneva: UN. 2007.

15. Вишневского А.Ф. (отв. ред.), Кучинского В.А., Данилюка С.Е. Всеобщей декларации прав человека 60 лет: генезис, эволюция и проблемы современного прочтения: сб. науч. тр. Минск-2009.

16. Ильин. Ю.Д. Право человека и государства на безопасность в современном мире. - Москва. Норма, 2007.

17. Всеобщая декларация ЮНЕСКО о культурном разнообразии. Париж, 2001.

18. Доклад Генерального директора ЮНЕСКО о выполнении Программы и бюджета ЮНЕСКО на 2000-2001 г. 21 мая 2001.

19. Доклад целевой группы о роли ЮНЕСКО в XXI веке от 19 мая 2000. ЮНЕСКО - Париж, 2000.

20. Информационный бюллетень ЮНЕСКО. 31 мая - августа 2006.

21. Материалы Международного Конгресса ЮНЕСКО по Всемирному наследию. Ноябрь 2002 г., Венеция, Итоговый документ. ЮНЕСКО пресс. Париж - 2002.

22. Программа кафедры ЮНЕСКО (UNITWIN–UNESCO chairs Programme). Программа ассоциированные школы ЮНЕСКО (ASP-net). ЮНЕСКО, 2007.

## İNTERNET RESURSLARI

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı.
*www.president.az*
2. «Heydər Əliyev İrsi» Beynəlxalq Elektron Kitabxananın rəsmi internet saytı.
*www.lib.aliyev-heritage.org*

3. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın rəsmi internet saytı.
*www.mehriban-aliyeva.az*

4. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) rəsmi internet saytı.
*www.ombudsman.gov.az*

5. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı.
*www.mfa.gov.az*

6. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin rəsmi internet saytı.
*www.mct.gov.az*

7. YUNESKO-nun rəsmi internet saytı.
*www.unesco.org*

8. YUNESKO-nun Davamlı İnkişaf üçün Təhsil üzrə Dünya Konfransı rəsmi internet saytı.
*www.esd-world-conference-2009.org*

9. Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsinin "Prezident Kitabxanası"nın rəsmi internet saytı.
*www.preslib.az*

10. Azərbaycan Milli Kitabxanasının rəsmi internet saytı.
*www.anl.az*

11. Azərbaycan Respublikası Nazirlər Kabineti Yanında "İçəri şəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəsmi internet saytı.
*www.icherisheher.gov.az*



12. Azərbaycan Dövlət Teleqraf Agentliyinin rəsmi internet saytı.
*www.azertag.com*

13. Heydər Əliyev Fondunun yaratdığı rəsmi internet portalı.
*www.azerbaijan.az*

14. BMT-nin rəsmi internet saytı.
*www.un.org*

15. BMT-nin Davamlı İnkişaf naminə Təhsil Dekadasının rəsmi internet saytı.
*www.desd.org*

16. Hökumətlərarasi Okeanoqrafiya Komissiyasının rəsmi internet saytı.
**www.ioc-unesco.org**

17. Minilliyin İnkişaf Məqsədlərinin 2015-ci ildən sonrakı dövrdə davam etdirilməsinə strateji yanaşmanı nəzərdə tutan rəsmi internet saytı.
*www.beyond2015.org*

18. "Xalq Qəzeti" gündəlik ictimai-siyasi qəzetin rəsmi internet saytı.
*www.xalqqazeti.com*

19. "KASPİ" gündəlik ictimai-siyasi qəzetin rəsmi internet saytı.
*www.kaspi.az*

20. "Respublika Qəzetinin" rəsmi internet saytı.
*www.respublica-news.az*

21. "SƏS Qəzetinin" rəsmi internet saytı.
**www.sesqazeti.az**

22. Vyana+20 Konfransının rəsmi internet saytı.
*www.viennaplus20.wordpress.com*

# MÜNDƏRİCAT

**Ön söz** ... 5

**Azərbaycan-YUNESKO Möhkəm Tərəfdaşlıq** ... 8

**I FƏSİL: Azərbaycan Respublikasının BMT çərçivəsində əməkdaşlıq istiqamətləri** ... 11
§1. Azərbaycan-BMT əlaqələri ... 11
§2. BMT-nin İxtisaslaşmış qurumu: YUNESKO ... 20
§3.YUNESKO-nun normativ fəaliyyəti və nizamlanan məsələlər ... 26

**II FƏSİL: AZƏRBAYCAN - YUNESKO: İNSTİTUSİONAL TƏRƏFDAŞLIQ** ... 30
§1. AZƏRBAYCAN - YUNESKO əlaqələri ... 30
§2. YUNESKO və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının insan hüquqları sahəsində fəaliyyəti ... 41
§3. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili və YUNESKO: qarşılıqlı əməkdaşlıq perspektivləri ... 48
§4. Azərbaycan Respublikasında YUNESKO prioritetlərinə əsaslanan insan hüquqlarına dair strateji sənədlər ... 59

**III FƏSİL: YUNESKO PRİORİTETLƏRİ ÜZRƏ OMBUDSMANIN FƏALİYYƏTİ** ... 68
§1. Təhsilin inkişafı və insan hüquqları sahəsində həyata keçirilən fəaliyyət ... 68
§2. İnsan hüquqları sahəsində təhsil ... 72
§3. Yaşlıların təhsili ... 81
§4. YUNESKO prioritetlərinə əsaslanan Ombudsmanın resurs mərkəzləri ... 88

**IV FƏSİL: YUNESKO PRİORİTETLƏRİNƏ ƏSASLANAN OMBUDSMANIN STRATEJİ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ** ... 95
§1. Gənclər siyasəti YUNESKO prioriteti kimi ... 95
§2. Qadın hüquqları və gender bərabərliyinin təminatı ... 101
§3. Ətraf mühitin qorunması və ekoloji hüquqlar ... 111
§4. . YUNESKO-nun siyahılarında yer alan Azərbaycanın mədəni irs nümunələri ... 127
§5. Mədəni hüquqlar ... 139
§6. Azərbaycan Respublikasında mədəni müxtəliflik ... 149

**V FƏSİL: ÜÇÜNCÜ NƏSİL HÜQUQLAR SİSTEMİ VƏ BƏŞƏRİYYƏTİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİ** ... 156
§1. Kollektiv hüquqlar sistemi ... 156
§2. Sülh hüququ ... 157
§3. İnkişaf hüququ ... 170
§4. Sağlam ətraf mühitdə yaşamaq hüququ ... 178
§5. Xalqların öz müqəddəratını təyin etmək hüququ ... 185
§6. Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı, Vyana+20 Konfransı ... 187
§7. Genosid cinayətinin beynəlxalq hüquqi əsasları ... 193

**VI FƏSİL: YUNESKO İLƏ ƏMƏKDAŞLIQDA HƏYATA KEÇİRİLMİŞ OMBUDSMANLARIN BAKI BEYNƏLXALQ KONFRANSLARI VƏ BAKI BƏYANNAMƏLƏRİ** ... 203
§1. YUNESKO prioritetlərinə əsaslanan konfranslar və Bakı Bəyannamələri ... 203

**Bəyannamələr** ... 215

**Azərbaycan - YUNESKO əlaqə məlumatları** ... 281

**Ədəbiyyat siyahısı** ... 282

Çapa imzalanmışdır: 14.06.2014
Formatı: 60x90 1/16
Fiziki çap vərəqi: 18,0
Ofset çap üsulu.
Sifariş: 45. Tiraj: 1000
Qiyməti müqavilə yolu ilə.

**"RS Poliqraf"** MMC-nin
mətbəəsində çap olunmuşdur.